**İxtisas Sosial iş**

**Kafedra: Psixologiya, pedaqogika və sosial fənlər**

**Fənn: Sosiologiya**

**Müəllim: Əliyeva.N**

## Mühazirə 1. Sosiologiya cəmiyyət haqqında elmdir

1. Sosiologiya elminin meydana gəlməsi və inkişafı
2. Sosiologiyanın predmeti
3. Nəzəri və tətbiqi sosiologiya
4. Sosiologiyanın funksiyaları
5. Sosial qanunların mahiyyəti və təsnifatı. Sosiologiyanın kateqoriyaları

### 1. Sosiologiya elminin meydana gəlməsi və inkişafı

Sosiologiyanın müstəqil elm kimi meydana gəlməsi XIX əsrə təsadüf edir. Həmin əsrin 30-50-ci illərində bu sahədə ilk ciddi addımlar atılmış, sosial sistemlərin fəaliyyəti və inkişafı qanunauyğunluqlarını öyrənən elmin bir çox əsaslı problemləri araşdırılmışdır. Sosiologiyanın meydana gəlməsi belə bir tələbatı ifadə edirdi: digər ictimai elmlərdə elə problemlər ortaya çıxmışdır ki, onların ənənəvi üsullarla, biliklərin təşəkkül tapmış mövcud sistemi çərçivəsində həll etmək artıq mümkün deyildiir.

Dünyaya sosioloji baxım üç başlıca cəhəti özündə birləşdirir:

Birincisi, cəmiyyət ayrı-ayrı ictimai ünsürlərin sadəcə mexaniki yığımı yox, öz xüsusi qanunları üzrə fəaliyyət göstərən, inkişaf edən müəyyən sistemli bütövlükdür.

İkincisi, ideal ictimai quruluşun utopik konstruksiyasını quraşdırmaq yox, real surətdə mövcud olan ictimai münasibətlərin öyrənilməsi zərurəti dərk olunmalıdır.

Üçüncüsü, mücərrəd fəlsəfi mühakimələrə yox, empirik tədqiqat metodlarına istinad edilməlidir. Aydın məsələdir ki, həmin metodların başa düşülməsi müxtəlif tədqiqatçılarda müxtəlif ola bilər.

Sosioloji baxımın ünsürləri tədricən, bir-biri ilə qarşılıqlı əlaqədə təşəkkül tapmışdır. Bu proses yeni dövrün sosial fəlsəfi və tarix fəlsəfəsi hüdudlarında baş vermişdir. İctimai və humanitar elmlərin diferensiasiyası, empirik sosial və etnoqrafik tədqiqatların inkişaf etməsi, təbiətşünaslığın yeni-yeni nailiyyətlər qazanması və onun cəmiyyətşünaslıqla əlaqələrinin dərinləşməsi burada həlledici rol oynamışdır.

Sosiologiyanın banisi görkəmli fransız mütəfəkkiri Oqyust Kont (1798-1857) hesab olunur. O öz təlimini əvvəlcə «sosial fizika» adlandırır. Lakin sonralar belçikalı alim və statistik A. Ketlenin (1796-1874) də həmin termindən istifadə etdiyini nəzərə alaraq, elmi dövriyyəyə yeni söz - sosiologiyanı daxil edir.

Məlumdur ki, «sosial fizika» ideyası XVII əsrə təsadüf edir. Artıq «sosial fizika» nəzəriyyələri cəmiyyətə sistem kimi yanaşır, onu təbiətin bir hissəsi hesab edirdi. Başqa

sözlə, cəmiyyətşünaslıq metodoloji baxımdan təbiətşünaslığın tərkib hissəsinə çevrilirdi. Lakin məhz O. Kont həmin ideyanı tam dolğunluqla, müntəzəmlik və əsaslılıqla işləməyə nail olmuşdur. Kontun fikrincə, «sosial fizika», yaxud sosiologiya cəmiyyət hadisələrinin fiziki hadisələrə müncər edilməsini nəzərdə tutmur: sosial olanın spesifikası elmi biliyin özünəməxsus ensiklopediyası olan «pozitiv sintez» çərçivəsində nəzərə alınmalıdır.

Sosiologiyanın meydana gəlməsi XIX əsrdə cəmiyyətin mövcud ziddiyyətləri, habelə həmin ziddiyyətlər zəminində şaxələnən və kəskinləşən ictimai-siyasi mübarizə ilə bağlı olmuşdur. Yeni intellektual sintezə, insan və cəmiyyət haqqında realist təhlilə tələbat getdikcə artırdı. Sosial hadisələri və prosesləri izah etmədən, ictimai həyatın müxtəlif tərəfləri barəsində konkret empirik informasiya almadan, bir sözlə, sosioloji realizm mövqeyində dayanmadan cəmiyyəti az-çox səmərəli idarə etmək mümkün deyildi.

XIX əsrin sonlarına doğru sosiologiyanın bir elm kimi təşəkkülü əsasən başa çatır və XX əsrin əvvəllərində o, artıq cəmiyyətşünaslıqın aparıcı bölmələrindən birinə çevrilir. Onun öz anlayış aparatı formalaşır, getdikcə daha mürəkkəb və diferensial konsepsiyalar meydana gəlir. Tədricən öyrənilən problemlərin dairəsi genişlənir, metodologiya və tədqiqat texnikası məsələlərində uğurlu addımlar atılır. Ümumi nəzəriyyənin və empirik sosial tədqiqatların paralel inkişafı onların inteqrasiyası meyllərini gücləndirir. Sosiologiyanın təsisatlaşdırılması, ali təhsil sistemində, xüsusən universitetlərdə özünə möhkəm mövqe qazanması, bu sahədə çalışan peşəkarların artması, O. Kotun, H. Spenserin, F. Tönnisin, K. Zimmelin, E. Dürkheymin, M. Veberin, V. Paretonun əsərlərinin öyrənilməsi, təbliği, yeni ideyalarla zənginləşdirilməsi - bütün bunlar XX əsrdə, xüsusən 20-ci illərdən sonra daha çox nəzərə çarpan səciyyəvi xüsusiyyətə çevrilir.

Sosiologiyanın inkişafında 20-ci illərdən 50-ci illərə qədərki dövrün özünəməxsus yeri vardır. Təxminən iki dünya müharibəsi arasındakı dövrü əhatə edən bu mərhələni bəzən sadəcə olaraq empirik mərhələ adlandırır, aparılan tədqiqatların nəzəri imkanlarının məhdudluğunu, əhatəli nəzəri və dünyagörüşü sintezlərinin olmamasını qeyd edirlər. Lakin belə izah sadəcə olaraq doğru deyildir, çünki empirik istiqamətlənmənin özü maraqlı nəzəri axtarışlara stimul yaratmışdır. Bundan əlavə, nəzərdən keçirilən dövrdə nüfuzlu sosioloji məktəblər və istiqamətlər təşəkkül tapmış və fəal iş aparmışlar. Məsələn, sosial fəaliyyət nəzəriyyələri, psixoanalitik sosiologiya və s. bu qəbildəndir. P. Sorokinin «inteqral sosiologiyasının» əsas ideyaları məhz bu mərhələdə işlənib hazırlanmışdır.

Sonralar geniş şöhrət qazanmış sosioloji cərəyanların - simvolik interaksionizmin (C. H. Midin əsərlərində), fenomenoloji sosiologiyanın (A. Şyutsun əsərlərində), Frankfurt məktəbinin «tənqidi» sosiologiyasının (M. Horkhaymerin və T. Adornonun əsərlərində) formalaşması da bu dövrə təsadüf edir. Bu dövrdə irəli sürülən bəzi ideyalar bir çox onilliklər ərzində irəlicədən sosioloji fikrin inkişafının bünövrəsini təşkil etmişdir.

Əsrimizin 50-ci illərindən etibarən sosiologiyada sabitləşmə səylərini möhkəmləndirmək, rasionallıq və inkişaf ideyalarını daha dərindən işləmək meylləri üstünlük təşkil edir. Bu meyllər indi də geniş və qızğın mübahisə obyekti olaraq qalır.

Hazırda sosiologiyanın müstəqil elm kimi mövcudluq hüququ, onun sosial və intellektual inkişafda rolu, demək olar ki, heç kəsdə etiraz doğurmur. Bütün qabaqcıl və inkişaf etmiş dövlətlər cəmiyyətin sosial-iqtisadi və mənəvi - əxlaqi baxımdan sağlamlaşmasında sosiologiyanın əhəmiyyətini dərk edərək, onun inkişafı üçün daha optimal şərait olmasına qayğı göstərirlər.

Müstəqilliyin çətin, əzablı, lakin zəruri yolu ilə irəliləyən respublikamızda sosiologiyanın inkişafı müəyyən çətinliklərlə üzləşir. Erməni təcavüzü nəticəsində respublika ərazisinin xeyli hissəsinin işğalı və dağıntıya məruz qalması, qaçqınlar və məcburi köçkünlər problemi, iqtisadi, sosial, mənəvi potensialın xeyli zəifləməsi, sosiologiya sahəsində ixtisaslı kadrların azlığı, keçmiş SSRİ-də sosiologiyanın təsisatlaşdırılmasına və öz qanuni yerini tutmasına lazımınca diqqət yetirilməməsi, sosioloji tədqiqatla və xidmətlə məşğul olan laboratoriyaların, şöbələrin maliyyə çətinlikləri ilə üzləşməsi və s. obyektiv surətdə vəziyyəti mürəkkəbləşdirir və gərginləşdirir. Lakin nəzərə almaq lazımdır ki, son illərdə respublikamızda ümidverici addımlar da atılmışdır. Artıq sosiologiya ixtisası üzrə kadrlar hazırlığına başlanılmış, ali məktəblərdə və kolleclərdə sosiologiyanın tədrisinə diqqət gücləndirilmiş, onun təsisatlandırılması işi xeyli təkmüləşdirilmişdir. Əlbəttə, problemlər qalır. Lakin bu problemlərin həlli təkcə dövlət qayğısından yox, həm də bu sahədə çalışan mütəxəssislərin ictimai tələbatı dərk etməsindən, öz bilik və ixtisas səviyyəsini yüksəltməsindən, respublikanın müstəqilliyinin möhkəmlənməsinə konkret töhfəsindən asılıdır.

Bu bir həqiqətdir ki, tarixi-elmi baxımdan hər bir elm nəinki nəzəri müddəaların az-çox nizama salınmış sistemidir, həm də müəyyən predmeti öyrənən və onunla peşəkar surətdə məşğul olan adamların daxil olduğu sosial sistemdir. Bu mənada sosiologiya da bir elm kimi konkret tarixi təsissatdır, onun meydana gəlməsi, inkişafı, yüksəlmə və enmə momentləri diqqətlə öyrənilməlidir.

Bir sıra elmlərlə müqayisədə sosiologiyanın daha əhatəli və dərin yol keçməli olacağı indi açıqca etiraf olunur. Bu baxımdan Amerika sosiologiyasının görkəmli nümayəndələrindən biri olan Robert Kinq Mertonun sözləri xarakterikdir: «İyirminci əsrin fizikası ilə sosiologiyası arasında milyard saatlıq fasiləsiz nizamlı və təmərküzləşmiş tədqiqatçılıq işinə bərabər olan fərq mövcuddur. Ola bilsin ki, sosiologiya öz Eynşteyni üçün hələ ona görə yetişməmişdir ki, o, əvvəlcə öz Keplerini tapmalıdır».

## 2. Sosiologiyanın predmeti

Sosiologiya termini iki sözün birləşməsindən ibarətdir: latın sözü «sosietas» (cəmiyyət) və yunan sözü
«loqos» (söz, təlim). Hərfi mənada sosiologiya cəmiyyət haqqında elm deməkdir.

Aydın məsələdir ki, bəşəriyyət öz tarixi ərzində həmişə cəmiyyəti dərk etməyə, ona öz münasibətini bildirməyə səy göstərmişdir. Bunu xatırlamaq kifayətdir ki, keçmişin bütün mütəfəkkirləri öz fəlsəfi sistemləri çərçivəsində həm də öz ictimai baxışlarını ifadə etmişlər. İqtisadi, hüquqi, pedaqoji fikir müvafiq xüsusi elmlərdən
- siyasi iqtisaddan, hüquqşünaslıqdan, pedaqogikadan qədim olduğu kimi, sosial fikir də bir elm kimi sosiologiyadan daha qədimdir. Sosial məsələlər haqqında mühakimlər, ictimai hadisə və proseslərin qiymətləndirilməsi müxtəlif formalarda, müxtəlif janrlarda öz əksini tapmışdır. Bəşəriyyətin ən ümumi sosial ideyalar işləyib hazırlaması uzunmüddətli mürəkkəb və ziddiyyətli prosesdir. Zehni əmək bölgüsü elə bir yol keçməli idi ki, sosial təfəkkürün özünün spesifik formalarında təzahür də bilsin. Bu baxımdan sosioloji fikir tarixi sosial fikrin, sosial ideyaların xüsusi tərkib hissəsidir.

Sosiologiyanın müəyyən ilkin şərtlərin mövcud olduğu XIX əsrdə meydana gəldiyi vaxtdan onun predmeti eynimənalı başa düşülməmişdir. Məsələn, O. Kont belə hesab edirdi ki, sosiologiya insan zəkasının və psixikasının ictimai həyatın təsiri ilə necə təkmilləşdiyini öyrənən yeganə elmdir. Sosiologiya ictimai həyat faktlarını, proseslərini müşahidə etmək, təsvir etmək və sistemləşdirmək vəzifələrini yerinə yetirməlidir.
H. Spenserə (1820-1903) görə, sosiologiya elə ən ümumi elmdir ki, özündə həm tarixi inkişafın ümumi nəzəriyyəsini, həm antropologiyanı, həm də etnoqrafiyanı birləşdirir. Alman iqtisadçısı və sosioloqu Albert Şeffle (1831-1903) bildirirdi ki, sosiologiyanın predmetini insanlar arasındakı qarşılıqlı mənəvi münasibətlər, habelə ünsiyyətin ideal və texniki üsulları, formaları təşkil edir. Görkəmli hüquqşünas və sosioloq L. Qumploviçin (1838- 1909) fikrincə, sosiologiya bütün sosial elmlərin fəlsəfi əsasıdır.

XIX əsrin sonlarına qədər Kontun nöqteyi-nəzəri, yəni sosiologiyanın cəmiyyətşünaslıqla eyni olan elm kimi nəzərdən keçirilməsi elmi ədəbiyyatda üstünlük təşkil etmişdir. XIX əsrin sonu - XX əsrin əvvəllərində cəmiyyət məsələlərinə həsr olunmuş tədqiqatlarda sosial aspekt xüsusi olaraq ayırd edilir, onun iqtisadi, hüquqi və

s. aspektlər sırasında özünəməxsus cəhətlərinə daha çox diqqət yetirilir. Bu halda sosiologiyanın predmeti xeyli məhdudlaşdırılaraq məhz ictimai inkişafın sosial tərəflərinin öyrənilməsinə müncər edilir. Sosiologiya elminin belə şərhini ilk dəfə fransız sosioloqu və filosofu Emil Dürkheym (1858-1917) vermişdir. Dürkheymin fikrincə, sosiologiyanın predmeti elə xüsusi reallıqdır ki, onunla mövcud elmlərdən heç biri indiyə qədər məşğul olmamışdır. Bu reallığın əsasını sosial faktlar təşkil edir. Həmin faktlar isə gerçəkliyini nə iqtisadi, nə psixoloji, nə fiziki və s. faktlarına müncər edilə bilməz; onların öz müstəqil xarakteristikaları vardır. Sosial faktların başlıca əlamətləri onların obyektiv səciyyə daşıması, fərddən asılı olmayaraq mövcud olması, ona təzyiq göstərə bilməsidİr. Dürkheym sosial faktları iki yerə ayırırdı: cəmiyyətin «maddi substratını» təşkil edən morfoloji faktlar (məs. əhali sıxlığı, fərdlər arasında ünsiyyətin intensivliyi, yaşayış yerlərinin xarakteri və s.) və mənəvi, qeyri-maddi faktlar (bunlar məcmu halda kollektiv və ya ümumi şüuru təşkil edir).

Sosiologiya cəmiyyət haqqında elmdir, başqa sözlə, sosioloji idrakın obyektini cəmiyyət təşkil edir. lakin belə izah sosiologiyanın predimetini tam aydınlaşdırmır, çünki cəmiyyət ən müxtəlif elmlər tərəfindən öyrənilir. Ona görə də digər elmlərdə olduğu kimi, sosiologiyada da onun obyektini və predmetini fərqləndirmək lazımdır.

Sosioloji idrakın obyektinin və predmetinin qarışdırılması və ya eyniləşdirilməsi ciddi metodoloji qüsurdur. Bu qüsur indi meydana çıxmamışdır: o, əvvəllər də özünü göstərmişdir, indi də ən müxtəlif məktəblərin və cərəyanların bir çox sosioloqlarına xas olan cəhətdir. Yeri gəlmişkən qeyd edək ki, sosiologiyanın digər elmlərdən, ABŞ-da sosial psixologiyadan və s. nisbətən gec ayrılmasını və müstəqil elmi fənn kimi təşəkkül tapmasını şərtləndirən ən mühüm səbəblərdən biri məhz sosioloji idrakın obyektinin və predmetinin eyniləşdirilməsi olmuşdur.

Adətən tədqiqatçının fəaliyyətinin istiqamətləndiyi hər şeyi idrak obyekti kimi qəbul edirlər. Bu o deməkdir ki, müxtəlif hadisə, proses, münasibət ən müxtəlif elmlərin predmetindən söhbət getdikdə yalnız obyektin həmin elmin spesifikası ilə müəyyən edilən tərəfi, aspekti, xassəsi, münasibəti əsas götürülür. Obyektin digər tərəf, aspekt, xassə və münasibətləri isə ikinci dərəcəli məsələlər kimi, yaxud obyektin mövcudluq şəraiti kimi nəzərdən keçirilir. Deməli, hər hansı elmin formalaşması ilə onun elmi tədqiqat predmetini ayırd etmək məsələsi qarşıya çıxır. Başqa sözlə, hər bir elm digər elmdən ilk növbədə öz predimeti ilə fərqlənir. Hər bir elm obyektiv reallığın öz xüsusi tərəfini, sferasını, özü üçün spesifik olan qanunauyğunluqlarını, həmin qanunauyğunluqların xüsusi təzahür formalarını və fəaliyyət mexanizmlərini öyrənir. Bu o deməkdir ki, hər hansı elmin, o cümlədən sosiologiyanın predmetini tədqiqat obyektinə görə müəyyənləşdirmək kifayət deyildir. Məsələn, sosial reallıq ictimai və humanitar elmlərin tədqiqat obyektidir. Lakin hər bir elm məhz öz predmeti sayəsində müəyyən birmənalılıq qazanır; elmin predmeti həmişə spesifikdir: hətta eyni obyektdə, yaxud onun ayrı-ayrı hissələrində müxtəlif elmlər bir-birindən fərqli, spesifik qanunauyğunluqları tədqiq edirlər. Məsələn, ailə iqtisadiyyat, hüquq, demoqraflıya, sosiologiya, psixologiya, pedaqogika və s. elmlərin tədqiqat obyekti ola bilər. Lakin bu elmlərin ailə təsisatına münasibəti, yanaşması öz predmetləri çərçivəsində eyni deyildir, bir-birindən fərqlidir.

Hər bir elmin predmeti empirik reallığı abstrakt səviyyədə spesifik şəkildə təkrar istehsal edir, yəni nəzəri abstraktlaşdırmanın nəticəsidir. Belə abstraktlaşdırma öyrənilən obyektin fəaliyyət və inkişafının elə qanunauyğunluqlarını ayırd etməyə imkan verir ki,

onlar həmin elm üçün spesifikdir.

Sosiologiyanı bir elm kimi səciyyələndirərkən çox zaman əslində sosioloji idrakın başlıca obyektləri sadalanır. Sosioloji məktəblərin və cərəyanların, sosioloji biliyin konkret təşkilat sistemlərinin müxtəlifliyi, ideya- nəzəri mövqelərin və yönümlərin rəngarəngliyi sosiologiyanın predmeti məsələsində çətinlikləri artırır. Bir çox hallarda «sosial» anlayışının özü dəqiq təsəvvür olunmur.

Hər bir elmin spesifikasını araşdırarkən gerçəklikdəki elə əlaqə və münasibətlər ayırd edilməlidir ki, onlar keyfiyyətcə digər əlaqə və münasibətlərdən fərqli olub, məhz həmin elmin predmetini təşkil edə bilsin. Məsələyə belə yanaşdıqda demək olar ki, sosial adlandırılan əlaqə və münasibətlərin bütün məcmusu sosioloji idrakın obyekti hesab edilməlidir. Bu əlaqə və münasibətlər hər bir konkret sosial obyektdə xüsusi tərzdə təşkil olunmuşdur. Ona görə də sosioloji idrakın obyekti sosial sistem kimi çıxış edir. Deməli, sosial olan, sosial əlaqə və münasibətlər, onların təşkili üsulu elə anlayışlardır ki, bunlar sosioloji idrak obyektinin xüsusiyyətlərini açmaq üçün əsas anlayışlar kimi götürülə bilər. Bu halda sosial qanunauyğunluqların aşkara çıxarılması sosiologiya elminin predmetini müəyyənləşdirmək üçün həlledici əhəmiyyət qazanır.

Sosiologiya tarixən müəyyən sosial sistemlərinin fəaliyyətinin və inkişafının sosial qanunauyğunluqları, habelə həmin qanunauyğunluqların şəxsiyyətlərin, sosial qrupların, birliklərin, siniflərin, xalqların fəaliyyətində təzahür formaları və mexanizmləri haqqında elmdir.

Sosiologiyanın predmetini müəyyənləşdirərkən adətən ayrı-ayrı sosioloqlar müxtəlif sosial hadisələri və prosesləri həlledici hesab edirlər. Məsələn, qrupların (insanların) qarşılıqlı fəaliyyəti, yaxud bu fəaliyyətin nəticələri; insanların sosial münasibətləri; sosial təsisatlar; sosial təşkilatlar və onların insan davranışına münasibəti; sosial fəaliyyət sistemləri; insan cəmiyyəti və insan davranışı; sosial nizamın və nizamsızlığın təbiəti; sosal qruplar; insan birlikləri formaları; insan cəmiyyətinin əsas strukturları; sosial proseslər; sosial-mədəni hadisələr; sosial həyatın elmi baxımdan öyrənilməsi və s. Bu anlayışlardan hər birinin mənasını, əhəmiyyətini

kiçiltmədən qeyd etməliyik ki, sosiologiya üçün sosial anlayışı daha ümumiləşdirici olub, ən mühüm, mərkəzi anlayış kimi nəzərdən keçirilə bilər.

Sosial anlayışını həm geniş məzmunda (ictimai mənasında), həm də məhdud (empirik) mənada başa düşülməsi həmişə müəyyən çətinliklər doğmuşdur. Birinci halda sosioloji biliyin spesifik obyekti (sosial əlaqə və münasibətlər) əslində unudulmuş, ikinci halda isə bütövlükdə cəmiyyətə aid olan hadisə və prosesləri dəqiq ifadə etmək mümkün olmamışdır. Ona görə də sosiologiyanın inkişafının müəyyən mərhələsində, ümumi sosioloji nəzəriyyə işləyib hazırlamaq zərurəti yarandıqda bütövlükdə cəmiyyəti, ictimai münasibətlərin bütün sistemini xarakterizə etmək üçün «sosial» anlayışı elmi dövriyyəyə daxil edilmiş, «sosial» anlayışı tədricən müstəqil məna kəsb etmişdir.

Sosial münasibətlər şəxsiyyətin cəmiyyətlə qarşılıqlı fəaliyyətinin (sosial qruplar, təşkilatlar, təsisatlar və s. vasitəsilə) səciyyələndirir, istər iqtisadi, istər siyasi, istərsə də mənəvi münasibətlərin mahiyyətini, mühüm aspektini təşkil edir. İctimai münasibətlərin hər hansı sistemi həmişə aydın ifadə olunmuş sosial aspektə malikdir. Deməli, sosial ictimai münasibətlərin xüsusi aspektini səciyyələndirməklə qalmır, onların bütün növlərinə nüfuz edir.

Sosialın spesifikasını hansı əsas cəhətlər səciyyələndirir?

- Fərdlərin müxtəlif qrupları üçün ümumi xassə olmaq; belə xassə ictimai münasibətlərin bu və ya digər xassələrinin inteqrasiyası nəticəsidir.
- Fərdlərin qarşılıqlı vəziyyətinin ifadəsi olmaq; bu, o deməkdir ki, fərdlər və onların qrupları arasında münasibətlərin məzmunu və xarakteri onların ictimai strukturlarda tutduqları yerdən və yerinə yetirdikləri roldan asılıdır.
- Fərdlərin və onların müxtəlif qruplarının münasibətlərində təzahür etmək; bu münasibətlər çoxaspektli olub, həm onların bir-birinə, həm cəmiyyətdə öz vəziyyətinə, həm də ictimai həyatın hadisə və proseslərinə münasibətini əks etdirir.
- Fərdlərin birgə fəaliyyətinin nəticəsi olmaq; bu nəticə fərdlərin ünsiyyətdə və qarşılıqlı fəaliyyətində təzahür edir. Qarşılıqlı fəaliyyət prosesi fərdlərin bir-birinə təsir göstərməsinə şərait yaradır, ictimai münasibətlərin müxtəlif xassələrinin inteqrasiya olunmasına kömək edir.

Sosial münasibətlərin təkmilləşdirilməsi azadlıq, bərabərlik, ədalət anlayışlarının daha real məzmun kəsb etməsi üçün zəruri şərtdir.

## 3. Nəzəri və tətbiqi sosiologiya

Sosiologiya bir elm kimi müxtəlif xarakterli vəzifələri yerinə yetirir. Bu vəzifələrin xarakteri nəzəri və tətbiqi sosiologiyanı fərqləndirməyə əsas verir. Belə fərqləndirmə şərti xarakter daşıyır, çünki nəzəri sosiologiya praktik vəzifələrin, tətbiqi sosiologiya isə nəzəri, elmi vəzifələrin həllindən kənarda qalmır.

Nəzəri sosiologiya sosial proseslərin qanunauyğunluqlarını aşkara çıxarır. Nəzəri tədqiqatlar həmin qanunları daha adekvat əks etdirdikdə qiymətlidir. Nəzəri sosiologiya sosial gerçəklik barəsində biliklərin formalaşması, sosial inkişaf proseslərinin izahı və dərk olunması, sosioloji tədqiqatların metodologiyası və metodlarının işlənib hazırlanması ilə bağlı olan elmi problemləri həll edir. İşlənib hazırlanan nəzəriyyələr, konsepsiyalar iki başlıca suala cavab verməlidir: nə dərk olunur və necə dərk olunur?

Tətbiqi sosiologiya konkret şəraitdə mütərəqqi sosial dəyişmələrin həyata

keçirilməsinə istiqamətlənmiş, elmi cəhətdən kifayət qədər əsaslandırılmış proqnozlar, tövsiyələr işləyib hazırlayır. Başqa sözlə, tətbiqi sosiologiya elə problemləri öyrənir ki, onlar sosial gerçəkliyin yenidən qurulması ilə, sosial proseslərə məqsədyönlü təsir göstərməyin yollarını, vasitələrini araşdırmaqla bağlıdır. Tətbiqi sosiologiya cəmiyyətin qarşıya qoyduğu praktik vəzifələrin həlli üçün vasitələr axtarmalı, nəzəri sosiologiyanın üzə çıxardığı qanunlardan maksimum səmərəli istifadə etmək yollarını müəyyənləşdirməlidir. Bu sosiologiya əslində insan fəaliyyətinin praktik sahələrini bilavasitə öyrənir və «nə üçün?» sualına cavab verir: sosial inkişaf üçün, sosial münasibətlərin və sosial idarəetmənin təkmilləşdirilməsi üçün, şəxsiyyətin ahəngdar inkişafı, onun qabiliyyətlərinin daha tam reallaşdırılması üçün və s.

Tətbiqi sosiologiya real sosial effekt əldə etməyə istiqamətlənmişdir. ABŞ-da tətbiqi sosiologiyanı həm də

«problem baxımından istiqamətlənmiş elm», «müştəriyə istiqamətlənmiş tətbiqi sosial elm» adlandırırlar.

Tətbiqi sosiologiyanın tarixi kökləri Aleksis de Tokvillin (1805-1859), Emil Dürkheymin (1858-1917), Albion Budberi Smollun (1854-1926) əsərlərinə gedib çıxır. Hazırda tətbiqi sosioloqların sayı durmadan artır. Onlar həm universitetlərdə və kolleclərdə, həm də xüsusi biznes sahəsində, dövlət və hökumət orqanlarında, müxtəlif təşkilatlarda çalışırlar. Adətən hansı metodlara üstünlük verməsindən asılı olaraq tətbiqi sosiologiyada iki başlıca istiqamət ayırd edilir: sosial mühəndislik və klinik sosiologiya. Mühəndis-sosioloq çox zaman kiçik miqyaslı sorğular, çöl eksperimentləri aparır, kiçik birliklərin (məsələn, istehsal briqadalarının) sosial cəhətdən yenidən qurulması layihələrini işləyib hazırlayır, planlaşdırma ilə, dizaynla məşğul olur. Klinik

sosiologiya sahəsində çalışan mütəxəssis isə diaqnoz qoymalı, alternativ təklif etməli, «terapevtik» tədbirlər hazırlamalı və bunları reallaşdırmaq üçün məsləhətlər verməlidir. Bir qayda olaraq hər iki qəbildən olan mütəxəssislər sıx əlaqə saxlayır, öz səylərini birləşdirməyə çalışırlar.

Çox zaman elmi ədəbiyyatda «fundamental» sözünü «nəzəri» sözünün sinonimi kimi işlədirlər. Lakin bu sözlərdə tam uyğunluq olduğunu söyləmək doğru deyildir. «Nəzəri» sözü elmi biliyin empirik səviyyəsindən fərqli səviyyəsini, eyni zamanda praktik, tətbiqi istiqamətdən fərqli istiqaməti - fundamental istiqaməti ifadə edir. Nəzəri biliyin praktik istiqaməti, səpkisi mövcuddur. Sosioloji bilik həm elmi-nəzəri, həm də praktik vəzifələrin həllinə bu və ya başqa dərəcədə kömək edir. Deməli, məsələyə ciddi yanaşılsa, qeyd edilməlidir ki, sosioloji biliyin üstün istiqamətlənməsindən söhbət gedə bilər. Bu bilik ya elmi, fundamental, ya da tətbiqi, praktik xarakter daşıyır; birinci halda həmin bilik nəzəri sosiologiya, ikinci halda tətbiqi sosiologiya sahəsinə aiddir.

Elmi ədəbiyyatda «empirik» sözünün «tətbiqi», «praktik» sözləri ilə eyniləşdirilməsinə təsadüf olunur. Əslində empirik sosioloji tədqiqatlar həm nəzəri-elmi problemlərin, həm də tətbiqi, praktik məsələlərin həllinə istiqamətlənə bilər. Belə tədqiqatlar həm nəzəri, həm də tətbiqi sosiologiya çərçivəsində aparıla bilər. Nəticə etibarilə deməliyik ki, «nəzəri» və «empirik» sözləri sosioloji biliyin spesifikasını və abstraksiyanın səviyyəsini,
«fundamental» və «tətbiqi» sözləri isə həmin biliyin istiqamətini, səpkisini, məqsədli yönəlişini ifadə edir. Deməli, nəzəri bilik (o cümlədən nəzəri sosiologiya) fundamental biliklə, tətbiqi bilik (o cümlədən tətbiqi sosiologiya) empirik biliklə eynimənalı deyildir. Nəzəri sosiologiyanın praktik, tətbiqi istiqaməti ola bildiyi kimi, tətbiqi sosiologiyanın da müəyyən səviyyəsindən bəhs etmək mümkündür.

Nəzəri və tətbiqi sosiologiyanın qarşılıqlı əlaqəsi çox-cəhətlidir. Nəzəri tədqiqatlar toplanılmış zəngin informasiyanı təhlil edir, ümumiləşdirmələr aparır, bütövlükdə cəmiyyət üçün, ictimai tərəqqi üçün faydalı tövsiyələr işləyib hazırlayır. Həm ümumsosioloji nəzəriyyə çərçivəsində, həm də ayrı-ayrı sahələr (məsələn, əməyin sosiologiyası, mədəniyyətin sosiologiyası, siyasətin sosiologiyası, hüququn sosiologiyası və s.) miqyasında müxtəlif nəzəriyyələrin, konsepsiyaların sərbəst inkişafı, rəqabəti qanunauyğun haldır. Lakin bütün hallarda o nəzəriyyə, o konsepsiya daha güclü inkişaf edə bilir ki, ictimai praktikanın reallıqlarını düzgün nəzərə alır, həmişə faktlara istinad edir. Öz növbəsində konkret sosioloji tədqiqatlar nəticəsində toplanan faktlar, məlumatlar elmi nəzəriyyə mövqeyindən şərh olunduqda mötəbər məna kəsb edir. Sosial təfəkkürün formalaşması və inkişafı həm nəzəri, həm də tətbiqi xarakterli tədqiqatlara möhtacdır.

Cəmiyyətin keyfiyyətcə yeniləşməsi proseslərini maksimum optimallaşdırmaq üçün sosioloji biliyin müxtəlif səviyyələrini təmsil edən alimlər öz səylərini intensivləşdirməli və daha sıx əlaqələndirməlidirlər. Zənnimizcə, nəzəri və tətbiqi tədqiqatlar aşağıdakı vəzifələrin həllinə daha çox diqqət yetirməlidir:

- ümumi sosioloji nəzəriyyənin və sosioloji bilik sahələrinin inkişafı;
- fundamental sosioloji tədqiqatların keçirilməsi;
- etibarlı sosial informasiya almaq metodlarının işlənib hazırlanması və təkmilləşdirilməsi;
- sosioloji bilik sisteminin müasir tələblər səviyyəsində qurulması;
- sosioloji xidmətin təşkili və müntəzəm surətdə təkmilləşdirilməsi;

- sosiologiya elminin nailiyyətlərinin praktikada tətbiqini sürətləndirməyə imkan verən etibarlı mexanizm yaradılması.

## 4. Sosiologiyanın funksiyaları

Sosiologiyanın funksiyaları müxtəlif müəlliflər tərəfindən az-çox fərqli şəkildə izah olunsa da, ümumi mövqelər üstünlük təşkil edir. Bu funksiyalar sosiologiyanın cəmiyyət həyatı ilə əlaqələrinin rəngarəngliyini daha aydın nümayiş etdirir. Elmi ədəbiyyatda adətən sosiologiyanın aşağıdakı üç funksiyasından bəhs edirlər:

1. İdrak funksiyası; 2. Praktik funksiya; 3. İdeoloji funksiya. Bizcə, sosiologiyanın metodoloji və proqnozlaşdırma funksiyalarından da bəhs etmək üçün kifayət qədər əsas vardır.

1. **İdrak funksiyası.** Hər bir elm kimi sosiologiya da öz predmeti dairəsində insanların fəaliyyəti üçün zəngin idrak imkanları açır, sosial inkişafın qanunauyğunluqlarını, müxtəlif sosial hadisələrin dəyişilməsi meyllərini başa düşməkdə onlara kömək edir. Sosiologiya sosial inkişaf proseslərinin mənbələrini və mexanizmlərini aşkara çıxarmaqla bütövlükdə cəmiyyətin, habelə onun ayrı-ayrı sahələrinin, tərəflərinin gələcək dəyişmə və təkamül perspektivlərini dərk etmək üçün ilkin şərtlər yaradır. Sosioloji biliyin müxtəlif səviyyələri bunu müəyyən etməyə çalışır ki, insanların sosial fəaliyyətində cəmiyyətin, müxtəlif sosial qrupların inkişaf tələbatları necə ifadə olunur, hansı konkret formalar məlum şəraitdə şəxsiyyətin, qrupun və cəmiyyətin mənafelərinin maksimum uyğunluğunu təmin etməyə imkan verir. Sosioloji nəzəriyyələr və konsepsiyalar səylə müasir dövrün aktual problemlərinə cavablar axtarır, heç bir xülyaya qapılmadan dünyanın sosial yeniləşməsinə kömək edə biləcək real yolları müəyyənləşdirməyə çalışır.

Sosioloji nəzəriyyələrlə sıx əlaqədə getdikcə təkmilləşən konkret sosioloji tədqiqatlar fərdlər, qruplar, birliklər və s. haqqında onların tələbatları, mənafeləri, sərvət yönümləri, davranış motivləri haqqında ilk

məlumatlar əldə etməyə imkan verir. Belə tədqiqatlar elə bir informasiya bünövrəsi yaradır ki, ona əsaslanmaqla sosial gerçəkliyin sirlərinə daha dərindən nüfuz etmək mümkün olur. Konkret şəraitdə, konkret sahədə yeni meyllərin aşkara çıxarılması sosioloji nəzəriyyələrin xeyli zənginləşməsini təmin edir. Ümumi və xüsusi sosioloji nəzəriyyələr konkret sosial hadisələr, proseslər barəsindəki informasiyanı ümumiləşdirir, inkişaf qanunauyğunluqlarının elmi surətdə dərk olunmasına kömək göstərir. Həm rəsmi statistikanın məlumatlarını tamamlayan, dəqiqləşdirən obyektiv göstəriciləri, həm də müxtəlif sosial qrupların, təbəqələrin fəaliyyətinin məqsəd, niyyət və motivlərini əks etdirən subyektiv göstəriciləri birləşdirən empirik tədqiqatlar insan amilini daha da fəallaşdıran mexanizmin mahiyyətli cəhətlərini qavramağa kömək edir, kütləvi sosial proseslərin subyektiv məqamlarının həqiqi mənasını aşkara çıxarır. Bu inkişafın obyektiv meylləri ilə həmin meyllərin müxtəlif sosial qrupların şüurunda subyektiv inikası arasında uyğunsuzluğu görməyə, məlum sahədə artıq sosial problemin mövcudluğunu dərk etməyə istiqamətləndirir.

2. **Praktik funksiya.** Sosiologiyanın praktik funksiyası onun idrak funksiyası ilə bilavasitə bağlıdır. Bu funksiya özündə qabaqgörənlik məqamını əks etdirən elmi idrakın öz təbiətindən doğur. Sosiologiya cəmiyyətin, sosial proseslərin mövcud vəziyyətini təhlil etməklə kifayətlənmir, gələcək dəyişmələrin perspektivlərini aydınlaşdırır, həmin perspektivlərin reallaşdırılmasına istiqamətlənmiş praktik fəaliyyətə təsir göstərir. Bu elm insanların öz sosial münasibətlərini tərəqqinin obyektiv tələblərinə uyğun olaraq tənzim etməsinə kömək edir. Sosioloji tədqiqatlar nəticəsində hazırlanan tövsiyələr idarəetmə orqanlarının ehtiyaclarını xeyli dərəcədə ödəyir, sosial tərəqqinin sürətlənməsində özünəməxsus rol oynayır.

Sosial proseslər üzərində həqiqi nəzarət konkret informasiyaya, deməli, konkret sosioloji tədqiqatlara möhtacdır. Tətbiqi sosiologiya müxtəlif qruplarda, təşkilatlarda, müəssisələrdə və s. sosial inkişaf məsələlərini daha optimal qaydada həll etmək sahəsində tövsiyələrin işlənib hazırlanmasında bilavasitə iştirak edir. Kompleks sosial problemlərin tədqiqi mühüm praktik əhəmiyyətə malikdir: bu halda cəmiyyət həyatının daha bütöv mənzərəsini təsəvvür etmək, neqativ nəticələri irəlicədən görmək, idarəetmənin ən səmərəli yollarını və vasitələrini müəyyənləşdirmək mümkün olur.

Sosioloji tədqiqatların nəticəsi kimi irəli sürülən praktik tövsiyələr sosial amillərin iki qrupuna aid olur. Birinci qrup obyektiv xarakterli amilləri - insanın həyat fəaliyyəti şərtlərini (siyasi quruluş, sosial struktur, əməyin, məişətin və s. konkret şəraiti, habelə subyektin bu şəraitdə real davranışı), ikinci qrup isə subyektiv xarakterli amilləri - subyektiv məqamları (məqsədlər, niyyətlər, motivlər, maraqlar, sərvət yönümləri, ideoloji təsəvvürlər, ictimai rəy və s.) əhatə edir. Bunların sıx əlaqədə öyrənilməsi şəxsiyyətlərarası münasibətləri təkmilləşdirmək, cəmiyyətdə daha möhkəm sabitlik qərarlaşdırmaq vasitələrini müəyyənləşdirməyə kömək edir.

3. **İdeoloji funksiya.** Sosiologiya kütlələrin ideya tərbiyəsi, qeyri-elmi baxışlarla mübarizə vəzifələrini də yerinə yetirir. Sosioloji biliklərə yiyələnmək, müxtəlif səviyyəli nəzəriyyələrlə tanış olmaq, konkret faktlar əsasında real vəziyyəti tam təsəvvür etmək insana imkan verir ki, o, ictimai prosesdə öz yerini, mövqeyini daha dürüst başa düşsün, onun fəallığı daha dolğun sosial məna kəsb etsin.

Sosiologiya elmi təfəkkürün formalaşmasında və inkişafında, insanın ideya cəhətdən

yetkinləşməsində müəyyən rol oynayır. Konkret sosioloji tədqiqatlar təcrübəsi təkcə praktik tövsiyələr işləyib hazırlamaq baxımından deyil, həm də düzgün idarəetmə, rəhbərlik üslubu, vərdişləri qazanmaq baxımından da əhəmiyyətlidir, çünki sosial qanunların daha dərindən başa düşülməsinə əsaslanır. Səmərəli, işgüzar, elmi idarəetmə üslubu tələsik, kifayət qədər əsaslandırılmamış iradi qərarların qarşısını almağa kömək edir.

Sosioloq faktları, hadisələri araşdırarkən nə qədər obyektiv, neytral olmağa çalışsa da, müəyyən sosial-siyasi mövqe tutur. Renata Maynts (AFR) 1974-cü ildə Torontoda keçirilmiş VIII Ümumdünya sosiologiya konqresində demişdir: «Siyasətə öz münasibətini müəyyən etmək sosiologiyanın aktual vəzifələrindən biridir. Axı sosiologiya bir çox cəhətdən siyasi qərarların qəbul edilməsi üçün əsasdır... Sosiologiya siyasətə təsir göstərməkdə başqa sahələrə, məsələn, texniki sahələrə nisbətən daha böyük imkanlara malikdir. Bu halda o vacibdir ki, sosioloqların təsir göstərə bildikləri şəxslər hansı sferalara mənsubdurlar. Qərar qəbul edənlər çox tez-tez sosioloqların topladıqları məlumatlardan sonralar istifadə edirlər». Bu bir həqiqətdir ki, sosioloq maksimum obyektiv və dəqiq informasiya almağa maraqlı olsa da, onun tədqiqatlarının nəticələri hər halda siyasi qiymətdən kənarda qalmır. Mövzunun seçilməsi, tədqiqat problemlərinin qoyulması, nəticələrin şərhi hökmən sosioloq alimin sosial-siyasi mövqelərinin təsirinə məruz qalır, onun siyasi maraqlarından və sərvət yönümlərindən az və ya çox dərəcədə asılı olur. Buraya onu da əlavə etmək lazımdır ki, sosioloqun nəticələri və tövsiyələri bu və ya başqa dərəcədə müxtəlif sosial qrupların siyasi mənafelərinə toxunur, müəyyən ideoloji məna kəsb edir. Sosioloqların ideya-siyasi mövqeləri müxtəlif konsepsiyalar arasında gedən mübarizənin mühüm amillərindən biridir.

Əhalinin maariflənməsi, ideyaca yetkinləşməsi sahəsində dövlətin fəaliyyəti olduqca mürəkkəb işdir. Bu işin səmərəsini yüksəltməkdə ictimai rəyi, kütləvi informasiya və təbliğat vasitələrinin, cəmiyyətin siyasi və hüquqi təsisatlarının fəaliyyətini, sosial-psixoloji, ideoloji mövqeləri sosioloji baxımdan tədqiq etmək böyük rol oynayır.

4. **Metodoloji funksiya.** Müxtəlif ümumilik səviyyəsinə malik olan sosioloji nəzəriyyələr, konsepsiyalar daha konkret elmlər sahəsinə aid olan tədqiqatlar üçün metodoloji əsas ola bilər. Sosial sistemlərin fəaliyyəti və inkişafının ümumi qanunauyğunluqlarını aşkara çıxaran nəzəriyyələr daha geniş tətbiq imkanlarına malikdir. Onların yaşamaq və fəaliyyət göstərmək hüququ uğrunda sərbəst bəhsləşməsi və mübarizəsi tamamilə qanunauyğun haldır. Müxtəlif sosioloji nəzəriyyələrin, cərəyanların, istiqamətlərin (məs., antropoloji istiqamət, naturalizm, neopozitivizm, strukturalizm, psixoloji istiqamət və s.) özünəməxsus məziyyətləri və nöqsanları, məhdudluqları vardır. Bu nəzəriyyələrin, cərəyanların başlıca müddəaları, prinsipləri konkret bilik sahələrində aparılan tədqiqatlar üçün həlledici məna kəsb edə bilər. Lakin konkret bilik sahəsində əldə edilmiş faktlar həmin müddəalarla, prinsiplərlə ziddiyyət təşkil edə bilər və yeni bünövrə, əsas axtarışı üçün stimul yarada bilər. Deməli, sosiologiyanın metodoloji funksiyasını birtərəfli başa düşmək doğru olmazdı: ümumi və xüsusi sosioloji nəzəriyyələr konkret sahələrdə tədqiqatı istiqamətləndirir, konkret sahələrin tədqiqatları sosioloji nəzəriyyələrin zənginləşməsini, dolğunlaşmasını şərtləndirir.

5. **Proqnozlaşdırma funksiyası.** Sosiologiya sosial həyatın, onun ayrı-ayrı sahələrinin fəaliyyəti və inkişafı proseslərini elmi sürətdə idarə etmək üçün müəyyən proqnozlar işləyib hazırlamağa kömək edir. Proqnozlaşdırma inkişafın qanunauyğunluqlarını, meyllərini dərindən başa düşməyə əsaslanır, cəmiyyəti daha səmərəli metodlarla idarə etməyin müqəddəm şərti kimi çıxış edir. Bu, qərarların yerinə yetirilməsi prosesində vaxtında zəruri təshihlər aparmağa imkan verir.

Müxtəlif ümumilik səviyyəsində olan sosioloji nəzəriyyələr sosial hadisələrin nisbətən geniş dairəsində böyük miqdar informasiyanı cəmləşdirdiyindən, onların inkişaf qanunauyğunluqlarını aşkara çıxardığından ayrı-ayrı sosial hadisələrin, proseslərin tədqiqinə münasibətdə nəzəri əsas rolunu yerinə yetirə bilər. Lakin bu nəzəriyyələri ehkama çevirmək yox, konkret bilik sahələrinin imkanları hesabına yaradıcılıqla daha da inkişaf etdirmək lazımdır.

## 5. Sosial qanunların mahiyyəti və təsnifatı. Sosiologiyanın kateqoriyaları

Məlumdur ki, qanun hadisələrin daxili, mühüm və sabit əlaqəsi və ya münasibəti olub, onların nizamlı dəyişilməsini şərtləndirir. Qanunları bilmək əsasında prosesin cərəyanını irəlicədən etibarlı surətdə müəyyənləşdirmək mümkündür.

Qanun anlayışı qanunauyğunluq anlayışına çox yaxındır. Qanunauyğunluq qanunun məzmunu baxımından qarşılıqlı əlaqədə olan, sistemdəki dəyişikliklərin sabit meylini və ya istiqamətini təmin edən cəhətlərin məcmusudur.

Sosial qanunlar sosial hadisələrin, proseslərin mühüm, zəruri və ümumi əlaqələrini ifadə edir, fərdlərin, qrupların, birliklərin fəaliyyətində təzahür edir, onlar arasındakı rəngarəng münasibətləri müəyyənləşdirir. İnsanlar bu qanunları dərk edərək, öz həyat fəaliyyəti şərtlərini dəyişdirir, yeniləşdirir. Dəyişilmiş, başqalaşmış şərait isə insanlara ən müxtəlif şəkildə təsir göstərir. Hər bir ayrıca şəraitin, hər bir ayrıca tarixi hadisənin spesifik xarakteri, təkrarolunmazlığı, zənginliyi sosial qanunların təzahüründə dərin iz buraxır. Hətta eyni sosial qanun birtipli, yaxud oxşar şəraitdə müxtəlif, fərqli intensivlikdə

təzahür edir. Ona görə də sosial qanunların fəaliyyətini hər bir konkret halda müxtəlif ehtimal dərəcəsini aşkara çıxaran meyl kimi nəzərdən keçirmək lazımdır.

Hadisə və proseslərin təbii gedişində təşəkkül tapan sosial qanunlar fərdlərin, qrupların, birliklərin müxtəlif istiqamətli fəaliyyətinin nəticəsidir. Lakin bu fəaliyyyətdə qanunauyğun meyllər də təzahür edir, qarşılıqlı sosial fəaliyyətin məqsədini, məzmununu, xarakterini və istiqamətini müəyyənləşdirir.

Sosial qanunların fəaliyyət mexanizmini aşkara çıxarmaq, onları hərtərəfli tədqiq etmək çox mürəkkəb işdir, lakin vacib vəzifədir. Bu, hər hansı hadisənin, prosesin bütövlükdə ictimai həyatda, ən müxtəlif sosial sistemlərin fəaliyyətində yerini və rolunu, təzahür xüsusiyyətlərini müəyyənləşdirməyi, onun sosial genezisini aşkara çıxarmağı, rəngarəng sosial əlaqələri real faktlar əsasında öyrənməyi nəzərdə tutur.

Sosial qanunları müxtəlif əsasa görə təsnif etmək olar. Fəaliyyət müddətinə görə adətən ümumi və spesifik qanunları fərqləndirirlər. Ümumi qanunlar (məsələn, dəyər qanunu) bütün ictimai sistemlərdə, spesifik qanunlar isə (məsələn, bir cəmiyyətdən digərinə keçidlə bağlı olan qanunlar) bir və ya bir neçə ictimai sistemdə fəaliyyət göstərir.

Ümumilik dərəcəsinə görə iki qrup qanunlardan bəhs etmək mümkündür: a) bütövlükdə sosial sferanın inkişafını xarakterizə edən qanunlar; b) sosial sferanın ayrı-ayrı ünsürlərini (sinif, qrup, millət və s.) inkişafını xarakterizə edən qanunlar.

Təzahür üsuluna görə qanunların dinamik və statik (stoxastik) növlərini ayırd etmək olar. Dinamik qanunlar sosial dəyişmələrin istiqamətini, amillərini və formalarını müəyyən edir. Statik (stoxastik) qanunlar isə sosial hadisələri qəti şəkildə determinasiya etmir, məlum sosial bütövün sabitliyini saxlamaqla dəyişmələrin əsas

istiqamətlərini, meyllərini əks etdirir. Bu, o deməkdir ki, statik qanunlar sosial gerçəklikdəki hadisə və proseslərin əlaqəsini müəyyən ehtimal dərəcəsində ifadə edir, onlara bütövlükdə xas olan bəzi xassələri və ya əlamətləri səciyyələndirir.

Dinamik qanunlar səbəb və funksional qanunlara ayrılır. Səbəb qanunları sosial hadisələrin inkişafında qəti surətdə şərtlənmiş əlaqələri, funksional qanunlar isə sosial hadisələr arasında empirik surətdə müşahidə edilən və ciddi şəkildə təkrar olunan qarşılıqlı asılılıqları əks etdirir.

Statik qanunların inkişaf qanunları (məs., tələbatların daha dolğun ödənilməsi, xalqın özünüidarəsinin inkişafı və s.) və fəaliyyət qanunları (kollektivdə formal və qeyri-formal strukturların vəhdəti, ailədə rol funksiyalarının bölüşdürülməsi) kimi növləri vardır.

Əlaqələrin formalarına görə sosial qanunların aşağıdakı növlərini ayırd etmək olar:

a) Sosial hadisələrin, yaxud onlarla bağlı olan hadisələrin invariant (dəyişməyən) yanaşı yaşamasını əks etdirən qanunlar. Bu qanuna görə A hadisəsi varsa, hökmən B hadisəsi də olmalıdır. Məsələn, cəmiyyətdə totalitar idarəetmə sistemi mövcuddursa, hökmən latent (gizli) müxalifət də mövcud olmalıdır.

b) İnkişaf meylini əks etdirən qanunlar. Belə qanunlar qarşılıqlı münasibətlərin bir səviyyəsindən digərinə keçidi şərtləndirir, sosial obyektin strukturuna xas olan dinamikanı ifadə edir. Məsələn, fəhlə sinfində baş verən keyfiyyət irəliləyişləri onun bütün sosial münasibətlərə təsirini gücləndirir, onun bütövlükdə ictimai mövqeyini möhkəmləndirir.

c) Sosial hadisələr arasında funksional asılılığı müəyyən edən qanunlar. Bu qanunları fəaliyyət qanunları da adlandırmaq olar. Bunlar inkişaf qanunlarından fərqli olaraq hər hansı sosial sistemin nisbi sabitlik halında qalmasını təmin edir, sistemdəki ayrı-ayrı ünsürlərin mühüm dəyişikliyə səbəb olmayan mütəhərrikliyini səciyyələndirir, başqa sözlə, sosial obyektin yeni keyfiyyət qazanması üçün ilkin şərtlər yaradır. Məsələn, əhalinin idarəetmə işində, siyasi həyatda iştirakı ilə onun siyasi mədəniyyətinin yüksəlməsi arasında, kollektivdə ideyatərbiyə işinin səviyyəsi ilə mənəvi-psixoloji iqlimin vəziyyəti arasında funksional asılılığı görmək o qədər də çətin deyildir.

ç) Sosial hadisələr arasında səbəb əlaqəsini əks etdirən qanunlar. Səbəb əlaqəsi və funksional əlaqə bir- birinə yaxın anlayışlardır. Lakin onları eyniləşdirmək doğru deyildir. Funksional əlaqə səbəbiyyəti ifadə edə də bilər, etməyə də bilər. Funksional asılılığın olması hələ mahiyyətli səbəb münasibətlərinin mövcudluğunu ifadə etmir. Məsələn, şəxsi və ictimai mənafelərin optimal əlaqələndirilməsi sosial inteqrasiyanın çox mühüm, zəruri şərtidir.

d) Sosial hadisələr arasında ehtimalı ifadə edən qanunlar. Məsələn, əhalinin müəyyən qruplarının kənddən
şəhərlərə axını ilə onlar arasında hüquq pozuntularının artmasını ehtimal etmək olar.

Sosial qanunlar insanların fəaliyyətində, cəmiyyətin konkret şəraitində reallaşır. Ona görə də sosioloji tədqiqat prosesində fərdlər bu və ya digər əlamət baxımından qruplaşdırılır. Bu imkan verir ki, sosial qrupu ən müxtəlif aspektlərdə (həyat şəraiti, status, sosial rol və funksiyalar, fərdi xarakteristikalar) öyrənilsin.

Sosial qanunlar müxtəlif təsadüflərlə, kənara çıxma halları ilə üzləşir, onları bir növ nizamlayır və özünə yol açır. Hər hansı sosial hadisənin, prosesin məzmununu və spesifikasını aşkara çıxarmaq üçün bu qanunların fəaliyyət mexanizmi tədqiq olunmalıdır. Bu, cəmiyyətin həyat fəaliyyətinin müxtəlif sferalarında sosial qanunların təzahür formalarını aşkara çıxarmağı, sosial mexanizmdə öz funksiyalarını yerinə yetirməyə qadir

olmayan ünsürləri müəyyənləşdirməyi və aradan qaldırmağı, bütövlükdə bu mexanizmin maksimum səmərəli olmasını təmin etməyi nəzərdə tutur. Fərdlərin, sosial qrupların həyat fəaliyyəti prosesində daim dəyişikliyə məruz qalan, inkişaf edən və zənginləşən sosial əlaqələr sistemi təhlil olunarkən onların cəmiyyətdə qəbul olunmuş sosial normalar, sərvətlər və sosial nəzarət vasitələri ilə, habelə mənafelər, tələbatlar, yönümlər və s. ilə əlaqəsinə xüsusi diqqət yetirilməlidir.

Hər bir elm kimi sosiologiya da müəyyən kateqoriyalardan istifadə edir. Məlum olduğu kimi, kateqoriyalar idrakın tarixi inkişafı gedişində, ictimai praktika prosesində formalaşır.

## Mühazirə 2. Cəmiyyət mürəkkəb sosial-mədəni fenomendir

1. Cəmiyyət ən ümumi sosial sistem kimi
2. Cəmiyyətin strukturu
3. Cəmiyyətin sosial sistem kimi inkişafı
4. Cəmiyyətin əlamətləri
5. Cəmiyyətin tipologiyası

### 1. Cəmiyyət ən ümumi sosial sistem kimi

Cəmiyyət insanların sadəcə məcmusu deyildir, fərdlərin özünəməxsusluğunu və əlaqələrini nəzərə almayan mücərrəd bütövlük də deyildir. Cəmiyyət mürəkkəb, bütöv sosial-mədəni sistemdir, başqa sözlə, sosial sistemin xüsusi növüdür. Sosial-fəlsəfi axtarışlar cəmiyyətin tədqiqində ilkin metodoloji prinsipi üzə çıxarmışdır: bu, cəmiyyətə sistem kimi yanaşılmasıdır. Elmdə, o cümlədən sosiologiyada müxtəlif mürəkkəbliyə malik olan təşəkkülləri tədqiq etmək üçün sistem yanaşmadan uğurla istifadə olunur.

«Sistem» termini hələ Qədim Yunanıstanda işlənilsə də, XVII-XVIII əsrlərdə elmi dövriyyəyə daha geniş daxil olmuşdur; onun ilkin mənası nəyinsə mürəkkəb və rəngarəng vəhdətini ifadə etmişdir (məsələn, təbiətin sistemi, biliklərin sistemi, əlamətlərin sistemi və s.). XX əsrin ortalarından etibarən «sistem» termini daha dərin elmi məzmun kəsb etmişdir. Sistemlərin ümumi və xüsusi nəzəriyyələri meydana gəlmiş, sistem yanaşma biliyin, tədqiqatını xüsusi metodologiyası kimi etiraf olunmuşdur. Hazırda sistemlilik hər bir elmin mərkəzi kateqoriyalarından biri hesab edilir.

Universal anlayış olan sistem həm maddi, həm də mənəvi aləmin mühüm xassələrini əks etdirir. Onun ən mühüm əlamətləri bütövlük, diferensiallıq, elementlərin əlaqəsidir. Elmi ədəbiyyatda belə bir cəhətə xüsusi diqqət yetirilir ki, fəaliyyət baxımından hər bir sistemi üç əlamət səciyyələndirir.

Birincisi, davamlılıq - bu, sistemin həyat prosesində özünü qoruyub saxlaması qabiliyyətini ifadə edir.

İkincisi, müvazinət - bu, sistemin saxlanılması naminə kompromis, qarşılıqlı güzəşt kimi başa düşülə bilər. Üçüncüsü, əks əlaqə - bu, fəaliyyətə olan təsirə və onun sonrakı dəyişilməsinə göstərilən reaksiyanın spesifikasını əks etdirir.

Sistemin fəaliyyətinin bu əlamətləri homeostazis anlayışında birləşdirilə bilər. Həmin anlayış xarici mühitlə qarşılıqlı təsir prosesində cərəyan edən həyat fəaliyyətində sistemin özünü, öz əsas xassələrini və funksiyalarını qoruyub saxlamaq qabiliyyətini ifadə edir.

Sistemlərin kifayət qədər müxtəlifliyi, rəngarəngliyi şəksiz həqiqətdir. Elmi sistematologiyada onların müxtəlif təsnifatı təklif olunmuşdur. Məsələn, maddi və ideal, təbii və süni, bioloji və sosial, dinamik və statik, açıq və qapalı ifadə olunan və ifadə olunmayan, adaptiv, özünü təşkil edən, inkişaf edən və s. sistemləri fərqləndirirlər.

Sistemlərin xüsusi tipi olan sosial sistemlər komponentlərinin çoxluğu, həmin komponentlər arasında, bütövlükdə sistemlə mühit arasında qarşılıqlı əlaqələrin rəngarəngliyi ilə səciyyələnir. Görkəmli sosioloq
T. Parsons qeyd edirdi ki, sosial sistemlər ən əvvəl qarşılıqlı fəaliyyətdə, təsirdə olan fərdlərin sistemidir; fərdlər eyni zamanda həm canlı orqanizmlərdir, həm də şəxsiyyətlərdir və müəyyən mədəni sistemlərə mənsubdurlar.

Sosial sistemləri genetik əlamət baxımından maddi və ideal sistemlərə ayırmaq olar. Maddi sosial sistemlərə kiçik sosial qrupları (ailə, peşə qrupları, partiya özəkləri); böyük sistemləri (dövlət, partiyalar, həmkarlar təşkilatları konfederasiyası və s.); mürəkkəb sistemləri (dövlətlər birliyi, hərbi-siyasi bloklar, iqtisadi ittifaqlar və s.) aid edilə bilər. İdeal sistemlər insanın ətraf aləmi dərk etməsi ilə bağlıdır. Bu sistemlər də kiçik (fərdi şüur, şəxsiyyətin mənəvi dünyası), orta (müəyyən fərdlər qrupunun baxışlar sistemi, etnik qrupların adət və ənənələri), böyük (iqtisadi nəzəriyyə, sosiologiya elmi və s.), habelə universal (dünyagörüşü, mifologiya, din və s.) sistemlərə ayrıla bilər.

Formasına görə sosial sistemlər kiçik, orta, böyük və mürəkkəb sistemlər kimi təsnif oluna bilər. Kiçik sistemlərə ayrı-ayrı sosial obyektlər aiddir (məsələn, ailə, fərd, kiçik qrup və s.); onların daxili strukturu və fəaliyyəti nisbətən sadədir, onları təşkil edən ünsürlərin qarşılıqlı təsiri əlaqələndirmə xarakteri daşıyır. Orta sistemlərin strukturunda ünsürlərin dəqiq ayırd edilmiş iki qrupu mövcuddur; onların arasında əlaqələr subordinasiya xarakteri daşıyır (yerli hakimiyyətin strukturu, rayonun iqtisadi strukturu və s). Böyük sistemlər onları təşkil edən ünsürlər arasında mürəkkəb strukturla səciyyələnir (məsələn, dövlət, partiyalar, ölkənin iqtisadi sistemi). Mürəkkəb sistemlərə elə sistemlər aiddir ki, onların mövcudluğu alt sistemlərin daxili tənzimi ilə yanaşı çoxsəviyyəli xarakterə malikdir (məsələn, Müstəqil Dövlətlər Birliyi, Beynəlxalq Valyuta Fondu, Avropa İttifaqı və s.).

Qarşılıqlı təsirin xarakterinə görə sosial sistemlər açıq və qapalı ola bilərlər. Tam qapalı sistemlər adətən olmur, digər konkret sistemlərlə məhdud şəkildə qarşılıqlı təsirlər özünü göstərir. Məsələn, dövlətdə islah (penitensiar) müəssisələr sistemi bu qəbildəndir. Açıq sistemlər xarici şəraitin təsirinə məruz qalır, özləri də həmin şəraitə müqabil təsir göstərirlər (məsələn, beynəlxalq idman assosiasiyaları).

Sosial sistemləri öz qanunauyğunluqlarının xarakterinə görə ehtimal edilən və determinasiya olunan sistemlərə ayırmaq olar. Ehtimal olunan sistemlərdə onların komponentləri naməlum sayda variantların (məsələn, cəmiyyət mümkün müharibə vəziyyətində) qarşılıqlı təsirinə məruz qalır. Determinasiya olunmuş sistemlər qarşılıqlı təsirlərin (məsələn, hüquqi, qanunverici və s. sistemlər) dəqiq məlum olan nəticələrini nəzərdə tutur.

Sosial sistemlərin başlıca funksiyaları nizamı və inkişafı təmin etməklə bağlıdır. Lakin elə sosioloji nəzəriyyələr vardır ki, onlar sistemin potensiyalarını, yəni imkanlarını ön plana çəkir və müvafiq anlayışları formula edirlər. Bu halda sistemin aşağıdakı imkanları qeyd olunur:

- tənzimləyici (bu, fərdlərin və qrupların davranışının tənzimlənməsini təmin edir);
- ekstraktiv (bu, resursların cəlb olunmasını nəzərdə tutur);
- atributiv (bu, cəmiyyətdə müdafiənin təmin olunmasını nəzərdə tutur);
- distributiv (bu, status mövqelərinin və maddi nemətlərin bölgüsünü nəzərdə tutur).

Beləliklə, sosial sistem çoxölçülü və çoxaspektli təşəkkül olub, mürəkkəb tərkibə, tipologiya və funksiyalara malikdir. Cəmiyyət sosial sistemlərin bütün xarakteristikalarını əks etdirir, ona görə də cəmiyyət ən mürəkkəb və ümumi sosial sistem hesab olunur.

## 2. Cəmiyyətin strukturu

Cəmiyyətin sosial sistem kimi sosioloji təhlilinin səmərəli üsullarından biri ona makrososioloji yanaşmadır. Belə yanaşmanı Amerika sosioloqu E. Şilz təklif etmişdir. Onun fikrincə, cəmiyyət üç başlıca ünsürdən ibarət olan makrostruktur kimi təsəvvür oluna bilər:

a) sosial birlik - fərdlər çoxluğunun qarşılıqlı əlaqəsidir;

b) sosial təşkilat - məlum sistem hüdudlarında fərdlərin sosial statuslarının (mövqelərinin) və sosial rollarının (funksiyalarının) məcmusudur;

c) mədəniyyət - fərdlərin davranışını və fəaliyyətini müəyyən edən dəyərlərin və sosial normaların məcmusudur.

Sosial birliklər bəşəriyyətin tarixi inkişafı prosesində meydana gəlir və öz növlərinin, formalarının rəngarəngliyi ilə səciyyələnir. Ən əhəmiyyətli birliklər sırasına bunları aid etmək olar: sosial-ərazi birlikləri (şəhər, kənd, region və s.); sosial-demoqrafik birliklər (ailə, yaş qrupları və s.); sosial-etnik birliklər (millətlər, xalqlar, etnik qruplar); sosial-əmək birlikləri (əmək kollektivlərinin müxtəlif tipləri). Sosial birliklərdə insanlar arasında qarşılıqlı təsir formaları da müxtəlifdir: fərd-fərd; fərd-sosial qrup; fərd-cəmiyyət. İnsanların praktik fəaliyyətində formalaşan həmin birliklər fərdin və ya fərdlər qrupunun bütövlükdə sosial birliyin inkişafı üçün əhəmiyyətli olan davranışını şərtləndirir. Müxtəlif subyektlər arasındakı sosial qarşılıqlı təsir insanlar arasında, onlarla xarici mühit arasında sosial əlaqələri müəyyən edir. Həmin sosial əlaqələrin məcmusu isə cəmiyyətdə sosial münasibətlərin əsasını təşkil edir. İstənilən sosial birlik, cəmiyyətin həyat fəaliyyətinin istənilən sferası insanlar arasında münasibətlərin tənzimlənməsini nəzərdə tutur. Cəmiyyət

öz tarixi təkamülü prosesində ictimai həyatın təşkilinin, tənzimlənməsinin spesifik sistemini işləyib hazırlamışdır: bu, sosial institutlardır. Sosial institutlar əhalinin müxtəlif qruplarının ümumi mənafelərini əlaqələndirmək, stabil inkişafı təmin etmək mexanizmləridir. Münaqişəli situasiyaların çoxluğu, dərinləşməsi sosial institutların səmərəli işləmədiyini göstərir, onların yeniləşməsini və ictimai tələbatlara uyğunlaşdırılmasını zərurətə çevirir.

Sosial təşkilatlar cəmiyyətin çox mühüm ünsürü olub, ictimai inkişafda müəyyən məqsədlərə nail olmaq üçün fərdlərin, sosial qrupların fəaliyyətini nizamlamağın etibarlı üsulu kimi çıxış edirlər. Başqa sözlə, sosial təşkilatlar müəyyən sosial sistem hüdudlarında fərdlərin, sosial birliklərin, qrupların, təbəqələrin fəaliyyətini inteqrasiya etmək mexanizmləridir. Sosial təşkilatların çox mühüm xüsusiyyəti onların ünsürləri arasında iyerarxik əlaqələrin olmasıdır; bu təşkilatlar məqsədli təyinatı olan piramidayabənzər sosial sistemlərdir. Onların fəaliyyəti əsasında sosial məqsədlər, sosial statuslar və rollar zəminində rəhbərlik - tabelikdə olanlar arasında spesifik münasibətlər qərarlaşır. Sosial təşkilatlarda ayrı-ayn fərdlərin, qrupların spesifik xüsusiyyətlərə malik olan fəaliyyətinin sinxron, eyniistiqamətli olması müəyyən məqsəd və vəzifələrin reallaşdırılmasını təmin edir. Aydın məsələdir ki, sosial təşkilatlar hüdudunda müəyyən idarəedici orqan olmalıdır ki, sosial statusların və rolların bölgüsü, fərdlərin, qrupların birgə fəaliyyəti təmin edilsin. Təşkilati-hakimiyyət strukturları kollektivin daxili həyatına və əlaqələrinə dair ən müxtəlif məsələləri həll etməli olurlar. Sosial təşkilatın sosial statusları və rolları nəzərdə tutan formal strukturu rəhbərlər - tabelikdə olanlar xətti üzrə əmək bölgüsünü həyata keçirir, işçilərin fəaliyyətini optimallaşdırmağa səy göstərir. Lakin ən sərt təşkilati münasibətlər şəraitində də şəxsiyyətlərarası və qruplararası münasibətlərin müəyyən spesifikası təzahür edir; belə münasibətlərin əsasını

sosial-psixoloji amillər təşkil edir. Ona görə də kollektivlərdə qeyri-formal qrupların, liderlərin, spesifik submədəniyyətin meydana gəlməsi real faktlardır. Əgər bunlar formal - təşkilati amillərlə uyğun gəlmirsə, müəyyən ziddiyyətlər doğurursa, o zaman sosial təşkilatın qeyri-stabilliyi, böhranlı məqamları artır.

Cəmiyyətin üçüncü mühüm ünsürü olan mədəniyyəti insanların praktik fəaliyyətində təsbit olunmuş sosial normaların və dəyərlərin sistemi kimi müəyyənləşdirmək olar. Əslində mədəniyyət bu fəaliyyətin özüdür. Normalar əsasən sosial fenomendir. Məhz normalar çox müxtəlif prosesləri nizamlayır, başlıca olaraq onların inteqrasiyası funksiyasını yerinə yetirir. İnkişaf etmiş cəmiyyətlərdə hüquqi sistem normaların bir növ fokusudur. Bu, əlbəttə, digər normaların, o cümlədən əxlaqi normaların əhəniiyyətini kiçiltməyə əsas vermir. Dəyərlər sosial və mədəni sistemlərin başlıca əlaqələndirici həlqəsidir.

Cəmiyyətdə mədəniyyət maddi predmetlərdə və mənəvi sərvətlərdə öz ifadəsini tapır, insanların tələbatlarını, onların inkişaf etmək, zənginləşmək səylərini əks etdirir. Sosiologiya cəmiyyətdə mədəniyyətin sosial roluna xüsusi əhəmiyyət verir: bu və ya digər sosial-mədəni sərvətlər ictimai münasibətlərin humanistləşməsinə, ahəngdar inkişaf etmiş şəxsiyyətin formalaşmasına nə dərəcədə kömək edir - bunlar çox ciddi və düşündürücü suallardır.

Mədəniyyət həmişə həm ənənələrin, həm də yeniliklərin ünsürlərini özündə birləşdirir. Ənənələrin üstün olması ənənəvi mədəniyyətin formalaşmasını və müəyyən hüdudlarda təkamülünü şərtləndirir. Yenilik əsaslarının üstünlük təşkil etməsi isə həm mütərəqqi dəyişikliklərə, həm də keçmiş mədəniyyət nümunələrinin unudulmasına səbəb ola bilər.

## 3. Cəmiyyətin sosial sistem kimi inkişafı

Sosial sistem olan cəmiyyətdə baş verən mürəkkəb proseslər onun dəyişilməsinə, təkamülünə səbəb olur. Bəzi cəmiyyətlər dəyişərək yeni tipli sosial struktura, mədəni təşəkküllərə, təkamül yolu ilə inkişaf meyllərinə malik olur. Bəzi cəmiyyətlər isə daxili münaqişələrə və ya digər neqativ sapmalara elə cəlb olunur ki, təkamül qabiliyyətini itirir, öz mövcudluğunu çətinliklə qoruyub saxlayır, yaxud dağılma meyllərinə məruz qalır. Sosiologiyada cəmiyyətin dəyişilməsinin və inkişafının birmənalı izahı yoxdur. Başqa sözlə, bu məsələyə münasibətdə müxtəlif mövqelər özünü göstərir.

Təkamülçülük sosial inkişafın obyektiv xarakterini ön plana çəkir. Təkamülçülükdə əsas problem bütün cəmiyyətin simasını dəyişdirməyə imkan verən müəyyənedici amilin aşkar edilməsidir. Burada xatırlamaq yerinə düşər ki, təkamülçülük müxtəlif naturalist məktəblərin, cərəyanların (məsələn, mexanist, coğrafi, irqi-antropoloji, sosial-darvinist və s.) əsasını təşkil etmişdir.

Sosiologiyanın banisi sayılan O. Kont biliyin inkişafını cəmiyyətin tərəqqisində həlledici amil sayırdı. Onun fikrincə, biliyin teoloji, mistik formadan pozitiv formaya doğru inkişafı insanların industrial cəmiyyətə keçməsinə səbəb olacaqdır. İnsan zəkası sayəsində baş verən bu keçid istehsalın və tələbatların ödənilməsinin keyfiyyətcə yeni, başqa səviyyəsi demək olacaqdır.

H. Spenser cəmiyyətin təkamülünün mahiyyətini onun diferensiasiyasının güclənməsində görür və qeyd edirdi ki, bu, getdikcə artan inteqrasiya prosesləri ilə

müşayiət olunur; həmin proseslər sosial orqanizmin hər bir yeni mərhələsində onun vəhdətini bərpa edir. Sosial tərəqqi cəmiyyətin mürəkkəbləşməsinə, fərdlərin müstəqilliyinin və azadlığının artmasına, onların maraqlarının cəmiyyət tərəfindən getdikcə daha dolğun ödənilməsinə səbəb olur.

E. Dürkheym təkamülü mexaniki həmrəylikdən (bu halda fərdlər və onların ictimai funksiyaları qeyri- yetkindir, oxşardır) üzvi həmrəyliyə (bu halda əmək bölgüsü və sosial diferensiasiya inkişaf etmişdir) keçid kimi nəzərdən keçirir. Üzvi həmrəylik, onun fikrincə, insanların vahid sosial orqanizmdə inteqrasiyasına doğru aparır və cəmiyyətin ali əxlaqi prinsipi kimi çıxış edir.

K. Marks sosial inkişafda müəyyənedici amil kimi cəmiyyətin məhsuldar qüvvələrini ön plana çəkirdi. Onun fikrincə, məhsuldar qüvvələrin inkişafı sosial inqilaba və istehsal üsulunun dəyişilməsinə gətirib çıxarır. İstehsal üsulunun dəyişilməsi isə öz növbəsində bütün cəmiyyətin dəyişilməsinin, yeni ictimai-iqtisadi formasiyanın qərarlaşmasının əsasıdır. Cəmiyyətin tərəqqisi ancaq istehsal üsulunun köklü, əsaslı surətdə yeniləşməsi sayəsində mümkündür; yeni iqtisadi və siyasi strukturlar ancaq sosial inqilab nəticəsində təzahür edə bilər. Ona görə də sosial inqilablar «tarixin lokomotivləridir»; onlar cəmiyyəti yeniləşdirir, onun inkişafını sürətləndirir.

Təkamülçülük konsepsiyası cəmiyyət inkişafının səbəblərini və gedişini başa düşməkdə əhəmiyyətli rol oynamışdır. Belə ki, ictimai inkişafın obyektiv xarakteri etiraf olunmuş, cəmiyyətdəki proseslər geniş kontekstdə, böyük tarixi perspektivdə nəzərdən keçirilmişdir. Lakin təkamülçülük böhranların, geriyə qayıtmaların, bəzi cəmiyyətlərin dağılmasının və sivilizasiyaların məhvinin səbəblərini izah edə bilmədi. Əslində sosial prosesin obyektivliyi ideyası da müəyyən qədər şübhə altına alınırdı: onun əsas parametrləri (bilik, şəxsiyyətin azadlığı, həmrəylik, texniki tərəqqi, məhsuldar qüvvələr) həm də neqativ meyllərin mənbəyi ola bilər. Məlum olmuşdur ki, tərəqqinin bu amilləri fəal dağıdıcı qüvvəyə də çevrilə bilər: bütün dünyanı məhv etməyə qadir olan

silahların yaradılması, ekoloji fəlakətlər doğuran risqlərin artması və s. bu qəbildəndir. Təkamülçülük tarix etibarilə qısa zaman kəsiyində baş verən sosial hadisə və proseslərin də (məsələn, hökumətlərin dəyişilməsi, cinayətkarlığın, fərdlərin davranışında kənaraçıxma hallarının artması və s.) əsaslı izahını verə bilmədi.

Təkamülçülük qeyd olunan məhdudluq təzahürlərini cəmiyyətə münasibətdə yeni yanaşmalarla mümkün qədər aradan qaldırmağa səy göstərmişdir. Bu baxımdan tsiklik inkişaf nəzəriyyəsi (O. Şpenqler, A. Toynbi) və sosial inkişaf nəzəriyyəsi (T. Parsons) diqqəti cəlb edir.

Tsiklik inkişaf nəzəriyyəsi cəmiyyətin təkamülünə onun daha mükəmməl vəziyyətinə doğru düzxətli hərəkət kimi yanaşmır. Bu nəzəriyyəyə görə, təkamül yüksəliş, çiçəklənmə və enmənin spesifik qapalı tsikli, başa çatdıqda yenidən təkrarlanan tsikli kimi təsəvvür olunmalıdır. Cəmiyyətin dəyişilməsi mayaka bənzəyir: müəyyən amillərin fəaliyyəti və təsiri ilə bir nöqtədən başqa nöqtəyə mütərəddid hərəkətlər edən cəmiyyət ortada «soyuyur» və bununla da öz sabitliyini bərpa edir.

T. Parsonsun sosial dəyişikliklər nəzəriyyəsi sistem nəzəriyyəsinə və kibernetikaya əsaslanır. Struktur və onun dəyişilməsi modelinin əsasında müxtəlif sistemlərin (orqanizm, şəxsiyyət, sosial sistem və mədəni sistem)
«kibernetik iyerarxiyası» ideyası dayanır. Həmin sistemlər artan mürəkkəblik dərəcəsinin pillələri kimi nəzərdən keçirilir. O dəyişikliklər daha dərin dəyişikliklərdir ki, onlar T. Parsonsun «etimad sistemi» adlandırdığı mədəni sistemə toxunurlar. İqtisadi və siyasi çevrilişlər cəmiyyətdə mədəniyyətin səviyyəsinə toxunmursa, o, cəmiyyətin öz əsasını da dəyişdirmir. Cəmiyyət sosial sistem olmaq etibarilə davamlılığa, özünü təkraristeh-sal etmək qabiliyyətinə malik olur ki, bu da onun əsas struktur ünsürlərinin sabitliyinin təzahüründə (adaptasiyasında) öz əksini tapır. Müvazinəti qoruyub saxlayan qüvvələrin, elementlərin nisbəti pozularsa, bütövlükdə ictimai sistem, onun əsas struktur ünsürləri dəyişilməz qalır və itirilmiş müvazinət sürətlə bərpa olunur. Dəyişikliklər daxili dəyişikliklər olaraq qalır, sistem isə özündə yeni təşəkkülləri inteqrasiya edərək, bütövlükdə dəyişilməz qalır. Sosial dəyişikliyin bu növü «müvazinətin dəyişilməsi» adlanır.

Sosial dəyişikliyin ikinci növü - «strukturun dəyişilməsi» isə nəzərdə tutur ki, daxilən və kənardan olan güclü təzyiq sayəsində sistem öz müvazinətini bərpa edə bilmir. Sosial sistemin bütövlüyünü saxlamaq üçün sosial altsistemlərin və onların struktur ünsürlərinin (sosial rolların, institutların, təşkilatların) modifikasiyası baş verir. Cəmiyyətin təkamülü sistemin keyfiyyətcə yeni vəziyyətinin meydana çıxması ilə bağlıdır. Parsons onu «təkamül universaliləri» adlandırırdı. Sosial sistemdə əvvəlcə dörd universali təşəkkül tapır: kommunikasiyalar sistemi, qohumluq sistemi, din və texnologiya. Sonra isə həmin sistemdə struktur yenidən-qurması gedir: bürokratiya, pul, bazar kompleksi, normativ tənzimləmə və demokratik birliklər.

T. Parsonsun fikrincə, cəmiyyətin tarixi inkişafı müəyyən mərhələlərdən keçir: bəsit, aralıq və müasir. Bəsit mərhələdən aralıq mərhələyə keçid yazının icad olunması sayəsində mümkün olur. Müasir mərhələyə keçid isə qanunvericiliyin inkişafı ilə bağlıdır. Daha ümumiləşmiş şəkildə cəmiyyətin inkişafını aşağıdakı «təkamül mexanizmlərinə» aid etmək olar:

1. Diferensiasiya - bu, cəmiyyətin quruluşunun mürəkkəbləşməsi ilə bağlıdır;
2. Adaptasiya («adaptiv yüksəlmə») - bu, ətraf mühitlə yeni nisbət yaradılması

(məsələn, yeni texnika, yeni kommunikasiya vasitələri) deməkdir;

3. Cəmiyyətdə üzvlüyün həcmcə artması («inklyuziya»); cəmiyyətdə üzvlüyün əvvəlki meyarları (sinif, etnik mənsubiyyət, cins) təkamül şəraitində öz əhəmiyyətini itirir;

4. Dəyərlərin ümumiləşdirilməsi; dəyişilən cəmiyyətdə dəyərlər və normalar müxtəlif qruplar üçün getdikcə daha az dərəcədə məqbul ola bilir, universal, sosial sistemin tipindən asılı olmayan insan hüquqları və idealları (məsələn, insan hüquqları haqqında BMT-nin Bəyannaməsi) barəsində təsəvvürlər daha geniş yayılmağa başlayır.

T. Parsons belə hesab edir ki, cəmiyyətin təkamül mexanizmləri sosial sistemlərdə spesifik funksiyalarla və altsistemlərlə bağlıdır. Cəmiyyətin ən mühüm altsistemlərinin əlaqələndirilməsi vasitələri pul və hakimiyyətdir. Təsadüfi deyildir ki, müasir sosial sistemlərdə həmin vasitələr sosial münasibətlərə fəal təsir göstərir (məsələn, sosial münasibətlərin siyasiləşməsi). Cəmiyyətin təkamülünə T. Parsonsun sistem yanaşması həm onun struktur yenidənqurmasına səbəb olan, həm də ikinci dərəcəli olan hadisə və prosesləri aydın görməyə imkan verir. Lakin cəmiyyətin inkişafı anlayışı ictimai sistemin normal vəziyyətindən kənara çıxması kimi şərh olunur, yəni həmin anlayışın hüdudları xeyli məhdudlaşdırılır, sistemin təbii vəziyyəti yetərincə nəzərə alınmır.

Beləliklə, cəmiyyət sosial sistem olmaq etibarilə ən mürəkkəb və mübahisəli tədqiqat obyekti olaraq qalır. Ona görə də cəmiyyətin inkişafı, təkamülü barəsində. son dərəcə müxtəlif rəylərin, mövqelərin olması təbii sayılmalıdır.

## 4. Cəmiyyətin əlamətləri

Sosiologiya cəmiyyət haqqında tipik, davamlı, təkrar olunan məqamların ayırd edilməsinə, araşdırılmasına xüsusi diqqət yetirir; həmin məqamlar cəmiyyətin əlamətləri kimi çıxış edə bilər.

Cəmiyyətin əlamətləri sırasında ən əvvəl ərazinin olmasını qeyd etmək olar. Sosial əlaqələrin konsolidasiyası məhz məlum ərazidə baş verir. Ərazi sosial məkanın əsasıdır: fərdlər arasındakı münasibətlər, qarşılıqlı təsirlər burada təşəkkül tapır və inkişaf edir. Təbii landşaftların, flora və faunanın, iqlim şəraitinin və s. rəngarəngliyi, zənginliyi insanların həyati tələbatlarını ödəməyə imkan verir, onların həyat fəaliyyətinə təkrarolunmaz xüsusiyyətlər bəxş edir.

Sosial strukturun, yəni davamlı əlaqələrin olması cəmiyyətin ikinci əlaməti hesab edilə bilər. Məhz həmin əlaqələr sayəsində daxili sosial qarşılıqlı təsirlərin yüksək intensivliyi, təkraristehsalı təmin edilir. Bəşər cəmiyyəti tarixinin ilk mərhələlərində onun davamlılığı başlıca olaraq, şəxsiyyətlərarası qarşılıqlı təsirlər (qonşuluq, qohumluq telləri) hesabına təmin olunurdu: icma münasibətləri qərarlaşmışdı. Cəmiyyətin inkişafının sonrakı mərhələlərində qarşılıqlı təsirlərin bu prinsipləri kifayətləndirici olmadığından sosial strukturların başlıca sabitləşdirici amillər kimi rolu daha aydın təzahür edirdi: sosial institutların, sosial birliklərin rolu etiraf olunurdu. İndi cəmiyyəti sosial strukturlarsız təsəvvür etmək qeyri-mümkündür. Hər bir struktur həyat fəaliyyətinin və qarşılıqlı əlaqənin müəyyən növlərini tənzimləyir və təkraristehsal edir. Məsələn, pul institutu əmək mübadiləsini, ailə institutu nikah münasibətlərini, sosial peşə birlikləri əmək bölgüsünü nizamlayır. Bunların hamısı birlikdə cəmiyyətdə varisliyi (bunsuz sosial əlaqələrin təkraristehsalı mümkün deyildir) təmin edir.

Cəmiyyətin üçüncü əlaməti onun özyetərliliyidir. Bu o deməkdir ki, cəmiyyət kənardan müdaxilə olmadan öz əsas təyinatını yerinə yetirməlidir, yəni insanlara həyat təşkilinin elə formalarını təklif etməlidir ki, həmin formalar onların öz şəxsi məqsədlərinə çatmasına imkan yaratsın. İnsan ancaq cəmiyyətdə sosial karyeraya yiyələnə bilər, zəruri biliklər və vərdişlər qazana bilər, müəyyən peşə fəaliyyəti ilə məşğul ola bilər, öz tələbatlarını ödəyə bilər. Cəmiyyət özünütənzimləmək qabiliyyətinə malik olmalı, müəyyən normalar və prinsiplər əsasında sosial prosesləri, institutların, təşkilatların fəaliyyətini nizamlamalı və idarə etməlidir. Özyetərlilik cəmiyyətin muxtarlığını təmin edir; bu, xarici idarəedici impulslar olmadan fərdlərin özinkişafı, öztənzimi üçün zəruri şərait yaratmaq qabiliyyətini ifadə edir.

Cəmiyyətin dördüncü əlaməti - mədəniyyətin ümumiliyi böyük inteqrasiyaedici qüvvədir; bu, insanların hər bir yeni nəslinin sosiallaşmasında əvəzsiz rol oynayır, onu təşəkkül tapmış münasibətlər sisteminə daxil edir, ümumən qəbul olunmuş norma və qaydalara tabe edir. Mədəniyyətin ümumiliyi cəmiyyətdə mənəvi vəhdətin təkrarsız iqlimini yaradır, mənlik şüurunu fəallaşdırır (xüsusən dil, mənşə, davranış nümunələri, əxlaqi dəyərlər və s. ümumiliyi vasitəsilə). Nəticədə cəmiyyətin inkişafında varislik və yeniləşmə təmin olunur. Dini, milli, iqtisadi və
s. ideyalar güdrətli inteqrasiyaedici qüvvəyə malik olan sosial fenomenlərə konkret misal ola bilər.

Deməli, cəmiyyət sosial əlaqələrin və sosial qarşılıqlı təsirlərin təşkilinin universal üsulu olub, insanların bütün əsas tələbatlarını ödəməyi təmin edir; o, özünütənzimləmə, özünü təkraristehsal qabiliyyətinə malikdir. Xüsusi institutlar, təşkilatlar, normalar, dəyərlər vasitəsilə sosial əlaqələrin möhkəmlənməsi, yeniləşməsi və zənginləşməsi onun fəaliyyətinin aparıcı istiqamətini təşkil edir.

## 5. Cəmiyyətin tipologiyası

Cəmiyyət öz konkret təzahürlərində son dərəcə rəngarəngdir. Müasir cəmiyyətləri müxtəlif parametrlərə görə (məsələn, siyasi quruluş, coğrafi vəziyyət, mədəniyyət, ünsiyyət dili, sabitlik səviyyəsi, sosial inteqrasiya dərəcəsi, əhalinin təhsil səviyyəsi və s.) fərqləndirmək olar. Tipik cəmiyyətlərin universal təsnifatları onların başlıca parametrlərinin ayırd edilməsinə əsaslanır.

Cəmiyyətlərin tipologiyasında əsas istiqamətlərdən biri dövlət hakimiyyəti formalarının ön plana çəkilməsidir. Bu baxımdan totalitar (dövlət sosial həyatın əsas istiqamətlərini müəyyən edir), demokratik (əhali dövlət strukturlarına təsir göstərmək imkanına malikdir) və avtoritar (totalitarizm və demokratiya ünsürləri əlaqələndirilir) cəmiyyətləri ayırd edirlər.

Marksizm cəmiyyətləri istehsal münasibətlərinin tipinə görə fərqləndirir və ibtidai icma, quldarlıq, feodalizm, kapitalizm, sosializm (və ya kommunizm) ictimai-iqtisadi formasiyalarını ayırd edir. Sonuncu xüsusi mülkiyyətçilik münasibətlərinin ləğvini, istehsal vasitələri üzərində mülkiyyətə hamının bərabər münasibətini nəzərdə tutur.

Müasir sosiologiyada ənənəvi, industrial, postindustrial cəmiyyətlər kimi fərqləndirmə daha davamlı tipologiya hesab oluna bilər.

Ənənəvi cəmiyyət (bunu sadə və aqrar cəmiyyət də adlandırırlar) aqrar uklada, az mütəhərrik strukturlara və ənənələrə əsaslanan sosiomədəni tənzimləmə üsuluna malikdir. Fərdlərin davranışına ciddi şəkildə nəzarət olunur. Ənənəvi davranış normaları, adətlər, sabit sosial təsisatlar (xüsusən ailə, icma) çox mühüm məna kəsb edir. İstənilən sosial dəyişikliklərdən, yeniliklərdən imtina olunur. Ənənəvi cəmiyyət üçün istehsalın aşağı inkişaf surətləri xarakterik cəhətdir. Bu tip cəmiyyət üçün davamlı sosial həmrəylik çox əhəmiyyətli amildir. E. Dürkheym vaxtilə Avstraliya aborigenləri cəmiyyətini öyrənərək bu qənaətə gəlmişdi ki, dini etiqadlar cəmiyyətin əxlaqi

vəhdətini qoruyub saxlamaqda çox mühüm rol oynayır. Ova hazırlaşmaqla, nikah mərasimləri və s. ilə bağlı birgə rituallar cəmiyyətin kollektiv ruhunun möhkəmlənməsinə kömək edir.

«İndustrial cəmiyyət» termini hələ O. Kont tərəfindən elmi dövriyyəyə daxil edilmişdi. Belə cəmiyyətin əsasını istehsal, sənayenin inkişafı təşkil edir; bunlar əməyin elmi təşkilinə istinad edir. Sənaye istehsalı fəhlələrin iş yerlərində təmərküzləşməsini nəzərdə tutur. Əmələ gələn işçi kütləsinin sahibkarlarla münaqişəsi yaranır. Zənginliyin artmasının əsas şərti mənfəət ardınca qaçma və rəqabət olur. Lakin artıq istehsalla bağlı olan böhranlar da çoxalır; nəticədə bolluq içərisində yoxsulluq güclənir. İndustrial cəmiyyət sosial həyatın təşkilinin elə tipidir ki, burada fərdlərin azadlığı və maraqları onların birgə fəaliyyətini nizamlayan ümumi prinsiplərlə əlaqələnir. Belə cəmiyyət üçün çevik sosial strukturlar, sosial mobillik, inkişaf etmiş kommunikasiyalar sistemi xarakterik cəhətlərdir.

XX əsrin 60-cı illərində postindustrial (informasiya) cəmiyyət konsepsiyaları (D. Bell, A. Turen, Y. Habermas) meydana gəlir; bu, ən inkişaf etmiş ölkələrin iqtisadiyyatında və mədəniyyətindəki kəskin dəyişikliklərlə şərtlənmişdi. Cəmiyyətdə bilik və informasiyanın, kompüter və avtomatik qurğuların aparıcı rolu etiraf olunur. Zəruri təhsil alan, ən yeni informasiya əldə etmək imkanı qazanan adamlar sosial ierarxiya pilləkanında irəliləmək üçün üstün şanslar əldə edirlər. İnsanın cəmiyyətdə əsas məqsədi yaradıcı əmək olur. Postindustrial cəmiyyətin neqativ tərəfi də var: dövlətin, hakim elitanın informasiyaya müyəssərlik, kütləvi informasiyanın və kommunikasiyanın elektron vasitələri sayəsində insanlar, bütövlükdə cəmiyyət üzərində sosial nəzarəti gücləndirməsi təhlükəsi qalır. Cəmiyyətin həyat dünyası effektivlik və instrumentalizm məntiqinə daha çox tabe olur. Mədəniyyətdə, o cümlədən ənənəvi dəyərlərdə inzibati nəzarətin təsiri altında pozulma meylləri güclənir, çünki belə nə-zarət sosial münasibətlərin, sosial davranışın standartlaşmasına, unifikasiyasına can atır. Cəmiyyət iqtisadi həyat və bürokratik təfəkkür məntiqinə daha çox tabe olur. İnsanlar sosial nailiyyətlərdən istifadə etsələr də, iqtisadiyyatın və dövlətin öz şəxsi həyatlarına müdaxiləsindən müdafiə olunmaq məcburiyyətində qalırlar. Deməli, müasir cəmiyyətin sosial sferası təhlükəsiz deyildir. Ona görə də modernizasiyaya qarşı müqavimət və mübarizə zəminində müəyyən sosial hərəkatlar (məsələn, vətəndaşlıq təşəbbüsləri,
«yaşıllar» hərəkatı, antinüvə hərəkatı və s.) meydana çıxır.

Göründüyü kimi, cəmiyyətin bir pillədən digərinə keçməsinin obyektiv göstəriciləri kimi sənayenin inkişafı, elmi-texniki tərəqqi ön plana çəkilir.

Bir çox tədqiqatçıların (məsələn, D. Bell, A. Kinq, C. Martin, A. Norman, C. Neysbit, İ. Məsud və başqaları) əsərlərində postindustrial cəmiyyətin fərqləndirici xüsusiyyətlərinə xüsusi diqqət yetirilir. Həmin xüsusiyyətlər aşağıdakılardır: əmtəələrin istehsalından xidmətlər iqtisadiyyatına keçilməsi; yüksək təhsilli peşəkar texniki mütəxəssislərin rolunun artması; cəmiyyətdə kəşflərin və siyasi qərarların mənbəyi kimi nəzəri biliklərin öncül mövqeyi; texnika üzərində nəzarət və elmi-texniki yeniliklərin nəticələrini qiymətləndirmək imkanı; intellektual texnologiya yaradılması zəminində, habelə informasiya texnologiyası deyilən texnologiyadan istifadə etməklə qərarların qəbul olunması.

İnformasiya cəmiyyətinin təşəkkülü təsadüfi deyildir. Bu cəmiyyətdə sosial dinamikanın əsası ənənəvi maddi ehtiyatlar deyil, informasiya (intellektual) biliklərdir,

elmi, təşkilati amillərdir, insanların intellektual qabiliyyətləri, təşəbbüsləri, yaradıcıhqlarıdır. Formalaşmaqda olan informasiya cəmiyyətinin tələbatları informasiya texnologiyalarının, necə deyərlər, həyat vəsiqəsi almasını zəruri etmişdir.

İndustrial cəmiyyətdən informasiya cəmiyyətinə keçilməsi zamanı sosial həyatın bütün sahələrində informasiya ehtiyatlarının toplanması ilə onlardan istifadə olunması arasındakı məhdudiyyətlər aradan qaldırılır; bu, sosial proseslərin dinamikasının artmasına, ictimai tərəqqinin sürətlənməsinə səbəb olur. Deməli, informasiya cəmiyyətində informasiya axınları və massivləri sosial inkişafı müəyyən edir, mövcud ehtiyatlar və amillərlə müqayisədə prioritet istiqamətlidir; burada əhalinin mütləq əksəriyyəti və ya hamısı informasiya fəaliyyəti ilə (əlbəttə, fərqli səviyyədə) məşğul olur.

Elmi ədəbiyyatda informasiya cəmiyyətinin gələcəkdə informasiya-ekoloji cəmiyyətə keçəcəyı fikri də öz əksini tapmışdır. Mütəxəssislərin fikrincə, informasiya cəmiyyəti ekoloji sağlamlaşma imkanlarını artırmalıdır. İnformasiya-ekoloji cəmiyyət ekoloji problemləri effektli həll etməyi bacaran, ekotələbatların, ekodəyərlərin və imperativlərin tarazlığını təmin edən, yüksək ekoloji mədəniyyətə, əxlaqa, şüura əsaslanan cəmiyyətdir. Başqa sözlə, o, sosiumun yeni qlobal vəziyyətidir, noosferanın təşəkkülünün növbəti mərhələsidir.

Müasir sosiologiyada cəmiyyətin sistem-struktur və münaqişə konsepsiyaları geniş yayılmışdır. Onları yığcam şəkildə nəzərdən keçirək.

Sistem-struktur konsepsiyalar cəmiyyəti müəyyən birlik, bütövlük kimi nəzərdən keçirir. Cəmiyyətin dəyişilməsi konsensusun (cəmiyyət üzvləri arasında qarşılıqlı razılığın), müvazinətin pozulması ilə bağlıdır, onu bərpa etmək üçün cəmiyyətin sosial təşkilini dəyişdirmək zəruridir. A. Malinovskinin fikrincə, sosial sistem olan cəmiyyətin ünsürləri insanların əsas tələbatları ilə bağlıdır. İnsanlar öz tələbatlarını ödəmək üçün birləşməyə məcburdur. Buna əlaqələndirmə, idarəetmə institutları kömək edir. Deməli, cəmiyyət bir sistem olmaq etibarilə insanın öz təbiəti ilə şərtlənmişdir. K. Erikson cəmiyyəti özü inkişaf edən sosial sistem kimi nəzərdən keçirirdi;

onun hüdudları və birliyi sosial nəzarət metodları ilə təmin edilməlidir. O, cinayətkarlıq faktlarını araşdıraraq, bu qənaətə gəlirdi ki, həmin faktlar cəmiyyətin hüdudlarını dəyişdirmək cəhdləridir. Bu kənaraçıxmalar cəmiyyətin qalan üzvlərinə cəmiyyətin birliyini qoruyub saxlamaq üçün davranış normalarına əməl olunmasının zəruriliyini başa düşməkdə, yəni sosial konsensusun saxlanmasını dərk etməkdə kömək edir.

T. Parsons belə hesab edirdi ki, sosial sistem böyük insan fəaliyyəti sisteminin altsistemlərindən biridir. Öz növbəsində sosial sistemdə daha dörd altsistemi ayırd etmək olar: mədəniyyət sistemi; siyasi sistem; iqtisadi sistem; sosietal sistem. Üç əvvəlki sistemlər sonuncu sistemin fəaliyyət mühitini qərarlaşdırır. Cəmiyyətin özəyini strukturlaşdırılmış normativ nizam təşkil edir; bunun vasitəsilə əhalinin kollektiv həyatı təşkil olunur. Nizam dəyərləri, normaları və qaydaları ehtiva edir. Məhz nizam sayəsində fərdlərin cəmiyyətə mənsubiyyət meyarı, məlum ərazidə onların davranışı üzərində nəzarət ölçüsü müəyyənləşir, kollektiv vahid bütövlük kimi fəaliyyət göstərə bilir. Eyni zamanda məlum normativ nizam sosietal birlik üzvlərinin statuslarının, hüquq və vəzifələrinin toplusu kimi səciyyələnir; onlar vahid mədəni oriyentasiya zəminində müxtəlif fərdlər və qruplar üçün fərqlidir. Sosial səviyyədə cəmiyyət davamlı, qarşılıqlı surətdə əlaqəli, inteqral bütövlük olub, mədəni və sosial- struktur diferensiasiyaya malikdir. Cəmiyyətdə qeyri-adekvat sosiallaşmaya malik adamlar (deviantlar adlandırılan şəxslər) mövcuddur; onlar cəmiyyətin dəyər və normalarını yetərincə mənimsəməmişlər. Deviasiya müvazinətdən kənara çıxmadır, ona görə də sosial nəzarətin müxtəlif vasitələrindən istifadə edilməsi zəruridir.

Mədəni sistem cəmiyyətdə normativ nizamın legitimləşdirilməsi (qanuniləşdirilməsi) funksiyasını yerinə yetirir: sosial icazələr və qadağanlar üçün əsaslar formalaşır.

Orqanizmlər və fiziki əhatə cəmiyyətin mühiti kimi çıxış edir; onlar sosial sistemin mövcudluğu üçün zəruri şərtləri təmin edir. Bütün fiziki kompleksin özəyi iqtisadi sistemdir. İqtisadiyyat təkcə texniki-texnoloji prosedurların sosial cəhətdən nizamlanması üçün yox, həm də onların sosial sistemə qoşulması üçün, onlar üzərində fərdlərin, qrupların mənafeləri naminə nəzarətin həyata keçirilməsi üçün fəaliyyət göstərir. İqtisadiyyatın başlıca funksiyası cəmiyyətdə mövcud olan rəngarəng tələbatların ödənilməsi üçün ehtiyatların səfərbər edilməsidir. Cəmiyyətlə onu əhatə edən mühitin tarazlı qarşılıqlı təsiri onun sabit fəaliyyətinin, birliyinin, bütövlüyünün mühüm şərtidir. T. Parsonsun fikrincə, istənilən sosial sistem, ən əvvəl cəmiyyət kifayət səviyyədə daxili nizamlılığa malik olmalıdır.

Adətən cəmiyyətin dörd böyük sferasını ayırd edirlər: iqtisadi, siyasi, sosial, mənəvi. Bu sferalar və onların ayrı-ayrı elementləri bir-birinə fasiləsiz surətdə qarşılıqlı təsir göstərir, dəyişilir, yeniləşir. Bu sferalardan hər hansı birinin mütləqləşdirilməsi və ya onun əhəmiyyətinə laqeydlik göstərilməsi bütün cəmiyyətin taleyində fəlakətli iz buraxa bilər.

Sosial münaqişələr nəzəriyyəsinin tərəfdarları cəmiyyətdə mübarizəyə, daxili qarşıdurmaya, böhranlara xüsusi diqqət yetirirlər. Bu halda onların mülahizələrinin çıxış məqamı kimi qeyd olunur ki, cəmiyyətdə müxtəlif sosial qrupların mənafelərində uyğunsuzluq, ziddiyyət, əkslik mövcuddur; həmin qruplar öz tələbatlarını ödəmək, öz maraqlarını reallaşdırmaq üçün səy göstərdiklərindən onların bir-biri ilə toqquşması, mübarizə aparması labüd olur. Sosial münaqişələr cəmiyyətin simasını, onun əsas sosial təsisatlarını və ya ünsürlərini dəyişdirir. Cəmiyyətin dəyişilməsi mexanizmini fəaliyyətə gətirən başlıca amil sosial mənafe olur; o, sosial sistemin qarşılıqlı təsirinin, fəaliyyətinin

bazası kimi çıxış edir.

Münaqişələrin sosioloji nəzəriyyəsini işləyib hazırlamaqda məşhur olan Amerika sosioloqu L. Kozer funksional təhlili təkmilləşdirməyə səy göstərərək, sübut edirdi ki, münaqişə cəmiyyətin daxili həyatının məhsuludur. Mövcud sosial sistemin sabitliyi probleminin həlli sosial toqquşmaları, münaqişələri, mənafelərin mübarizəsini nəinki rədd etmir, əksinə, tamamilə etiraf edir; bu, sosial münasibətlərin ayrılmaz atributlarındandır. İstənilən sosial sistem fərdlər və sosial qruplar arasında hakimiyyətin, sərvətin, status mövqelərinin müəyyən bölgüsünü nəzərdə tutur. Heç zaman ayrıca şəxsin və ya qrupun mövcud bölgü sistemi nəticəsində faktiki nail olduğu ilə arzusunda olduğu, daha ədalətli hesab etdiyi pay arasında tam uyğunluq olmur; onların öz xüsusi paylarını artırmaq cəhdləri münaqişəni şərtləndirir.

Münaqişələr cəmiyyətdə bir sıra pozitiv funksiyalar da yerinə yetirirlər. Belə ki, onlar qarşılıqlı etimadsızlığın, düşmənçiliyin araşdırılmasına, gərginliyin zəiflədilməsinə səbəb olur ki, bu da gələcəkdə tərəflərin qarşılıqlı münasibətlərinin yeniləşməsinə imkan verir. Bundan əlavə, münaqişələr ümumi mənafelərin təzahürü zəminində daxili düşmənlərə qarşı mübarizədə insanları birləşdirərək, cəmiyyətdə inteqrasiyaedici rol yerinə yetirirlər. Münaqişələr müəyyən çağırışlara cavab olaraq, həqiqi mübarizənin mənbəyi kimi sosial dəyişikliklərin stimullaşdırılması və sürətləndirilməsi funksiyasını da həyata keçirirlər.

Məşhur alman sosioloqu R. Darendorf sosial münaqişənin mahiyyətini hakimiyyətlə ona müqavimət göstərilməsi arasındakı antaqonizmdə görürdü. Çünki hakimiyyət həmişə hakimiyyətsizliyi, deməli, hakimiyyətə müqavimət göstərilməsini nəzərdə tutur. Hakimiyyətə müqavimətin dinamikası tarixin hərəkətverici qüvvəsidir, cəmiyyətdəki dəyişikliklərin sürət və istiqamətlərini müəyyən edir. Sivilizasiyalı, yüksək dərəcədə mobil cəmiyyətdə «sosial sarsıntıları qabaqlamaq» vasitəsi kimi münaqişələrin nizamlanması praktikası mövcuddur. Cəmiyyətin münaqişə modeli «ən ümumi bərabərlik, sosial nizam, sabitlik» modelindən daha üstündür.

Amerika sosioloqu F. Perkin müasir cəmiyyətdə münaqişəni zülm olunanlarla imtiyazlıların qarşıdurması kimi nəzərdən keçirir. Lakin onların mübarizəsi sosial ziddiyyətləri həll edən və ya yumşaldan incə mexanizmlər (məsələn, sosial mobilik, zülm olunanların tələbatlarının aşağı səviyyəsi, dinin təsiri və s.) sayəsində üsyanlara gətirib çıxarmır. Bölgü sisteminin daha çox bazar vasitəsilə formalaşması hökmran elitanın zəruri saydığı istiqamətdə cəmiyyətə təsir göstərməsinin gizli mexanizmlərini qavramaqda müəyyən çətinliklər yaradır. Beləliklə, sosial münaqişə konsepsiyası cəmiyyətdə mübarizəni, düşmənçiliyi, zorakılığı onun real surətdə fəaliyyətinin tərkib hissəsi kimi, bir mexanizmi kimi nəzərdən keçirir.

Bunların əsasında insanın predmet fəaliyyəti üsullarının, ünsiyyət vasitələrinin inkişafı dayanır.

Sosiologiyanın kateqoriyaları real gerçəkliyin və idrakın mühüm, qanunauyğun sosial əlaqələrini və münasibətlərini əks etdirən ən ümumi, fundamental anlayışlardır. Bunlar sosioloji biliyin başlıca «pillələridir», təfəkkürün sosial gerçəkliyin mahiyyətinə nüfuz məqamlarıdır.

Obyektiv gerçəklik inkişaf etdikcə, sosioloji bilik dərinləşdikcə həm yeni kateqoriyalar meydana gəlir, həm mövcud kateqoriyaların zənginləşməsi baş verir, həm də ayrı-ayrı kateqoriyaların yeri və rolu dəyişir. Sosiologiyanın kateqoriyalar sisteminin əsas ünsürlərinin müəyyənləşdirilməsi onun inkişaf məntiqini aşkara çıxarmağa imkan verir. Hər bir sosial kateqoriya sosial kateqoriyalar sisteminin yalnız bir ünsürü kimi dərk oluna bilər.

Sosiologiyanın ən mühüm kateqoriyaları sırasına bunları aid etmək olar: «sosial», «sosial struktur», «sosial münasibətlər», «sosial təsisatlar», «sosial qanunlar» və s.

Bu kateqoriyalardan hər biri daha az ümumilik dərəcəsində bir-biri ilə qarşılıqlı surətdə bağlı olan kateqoriyalar sistemi kimi təsəvvür olunmalıdır. Məsələn, «sosial struktur» kateqoriyası «sosial-sinfi struktur», «sosial - demoqrafik struktur», «sosial-etnik struktur», «sosial-ərazi birliyi» kimi kateqoriyaları əhatə edir. Öz növbəsində bunlar da ümumilik səviyyəsi nisbətən az olan kateqoriyaları əhatə edə bilər.

Hazırda sosiologiyanın mühüm vəzifələrindən biri əhatə etdiyi kateqoriyaların elə sistemini yaratmaqdan ibarətdir ki, o, sosioloji biliyin formalaşmasını və inkişafını daha adekvat əks etdirsin.

## Mühazirə 2. Şəxsiyyət sosial sistemdir

1. Şəxsiyyət anlayışı
2. Şəxsiyyətin sosiallaşması və onun mərhələləri
3. Şəxsiyyətin sosial fəaliyyət mexanizmləri
4. Şəxsiyyətin deviant davranışı

### 1.Şəxsiyyət anlayışı

İnsan sadəcə olaraq sosial sistemin ünsürü deyildir; o həm də mürəkkəb struktura malik olan sistemdir. Ona görə də şəxsiyyət problemi onu bir tam, bir sistem kimi açıqlamağa imkan verən, müxtəlif elm sahələrində çalışan mütəxəssislərin səylərini fəal şəkildə birləşdirməyi zərurətə çevirən geniş kontekstdə öyrənilməlidir. Bu bir həqiqətdir ki, müxtəlif bilik sahələrinin hər biri həmin problemə öz predmetinə uyğun surətdə müraciət edir. Şəxsiyyətə bir sosial sistem kimi yanaşan sosiologiya başlıca diqqəti onun təşəkkülü və inkişafının sosial qanunauyğunluqları, həmin qanunauyğunluqların təzahür xüsusiyyətləri üzərində cəmləşdirir. Şəxsiyyət probleminin sosiologiyadakı əhəmiyyətini bundan görmək olar ki, bütöv bir sahə - şəxsiyyətin sosiologiyası təşəkkül tapmışdır. Xatırlatmaq yerinə düşər ki, vaxtilə şəxsiyyətin sosiologiyasının mövcudluğu bir çoxları tərəfindən ancaq Qərbin təsiri kimi qiymətləndirilirdi.

Şəxsiyyət anlayışının özünü dəqiqləşdirməyə ehtiyac vardır. Elmi ədəbiyyatda bu barədə çox müxtəlif mülahizələr söylənilsə də, onları əsasən iki qrupda birləşdirmək olar.

**Birincisi,** şəxsiyyət normativ kateqoriya kimi izah edilir, yəni onun mahiyyəti insanın şüuruna və fəaliyyətinə aid olan müsbət keyfiyyətlərlə əlaqələndirilir. Bu halda bəziləri yaş etibarilə yetkinliyi və psixi cəhətdən normal olmağı, bəziləri yüksək mənəviyyatı, şüurluluğu, məsuliyyəti, bəziləri fikirlərin müstəqilliyini, baxışların müəyyənliyini, hisslərin orijinallığını, iradə qüvvəsini, daxili intizamı və s. şəxsiyyət olmaq üçün vacib normalar hesab edirlər. Məsələyə bu cür yanaşılması elmi cəhətdən doğru deyildir. Çünki insanların bir qismini şəxsiyyət kimi, digər qismini isə qeyri-şəxsiyyət

kimi səciyyələndirmək şəxsiyyət anlayışının tarixən yaranması faktına uyğun gəlmir, ümumiyyətlə, şəxsiyyət probleminin həm nəzəri, həm də praktik səpgidə öyrənilməsi işinə lüzumsuz çətinliklər əlavə edir. Bu cür yanaşma əslində normativ əlamətlər əsasında insan və şəxsiyyət anlayışlarını nisbətən kəskin hədlərlə bir-birindən ayırır. Burada xatırlatmaq yerinə düşər ki, hüquq nəzəriyyəsi və praktikası insanların şəxsiyyət və qeyri-şəxsiyyət kimi ayrılmasını məqbul saymır.

**İkincisi,** şəxsiyyət öz tipik və fərdi cəhətlərinin vəhdətində konkret insan kimi izah edilir. Bu nöqteyi-nəzər

şəxsiyyət anlayışını daha dəqiq əks etdirir.

Şəxsiyyət anlayışını fərd və fərdiyyət anlayışları ilə müqayisə etdikdə onun mahiyyətini daha aydın təsəvvür etmək olar.

«Fərd» anlayışı bəşər nəslinin hər hansı ayrıca nümayəndəsini ifadə etmək üçün işlədilir. Məlum olduğu kimi, sosial fəlsəfədə bu anlayış müəyyən sosial bütövün yeganə nümayəndəsini ifadə edir. Həmin anlayışın köməyi ilə hər bir ayrıca adamın şəxsiyyət kimi formalaşdığı sosial şəraitdən mahiyyətcə asılılığı nəzərə çarpdırılır. İnsan sosial münasibətlərin məhsulu kimi mövcud olur və fəaliyyət göstərir. Cəmiyyət sadəcə olaraq fərdi əhatə edən «mühit» deyildir, həm də onun «daxilində» yaşayan fenomendir. Təsadüfi deyildir ki, insanın fərdi davranışında bu fenomenin müxtəlif amilləri (məsələn, mədəniyyətin səviyyəsi, həyat fəaliyyətinin formaları, üsulları və s.) dərin iz buraxır. Ona görə də insan məlum cəmiyyətin yaratdığı şəraiti, imkanları nəzərə almaq məcburiyyətində qalır. Lakin bu o demək deyildir ki, fərdi mövcudluq şəraiti insanın sonrakı davranışını irəlicədən birdəfəlik və həmişəlik müəyyən edir. İnsan davranışının öz sosial-qrup vəziyyətinə müncər edilə bilməməsi, bu davranışın mövcud ilkin amillərə münasibətdə nisbi müstəqil olması, şəxsin öz fərdi siması üçün məsuliyyət daşıması, cəmiyyətin nəzərində müəyyən dəyər, məna kəsb etməsi - bütün bunlar fərd anlayışının deyil, şəxsiyyət və fərdiyyət anlayışlarının köməyi ilə qeydə alınır. İnsanlar özlərində sosial cəhətdən əhəmiyyətli keyfiyyətlər işləyib hazırlamışlar ki, bunları da ifadə etmək üçün şəxsiyyət və fərdiyyət anlayışlarından istifadə edilir. Bu iki anlayış məna etibarilə bir-birinə çox yaxındır və qarşılıqlı surətdə əlaqəlidir. Görünür məhz buna görə də həmin anlayışları çox zaman bir-birini əvəz edə bilən eynimənalı anlayışlar kimi işlədirlər. Lakin şəxsiyyət və fərdiyyət anlayışlarında müəyyən məna çalarını fərqləndirmək mümkündür. İnsan şəxsiyyətdir, çünki onun öz sosial siması vardır; insan həm də fərdiyyətdir, çünki onun xüsusi, spesifik, təkrarolunmaz xassələri mövcuddur.

Fərdiyyət nəinki müxtəlif qabiliyyətlərin təzahürüdür, həm də onların müəyyən bütövlüyüdür. Bu halda adətən qabiliyyətlərdən biri digərləri ilə müqayisədə üstün mövqe tutur, onların əlaqələndirilməsinin orijinal üsulunu müəyyən edir. Lakin fərdiyyət anlayışı bütün insan fəallığını tam həcmdə əhatə edə bilmir. Fərdiyyətin yetkinləşməsi, dolğunlaşması, ahəngdarlaşması

xeyli dərəcədə şəxsiyyət strukturundan asılıdır. Fərdiyyət anlayışı insan fəaliyyətinə özünəməxsusluq və təkrarolunmazlıq, çoxcəhətlilik və ahəngdarlıq, təbiilik və sərbəstlik ölçüsü ilə yanaşdığı halda, şəxsiyyət anlayışı bu fəaliyyətdə şüurlu-iradi başlanğıcı nəzərə çarpdırır. Şəxsiyyət anlayışı

ancaq ictimai münasibətlər sistemində, fərdin öz sosial rolunu necə başa düşməsi, ona necə münasibət bəsləməsi və onu yerinə yetirməsi nəzərə alınmaqla düzgün mənalandırıla bilər. Bu baxımdan fəaliyyət, şüur və şəxsiyyət problemlərini qarşılıqlı əlaqədə nəzərdən keçirən L. N. Leontyevə haqq qazandırmaq olar: «Şəxsiyyət olaraq doğulmurlar, şəxsiyyət olaraq təşəkkül tapırlar».

## 2. Şəxsiyyətin sosiallaşması və onun mərhələləri

Şəxsiyyətin sosiallaşması barədə söylənilən mülahizələrdə az-çox fərqli məqamlara rast gəlsək də, əslində
mahiyyətli fərqlər nəzərə çarpmır.

**Şəxsiyyətin sosiallaşması fərdin cəmiyyətə, müxtəlif tipli sosial birliklərə inteqrasiyası prosesidir.** Bu proses fərdin mədəniyyət ünsürlərini, sosial norma və sərvətləri mənimsəməsi sayəsində mümkün olur. Həmin ünsürlərin, norma və sərvətlərin əsasında şəxsiyyətin sosial cəhətdən əhəmiyyətli xüsusiyyətləri formalaşır.

Yeri gəlmişkən qeyd edək ki, tədqiqatçıların xeyli hissəsi uşaq yaşlarında sosiallaşmaya daha çox diqqət yetirir. Bu halda diqqət ən əvvəl ailəyə yönəlir, çünki ailə insanın həyatında ilk sosiallaşdırıcı özəkdir. Bundan başqa, ailə emosional əlaqələrin çox böyük intensivliyi ilə xarakterizə olunur. İlkin sosiallaşma fərdin həyatında həlledici məqam olub, onun şəxsiyyətini, sosial həyatda sonrakı inkişafını bir çox cəhətdən müəyyən edir.

Bir sıra müəlliflər belə hesab edirlər ki, sosiallaşma uşaqlıqla başa çatmır, əməli surətdə bütün həyat ərzində davam edir. Başqa sözlə, fərd müxtəlif sosial rolların yerinə yetirilməsi zərurəti ilə qarşılaşır. Bundan əlavə, sürətli sosial və texniki-texnoloji dəyişikliklər şəraitində müəyyən yaş yetkinliyi olan adamlar da əvvəllər qəbul edilmiş davranış nümunələrini yeni bacarıq və vərdişlərlə əvəz etmək məcburiyyətində qalırlar.

Fərd cəmiyyətə, sosial qrupun, təsisatın, təşkilatın ünsürünə necə qoşulur - sosiallaşma prosesində bunlar çox mühüm cəhətlərdir. Sosial qrupun, təsisatın, təşkilatın şəxsiyyətə təsir göstərmək qabiliyyəti, habelə şəxsiyyətin başqa adamların təsirinə məruz qalmaq qabiliyyəti məhz bu cəhətlərdən asılıdır. Lakin unudulmamalıdır ki, insan həm öz xüsusi vəziyyətinin, həm də bütövlükdə ictimai həyatın yeniləşməsinə spesifik təsir göstərir. Onun fəaliyyəti üzvi surətdə müxtəlif sosial sistemlərin fəaliyyət mexanizmlərinə qoşulur. Deməli, şəxsiyyət qarşılıqlı sosial təsirin, fəaliyyətin həm obyekti, həm də subyektidir. Cəmiyyətdə sosial sistemlə şəxsiyyətin qarşılıqlı fəaliyyəti müəyyən təsir mexanizmlərinin köməyi ilə həyata keçirilir. Bu, həm sosial sistemlərin fərdin sosial keyfiyyətlərinə olan təsiridir, həm də əksinə olan təsirdir. Birinci halda fərdin sosiallaşması mexanizmindən, ikinci halda isə sosial sistemin dəyişilməsi mexanizmindən söhbət gedir.

Şəxsiyyətin sosiallaşmasında iki mərhələni ayırd etmək olar: **1) sosial adaptasiya; 2) interiorizasiya.**

Sosial adaptasiya fərdin sosial-iqtisadi şəraitə, rol funksiyalarına, cəmiyyətin həyat fəaliyyətinin müxtəlif səviyyələrində təşəkkül tapan sosial normalara, sosial qruplara və sosial təşkilatlara, sosial təsisatlara uyğunlaşması kimi izah edilə bilər.

Qeyd etmək lazımdır ki, üzvi təbiətdə müxtəlif adaptasiyalar geniş yayılmışdır. Mövcudluq uğrunda mübarizənin və təbii seçmənin nəticəsi kimi adaptasiyanın rasional şərhi Darvinin təkamül təlimində öz əksini tapmışdır. Kibernetikanın meydana gəlməsi

adaptasiya anlayışında spesifik çalarlar formalaşdırmışdır. Sosial sistemlərə adaptasiya probleminin tədqiqi müxtəlif bilik sahələrini təmsil edən mütəxəssislərin əlbir səylərinə möhtacdır. İnsana, cəmiyyətə münasibətdə adaptasiya başlıca olaraq, ətraf mühitə uyğunlaşmaqla bağlı olan reaksiya xarakterli davranışı əks etdirir.

İnteriorizasiya sosial normaların və sərvətlərin insanın daxili aləminə qoşulması prosesidir. Xarici mühitin sosial normalarının, sərvətlərinin və digər komponentlərinin daxili «Mən»ə keçməsinin xarakteri hər bir konkret şəxsiyyətin strukturu ilə şərtlənmişdir. Bu struktur isə bütün əvvəlki təcrübə sayəsində formalaşır. Şəxsiyyət sosial mühitdə, necə deyərlər, əriyib yoxa çıxmır, həmin mühitlə az - çox müstəqil vahid kimi müəyyən münasibətdə olur.

## 3. Şəxsiyyətin sosial fəaliyyət mexanizmləri

Şəxsiyyətin sosial fəaliyyətinin, sosial davranışının şərtlənməsində obyektiv həyat şəraiti həlledici məna kəsb edir. Bu şərait müəyyən tələbatlar və mənafelər doğurur. Mənafelər öz növbəsində insanlarda fəaliyyətə bu və ya digər motivləri formalaşdırır. Bu halda obyektiv şərtlənmə subyektiv şərtlənməyə keçir. Belə keçid üç qrup mexanizmləri birləşdirən fəaliyyətin nəticəsidir: **a)** insanın sosial fəaliyyətinin motivləşdirilməsi, yəni tələbatların mənafelər kimi dərk olunması; **b)** şəxsiyyətin mənafelərinin fəaliyyət məqsədinə çevrilməsi; **c)** insanın fərdi davranışı və münasibətləri.

Yeri gəlmişkən qeyd etmək olar ki, subyektiv şərtlənmədən obyektiv şərtlənməyə də keçid baş verir. Belə keçid iki qrupda birləşdirilə bilən mexanizmlər sayəsində mümkündür: **a)** fərdi davranışdan və fərdi münasibətlərdən şəxsiyyətlər qrupunun sosial davranışına və sosial münasibətlərinə keçilməsi; **b)** sosial

qanunauyğunluqların sosial münasibətlərdə təzahürü. Bu münasibətlər, təbiidir ki, cəmiyyətin həyat fəaliyyətinin müxtəlif səviyyələrində formalaşır.

Tələbatlar insanın xarici aləmdən obyektiv asılılığını ifadə edir. Buna görə də insanın bütün praktik fəaliyyəti tələbatların ödənilməsi forması kimi nəzərdən keçirilə bilər. Tələbatların ödənilməsinin real imkanlarını dərk etmək mühüm sosial məna kəsb edir.

Tələbatların müxtəlif növlərinin (məsələn, təbii və sosial tələbatlar; fərdin ailəyə, sosial birliklərə, istehsal və qeyri-istehsal fəaliyyəti sferalarına, bütövlükdə cəmiyyətin həyat fəaliyyətinə qoşulması ilə bağlı tələbatlar və s.) yığcam təhlili göstərir ki, insan tələbatlarının ali səviyyəsini sərvətlərin mənimsənilməsi təşkil edir.

Şəxsiyyətin mənafeyi bu və ya digər tələbatı ödəmək imkanından asılı olaraq, onun fəaliyyət istiqaməti kimi başa düşülə bilər. Sosial qanunların insanların fəaliyyətində təzahürü mənafelərlə vasitələnir, məhz onlarla özünə yol açır.

Sosiologiyada mənafelərin dörd tipini ayırd edirlər:

1. **Mənafe-münasibət** (müəyyən obyektə marağın şifahi şəkildə bəyan edilməsi);
2. **Mənafe-fəaliyyət** (müəyyən fəaliyyət növündə iştirak etməklə mənafeyin praktik təzahürü);
3. **Mənafe-ustanovka** (uzunmüddətli qarşılıqlı fəaliyyət prosesində təşəkkül tapır, müxtəlif vəziyyətlərdə öz istiqamətini saxlayır);
4. **Mənafe-yönüm** (müxtəlif mənafelər arasında birinin başlıca mənafe kimi ayırd edilməsi).

Bu bir həqiqətdir ki, sosial vəziyyət dəyişir, yeniləşir. Yeniləşən vəziyyətdə insan öz mənafelərini, maraqlarını dəyişdirə bilmirsə, onda adaptasiya mexanizmləri fəaliyyətə başlayır, yəni insanı öz davranışını dəyişdirməyə məcbur edir.

Tələbatların, sərvət yönümlərinin və mənafelərin qarşılıqlı təsiri sosial fəaliyyətin motivləşdirilməsi mexanizmi kimi başa düşülə bilər. Fəaliyyətin motivləri fəaliyyətə konkret daxili sövqedicilərdir, insanların şüurunda obyektiv tələbatların və mənafelərin əks olunmasıdır.

Sosial davranışda fəaliyyətin zahiri təzahürü kimi insanın konkret mövqeyi, onun ustanovkası üzə çıxır. Konkret vəziyyətdə şəxsiyyətin, yaxud sosial qrupun müəyyən fəaliyyətə sosial cəhətdən şərtlənmiş meylliliyini ustanovka adlandırmaq olar. Elmi ədəbiyyatda şəxsiyyətin ustanovkalarının müxtəlif səviyyələrindən bəhs edirlər. Dörd səviyyəni səciyyələndirmək məqsədəuyğundur:

Birinci səviyyə - elementar qeydəalma ustanovkaları. Bunlar fəaliyyətə hazırlığı ifadə edir.

İkinci səviyyə-sosial obyektlərin və vəziyyətlərin qiymətləndirilməsi zəminində meydana gələn sosial ustanovkalar. Bunları çox vaxt «vəziyyət ustanovkaları» adlandırırlar.

Üçüncü səviyyə - sosial fəaliyyət sferalarında şəxsiyyətin fəaliyyətinin ümumi istiqamətini müəyyən edən ustanovkalar. Bunları adətən «sərvət yönümləri ustanovkaları» adlandırırlar.

Dördüncü səviyyə - həyat fəaliyyətinin məqsədləri və onların reallaşdırılması üçün müəyyən vasitələrdən istifadə olunması baxımından şəxsiyyətin fəaliyyətinin istiqamətini müəyyən edən ustanovkalar. Bunları çox vaxt
«mənafe ustanovkaları» adlandırırlar.

Ustanovkaların qeyd edilən dörd səviyyəsinə uyğun olaraq, şəxsiyyətin sosial davranışının dörd səviyyəsindən bəhs etmək olar:

**Birinci səviyyə** subyektin aktual predmet vəziyyətinə, xarici mühitin təsirlərinə reaksiyasından ibarətdir (davranış aktları).

**İkinci səviyyə** adi fəaliyyəti, adi hərəkətləri əhatə edir. Bu hərəkətlər adətən nəticənin necə əldə olunacağı barəsindəki təsəvvürə tabe edilir.

**Üçüncü səviyyə** həyat fəaliyyətinin bu və ya digər sferasında insanların hərəkətlərinin, fəaliyyətlərinin məqsədyönlü ardıcıllığını ifadə edir.

**Dördüncü səviyyə** həyat əhəmiyyətli məqsədlərin reallaşdırılması prosesidir.

Fəaliyyət öz mahiyyətinə görə insandan onun inkişafının bütövlüyünü, tamlığını tələb edir. Bütövlük şəxsiyyətin rəngarəng qabiliyyətlərinin vəhdətini, fəaliyyət prosesində zehni və fiziki qüvvələrinin üzvi əlaqəsini əks etdirir. Şəxsiyyətin sosial fəallığı nə qədər yüksəkdirsə, onun «insan-təbiət», «insan-sosial mühit» və «insan- insan» münasibətləri sistemləri ilə qarşılıqlı təsiri nə qədər səmərəli, nə qədər məhsuldardırsa, bütövlük də bir o qədər davamlıdır.

## 4. Şəxsiyyətin deviant davranışı

Deviant (kənara çıxan) davranış spesifik sosial hadisədir. Belə davranış «məlum cəmiyyətdə rəsmən qərarlaşmış və ya faktik surətdə təşəkkül tapmış normalara (standartlara, şablonlara) uyğun gəlməyən insan fəaliyyəti formalarında ifadə olunur».

Qeyd etdiyimiz sosial hadisənin daşıyıcıları müəyyən şəxslərdir, bəzi qruplardır; onlar şüurlu və ya kortəbii surət-də cəmiyyətdə mövcud olan tələblərlə və davranış normaları ilə konfliktə girirlər.

İnsanların şüurunda və davranışında deviasiya (kənara çıxma) adətən tədricən yetişir. Bu baxımdan sosiologiyada «ilkin deviasiya» anlayışının işlədilməsi diqqəti cəlb edir. Həmin anlayışın mənasını belə izah etmək olar: ilk vaxtlar müəyyən kənara çıxma hallarına ətrafdakılar, necə deyərlər, barmaqarası yanaşırlar, hər hansı qaydanı pozan şəxs isə özünü bu cür qiymətləndirmir. Belə kənara çıxma halları isə əhəmiyyətsiz qüsurlar və ya qeyri-əxlaqi hərəkətlərə lap yaxın olsalar da, müəyyən zaman ərzində nəzərə çarpmaya bilərlər. Məsələn, təsadüfi adamlarla spirtli içkilərin içilməsi - ictimai əxlaqın pozulmasına gətirib çıxaran bu hadisə müəyyən müddətdə diqqətdən kənarda qala bilər.

Kənara çıxan davranışın ikinci səviyyəsi də vardır; bu, ikinci deviasiya adlanır. Bu halda ətraf sosial qrup və ya rəsmi təşkilatlar tərəfindən həmin davranışın daşıyıcısı açıq şəkildə əxlaq və ya hüquq normalarının pozucusu kimi etiraf olunur. Başqa sözlə, həmin davranışa müəyyən reaksiya özünü göstərir.

Kənara çıxan davranışı təhlil edərkən deviasiyanın fərdi və ya kollektiv formalarını fərqləndirmək vacibdir. Fərdi forma dedikdə, əxlaq və hüquq tələblərinin ayrıca şəxs tərəfindən pozulması başa düşülür. Kollektiv formada isə kənara çıxan davranış müəyyən sosial qrupun (məsələn, cinayətkar dəstənin) fəaliyyətinin ifadəsidir. Həmin qrup özünün qaydalar sistemini, «mədəniyyətini» yaradır və açıq şəkildə qəbul olunmuş normalara qarşı durur».

Nəzərə almaq lazımdır ki, hər cür kənara çıxma halını deviant davranış hesab etmək doğru deyildir. Hərçənd bəzi tədqiqatlarda kənara çıxan davranış və deviant davranış eyniləşdirilir. Onlar eyniləşdirildikdə bütün sosial qruplar və bütün adamlar həmin tərifl ehtiva olunurlar. Halbuki cəmiyyətdə elə bir adam və sosial qrup yoxdur ki, onlar həyatın bütün hallarında mütləq surətdə norma və qaydalara müvafiq hərəkət etmiş olsunlar.[2] Deməli, kənara çıxan davranış anlayışı daha geniş məzmuna malikdir.

Kənara çıxan davranış müəyyən səbəblərlə bağlıdır. Əvvəla, yeni sosial sistem boş yerdə yaranmır, əvvəlki sistemin, dağıdılmış sistemin bir sıra elementlərindən törəyir. Söhbət insanlardan və ya məhsuldar qüvvələrin ünsürlərindən gedir. İkincisi, yeni sosial sistemin inkişafı, adətən qeyri-bərabər olur. Bu, həmin sistemin ünsürlərinin qarşılıqlı nisbətində müəyyən disproporsiyalar doğurur və onlardan bəzilərində müəyyən defektlərin qalmasına gətirib çıxarır. Üçüncüsü, inkişaf edən sistemin öz mövcudluğu şəraitinə (istər daxili, istərsə də xarici şəraitinə) natamam adaptasiyası özünü göstərə bilər. Başqa sözlə, sosial, mədəni və texniki inkişaf yeni meydana gələn ictimai-iqtisadi və mədəni tələbatların ödənilməsinə adekvat cavab verməyə bilər. Dördüncüsü, təsadüfi hadisələr də deviant davranışı qidalandıra bilər. Bütün bunlar məcmu halında müxtəlif neqativ hadisələrin konkret mənbəyi olur.

Kənara çıxan davranış başlıca olaraq iqtisadi münasibətlərlə vasitələnir. Aydın məsələdir ki, belə davranış həmin münasibətlərin vəziyyətindən birbaşa asılı olmur. Qarşılıqlı əlaqə daha mürəkkəb və çoxcəhətlidir. Lakin cəmiyyət inkişafının bütün tarixi göstərir ki, sıx qarşılıqlı əlaqə həqiqətən mövcuddur. Nəzərdən qaçırmaq olmaz ki, əsas məsələ müxtəlif sosial bərabərsizlik formalarının mövcudluğudur. Həyati faktlar sübut edir ki, qeyri- bərabərliyin bu və ya digər formaları qalmaqda davam edir. Həm də onları obyektiv surətdə şərtlənmiş fərqlər yox, deformasiyaya uğramış ictimai münasibətlər

doğurur: məsələn, hakimiyyətə mənsubluq, xəlvəti iqtisadiyyatla bağlılıq və s. Burada xatırlamaq yerinə düşər ki, mütəxəssislər xəlvəti iqtisadiyyatın nəhəng maliyyə kapitalına malik olduğunu xüsusi vurğulayırlar. Məsələn, XX əsrin 90-cı illərinin ortalarında təxminən 150-200 milyard dollar vəsaitin adı çəkilir.

Keçmiş SSRİ məkanında belə kənara çıxma hallarının mühüm mənbəyi iqtisadiyyatın defisitliyi idi. Bu, insanları alçaldırdı, böyük itkilərə səbəb olurdu. Çünki insanları ədalətin pozulması qədər heç şey narahat etmir. Bunu 90-cı illərin ortalarında Rusiyada aparılmış sosioloji tədqiqat materialları da təsdiq edir (sorğunu Ümumrusiya İctimai Rəyi Öyrənmə Mərkəzi aparmışdır - 1996-cı ilin may-iyun ayları). Belə ki, rəyi soruşulanların ancaq 19 faizi tamamilə və ya qismən razılaşmışdır ki, insanlar öz əməyinə görə mükafatlandırılır; 8 faizi bu rəyə tərəfdar çıxmışdır ki, «ağıl və peşəkarlıq qiymətləndirilir», cəmi 4 faizi isə belə hesab edir ki, insanlar ehtiyac duyduqları şeyləri ala bilərlər.

Mütəxəssislərin fikrincə, Sovet dövründə kənara çıxan davranışın bir mənbəyi də

---

ixtisaslı və ixtisassız əmək, nüfuzlu və nüfuzlu olmayan əmək arasındakı ziddiyyətlər olmuşdur. Həmin ziddiyyətlər insanların ziddiyyətli fəaliyyəti üçün ilkin şərt ola bilmişdir. Əlbəttə, bu o demək deyildir ki, ixtisassız, nüfuzlu olmayan əmək bilavasitə kənara çıxmaya səbəb olur. Aşağı ixtisaslı adamlar içərisində də işçilərin mütləq əksəriyyəti ictimai borc hissini, öz məsuliyyətini yaxşı dərk edir. Bununla belə, aparılmış kriminoloji tədqiqatlar əməyin məzmunu ilə

cinayətkar davranış arasında sıx qarşılıqlı əlaqəni qeydə almışdır. Belə ki, cinayətkarlar arasında yüksək istehsal kvalifikasiyasına malik olan şəxslər əhalinin ümumi strukturunda həmin kvalifikasiyadan olan işçilərə nisbətən təxminən 6 dəfə az olmuşdur.

90-cı illərdə qeyd etdiyimiz ziddiyyətlər başqa səbəblərlə - kütləvi işsizliyin doğurduğu səbəblərlə bir növ arxa plana sıxışdırılır. Məhz işsizlik kənara çıxan davranışlı qrupların (daimi yaşayış yeri olmayanlar, avaralar, narkomanlar, cinayətkarlar) formalaşması üçün əlverişli, münbit zəmin olur. Əvvəllər də mövcud olan bu «yaralar» başqa səbəblərlə şərtlənsə də, xeyli geniş miqyasları əhatə etmişdilər.

Kənara çıxmaların meydana gəlməsinin bir mənbəyi də cəmiyyətin real inkişaf prosesi ilə insanların axtarış və risq hüququnun həyata keçirilməsinin bir-birinə uyğun gəlməməsidir. Keçmiş SSRİ-nin dağıldığı və müstəqil dövlətlərin meydana gəldiyi məqamda təsərrüfat cinayətləri üstündə mühakimə olunmuşların sayı 130 min nəfəri ötüb keçirdi. Onların sövqedici motivləri kifayət qədər müxtəlif idi: iqtisadi problemlərin həllinə könüllü kömək etmək arzusundan tutmuş təmənnalı yardıma, var-dövlət toplamaq hərisliyinədək.

Kənara çıxmaların şərait və səbəblərini araşdırarkən bir məqama da diqqət yetirilməlidir: bu, əhalinin müxtəlif qrup və təbəqələrinin mənafelərindəki ziddiyyətlərdir. Müasir cəmiyyət müxtəlif mənafelərin kəskinləşməsindən, toqquşmasından azad deyildir. Mənafe toqquşmaları ayrı-ayrı sosial təsisatların, sosial qrupların, cəmiyyətin və dövlətin qarşılıqlı fəaliyyəti prosesində meydana gələ bilər.

Meydana çıxan ziddiyyətlərin vaxtında və adekvat həll olunmaması da insanların şüurunda və davranışında müəyyən iz buraxır. İctimai mənafelərə laqeydlik zəminində sözlə iş arasında ayrılıq dərinləşir, sosial apatiya güclənir. Təsərrüfatsızlıq, maxinasiya təzahürlərini, rəhbərliyin maddi sərvətlərə laqeydliyini və s. görən adamlar rəsmi çağırışlara passiv münasibət bəsləyir, cəmiyyət hesabına öz əməyini yüngülləşdirmək yolları, imkanları axtarırlar.

İdarəetmə işində yol verilən nöqsanlar, qüsurlar da mənfı hadisələrin mənbəyi ola bilər. Bunlar qanunçuluğun, demokratiya və ədalət prinsiplərinin pozulmasına gətirib çıxarır.

Kənara çıxan davranışı nəzərdən keçirərkən sosıal varislik məsələsindən yan keçmək olmaz. İnsanların həyat tərzinin pozitiv tərəfləri ilə yanaşı neqativ tərəfləri də təkrar istehsal oluna bilər. Bu, sosial varisliklə bağlı məsələdir. Sosial varislik mexanizmi ziddiyyətlidir. Həmin ziddiyyətlərdən biri ondan ibarətdir ki, varisliyin predmeti normal həyat təcrübəsi yox, həm də qüsurlu həyat təcrübəsi olur. Bu təcrübə isə sosial informasiya vasitəsilə nəsildən-nəslə ötürülür.

Kənara çıxan davranış ictimai münasibətlərin fəaliyyəti və inkişafı prosesinin adamların müəyyən hissəsinin şüurunda qeyri-adekvat inikası ilə də əlaqədardır. Ədəbiyyatda belə uyğunsuzluğun iki növünü ayırd edirlər. Birincisi, ictimai inkişafın əvvəlki mərhələsində təşəkkül tapan əhval-ruhiyyələr, baxışlar çox zaman yeni şəraitlə uyğun gəlmir. İkincisi, praktik fəaliyyət gedişində elə təsəvvürlər meydana gəlir və ya canlanır ki, onlar da dəyişikliklərin mənasını və istiqamətini birtərəfli izah edirlər.

Nəzərdən keçirdiyimiz problem baxımından əxlaqi münaqişələr də diqqəti cəlb edir. Bu, münaqişələri iki qrupa ayırmaq olar:

1. xarici (insanlar arasında olan) münaqişələr;
2. daxili (insanda motivlərin mübarizəsi baş verən) münaqişələr.

Xarici münaqişələr sərvət yönümlərinin istiqamətindəki ayrılığı ifadə edir. Həmin yönümlər ictimai münasibətlərdə müxtəlif əxlaqi sistemlərin toqquşması kimi təzahür edir. Fərdlərarası münaqişələrin mənbəyi mənəvi mövqelərdəki fərqlər də ola bilər. Həmin fərqlər şəxsi mədəniyyət səviyyəsinin, konkret həyat məqsədlərinin və onlara çatmaq üçün seçilən vasitələrin uyğunsuzluğu ilə şərtlənmişdir.

Daxili münaqişələrin təbiəti bundan fərqlidir. Onlar fərdi əxlaqi şüurun ziddiyyətliliyi ilə müəyyən edilir. Çox zaman bu, ictimai borc motivləri ilə qrup, ailə və şəxsi mənafeləri ifadə edən motivlər arasındakı toqquşma kimi özünü göstərir. Daxili münaqişələr təkamül edərək, xarici münaqişələrə keçə bilər.

Kənara çıxan davranış təzahürləri olduqca rəngarəngdir. Onları müəyyən tipoloji qruplarda birləşdirmək olar. Həmin qrupların həm ümumi, həm də spesifik xüsusiyyətləri vardır. Elmi ədəbiyyatda insanların şüur və davranışındakı neqativ hadisələri təsnif etmək barədə maraqlı mülahizələr söylənilmişdir. Müxtəlif əlamətlərə görə aşağıdakı kimi qruplaşma aparmaq olar:

a) deviasiyaların səviyyəsinə görə:
1) ilkin deviasiya;
2) ikinci deviasiya.
b) əhatə dairəsinə görə:
1) kənara çıxan davranışın fərdi forması;
2) kənara çıxan davranışın kollektiv forması.
c) insanların həyat fəaliyyəti sferalarına görə:
1) istehsal-əmək sferasında - iqtisadi oğurluqlar, qənimətçilik, təsərrüfatsızlıq və s.;
2) bölgü sferasında - cəmiyyətdən çox qopartmağa çalışmaq, rüşvətxorluq, sosial parazitizm;

3) siyasi həyat sferasında - karyerizm, bürokratizm, siyasi naşılıq, millətçilik, ekstremizm.
4) məişət və həyat tərzi sferasında - dilənçilik, sərxoşluq, istehlakçılıq, ailə borcuna laqeyd münasibət.
5) mənəvi həyat sferasında - mədəniyyətsizlik, meşşanlıq və s.
6) ünsiyyət sferasında - insanlara laqeyd münasibət, kobudluq, böhtançılıq, vicdansızlıq, xudbinlik və s. Bəzən kənara çıxan davranışı başqa əsasa görə - hüquqa, yoxsa əxlaqa aid olmasına görə iki tipə ayırırlar: a) hüquqa zidd kənaraçıxmalar; b) əxlaqa zidd kənaraçıxmalar.

Bu halda onu əsas tuturlar ki, normalar, standartlar və qaydalar insanların həyat fəaliyyətinin iki başlıca nizamlayıcısı ilə müəyyən edilir: hüquq və mənəviyyat. Əlbəttə, onlar arasında hüdud şərtidir. Buna baxmayaraq, kənara çıxan davranışın konkret formalarını öyrənərkən həmin tip-ləşdirmədən istifadə etmək olar.

Bir cəhətə də diqqət yetirilməlidir: kənara çıxan davranışın bəzi formaları (məsələn, narkomaniya, fahişəlik, korrupsiya) üzərindən illər boyu aydın seçilən örtük götürüldü, onların təzahürləri, səbəbləri fəal müzakirə obyektinə çevrildi. Elmi və siyasi dairələrin diqqəti iqtisadi cinayətkarlığa, kriminal davranışla səciyyələnən müxtəlif gənclər birliklərinə yönəldi. Bütün bunlar keçmiş SSRİ-nin dağılması, müstəqil dövlətlərin yaranması, müxtəlif sahələrdə ənənəvi əlaqələrin qismən və ya tamamilə qırılması, kənara çıxan davranış təzahürlərinə qarşı mübarizənin xeyli zəifləməsi fonunda baş verirdi.

XX əsrin son onilləri ərzində aparılan sosioloji tədqiqatlar göstərirdi ki, kənara çıxan davranış qrupları içərisində alkoqolizm, narkomaniya və cinayətkarlıq xüsusi diqqət tələb edən problemlərdir.

Bu bir həqiqətdir ki, sərxoşluq, alkoqolizm ciddi sosial bəladır; o, ictimai həyata, necə deyərlər, əsaslı surətdə nüfuz edə bilmişdir. Mütəxəssislər alkoqolizmlə bağlı aşağıdakı məqamlara xüsusi diqqət yetirirlər:

- sərxoşluq, alkoqolizm müxtəlif sosial qruplara xas olan hadisədir. Bir sıra ölkələrdə (məsələn, Rusiya, Ukrayna, Belorusiya və s.) həmin bəla hər iki cinsi (qadınları və kişiləri) əhatə edir. Respublikamızda bu, daha çox kişilərin həyat tərzi üçün səciyyəvidir.
- alkoqolizmə meyllilik gənclər içərisində daha geniş yayılmışdır; bu, əmək intizamının pozulmasına, istehsal travmatizminə, ailələrin dağılmasına, qeyri-normal uşaqların doğulmasına, orta ömrün azalmasına səbəb olur.
- son illərdə yeniyetmələr içərisində alkoqolizmə meylliliyin müəyyən əlamətləri müşahidə olunur. Bunu dövri mətbuatın, radio və televiziyanın müəyyən materialları aydın surətdə nümayiş etdirir.

Alkoqolizmə qarşı mübarizə çox ciddi problemdir. Bu iş sistemlilik tələb edir. Həmin prinsipin pozulması alkoqolizmə qarşı aparılan mübarizənin səmərəsini azaldır.

Alkoqolizmə qarşı təsirli, fəal mübarizə aparılmalıdır. Bunun başlıca yolları hansılardır?

Mütəxəssislərin fikrincə, ilk növbədə ailədən, yaşlılardan başlamaq lazımdır. F. Şereqinin tədqiqatları göstərir ki, alkoqoliklərin təxminən 1/3-i ilk dəfə spirtli içkini 10 yaşında, 2/3-si isə 11-15 yaşlarında dadmışdır. Artıq bu fakt sübut edir ki, alkoqolizm və sərxoşluq gənclərin hər hansı xüsusi submədəniyyətinin üzvi ünsürü deyildir. Aparılmış tədqiqatlar göstərir ki, gənclərin təxminən 40%-i qəti şəkildə qeyri-alkoqollu ənənələrə tərəfdar çıxır; yaşlılar içərisində isə belələri cəmi 15%-i təşkil edir.

Sağlam həyat tərzi normalarının reallaşdırılması işi kifayət qədər mükəmməl təşkil olunmur. Adamların bir qisminin ümumi mədəniyyətinin aşağı olması da həmin prosesə təsirsiz qalmır. Konkret vəzifələrin həllində bəsitlik, inzibati tədbirlərdən, amirlik metodlarından istifadə olunmasına meyllilik də son dərəcə mürəkkəb işə ancaq ziyan vurur. Spirtli içkilərin ən müyəssər mallar sırasında olması da ümumi sağlamlaşma prosesinə təsirsiz qalmır. Respublikaya müxtəlif ölkələrdən spirtin və spirtli içkilərin gətirilməsi üzərində ciddi nəzarətin olmaması da ciddi problemdir.

Alkoqolizm probleminin kompleks həlli həm sosial, həm də tibbi tədbirlərin birləşdirilməsini, hüquqi və əxlaqi tənzimetmə imkanlarının, inzibati səylərin fəallaşdırılmasını, antialkoqol təbliğatın səmərəli, konkret, təsirli təşkilini, insanın özünün məsuliyyətinin artırılmasını nəzərdə tutur.

Deviant davranışın ikinci qrupuna narkomaniyanı aid etmək olar. Mütəxəssislərin fikrincə, XX əsrin 60-70- ci illərindəki «özünüsakitləşdirmə» mühiti cəmiyyətdə narkomaniyanın getdikcə kəskinləşən sosial problemə çevrilməsinin başlıca səbəblərindən biridir[1]. Təhlil göstərir ki, narkomaniya hər hansı birlik hüdudlarına sığmır və əslində ən müxtəlif sosial qrupları əhatə edir. Bu bəla sosial-mənəvi cəhətdən xeyli adamı şikəst edir, antisosial davranışı və fəaliyyəti stimullaşdırır.

Narkomaniya məsələlərini xüsusi olaraq araşdıran A. A. Qabiani belə bir qənaətə gəlmişdir ki, narkomaniya başlıca olaraq şəhərlərdə yaşayan və 35-ə qədər yaşı olan kişilər içərisində daha geniş yayılmışdır. Xüsusi həyəcan doğuran cəhət ondan ibarətdir ki, onların təxminən 1/3-i 25 yaşına qədər olan gənclərdir. Narkomaniya daha çox şəhər problemi olsa da, narkotik vasitələrin istehlakı coğrafiyası genişlənərək, hətta ən uzaq kənd regionlarını da əhatə etmişdir.

Respublikamızda konkret statistik göstəriciləri araşdıraraq, aşağıdakı məqamları xüsusi qeyd etmək vacibdir:

Əvvəla, cinayətlərin ümumi sayında narkotiklərlə bağlı cinayətlər mühüm kateqoriyalardan biridir. Belə ki, 2002-ci ildə narkotiklərlə bağlı 2190 cinayət qeydə alınmışdır. Bu, həmin ildə qeydiyyata alınmış cinayətlərin ümumi sayının 14 faizini təşkil etmişdir.

İkincisi, faktlar göstərir ki, işləməyənlər və təhsil almayanlar içərisində bu bəla daha geniş yayılmışdır. Məsələn, 2002-ci ildə narkotiklər və digər güclü təsiredici maddələrlə bağlı cinayətlər törətmiş 1955 nəfər şəxs aşkar olunmuşdur. Onların 93 faizini heç yerdə işləməyən və oxumayan şəxslər təşkil edir. Onların 94 faizini kişilər, 28 faizini isə 30 yaşa qədər olan şəxslər təşkil edir.

Üçüncüsü, araşdırmalar göstərir ki, polinarkomaniya geniş yayılmışdır. Həşiş, morfi, tiryək, kokain, heroin qəbulu bu fikri təsdiqləyir. A. A. Qabianinin tədqiqatlarına əsasən demək olar ki, mütləq əksəriyyət (təxminən $^{3}/_{4}$ hissə) həşişdən başlamışdır. Belə bir yanlış mülahizəyə inananlar çoxdur ki, guya həşişin ziyanı əhəmiyyətsizdir, o qədər də ağır nəticələrə gətirib çıxarmır. Halbuki həşişdən başlayan yol çox dərinliklərə gedib çıxır, ciddi fəlakətlərə səbəb olur. Respublikamızda 2003-cü ilin əvvəlinə qeyri-tibbi məqsədlərlə narkotik, psixotrop və digər toksiki maddələrdən istifadə etmiş 15.698 nəfər şəxs dispanser və profilaktika uçotunda olmuşdur, halbuki bu rəqəm 2002-ci ilin əvvəlinə 14.245 nəfər təşkil etmişdir. Uçotda olanların 46 faizini (yəni təxminən yarısını) yaşı 30-a qədər olan şəxslər təşkil edir.[3] Belə bir cəhət də diqqəti cəlb edir ki, bir çoxları xroniki narkomanlar kateqoriyasına aiddir, yəni elə şəxslərdir ki, onlar çoxdan və sistematik surətdə narkotikləri qəbul edirlər.

Dördüncüsü, narkotikləri qəbul edənlərin tərkibini araşdırdıqda məlum olur ki, onlar əsasən əvvəllər məhkum olunmuşlar - özü də narkomaniya ilə bağlı cinayətlər törətmiş şəxslərdir, habelə spirtli içkilərdən və ya narkotiklərdən istifadə edən ailələrdən olan şəxslər, psixi və ya əsəb xəstəlikləri olan şəxslərdir.

Beşincisi, aparılmış sosioloji tədqiqatlar bu bəlaya düçar olmağın amillərini üzə çıxarmağa kömək edir. Rəyi soruşulanların əksəriyyəti (üçdə iki hissədən çoxu) bildirmişdir ki, onlar başqa şəxslərin təsiri ilə narkotik maddələrə meyl göstərmişlər (dostlar və tanışların təkidi ilə). Onlar kəskin hisslərə ehtiyac duyaraq, hedonist səyləri əsas tutduqlarını, təxminən dörddə bir hissəsi isə başqalarını təqlid edərək, bu yola qədəm qoyduqlarını qeyd etmişlər. Ağır psixi travmalardan, şəxsi dramalardan xilas yolu kimi narkotiklərə meyl göstərənlərin sayı isə az olmuşdur. Bu, belə bir bəsit təsəvvürü rədd edir ki, guya narkotiklərdən istifadənin başlıca səbəbi məşəqqəti aradan qaldırmaq, ruhi müvazinət əldə etmək arzusudur.

Nəhayət, altıncısı, narkotikləri istehlak edənlər onlar üçün xeyli pul, vəsait xərcləməli olurlar. Aydın məsələdir ki, əksər narkotiklər istehlakçıları həmin vəsaiti cinayətkarlıq yolu ilə əldə etməyə cəhd göstərirlər. Onların bir qismi ümumiyyətlə işləmir, bir qismi isə işləri müqabilində elə yüksək haqq ala bilmirlər. Bütün bunlar belə bir nəticə çıxarmağa imkan verir ki, narkomaniya ciddi ictimai «yara»ya çevrilmişdir. O, daimi diqqət tələb edən problem olmuşdur. Bu hadisəyə qarşı mübarizə üçün təsirli tədbirlər düşünülməlidir. Effektli mübarizə isə qeyd edilən bəlanın dərin sosial səbəblərini aşkara çıxarmağı nəzərdə tutur. Cəmiyyətin bütün qabaqcıl qüvvələri bu mübarizənin səmərəsini artırmağa səy göstərməlidirlər.

Kənara çıxan davranışın üçüncü qrupuna cinayətkarlığın bütün təzahürlərini aid etmək olar. Adətən bu təzahürləri qeyd edilən davranışın ifrat dərəcəsi kimi xarakterizə edirlər, çünki şəxsiyyətin, sosial təşkilatların, bütövlükdə cəmiyyətin mənafeləri üçün ciddi təhlükə yaranır. Aydın məsələdir ki, heç bir cəmiyyət onun hüquqa zidd hesab etdiyi davranışa laqeyd olmamış, mümkün vasitələrlə və metodlarla ona qarşı mübarizə aparmışdır. Elmi ədəbiyyatda cinayətkar hərəkətlərin dəqiq təsnifatını vermək istiqamətində müxtəlif cəhdlər olmuşdur.

Bu məsələdə mühüm məqamlardan biri ondan ibarətdir ki, cinayətkarlığa qarşı mübarizədə bütün məsuliyyəti ancaq hüquq mühafizə orqanlarının üzərinə qoymaq doğru olmazdı. Qeyd etmək yerinə düşər ki, cinayətlərin müəyyən hissəsi hələ də uçotdan kənardadır; həmin hissə latent (görünməz, gizli qalan) cinayətkarlıq adlanan cinayətkarlığı təşkil edir. Deməli, ancaq cinayətkarlıq statistikasına istiqamətlənmək vəziyyətin həqiqi elmi mənzərəsini yaratmır, çünki bu statistikada aşkar edilmiş faktlar qeydə alınır.

Qeydə alınmış cinayətlərin sayı və tərkibi baxımından respublikamızda vəziyyət necədir? Rəsmi statistikaya görə, 2002-ci ildə qeydə alınmış cinayətlərin sayı 15.520 olmuşdur. Bu cinayətlər içərisində ən böyük rəqəmi (1919 hadisə) narkotik maddələrin qeyri-qanuni hazırlanması, əldə edilməsi, saxlanması və ya satışı təşkil edir. İkinci yerdə oğurluq (1619 hadisə), üçüncü yerdə xuliqanlıq (1285 hadisə), dördüncü yerdə dələduzluq (1114 hadisə), beşinci yerdə hərəkətın təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması (919 hadisə), altıncı yerdə qərəzli qətllər və öldürməyə cəhdlər (315 hadisə) dayanır. Həmin ildə qeydə alınmış hər 10 cinayətdən biri ağır xarakter daşıyır.

1

Ədəbiyyatda qeyd olunur ki, iqtisadi cinayətkarlıq yolunu tutmuş adamlar çoxdur, lakin onların çox az qismi cinayət məsuliyyətinə cəlb edilir. Keyfiyyətsiz məhsul buraxan müəssisələrin xeyli qismi statistik göstəricilərdə öz əksini tapmır; dövlət hesabat qaydasının təhrifləri, - gəlirlərin gizlədilməsi, vergi ödəməkdən yayınma halları da geniş yayılmışdır.[1]

Son 10 il (1993-2002-ci illər) ərzində əhalinin ayrı-ayrı kateqoriyaları tərəfindən törədilmiş cinayətlərin təhlili göstərir ki, təhqıqatı başa çatmış cinayətlər içərisində yetkinlik yaşına çatmayanlar tərəfindən və ya onların iştirakı ilə törədilən cinayətlər 2 dəfədən çox (1993-cü ildə 889, 2002-ci ildə isə 420), sərxoş vəziyyətdə törədilən cinayətlər də təxminən bir o qədər (1993-cü ildə 1178, 2002-ci ildə 525) azalmışdır. Lakin əvvəllər cinayət törətmiş şəxslər tərəfindən, habelə qrup halında törədilən cinayətlər isə nisbətən zəif sürətlə azalmışdır.

Mütəxəssislərin fikrincə, qrup halında törədilmiş cinayətlərdə üç əlamət xüsusilə nəzərə çarpır:

- qrupun dəqiq strukturu və iyerarxik əlaqələri vardır;
- qrup müntəzəm cinayətkar biznes üçün yaradılır;
- qrupun bəzi dövlət aparatı nümayəndələri ilə əlaqələri mövcuddur; onlar qrupa himayədariıq edirlər.

Şəxsıyyət əleyhinə yönəlmiş cinayətlərə dair statistikanı məcmu halında nəzərdən keçirsək, deyə bilərik ki, ən əvvəl insanı qorumaq lazımdır. Sosioloji təhlil çox mühüm bir məqamı üzə çıxarmağa imkan verir: cinayətkar hərəkətlərdə, proseslərdə müəyyənedici məqam deformasiyaya uğramış şüurun və davranışın müxtəlif növləridir.

Bəs cinayətlərin coğrafiyası necədir? Təhlil göstərir ki, cinayətlərin 42,7 faizi Bakı, 4,7 faizi Sumqayıt, 2,6 faizi Gəncə şəhərlərində baş vermişdir.[2]

Məhkum edilənlərin əsas cəza tədbirləri üzrə bölgüsünə diqqət yetirdikdə məlum olur ki, ən geniş tətbiq edilən cəza növləri aşağıdakılardır:

- müəyyən müddətə azadlıqdan məhrumetmə (5260);
- cərimə (2681);
- şərti məhkum etmə (2639); -islah işləri (1236);
- ictimai işlər (1035);
- azadlığın məhdudlaşdırılması (782);
- intizam xarakterli hərbi hissədə saxlama (455).

Aparılmış tədqiqatlara əsasən qeyd etmək olar ki, mikromühit kənara çıxan davranışa güclü təsir göstərir. Ümumi obyektiv şərtlər yalnız belə davranış imkanını müəyyən edirlər, lakin onun bilavasitə səbəbləri olmurlar. İnsanların hərəkətləri, fəaliyyətləri vasitəsilə imkanın gerçəkliyə çevrilməsi konkret amillərdən asılıdır; həmin amillər isə mikromühit səviyyəsində reallaşır. Eyni bir iqtisadi və sosial-psixoloji şəraitdə insanların davranışında xeyli fərqlər, bəzən isə prinsipial fərqlər müşahidə etmək olar. Həmin fərqlər ailədəki, tədris və əmək kollektivindəki vəziyyətlə, kiçik qrupların təsiri ilə, habelə insanın fərdi xüsusiyyətləri ilə şərtlənmişdir. Deməli, mikromühitin

müxtəlif komponentləri müəyyən mənəvi-əxlaqi davranış formalarının daşıyıcılarıdır. İnsan istər- istəməz öz yaxın əhatəsində bəyənilən, təqdir edilən davranış xəttinə tərəfdar çıxır. Həmin davranış xəttində rasional, sağlam həyat tərzinə zidd olan ustanovkalar, yönümlər mövcud ola, hətta üstünlük təşkil edə bilər. Çox zaman belə olur ki, mikromühit bütövlükdə deyil, onun hər hansı bir ünsürü cəmiyyətə zidd istiqamətdə olur. Burada çox şey ondan asılı olur ki, şəxsiyyət üçün hansı qrup daha nüfuzlu və cəlbedici olacaqdır.

Aydın məsələdir ki, makromühitlə mikromühitin qarşılıqlı obyektiv əlaqəsi mikromühitin nisbi müstəqilliyini inkar etmir; həmin mühitdə kənara çıxan davranışın, o cümlədən cəmiyyətə zidd davranışın təkrar istehsalı imkanı qalır. Buna görə də bir sıra hallarda mikromühitdə neqativ xarakterli təsəvvürlər, vərdişlər, ənənələr meydana gəlir.

Qeyri-münasib mənəvi-psixoloji iqlim, qrup normalarının ictimai cəhətdən sanksiya verilmiş normalarla uyğunsuzluğu, adaptasiya çətinlikləri, qarşılıqlı tələbkarlığın olmaması, ünsiyyətdəki münaqişələr və gərginliklər - bütün bunlar kənara çıxan, deviant davranışın mikromühitdə bazası olan, heç də tam olmayan səbəbləridir. Lakin unudulmamalıdır ki, mikromühitin özü qeyri-yekcinsdir, çünki insan eyni zamanda bir neçə kollektivə, qrupa daxil olur. Həmin kollektivlərin, qrupların təsiri isə ziddiyyətli ola bilər.

## Mühazirə 4. Sosial qruplar

1. Sosial qrup anlayışı. Qrupların təsnifatı
2. Qrupun öyrənilməsinin əsas istiqamətləri
3. Sosial qrupların dinamikası
4. Kütlə sosial qrup kimi

### 1. Sosial qrup anlayışı. Qrupların təsnifatı

Cəmiyyət insanların mürəkkəb birliyi kimi müxtəlif sabitlik dərəcəsinə, miqyasına və məzmununa görə fərqlənən sosial qrupların məcmusunu təşkil edir.

Sosioloji ədəbiyyatda «sosial qrup» anlayışı ilə bağlı müəyyən fikir ayrılıqları mövcuddur. Bu aşağıdakı səbəblərlə izah oluna bilər. Əvvəla, sosiologiyada bir çox anlayışlar sosial praktika nəticəsində meydana gəlir, elmə tətbiq olunmağa başlayır və bu zaman müxtəlif çalarları ifadə edir. İkincisi, belə çətinliklərin yaranması bu prosesdə müxtəlif növ topluların

təşəkkülü və iştirakı ilə şərtlənir. Bu səbəbdən də sosial qrup anlayışını müəyyən etmək üçün onlar arasındakı müəyyən tipləri ayırmaq lazım gəlir.

Sosiologiyada «qrup» anlayışı kimi təklif olunan bir sıra sosial birlik növləri vardır. Məsələn, bir neçə fərd müəyyən fiziki məkanda müvəqqəti olaraq məskunlaşır. Eləcə də eyni vaqonda bir neçə gün yol gedən, müəyyən anda eyni meydanda olan, eyni küçədə yaşayan insan toplularını elmi mənada sosial qrup adlandırmaq olmaz. İnsanların belə toplusuna «aqreqasiya» deyilir. «Aqreqasiya» latın dilində müəyyən fiziki məkanda toplanmış şüurlu surətdə qarşılıqlı fəaliyyətdə olmayan insanların mexaniki birliyi mənasını ifadə edir.

Başqa bir halda bir və ya bir neçə oxşar xüsusiyyətli fərdləri birləşdirən topluya da qrup deyilir. Məsələn, abituriyentlər, siqaretçəkənlər, qocalar və s. Lakin bunlara da elmi baxımdan sosial qrup demək doğru olmazdı. Bir neçə oxşar xüsusiyyətlərə görə birləşən belə insan toplusunu ifadə etmək üçün «sosial kateqoriya» termini daha münasibdir.

Bəs onda sosial qrup nədir?

**Sosial qrup başqalarına münasibətdə qrup üzvünün hər birinin ümumi marağını nəzərə almaqla fəaliyyət göstərən fərdlərin birliyidir.** Bu tərifə görə sosial qrup üçün zəruri olan iki əsas şərt vardır: 1) onun üzvləri arasında qarşılıqlı fəaliyyətin olması; 2) hər bir qrup üzvünün ümumi marağının nəzərə alınması.

Bu tərifə görə, nəqliyyat dayanacağında avtobus gözləyən bir neçə nəfəri qrup hesab etmək olmaz. Lakin onlar söhbətə başladıqda, gözləmə ilə əlaqədar birlikdə qarşılıqlı fəaliyyətə keçdikdə müəyyən sosial qrup keyfiyyəti əldə edirlər. Lakin bu cür qruplar bilərəkdən deyil, təsadüf nəticəsində əmələ gəlirlər. Burada sabit maraqlar yoxdur, qarşılıqlı fəaliyyət isə birtərəfli olur. Belə öz-özünə əmələ gələn qeyri-sabit qruplar kvaziqruplar adlanır. «Kvaziqrup» latın dilində «sosial qrupa bənzəyən» mənasını ifadə edir və aşağıdakı səciyyəvi xüsusiyyətlərə malikdir: 1) öz-özünə əmələ gəlmə; 2) qarşılıqlı əlaqələrin qeyri-sabitliyi; 3) müştərək hərəkətlərin qısamüddətliliyi və s. Aqreqasiyalar kvaziqrupa, kvaziqruplar isə öz növbəsində sosial qrupa çevrilə bilər.

Hər bir fərd həyatının müxtəlif anlarında bir neçə qrupun iştirakçısı ola bilər. Sosial qrupları müxtəlif meyarlara görə təsnif etmək mümkündür. Təsnifat əsas qrup növlərini ayırmağa və qiymətləndirməyə, həmçinin qrupdaxili və qruplararası qarşılıqlı münasibətləri müəyyən etməyə imkan verir.

Hər bir fərd onun mənsub olduğu bəzi qruplar toplusunu ayıra və onları «mənim» kimi müəyyənləşdirə bilər. Bu - «mənim ailəm», «mənim komandam», «mənim dinim» və s. ola bilər. Belə qruplar inqrup sayıla bilər, yəni bəzilərində fərd özünün mənsubiyyətliliyini hiss edir, digərlərində isə başqa üzvlərlə eyniləşərək «biz» inqrupunun üzvlərini qiymətləndirir.

Fərdin aid olmadığı digər qruplar - başqa ailələr, kompaniyalar, dini

qruplar bu fərd üçün altqrup sayıla bilər, fərd isə bunu simvolik olaraq «biz» yox, «başqaları» adlandıra bilər.

Ədəbiyyatda sosial qrupların müxtəlif təsnifatından istifadə olunur. Bu baxımdan Q. M. Andreyevanın təsnifatı maraq doğurur. O. təsnifatı bu cür aparır: 1) şərti və real qruplar; 2) böyük qruplar; 3) kiçik qruplar; 4) referent qruplar.

**Şərti qrup** - aparılan tədqiqat üçün vacib olan hər hansı bir və ya bir neçə ümumi əlamətlərə görə qruplaşan insanların ixtiyari birliyidir. Şərti qruplar dedikdə, bir-biri ilə real surətdə əlaqəsi olmayan, lakin müəyyən əlamətlərə görə ayırd edilən insanlar nəzərdə tutulur. Belə əlamətlərə fərdin cinsi, yaşı, peşəsi, təhsil səviyyəsi, gəlir dərəcəsi və s. aiddir. Bu qrupa daxil olan insanlar lazım gəldikdə bir-birini müdafiə edə bilirlər (məsələn, sürücü həmrəyliyi).

**Real qrup** - real münasibətlərlə qarşılıqlı əlaqələrdə olan insanlar birliyidir. Real qruplar arasında böyük və kiçik sosial qruplar fərqləndirilir.

**Böyük qrupda** bütün üzvlərin bir-birini şəxsən tanıması və onların arasında əlaqələrin vasitəsiz baş verməsi mümkün deyildir. Böyük qruplara adətən siniflər, sosial təbəqələr, millətlər, siyasi partiya birlikləri, qadınlar,

gənclər, idman və s. ittifaqlar və birliklər aiddir. Böyük qruplar qeyri-mütəşəkkil, daxili səbəblərdən yarana bilər (məs., kortəbii tətil hərəkatı iştirakçıları, izdiham və s.). Təşkil olunmuş böyük qruplar cəmiyyətin tarixi inkişafı prosesində əmələ gələn sabit yaranmanı (məs., siniflər, etnoslar və s.) təmsil edir.

**Kiçik qrup** - tərkibinə görə azsaylıdır (2 nəfərdən 35-ədək adam). Belə qrupların üzvləri bir-biri ilə bilavasitə şəxsi ünsiyyətdə olurlar. Kiçik qrupları həmçinin kontakt qrupları da adlandırırlar. Sosiologiyada kiçik qrupların aşağıdakı təsnifatı qəbul olunmuşdur: 1) formal və qeyri-formal; 2) ilkin və təkrar; 3) üzvlük qrupu.

**Formal qrupda** üzvlərin vəziyyəti və davranışı rəsmi təşkilatçılıq və sosial institutların qaydaları ilə tənzimlənir. Formal qrupa nümunə olaraq tələbə qruplarını göstərmək olar. Çünki burada həm miqdar, həm quruluş, həm funksiyalar, həm tədris prosesi və həm də formal liderlik (qrup nümayəndəsi) ali məktəbin qaydalarına əsasən nizamlanır. Formal qrupun xarakter xüsusiyyəti ondan ibarətdir ki, şəxslərarası münasibətlər rəsmi çərçivə daxilində təşəkkül tapır. Bu münasibətlər üstünlük vermə və maraq qarşılıqlı rəğbət əsasında qurulanda qeyri-formal qrup yaranır.

**Qeyri-formal qrup** - həmfikirlərin, dostların və başqalarının əhatəsidir. O, həm formal qrup çərçivəsində, həm də onsuz yarana bilər. Məsələn, məkan-ərazi yaxınlığı əsasında (qonşular, həmyerlilər); maraq birliyi əsasında (pokerlər, qeyri-formallar); şəxsi rəğbət əsasında (dostlar, tanışlar) və s. Belə qeyri-formal qruplarda şəxslərarası münasibətlər aydın əks olunur və burada ciddi təşkilatçılıq çox da vacib deyil. Burada qaydalar əksər hallarda ənənələrə, hörmətə, şəxsiyyətə, rəğbətə, adətə, maraqların ümumiliyinə əsaslanır.

**İlkin və təkrar qruplar.** Fərdlər arasındakı qarşılıqlı münasibətlərin fərqi ən çox ilkin və ikinci qrupda özünü büruzə verir. İlkin qruplarda qrupun hər bir üzvü başqa bir üzvü şəxsiyyət və fərd kimi görür. Belə bir görümün nailiyyəti intimliyin, şəxsiyyət təcrübəsinin bir çox elementlərini yaradan sosial münasibətlər vasitəsilə baş verir. Ailə qruplarında onların üzvləri çalışırlar ki, sosial münasibətləri qeyri-formal və mülayim etsinlər. Onlar bir-birini, ilk növbədə, şəxsiyyət kimi maraqlandırır, ümumi ümid və hisslərə malikdirlər və ünsiyyət zamanı öz tələbatlarını tamamilə ödəyirlər. Təkrar qruplarda sosial münasibətlər şəxssiz, birtərəfli və utilitar xarakter daşıyır. Burada başqa üzvlərlə şəxsi dostluq münasibətləri vacib deyil, lakin sosial rollar bunu tələb etdiyi üçün bütün kontaktlar fəaldır.

«İlkin» və «təkrar» qruplar terminləri qrupşəkilli qarşılıqlı əlaqələrin növlərini mövcud qrupun başqa qruplar sistemində əhəmiyyətinin göstəricilərindən daha yaxşı xarakterizə edirlər. İlkin qrup obyektiv məqsədlərin ifadəsi kimi, məsələn, istehsalatda özünü göstərə bilər. Lakin o, qrup üzvlərinin qarşılıqlı insani münasibətlərini, emosional təminatını daha çox ödəyə bilər, nəinki geyimi və yaxud istehsalat məhsullarının faydalılığını. Təkrar qrup isə qarşılıqlı dostluq münasibətləri şəraitində fəaliyyət göstərməsi keyfiyyəti ilə fərqlənir, lakin onun mövcudluğunun əsas prinsipi spesifik funksiyaları yerinə yetirə bilməsidir. Beləliklə, ilkin qrup həmişə qrup üzvləri arasındakı qarşılıqlı əlaqəyə, təkrar qrup isə məqsədə əsaslanır.

**Referent qrup** - ya real qrup, ya da şərti qrupdur. Burada fərd özünü nümunə ilə öz davranışını və özünüqiymətləndirməni əlaqələndirir. Bəzən referent qrupla inqrup uyğun ola bilər. Məsələn, yeniyetmə öz komandasına müəllimlərinin düşündüyündən də artıq

dərəcədə istinad edir. Altqrup da həmçinin referent ola bilər.

Altqruplar fərdlər tərəfindən adətən stereotip kimi qavranılır. Hansısa bir qrupun hərəkətini qiymətləndirərkən çox vaxt arzularımızdan əlavə qrupun hər bir fərdinə, bizim zənnimizcə, qrupu bütövlükdə xarakterizə edən bəzi cizgiləri aid edirik. Məsələn, belə bir fikir mövcuddur ki, guya bütün zəncilər avropoid irqindən olan adamlardan daha ehtiraslıdırlar (hərçənd əslində belə deyil), bütün fransızlar - yüngül xasiyyətlidirlər, ingilislər - özlərinə qapılan və dinməzdirlər. Stereotip pozitiv (xeyirxahlıq, cəsarətlilik), neqativ (prinsipsizlik, qorxaqlıq) və qarışıq (almanlar intizamlı olsalar da, qəddardırlar, azərbaycanlılar qonaqpərvər olsalar da, unutqandırlar) ola bilər. Bir dəfə yaranan stereotip (fərdi fərqlər nəzərə alınmadan) müvafiq altqrupun bütün üzvlərinə şamil edilir. Sosial stereotiplərin yaranma mexanizmi tam tədqiq olunmayıbdır.

Stereotiplər daim yaranır, dəyişilir və yox olur; bütün bunlar sosial qrupun üzvləri üçün vacibdir. Onların köməkliyi ilə bizi əhatə edən altqruplar haqqında yığcam və lakonik məlumat əldə edirik.

Belə məlumat bizim digər qruplara münasibətimizi müəyyənləşdirir, əhatəmizdə olan qruplarsa altqrupun nümayəndələri ilə ünsiyyətdə davranış xəttini müəyyən etməyə imkan yaradır. İnsanlar stereotipləri şəxsiyyətin əsas cizgilərinə nisbətən daha tez qəbul edirlər. Beləliklə, altqrupda yalnız bəzi şəxsiyyətlər qrupun normativ və müqayisə referent funksiyalarını tam ayırd edə bilirlər, stereotiplər isə bir çox kəskin və incə mülahizənin nəticəsi kimi meydana çıxırlar.

## 2. Qrupun öyrənülməsinin əsas istiqamətləri

Sosiologiyada qrupların öyrənilməsinin başlanğıcı əmək məhsuldarlığının sosial amillərdən istifadə etməklə, yeni vasitələrinin axtarışı ilə bağlıdır. Belə planların reallaşdırılması istiqamətində ilk addımlardan biri E**.** Meyonun 1927-1932-ci illərdə apardığı Xottorn tədqiqatlarıdır. Onlar göstərdilər ki, işçilər üçün daha əhəmiyyətlisi özünün

hansı qrupa aidliyini dərk etməsi hesab olunur. Bundan əlavə, qrupa qəbul olunma cəhdi fəhlə üçün rəhbərliyin onun əməyini tənzimləmək tədbirlərindən daha qiymətlidir. E. Meyonun fikrincə, nəzarətedici və tənzimləyici hissə kiçik əlaqələndirici qrup olur.

Kiçik qrupların öyrənilməsinin digər istiqamətini Y. Morenonun sosiometrik metodu təşkil edir. Sosiometriyanın məqsədi insanın əməyini və həyatını həm işdə, həm də istehsalat mühiti xaricində ona müsbət təsir bağışlayan insanlar arasında təşkil etməkdən ibarətdir. Bu metodun əsasında şəxslərarası münasibətlərin yaxşılaşdırılması və təkmilləşdirilməsi yolu ilə qrupun səmərəli idarə olunmasını həyata keçirmək mümkündür.

Sosioloji ədəbiyyatda sosial qrupun bir neçə inkişaf fazası göstərilir. A. V. Petrovskinin konsepsiyasına uyğun olaraq qrupun inkişaf fazası aşağıdakı meyarlarla müəyyən olunur: birincisi, qrupda şəxslərarası münasibətlərin vasitəli ifadə dərəcələri, birgə fəaliyyətin məzmunu ilə; ikincisi, birgə fəaliyyətin ictimai əhəmiyyəti ilə.

Bu meyarlar əsasında A. V. Petrovski kiçik qrupun aşağıdakı inkişaf fazalarını qeyd edir:

• diffuz (qarışıq) qrup - ümumi birlik, birgə fəaliyyətin məzmunu (məqsədi, əhəmiyyəti və dəyəri) ilə vasitəliliyi olmayan şəxsiyyətlərarası münasibətlər;

• qrup-assosiasiya (ümumi birliyə mənsubluq gələcək birgə hərəkətlərin səmərəliliyi şəraiti kimi dərk edilir);

• qrup-kooperasiya (şəxslərarası münasibətlərin hər kəs üçün əhəmiyyəti birgə fəaliyyətin məzmununda dərk edilir);

• qrup-kollektiv (şəxslərarası münasibətlər qrupşəkilli fəaliyyətin şəxsiyyət əhəmiyyəti və ictimai cəhətdən qiymətliliyi ilə dərk edilir);

• korporasiya (bu qrupda şəxsiyyətlərarası münasibətlər qrupun üzvləri üçün xüsusi əhəmiyyətli, bəzən də qrup fəaliyyətinin məzmununa görə antisosial vasitə ilə ifadə olunur).

Sosial qrupun fəaliyyətinə müxtəlif əlaqə üsulları ilə təsir göstərilməsi A. Bavelas tərəfindən öyrənilmişdir. O, məhdud vaxt ərzində sadə məsələlərin həllində «şturval» əlaqə üsulunun yüksək effekt verdiyini göstərir. Bu halda qrupun üzvlərinin bir-biri ilə əlaqələri istisna edilir və onlar yalnız liderlə əlaqəyə girə bilərlər. A. Bavelas yaradıcı işlərin həlli üçün «çevrə» əlaqə üsulunun daha əlverişli olduğunu göstərir. Belə ki, bu şəraitdə qrupun hər bir üzvü qarşılıqlı surətdə məlumatları bölüşmək imkanına malik olur. Bu isə məsələnin həllinin yeni istiqamət üzrə aparılmasına şərait yarada bilər.

Qrup daxilində olan əlaqələrin öyrənilməsi xüsusi əhəmiyyətə malikdir. Məlumdur ki, qrup daxilində hər bir üzvün müəyyən rolu vardır. Bu rol daim dəyişir və təkmilləşir.

## 3. Sosial qrupların dinamikası

Sosial qruplar həmçinin onları canlı sosial qarşılıqlı təsirdə nəzərdən keçirməyə imkan verən dinamik xüsusiyyətlərə də malikdir. Belə xüsusiyyətlərə qrupun ölçüsü, onun daxili strukturu (liderlər, sıravi üzvlər, autsayderlər), qrup daxilində rəhbərlik üslubu, qrup davranışı ilə bağlı spesifik sosial həyat fenomenləri aiddir.

Qrupun ölçüsü artıq öz-özlüyündə qrupdaxili qarşılıqlı təsiri əsasən müəyyənləşdirir. Ən sıx və məna ifadə edən münasibətlər iki adamdan ibarət qruplarda (diada) - ərlə arvad, sevgililər, yaxın dostlar arasında yaranır. Diadada hisslər və emosiyalar, bir qayda olaraq, böyük qruplardakına nisbətən daha mühüm rol oynayır. Ancaq gözlənilənin əksinə olaraq,

diadadakı münasibətlər daha böyük qruplardakına nisbətən daha kövrək olması ilə fərqlənir və burada ümidlərin boşa çıxmasına daha çox rast gəlinir.

Qrupa üçüncü üzvün əlavə edilməsi - triadanın yaranması sosial vəziyyəti köklü şəkildə dəyişdirir. Qrupdaxili «fraksiyaların» yaranması, iki nəfərin üçüncüyə qarşı ittifaqı, boykotlar, lider və autsayderin ayrılması və s. kimi yeni imkanlar əldə edilir.

Bəzi sosioloqların tədqiqatlarının nəticələrinə görə, kiçik qrupun üzvlərinin optimal sayı beş nəfər olmalıdır. Bu halda heç bir çıxılmaz qrupdaxili vəziyyət ola bilməz, çünki həmişə çoxluğun rəyini asanlıqla ayırd etmək mümkündür. Bundan başqa, belə qrupda azlıqda qalmaq heç də təcrid olunmaq demək deyildir. Belə qrup kifayət qədər böyükdür: orada insanlar özlərini tam «sosial» hesab edə bilərlər - rollarını dəyişdirə, öz rəylərini sərbəst şəkildə izhar edə və özlərinin haqlı olduqlarına ətrafındakıları inandıra bilərlər.

Təsəvvürünüzə gətirin ki, voleybol komandası bombardirsiz, ordu zabitlərsiz, müəssisə direktorsuz, universitet rektorsuz, orkestr dirijorsuz və gənclər qrupu başçısızdır. Ümumi rəhbərlik olmadan insanlar öz fəaliyyətlərini əlaqələndirməkdə çətinlik çəkirlər. Deməli, qrup mühitində bəzi üzvlər, bir qayda olaraq, digərlərinə nisbətən daha çox təsir qüvvəsinə malik olurlar. Biz belə fərdləri *liderlər* adlandırırıq. Kiçik qruplar lidersiz keçinə bilirlər, lakin iriölçülü qruplarda rəhbərliyin olmaması xaosa (qarmaqarışıqlığa) gətirib çıxarır.

Kiçik qruplara, bir qayda olaraq, iki lider tipi xasdır. Birinci tip - «mütəxəssis-sosioloqdur». O, cari məsələləri qiymətləndirmək və onları yerinə yetirmək üzrə fəaliyyətin təşkili ilə məşğul olur. İkinci tip - «mütəxəssis-psixoloqdur». O, insanlar arasında yaranan problemlərin öhdəsindən yaxşı gəlir, onlar arasındakı

gərginliyi aradan qaldırır, qrupda həmrəylik ruhunun yüksəlməsinə kömək edir. Rəhbərliyin birinci tipi qrup məqsədlərinə çatmağa yönəlmiş instrumental rəhbərlikdir; ikinci tip isə qrupda harmoniya və həmrəylik ab- havasının yaranmasına yönəlmiş ekspressiv rəhbərlikdir. Bəzi hallarda eyni bir insan öz üzərinə bu rolların hər ikisini götürür, amma adətən bu rolların hər biri ayrı-ayrı rəhbərlər tərəfindən yerinə yetirilir. Rollardan heç biri digərindən daha vacib hesab edilə bilməz, hər bir rolun nisbi əhəmiyyətini konkret vəziyyət diktə edir.

Liderlər insanlara təsir etmək üçün müxtəlif üslublardan istifadə edirlər. K. Levin rəhbərlik üslublarının klassik tədqiqatını aparmışdır. Bu tədqiqat zamanı 11 yaşlı oğlanlardan ibarət qruplarla işləyən yaşlı rəhbərlər rəhbərliyin üç üslubundan birindən istifadə etmişdilər.

*Avtoritar üslubda* rəhbər qrupun fəaliyyətinin əsas istiqamətini müəyyən edir və hər mərhələ üzrə təlimat verirdi, buna görə də oğlanlar gələcək tapşırıqlar barədə aydın təsəvvürə malik idilər. Rəhbər həmçinin iş üçün tərəfdaşları təyin edir, müsbət və tənqidi qiymət verir və qrupun fəaliyyətində iştirakdan kənarda qalırdı.

Bunun əksinə olaraq, *demokratik üslıbda* rəhbər oğlanlara qərarların qəbul olunmasında iştirak etməyə icazə verir, işin yalnız ümumi məqsədlərini ümumi şəkildə təsvir edir, bu məqsədlərə çatmağın variantlarını təklif edir, qrupun üzvlərinə istədikləri kəslərlə işləməyə icazə verir, oğlanların nailiyyətlərini obyektiv şəkildə qiymətləndirir və özü qrupun fəaliyyətində iştirak edirdi.

Nəhayət, *neytrallıq üslubu* rəhbərin passiv mövqeyini nəzərdə tuturdu: o, materiallar, məsləhətlər verir və yalnız qrupun üzvlərinin xahişi ilə onlara köməklik edir, işin nəticələrinə qiymət verməkdən imtina edirdi.

Tədqiqatçılar müəyyən etmişlər ki, rəhbərliyin avtoritar üslubu qrup üzvlərinin tam gücdən düşməsinə gətirir və onlarda rəhbərə qarşı düşmənçilik hissləri yaradırdı. Məhsuldarlıq yalnız rəhbərin iştirak etdiyi zaman yüksək olaraq qalırdı, amma o, gedən kimi məhsuldarlıq da əhəmiyyətli dərəcədə azalırdı. Demokratik rəhbərlik üslubunda qrupun üzvləri dərin razılıq hissi keçirirdilər, qrupun tapşırıqlarına daha çox yönəlmişdilər və daha mehriban idilər, müstəqillik (xüsusilə də rəhbər olmayanda) və şəxslərarası aqressivliyin aşağı səviyyəsini nümayiş etdirirdilər. İşə qarışmamaq üslubu aşağı məhsuldarlığa və şəxslərarası aqressivliyin yüksək səviyyəsinə gətirib çıxarmışdı.

Lakin qeyd etmək lazımdır ki, eksperiment demokratik əsaslarla tərbiyə almış yeniyetmələrlə keçirilmişdi. Başqa şəraitdə və başqa mədəni mühitdə avtoritar rəhbərlik üslubu daha üstün ola bilər. İnkişaf etməkdə olan ölkələrdə avtoritar liderlərin faizi belə fərz etməyə imkan verir ki, yüksək gərginlik şəraitində ölkənin əhalisi direktiv idarəçiliyə üstünlük verə bilər. Lakin belə bir izahat da ağlabatandır ki, qeyd olunan şəraitdə avtoritar hökmdarlar üçün hakimiyyəti ələ keçirmək və onu əldə saxlamaq daha asan olur.

Sosioloji ədəbiyyatda liderliyin üç funksiyası göstərilir: 1) təşkilatçılıq; 2) informasiya; 3) sosiallaşma.

Birinci funksiya nəzərdə tutur ki, lider qrupun məqsədini müəyyən edir, qərar qəbulunu, aktual və perspektiv məqsədlərin yerinə yetirilməsi yollarını, üsul və vasitələrin planlaşdırılmasını təşkil edir, onların birgə səylərini əlaqələndirir və s.

Qrup fəaliyyətinin səmərəli olması naminə zəruri informasiyanın toplanılması, işlənilməsi, onların qrup üzvlərinə vaxtında çatdırılması informasiya funksiyasının əsas cəhətini təşkil edir.

Sosiallaşma funksiyası isə liderin müəyyən keyfiyyətləri formalaşdırmaq və tərbiyə etmək məqsədilə qrup üzvlərinə göstərdiyi təsirləri əks etdirir.

Qədim atalar sözünə görə, «əl çox olanda iş daha rahat gedir». Lakin aydın olur ki, bu atalar sözü gerçəkliyə uyğun gəlmir. Məsələn, gözləmək olardı ki, üç adam kanatı tək adama nisbətən üç dəfə çox intensivliklə, səkkiz adam isə səkkiz dəfə çox güclə dartacaq. Əslində isə tamamilə tərsinə alınır. Tədqiqatlar göstərir ki, əgər ipi dartan bir adamın sərf etdiyi qüvvə 4 kq-a bərabərdirsə, üç nəfərdən ibarət qrupda hər bir adamın sərf etdiyi qüvvə 3,6 kq, səkkiz nəfərdən ibarət qrupda isə 1,9 kq təşkil edir. Bunun səbəblərindən biri kimi qüvvələrin düzgün əlaqələndirilməməsini göstərmək olar. Lakin eksperimentin iştirakçılarının gözlərini bağlayıb, onları inandıranda ki, onlar kanatı təkbaşına yox, bir qrup adamla birgə dartırlar, onda onlar da özlərinə həddindən artıq zəhmət vermirdilər. Aydındır ki, insanlar qrupda işləyərkən özlərini müstəqil işdəkinə nisbətən daha az gücə salırlar - bu fenomen «sosial laqeydlik» adlanır.

Buradan belə bir nəticə çıxarmaq lazım deyil ki, kollektiv fəaliyyətə son qoymaq lazımdır. Qruplar cəmiyyətin həyatında birinci dərəcəli rol oynayırlar və bir adamın görməyə qadir olmadığı hər hansı işi yerinə yetirməyə qadirdirlər. Məsələn, anonim alkoqoliklər, narkomanlar, tək valideynlər və arıqlamaq istəyənlərin qrupları, eləcə də «özün-özünə kömək et» prinsipi ilə fəaliyyət göstərən digər qrupların işi göstərir ki, qruplar hansı təsir imkanlarına və hansı uğurları qazanmağa qadirdir.

Sosial laqeydlik effekti belə fərz etməyə imkan verir ki, qrupun ölçüsü ilə fərdlərin motivasiyası arasında tərs asılılıq mövcuddur. Bununla sıx bağlı olan fenomen *sosial dilemma* kimi müəyyən olunmuşdur. Bu elə situasiyadır ki, burada qrupun üzvləri öz şəxsi maraqlarının maksimal ödənilməsi ilə kollektiv uğurun maksimum artırılması arasındakı ziddiyyətlə rastlaşırlar.

Gəlin görək ki, düşmənlə döyüşün həlledici mərhələsindən qabaq səngərə düşmüş əsgərin hansı seçimi var. Hər bir əsgər fikirləşə bilər ki, sağ qalmaq üçün səngərdə qalmaq daha ağlabatan seçimdir. Lakin bütün əsgərlər

belə bir qərar qəbul etsələr, onda döyüş, heç şübhəsiz, uduzulacaq və hamı məhvə məhkum olacaqdır. Bir çox sosial dilemmalarda belə bir ehtimal mövcuddur ki, qrupun hər hansı bir üzvü ümumi işin xeyrinə hərəkət edə biləcək və bu zaman başqasının şəxsi töhfəsinə ehtiyac qalmayacaqdır.

Bəs hansı sosial mexanizmlər fərdləri eqoizm mülahizələrini rəhbər tutmamağa, kollektivizm ruhunda hərəkət etməyə təhrik edə bilər? Hər şeydən əvvəl, bu, fərdin ümümi rifahına xələl gətirən hərəkətləri məhdudlaşdıran sosial nəzarət mexanizmləridir. Çox vaxt bu funksiyanı müxtəlif resurslara nəzarəti tənzimləyən dövlət öz üzərinə götürür. Qrup normaları çox vaxt həmin məqsədə qeyri-formal sanksiyalar vasitəsilə çatır. Lakin insanları birgə hərəkət etməyə və cəmiyyətə uyğun davranış modellərini seçməyə həvəsləndirən digər vasitələr də mövcuddur. Bu mexanizmlərin arasında elələri var ki, onlar qrup sərhədlərini qeyd edir və çox güclü qrup eyniləşdirilməsinin inkişafına kömək edir. Hətta daha çox, əgər fərdlər hiss edirlərsə ki, onların digər insanlarla əməkdaşlığı mükafatlandırılır (məsələn, gəlirlərdə və digər nemətlərdə bərabər iştirak şəklində), bu halda onlar eqoist, fərdiyyətçi davranışa daha az meylli olurlar.

Daha bir strategiya - qrup təfəkkürüdür, lakin onun dağıdıcı nəticələri haqqında biz indi söhbət açacağıq. 1961-ci ildə Kennedinin administrasiyası Kubaya uğursuz müdaxilə etdi. Kubanın ərazisinə müdaxilə üçün

ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsində xüsusi hazırlıq keçmiş Kuba mənşəli 1400 nəfərdən artıq muzdlunun çox hissəsi öldürüldü və ya Kastronun qoşunları tərəfindən əsir götürüldü. Bu uğursuzluq nəinki Kastronun mövqelərini gücləndirdi, həm də Kubanın SSRİ ilə ittifaqını möhkəmləndirdi. Bunun nəticəsində Sovet hökuməti Kubada nüvə başlıqlı raketləri yerləşdirməyə cəhd etdi. Sonralar prezident Kennedi özünə belə bir sual verməli oldu: «Biz belə ağılsızlığa necə yol verdik?». Prezident və onun müşavirləri nəinki Kastronun ordusunun gücünü düzgün qiymətləndirməmiş, hətta bir çox hallarda lazımi məlumatları da ala bilməmişdilər.

Görkəmli tədqiqatçı Ervin Yanis belə bir fərziyyə irəli sürür ki, prezident və onun müşavirləri *qrup təfəkkürünün* çox sıx əlaqəli qruplarda qərarın qəbul edilməsi prosesinin qurbanı olmuşlar. 19-20 yanvar 1990-cı ildə Azərbaycan xalqı da belə bir yanlış və cinayətkar qrup təfəkkürünün qurbanı olmuşdur. Belə ki, həmin dövrdə SSRİ-nin prezidenti olmuş Qorbaçovun göstərişi ilə Sovet Ordusu Bakıya hücum etmiş, qanlı qırğın törətmişdir. Nəticədə 131 nəfər öldürülmüş, 747 nəfər yaralanmış, 400 nəfər isə həbs edilmişdir. Belə qrupların üzvlərini konsensusun saxlanması məsələsi o qədər narahat edir ki, bu, onların tənqidi qabiliyyətlərinə mənfi təsir göstərir. Qrup təfəkkürü halında qrupun üzvləri belə bir illüziyanın təsiri altında olurlar ki, onlar qərarları könüllü surətdə qəbul edirlər; bu isə hipertrofik əminliyə və riskə getmək üçün daha böyük hazırlığa gətirib çıxarır. Qrup təfəkkürünün qurbanları öz əməllərinin düzgün olmasına qeyd-şərtsiz olaraq inanırlar - bizim misalımızda bu, Sovet dövlətinin yuxarı dairələrinin bütün bəlaların səbəbi hesab etdikləri kommunist rejiminin saxlanılması zərurəti ilə bağlıdır. Qrupun üzvləri həmrəyliyin olmasını tələb edir və təklif olunan fəaliyyət planına şübhə ilə yanaşan fərdlərə təzyiq göstərirlər; onlar öz şübhələrini boğur və özlərinə qarşı senzor rolunu oynayırlar. Doğrudan da, sonradan məlum oldu ki, Sov. İKP MK Siyasi Bürosunun bəzi üzvləri Bakıya müdaxilə planları ilə bağlı tamamilə əks fikirdə olduğuna baxmayaraq, onlar bu planın həyata keçirilməsinə mane ola bilməyiblər. Qrup təfəkkürü qrup mühiti üçün səciyyəvi olan və qrup üzvlərinin baxışlarına təsir

edən güclü ictimai təzyiqin mövcudluğunu təsdiqləyir. Belə təzyiq gündəlik davranışımıza təsir etsə də, çox vaxt biz bunu kifayət qədər dərk etmirik.

## 4. Kütlə sosial qrup kimi

**Kütlə** maraqların ümumiliyi ilə qapalı fiziki məkanlarda birləşmiş insanların qısamüddətli toplantısıdır. Kütlənin sosial strukturu çox sadədir. Əksər hallarda kütlədə lider və onlara inanan insanlar toplanır. Aydındır ki, kütlədə toplanan insanların əxlaqı, davranışı, səviyyələri bir-birindən kəskin şəkildə fərqlənir. Kütlədə səslənən istənilən fikir tezliklə iştirakçılar tərəfindən anlaşılır.

Kütlə fərdlərin adi yığımından bir qədər böyükdür. Fiziki cəhətdən məhdud bir məkan insanların kütlədə şəxsiyyətlərarası əlaqədən qaçmağa çalışdıqları zamanda belə sosial qarşılıqlı hərəkətlə nəticələnir.

Kütlələr xarakterinə və davranışına görə kəskin fərqlənirlər. Bir növ kütlə başqa növ kütləyə asanlıqla çevrilə bilər. Kütlələr, hər şeydən əvvəl, ümumi xüsusiyyətlərə malikdirlər.

**Təlğinetmə.** Kütlə daxilində olan adamlar, adətən, kənardakılara nisbətən daha çox təsirə məruz qalırlar.

Onlar böyük yəqinliklə əksəriyyətin fikrini, hissini və hərəkətini qəbul edirlər.

**Anonimlik.** Fərd özünün kütlə daxilində tanınmaz və əlçatmaz olduğunu hiss edir. Kütlə həmişə tam şəkildə

hərəkət edir, onun ayrı-ayrı üzvləri fərqlənmirlər və özlərini xüsusi fərd kimi qəbul etmirlər.

**Öz-özünə əmələgəlmə.** Kütləni təşkil edən adamlar adi şəraitdən fərqli olaraq daxili səbəblərdən törəyən davranış xüsusiyyətinə malikdirlər. Bir qayda olaraq onlar öz hərəkətləri haqqında fikirləşmir və onların kütlədəki davranışı birbaşa emosiyalarla bağlıdır.

**Dözümlülük.** Kütləni təşkil edən adamlar anonim olduqları üçün onlar özlərini sosial nəzarətdən kənarda hiss edir və belə başa düşürlər ki, onlara «əl çatmaz».

Formalaşmasına və davranışına görə kütləni bir neçə növə ayırmaq mümkündür.

**Təsadüfi kütlə.** Bu kütlə məlum olmayan struktura malikdir. Belə bir kütləyə nümunə insanların adətən küçədə qeyri-adi hadisə baş verdikdə toplanması ola bilər (tanınmış şəxsə rast gəlinməsi, avtomobil toqquşması və s.). Bu növ kütlədə insanları ya əhəmiyyətsiz bir məqsəd, ya da tam mənasız «vaxt keçirmə» eyni araya gətirir. Fərdlər zəif emosiyaya qapılıb təsadüfi kütləyə cəlb oluna və çox asanlıqla da oradan ayrıla bilərlər. Bəzən də elə ola bilər ki, şəraitin dəyişməsi ilə əlaqədar kütlənin quruluşu da dəyişər və böyük vəhdət yaranar.

**Şərtləşdirilmiş kütlə** əvvəldən planlaşdırılmış və müəyyən struktura malik insanlar toplusudur. Bu hal kütlə üzvlərinin davranışının əvvəlcədən müəyyən edilmiş sosial normaların təsiri altında olması ilə şərtlənir. Məsələn, tamaşaya toplanmış kütlə teatrda, stadionda, iclasda və s. özünü müxtəlif şəkildə aparır. Bütün bunlar şərtləndirilmiş kütlə növləridir.

**Ekspressiv kütlə.** Bu, sosial kvaziqrupdur. Adətən burada kütlənin üzvlərinin şəxsi təminatı və insanların fəallığı məqsəd və nəticəni bildirir. Məsələn, rəqslər, dini mərasimlər və s.

**Fəaliyyətdə olan kütlə.** «Fəaliyyətdə olan» dedikdə, kütlənin hərəkətinin tam kompleksi nəzərdə tutulur. Bu, hiddətlənmiş yığıncaq və ya ekstremal növlü davranış toplusudur. Adətən hərəkətdə olan kütlənin sosial proseslərinin tədqiqi zamanı kütlənin bu növü daha çox fərqləndirilir, əhəmiyyətli hesab edilir.

Fəaliyyətdə olan kütlənin çox mühüm forması **toplantılardır.** Bu toplantılar zorakı hərəkətlərə sövq olunmuş emosional şəkildə qızışdırılmış kütlədir. Toplantılarda adətən özlərinin aqressiv niyyətlərində məqsədyönlü olan və kütlə iştirakçılarından ciddi konformizm tələb edən məqsədyönlü liderlər olur. Toplantıların hərəkəti bilavasitə hansısa müəyyən obyektə istiqamətlənir və qısamüddətli xarakter daşıyır. Bundan sonra toplantı bir qayda olaraq dağılır. Toplantılara ən çox yayılmış nümunə məhdud istiqamətdə olan «daşqalaq edilmiş» kütlədir.

Linclənmiş kütləyə daxil olan insanlar adi həyatda heç də qəddar və fəal hərəkətdə olan toplantı iştirakçısını xatırlatmır.

Fəaliyyətdə olan toplantının digər mühüm forması **üsyankar kütlədir.** Bu, dağıdıcı və zorakılığın kollektiv partlayışıdır. Belə kütlə toplantıdan onunla fərqlənir ki, üsyankar kütlənin davranışı nisbətən strukturludur, məqsədi məhduddur və nisbətən qeyri-sabitdir. Həmin kütlə müxtəlif məqsədli qruplardan ibarət ola bilər. Onların qrupları müxtəlif olsa da, son məqamda eyni formada olurlar. Belə kütlə növü xaricdən təsadüfi təsirlərə məruz qalır, onların hərəkəti əksər hallarda gözlənilməz təxribatla yekunlaşır.

Sosioloji tədqiqatların nəticələri göstərir ki, sözügedən tipli kütlə əksər hallarda ictimai qaydaları pozur, qanunsuz hərəkətlərə yol verir. Yəqin ki, bu, ilk növbədə, onların hərəkətlərinin anonim qalacağına, bununla da cəzadan

kənarlaşa biləcəyinə əminliklə bağlıdır.

Kütlənin yaranma mexanizmi, fəaliyyətdə olan kütlədə insanların destruktiv davranışı həmişə tədqiqatçıları, sosioloqları maraqlandıran mühüm məsələlərdəndir. Fəaliyyətdə olan kütlənin davranışı ilə bağlı sistemli nəzəriyyənin ilkin variantını 1895-ci ildə fransız alimi Q. Lebon irəli sürmüşdür. Onun «Kütlə psixologiyası» adlı əsəri daha əhəmiyyətlidir. Onun fikrincə, Avropa cəmiyyəti öz inkişafında yeni dövrə - «kütlə erasına» qədəm qoyur. Bu zaman şəxsiyyətdə təcəssüm olunan zəkayauyğun tənqidi başlanğıc irrasional kütləvi şüur tərəfindən əzilir. Lebon qeyd edir ki, kütlədə hər bir adamın fikirlərinin gedişi kütlənin ümumi əhval-ruhiyyəsi ilə istiqamətlənir. İnsan kütlə içərisində nə qədər çox qalırsa, onda reallıq hissi də bir o qədər azalır, kütlənin təsirinə daha çox məruz qalır.

Aydındır ki, «kollektiv cəhd» bütün insanlara eyni dərəcədə təsir etmir. Təsiretmə qabiliyyəti cəmiyyətin aşağı təbəqələrindən olan və fərdi cəhətdən intellektual səviyyəsi aşağı olan insanlarda daha çox hiss edilir.

Kütlənin tədqiq edilməsi ilə bağlı digər istiqamət Amerika sosioloqu R. Ternerin 1964-cü ildə işləyib hazırladığı «törəyən» normalar nəzəriyyəsidir. Bu nəzəriyyəyə görə, kütlənin davranışı qarşılıqlı fəaliyyət prosesində kütlədə spesifik normalar kompleksinin yaranması və sürətlə inkişaf etməsindən ibarət olan sosial prosesdir. O, belə hesab edir ki, fəaliyyətdə olan kütlədə insanların məqsədi əvvəl müxtəlif' olur, bəziləri fəal iştirakçı, digərləri passiv müşahidəçi kimi çıxış edir, başqaları isə öz fikirlərini deməklə kifayətlənirlər. Lakin fərdlərin qarşılıqlı fəaliyyəti zamanı kütlədə sürətlə yeni normalar yaranmağa başlayır. Beləliklə, kütlənin davranışını idarə etmək üçün bu normaların törənmə mənbəyinə, daşıyıcılarına və onları yaradanlara məqsədyönlü təsiretmə imkanlarını müəyyən etmək lazımdır.

## Mühazirə 5. Sosial mobillik

1. Sosial mobillik anlayışı
2. Sosial mobilliyin səciyyəvi xüsusiyyətləri
3. Sosial mobilliyin inkişaf kanalları

### 1. Sosial mobillik anlayışı

Sosioloji tədqiqatların nəticələri göstərir ki, istedadlı şəxsiyyətlərin istənilən ictimai təbəqələrdə və siniflərdə olması real faktdır. Əgər sosial nailiyyət üçün heç bir maneə mövcud deyilsə, onda yüksək sosial mobilliyin müvəffəqiyyətini gözləmək olar. Lakin araşdırmalara görə deyə bilərik ki, təbəqə və siniflər arasında fərdlərin bir qrupdan digərinə sərbəst keçidləri

üçün müəyyən maneələr mövcuddur. Ən başlıca maneələrdən biri sosial sinfin nümayəndəsinin həmin sinfin mədəniyyətinə uyğun tərbiyə olunmasıdır.

Sosial bərabərsizlik problemi həmişə belə bir sualın meydana çıxmasına səbəb olur: fərd öz qüvvəsi ilə özünün statusunu yüksəldə və nüfuzluluq şkalasında ondan yuxarıda yerləşən sosial təbəqəyə daxil ola bilərmi? Bu sualın cavabı sosioloji ədəbiyyatda müxtəlif cür şərh edilir. Bəzi tədqiqatçılara görə, müasir cəmiyyətlərdə bütün insanların start imkanları bərabərdir və əgər fərd müvafiq cəhd göstərərsə, o, mütləq sosial mobilliklə bağlı uğur qazana bilər. Çox vaxt bu fikri sübut etmək üçün sıfırdan başlayan milyonçuların karyerasını və adi ailələrdən çıxan, sonra kinoulduzlara çevrilən qızları nümunə göstərirlər. Digər qrup müəlliflər isə yaradıcı işlə məşğul olan ziyalıların ailəsində doğulmuş uşaqların gələcəkdə fiziki əmək fəaliyyəti sahəsində məşğul olması ehtimalının olduqca aşağı olduğunu vurğulayaraq heç də insanların sosial nailiyyət üçün bərabər imkanlara malik olmadığını qeyd edirlər. Məsələn, nazir və fəhlə övladlarının yüksək vəzifəyə təyin olunma imkanları müxtəlifdir. Məhz buna görə də sözügedən fikri vurğulayan tədqiqatçılar cəmiyyətdə yüksək nailiyyət əldə edilməsi üçün yalnız bacarıq və qabiliyyətlə çalışmağın kifayət etməsi haqqındakı ümumi nəzəri fikrin əsassız olduğunu iddia edirlər.

Yuxarıda deyilən fikirlər təsdiq edir ki, hər bir sosial dəyişiklik az və ya çox dərəcədə mövcud maneələri dəf etməklə həyata keçirilir. Hətta insanların bir yaşayış yerindən digərinə köçməsi zamanı yeni şəraitə uyğunlaşması üçün müəyyən müddət tələb olunur.

Fərdlərin sosial stratifikasiya sistemində bir qrupdan digərinə keçməsi sosial mobillik adlanır. « Sosial mobillik» anlayışı sosiologiyaya 1927-ci ildə P. Sorokin tərəfindən gətirilmişdir. O, mobilliyi iki növə ayırır: üfüqi və şaquli. Fərd və sosial qrupun öz sosial statusunu, cəmiyyətin sosial strukturunda tutduğu yeri dəyişməsi sosial mobillik adlanır. P. Sorokin sosial mobillik dedikdə, yalnız fərdlərin və ailələrin bir sosial qrupdan digərinə keçməsini deyil, bütövlükdə sosial vəziyyətin dəyişməsini başa düşürdü.[1]

Cəmiyyətdə sosial mobilliyin mövcudluğunun iki əsas səbəbi vardır. Əvvəla, tarixi inkişaf nəticəsində cəmiyyətlər daim dəyişir, sosial dəyişikliklər isə əməyin bölgüsünü dəyişdirir, yeni statuslar yaradır və köhnələri yenisi ilə əvəz edirlər. İkincisi, elita təhsil almaq üçün imkanları inhisara ala bilər. Lakin o, istedad və qabiliyyətlərin təbii paylanmasını nəzarətdə saxlamaq iqtidarında deyildir. Buna görə də ən yüksək təbəqələr labüd olaraq ən aşağı təbəqələrdən üzə çıxan istedadlı insanların hesabına artır.

Sosial mobillik özünü müxtəlif formalarda göstərir. Üfüqi mobillik dedikdə, fərdin və ya sosial obyektin bir sosial vəziyyətdən onunla eyni səviyyədə olan digərinə keçidi başa düşülür. Məsələn, fərdin yaşayış yerini dəyişməsi, bir dini qrupdan digərinə keçməsi və s. Bu hallardan heç birin-də fərd özünə aid olan sosial statusu dəyişmir. Şaquli mobillik dedikdə isə fərdin

aid olduğu təbəqədən fərqli təbəqəyə keçidi başa düşülür. Bu, fərdin sosial statusunu yüksəldən və ya aşağı salan dəyişmədir. Əgər sex rəisi sonradan zavodun direktoru olarsa, bu, yüksələn mobilliyin təzahürüdür. Əksinə, sex rəisi sonradan adi mühəndis olarsa, belə yerdəyişmə enən mobilliyin göstəricisi hesab oluna bilər.

Sosioloqlar həmçinin nəsillər arasında və bir nəslin daxilində mobilliyi fərqləndirirlər. Nəsillərarası mobillik valideynlərin və onların uşaqlarının sosial statusunun karyerasının müəyyən anına şamil olunur. Tədqiqatlar göstərir ki, Azərbaycanın əhalisinin böyük hissəsi hər bir nəsildə sinfi iyerarxiyada heç olmazsa, bir az yuxarıya və ya aşağıya doğru yerini dəyişir. Nəsildaxili mobillik şəxsiyyətin sosial statusunun uzun müddət ərzində müqayisə edilməsini nəzər-də tutur. Araşdırmaların nəticələri göstərir ki, azərbaycanlıların çoxu öz həyatı boyunca məşğulluq növünü dəyişdirir. Lakin insanların çoxunda mobillik məhdud xarakter daşıyır. Kiçik məsafələrə yerdəyişmə qaydadır, böyük məsafələrə yerdəyişmə isə qaydalardan istisnadır.

---

Açıq statifikasiya sistemləri üçün şaquli mobillik kifayət qədər adi hadisədir. Burada söhbət əlbəttə ki, aşağıdan elitaya doğru sürətli sıçrayışdan deyil, addım-addım yerdəyişmədən gedir (baba - fəhlə, ata - həkim, oğul şəhərə köçür və dissertasiya müdafiə edir). Qapalı sistemlərdə mobilliyin belə təzahürləri də istisna olunur.

Məsələn, silk və zümrəli cəmiyyətlərdə çəkməçilərin, tacirlərin, təhkimli kəndlilərin onlarca nəsli, digər tərəfdən isə əsil-nəcabətli nəsillərin uzun şəcərə zəncirləri norma olmuşdur. Biz belə sosial varlığın yeknəsəkliyini tarixi mənbələrdə göstərilən küçə adlarına görə qiymətləndirə bilərik: qalayçılar küçəsi, tənəkəçilər küçəsi, xalçaçılar məhəlləsi və s. Ustalar nəinki öz status və peşələrini nəsildən-nəslə ötürür, həm də onların hamısı yan-yana yaşayırdı.

Sosioloji ədəbiyyatda sosial mobillik nəzəriyyəsinə müxtəlif yanaşmalar mövcuddur. Bu, ilk növbədə sosial mobillik anlayışının mahiyyəti ilə bağlıdır. Bəzi sosioloqlar belə bir fikir irəli sürürlər ki, sosial mobillik o zaman baş verir ki, yeni sosial status fərdin ailəsinə aid edilsin. Fransız sosioloqları P. Bertu və P. Burdan sosial mobilliyi fərdlərin həyatları və peşə fəaliyyəti dövründə öz valideynlərinin sosial statusuna nisbətən bir sosial kateqoriyadan digərinə keçməsi kimi xarakterizə edirdilər. Burada çıxış nöqtəsi kimi sosial mənşə götürülürdü.

Sosial mobillik probleminə müasir yanaşmalar içərisində M. Lipset və R. Bendiksin sənaye cəmiyyətinin inkişafını şaquli mobilliklə bağlayan konsepsiyasını göstərmək lazımdır. Lipset və Bendiksin tədqiqatlarına görə, bütün sənaye cəmiyyətləri yüksək dərəcədə yüksələn mobilliklə səciyyələnirlər. Çünki bir tərəfdən qeyri-məhdud sosial inkişaf üçün geniş imkanlar sanki aşağı sosial təbəqələrin daha enerjili və istedadlı nümayəndələrinin enerjisini başqa istiqamətə yönəldən və inqilabi dəyişikliklərin risqini azaldan bir «qoruyucu klapan» kimi çıxış edir. Başqa sözlə, mobillik cəmiyyətin stabilləşdirilməsi funksiyasını yerinə yetirir. Digər tərəfdən isə sənaye cəmiyyəti fərdə yüksək intellektual tələblər verir və fərdi istedadların sosial vəziyyətindən asılı olmayaraq inkişafını və onlardan məhsuldar şəkildə istifadə olunmasını zəruri edir. P. Blau və bir sıra digər sosioloqlar mobillik fenomenini sosial ədalət və sosial sistemin effektivliyi ideyası ilə bağlayırdılar. XX əsrin ortalarında sənaye cəmiyyətinin populyar olan nəzəriyyələrində sosial mobilliyə mühüm yer ayrılırdı. Məsələn, konvergensiya nəzəriyyəsinə görə, şaquli mobilliyin artmasına meyl sosial quruluş və siyasi sistemindən asılı olmayaraq bütün sənaye cəmiyyətlərinə xasdır. Bu nəzəriyyəyə əsasən sənayeləşmə prosesi müxtəlif sinif və təbəqələrdən çıxmış insanların şaquli mobilliyinin artmasına və sosial imkanların bərabərləşməsinə kömək edir. Sənaye cəmiyyətinin tənqidi yönümlü nəzəriyyələri isə əksinə, göstərirdilər ki, sənayeləşmə labüd olaraq enən Mobilliyin genişlənməsinə səbəb olur. Çünki işçilərin ixtisasına və işgüzar xüsusiyyətlərinə tələblərin yüksəlməsi, eləcə də istehsalatın geniş mexanikləşdirilməsi və avtomatlaşdırılması işsizliyin artmasını, getdikçə daha çox işçinin aşağıya doğru itələnib çıxarılmasını və onların marginallaşmasını şərtləndirir.

Sonuncu onilliyə müraciət etdikdə, mobilliyin metodologiyasının öyrənilməsinə həsr edilən və onun perspektivlərini başa düşmək üçün müqayisəli təhlilin xüsusi əhəmiyyətini əsaslandıran B. Dyuryenin tədqiqatını, eləcə də C. Qoldtorp və R. Eriksonun müxtəlif sənaye cəmiyyətlərində mobillik səviyyələrinin dəyişməsinə həsr olunmuş tədqiqatlarını qeyd etmək lazımdır. Nəticədə müəlliflər bu qənaətə gəlirlər ki, sosial quruluşundan asılı olmayaraq, bütün sənaye ölkələrində sosial mobillik göstəriciləri bir-birinə yaxındır.

## 2. Sosial mobilliyin səciyyəvi xüsusiyyətləri

Sosial şəraitdən asılı olaraq cəmiyyət fərdlərin bəzilərinin vəziyyətini yüksəldə,

digərlərininkini isə aşağı sala bilər. Bundan asılı olaraq şaquli mobillik prosesləri iyerarxiya pillələri üzrə yuxarıya və aşağıya hərəkətlərdən ibarətdir. Bu iki istiqamət irəliləmə və deqradasiya - geriləmə adları ilə tanınır. Peşə, iqtisadi və siyasi baxımdan iki əsas formada irəliləmə mobilliyi vardır: birincisi, fərdi irəliləmə və ya aşağı təbəqədən ali təbəqəyə doğru infiltrasiya; ikincisi isə hər hansı ali təbəqəyə yeni qrup şəklində daxil olmaq və ya onu əvəz etmək.

Anoloji olaraq mobilliyin deqradasiyasının da iki əsas forması vardır: birincisi, ayrı-ayrı fərdlərin yüksək sosial vəziyyətdən aşağıya doğru enməsi; ikincisi, qrup halında sosial vəziyyətin itirilməsi.

Ayrıca bir fərdin qarşısına çıxan maneələri və qruplararası sərhədləri keçməsini öyrənməklə biz yüksəlmə prosesini, yəni peşə, sosial, iqtisadi və siyasi vəziyyətin yuxarıya doğru irəliləməsini başa düşə bilərik. Hər bir fərdin daha yüksək nüfuz, gəlir, hakimiyyətdə daha geniş iştirak və s. ilə bağlı olan daha yüksək mənsəb əldə etmək və sosial mənsəbi itirməmək tələbatı vardır. Bu istəyin həyata keçməsi cəmiyyətdəki bir çox amillərdən asılıdır. İstəyə nail olmaq haqqında məsələnin tədqiqində K. Levinin sahələr nəzəriyyəsindən istifadə edilməsi məqsədəuyğundur.

Bir qədər aşağı mənsəbli vəziyyətdə olan qrupda fəaliyyət göstərən fərd yüksək statuslu vəziyyətə nail olmaq üçün qrup və ya təbəqələrarası maneələri dəf etməlidir. Daha yüksək mənsəbli qrupa doğru irəliləmək istəyən fərdin yuxarıda dediyimiz maneələri dəf etməsi üçün müəyyən enerjisi vardır. O, bu enerjisini aşağı mənsəbli təbəqə ilə yuxarı mənsəbli təbəqə arasındakı M məsafəsinin qət edilməsinə sərf edir. Həmin sərf olunan enerjini F qüvvəsi kimi ifadə edək. Maneənin müvəffəqiyyətlə dəf edilməsi yalnız və yalnız fərdin sərf etdiyi qüvvənin onu itələyən qüvvələrdən üstün olması halında mümkündür.

Fərdin yuxarı mənsəbli təbəqəyə doğru irəliləməsinə sərf etdiyi qüvvəni ölçməklə nailiyyəti barədə müəyyən ehtimal söyləmək olar. Ehtimalın xarakteri vəziyyətin həmişə dəyişməsindən, həmçinin fərdlər arasında olan şəxsi münasibətlərdən asılıdır.

İnkişaf prosesini kəmiyyətcə qiymətləndirmək üçün adətən sosial mobilliyin sürəti və intensivliyi kimi göstəricilərdən istifadə edirlər. Mobilliyin sürəti dedikdə «şaquli mobilliyin məsafəsi» başa düşülür. Məsələn, ali məktəbi bitirdikdən və işə başladıqdan 3 il sonra hər hansı bir fərdə ali məktəbdə müəllim vəzifəsinə kimi yüksəlmək nəsib olur. Onunla bir vaxtda qurtarmış digər tələbə yoldaşı isə ancaq orta məktəbdə direktor müavini vəzifəsinə kimi yüksəlmişdir. Aydındır ki, bu halda birinci fərdin mobillik sürəti ikincidən böyükdür. Digər tərəfdən, əgər hər hansı bir fərd yaranmış vəziyyətlə əlaqədar, ya da şəxsi zəifliyi nəticəsində yüksək sosial vəziyyətdən cəmiyyətin lap aşağı vəziyyətinə enirsə, onda onun haqqında deyilir ki, sosial mobillik sürəti böyükdür, lakin bu sürətin istiqaməti aşağı vəziyyətə doğru yönəlmişdir.

Mobilliyin intensivliyi dedikdə, müəyyən vaxt ərzində sosial vəziyyətlərini şaquli və ya üfüqi istiqamətdə dəyişən fərdlərin sayı başa düşülür. Belə fərdlərin sayı hər hansı sosial cəmiyyətdə mobilliyin mütləq intensivliyini göstərir, onların digər hissəsi isə mobilliyin nisbi intensivliyini ifadə edir. Məsələn, əgər biz 40 yaşa qədər olan boşanmış və başqa ailə qurmuş fərdlərin sayını nəzərə alsaq, onda söhbət bu yaş hüduduna olan üfüqi mobilliyin mütləq intensivliyindən gedəcəkdir. Əgər biz 40 yaşa qədər olan bütün fərdləri bu yaşa qədər boşanaraq təzə ailə quranlarla müqayisədə götürsək, onda söhbət sosial mobilliyin üfüqi istiqamətdə nisbi intensivliyindən gedəcəkdir. Çox zaman mobillik prosesinə sürət və intensivliyin qarşılıqlı əlaqədə olması nöqteyi-nəzərindən baxılması lazım gəlir. Bu halda həmin sosial birlik üçün ümumi mobillik indeksindən istifadə edilir. Bu yolla, məsələn, iki cəmiyyətdən hansında müəyyən müddət ərzində mobilliyin göstəricilərinin çox və ya az olduğunu təyin etmək mümkün olur. Belə indeks peşə, siyasi, iqtisadi sahədə fərdin fəaliyyətindən asılı olaraq hesablanır.

### 3. Sosial mobilliyin inkişaf kanalları

Sosial mobillik həm fərdin özündən, həm də yaşadığı cəmiyyətin strukturundan asılıdır. Nəzərə almaq lazımdır ki, yüksək statuslu vəziyyətə keçmək üçün mübarizəyə hazır olmayan fərdə açıq sinifli cəmiyyət çox az kömək edir. Bəzi cəmiyyətlərdə gənclərin təkəbbürü nəticəsində mobillik kanalı üçün bir və ya iki dəfə imkan yarana bilir. Lakin elə cəmiyyətlər də mövcuddur ki, həmin gənclər yüksək statuslu vəziyyətə çatmaq üçün daha çox yol əldə edə bilərlər. Yüksək vəziyyətin yolları etnik və ya sosial-sinfi fərqlə, fərdin öz şəxsi xüsusiyyətləri ilə, bacarığını tətbiq edə bilməməsi ilə bağlı ola bilər. Lakin sosial vəziyyəti tamamilə dəyişmək, yeni, daha yüksək sosial vəziyyətə malik qrupun mədəniyyətinə daxil olmaq, yeni sosial ətrafla qarşılıqlı əlaqələri qurmaq prosesində çətin problemlər yaranır. Mədəniyyət və əlaqə maneələrinin aradan qaldırılması üçün lazım olan üsulları fərdlər sosial mobillik prosesində həyata keçirirlər.

Yeni sosial vəziyyətə çatmış fərdin gəliri daha yüksək mənsəbli sosial təbəqənin nümayəndələri ilə bərabərləşdikdə sadəcə pul qazanıb çoxlu pul xərcləməsi kifayət deyildir. Yeni vəziyyətin dərəcəsini qavramaq məqsədilə bu dərəcəyə uyğun yeni maddi ölçü təyin etməlidir. Yüksək vəziyyətə uyğun ev, kitab, avtomobil, televizor və s. olmalıdır. Maddi məişət mədəniyyəti yüksək vəziyyət dərəcəsinə qoşulmaq üçün əhəmiyyətli vasitələrdən biri olsa da, mədəniyyətin başqa komponentləri ilə uyğun gəlməməsi nəticəsində həmin vasitə öz əhəmiyyətini itirir.

Mobillikdə şaquli istiqamət götürən şəxsin daha yük-sək statuslu sosial-sinfi

təbəqəyə daxil olması mütləq həmin təbəqənin davranışını özündə əks etdirməlidir. Məsələn, əməliyyat müvəkkili bölmə rəisi keçdikdə yeni şəraitə uyğun dəyişməlidir və s.

Bir sıra hallarda nikah sosial mobillik üçün mühüm inkişaf kanallarından biridir. Belə ki, nikah həmişə sosial mobillik zamanı qarşıya çıxan maneələrin aradan qaldırılmasına köməklik göstərir. Birincisi, maddi imkan fərdin şəxsi bacarığını göstərməsi üçün yaxşı imkanlar yaradır. İkincisi, fərdə bir çox vəziyyətləri maneəsiz irəliləməyə imkan yaranır. Üçüncüsü, yüksək statuslu təbəqənin nümayəndəsi ilə nikahda olmaq həmin təbəqənin mədəniyyətini tez öyrənmək problemlərini həll edir. Belə nikahlar adətən, bir çox cəmiyyətlərdə insanlara sosial maneələri dəf etməkdə böyük imkan verir və onların elit təbəqəyə keçməsini şərtləndirir. Əgər fərd tez bir zamanda yeni sosial vəziyyətin mədəniyyətini öyrənə bilmirsə, onda bu nikah ona mobil olmaqda heç bir köməklik göstərə bilməyəcəkdir. Çünki belə olan halda yuxarı mənsəbli təbəqənin nümayəndələri onu «özününkü» hesab etməyəcəklər.

İstənilən müasir demokratik cəmiyyətdə sosial mobillik imkanının olması əhəmiyyətlidir, lazımdır və mədəniyyətin ayrılmaz hissəsidir. Qapalı sinifli cəmiyyətlər sosial qrupların istedadlı insanlarına sosial həyatda daha fəal iştirak etmək imkanı vermir. Yüksək statuslu sosial mobillik yalnız mürəkkəb strukturlu cəmiyyətlərdə əhəmiyyətli və münasibdir.

Cəmiyyətin mobil sürətinin dəyişməsi aydındır ki, liderdən təkcə mexaniki olaraq müəyyən qaydaların yerinə yetirilməsini tələb etmir. Bundan başqa texniki nailiyyətlər əldə etmək məqsədilə cəmiyyətdə çoxlu sayda yüksək ziyalı, ali təhsil almış peşəkar ekspertlərin olması lazımdır. Belə cəmiyyətlər lazımi yerlərdə «beyinsiz» keçinə bilməzlər. Buradan aydındır ki, açıq sinfi sistem müasir cəmiyyət üçün zəruridir. Lakin açıq sistemin mobilliyi ona daxil olan bəzi fərdlər üçün arzuolunmaz nəticələr verə bilər.

Açıq stratifikasiya sisteminə malik cəmiyyətlərdə sosial mobilliyin qərarlaşmış kanalları mövcuddur. Məsələn, hamı bilir ki, ali təhsil almaq nisbətən sadə və kifayət qədər etibarlı kanaldır. Savadsız ailədən çıxmış adam bu kanalla irəliləyərək öz statusunu yüksəldə bilər və ixtisaslı, nüfuzlu əməklə məşğul olmaq imkanı qazana bilər. Hər bir hərbçi bilir ki, mərkəzdən uzaqda yerləşən və təhlükəli olan yerlərdə qulluq etmək mobillik kanalıdır, çünki bu, yüksək rütbələrə tez çatmaq imkanı verir.

Digər mobillik kanalı ruhani karyerası ola bilərdi: böyük filosof, kardinal Nikolay Kuzanski kasıb balıqçı ailəsində doğulmuşdu. Lakin o, monaxlığı qəbul etdi, təhsil aldı və zümrəyə qoşularaq yüksək status qazandı.

Dominantlıq edən sinfə mənsub olmaq üçün ailə kapitalına malik olmaq çox vacibdir. O müxtəlif formada ola bilər: iri maliyyə və sənaye müəssisələri, iqtisadi, siyasi, sosial və ailə münasibətlərinin şəbəkəsi, mədəniyyət vasitələrinə müyəssərlik və i.a. Əksər hallarda dominantlıq edən sinfin üzvləri öz aralarında nikah bağlayırlar, eyni məktəblərdə və ya nüfuzlu universitetlərdə oxuyurlar, ayrı-ayrı müəssisələrdə eyni inzibati şuralara daxil olurlar və s. Məhz bu üç əsas element, yəni böyük iqtisadi vərəsəlik, geniş münasibətlər dairəsi və ailə tərəfindən əhəmiyyətli dəstək siyasi və iqtisadi hakimiyyətin hakim siniflərin əlində olmasını təmin edir. Məsələn,
D. Berto Fransada maliyyə oliqarxiyasının mövcud olmasını qeyd edir. Bu məhdud sayda ailələr fantastik varidata malikdirlər və onları idarə edirlər. Onlar fransız cəmiyyətində misli görünməmiş dərəcədə hakimiyyət sahibidirlər. Bu insanlar bir-birinə pulla və qohumluqla bağlıdırlar. Onlar iqtisadiyyatın başında durmaqla yanaşı, həm də hakimiyyəti öz əllərində saxlayırlar. Bank işi və oliqarxiyanın tarixi üzrə mütəxəssislər göstərirlər ki, axırıncı 170 il ərzində Fransada maliyyə resursları və deməli, real siyasi hakimiyyət XVIII əsrin sonunda Napoleon Bonapartın hakimiyyətə gəlməsi anından etibarən eyni ailələrin əlində cəmləşmişdir. Hakim sinfin daxilində olmaq üçün yaxşı olar ki, orada doğulasan və ya bu sinfə mənsub olan insanla nikah bağlayasan.

Beləliklə, sosial iyerarxiyanın yüksək sferalarına giriş asan olmayan bir işdir. Sosial mobilliyə konyuktura (böhran və ya iqtisadi artım şəraiti), eləcə də cəmiyyətin strukturu böyük təsir göstərir. Bunu ondan görmək olar ki, mobillik barədə suallara cavab çox vaxt sosial təşkilatlanmanın təhlilindən tapılır. Hindistanda olduğu kimi, ənənəvi cəmiyyətlərdə bu və ya digər sinfə mənsubluq əsas fakt kimi qəbul edilir. Bu halda söhbət, çox ehtimal ki, silkdən gedir: silk daxilində doğulur, nikah bağlayır və ölürlər. Silkə əsaslanan cəmiyyətlərdə sosial siniflər digər siniflərdən olan insanlar üçün tam qapalıdır. Bu qapalı sosial strukturlarda fərdlərin hansı yaxşı cəhətlərə malik olmalarından asılı olmayaraq, onlarda sosial mobillik mümkünsüzdür.

Bizim cəmiyyətə oxşar cəmiyyətlərdə siniflər daha açıqdır. Sosial nərdivan üzrə qalxmaq və enmək mümkündür; bu hallarda yüksələn və ya enən mobillik haqqında danışırlar. Mobilliyi bir adamın həyatı çərçivəsində də nəzərdən keçirmək olar. Əgər günəmuzd işləyən insan informatika sahəsində mütəxəssisə çevrilibsə, bu, intragenerasiya mobilliyidir (yəni bir nəslin hüdudlarındakı mobillikdir). Lakin mobilliyə başqa cür də baxmaq olar. Məsələn, atası xarrat olan müəllimi götürək. Burada intergenerasiya mobilliyi göz qabağındadır (yəni, iki nəsli bir-birinə bağlayan mobillik). Bəs belə hesab edə bilərikmi ki, biz elə açıq cəmiyyətdə yaşayırıq ki, bütün sosial trayektoriyalar mümkündür? Bizim valideynlərimizin sosial statusu bizim sosial piramidanın zirvə- sinə çata bilmək imkanımıza necə təsir edir?

Bu suallara cavab vermək üçün iqtisadi, siyasi və sosial konyukturanı nəzərə almaq lazımdır: müəyyən etmək lazımdır ki, o, nəsildən-nəslə dəyişərək mobillik üçün daha artıq və ya daha qapalı struktura gətirib çıxarırmı? Qeyd etmək olar ki, xalqın içərisindən çıxan bəzi fərdlər sosial piramidanın zirvəsinə çatmağa müvəffəq olurlar. Deməli, iradə, enerji, istedad, ailə mühiti, uğur kimi fərdi amillər öz rolunu oynayır. Lakin bu amillər elə şərait və sosial strukturda fəaliyyətə başlayır ki, burada aşağı siniflərdən olan fərdlər bu keyfiyyətləri cəmiyyətin üstünlük verdiyi təbəqələrindən olan fərdlərdən daha artıq dərəcədə göstərməlidirlər. Çünki onlar lap əvvəlcədən iqtisadi, mədəni və sosial kapital cəhətdən daha az üstünlüyə malikdirlər.

Açıq tipli cəmiyyətlər sosial qruplar arasında insanın sosial vəziyyətinin yüksəlməsinə daha çox imkan verir, lakin sosial mobilliyin deqradasiyası qorxusunu da yaradır. Belə ki, fərd öz aşağı vəziyyətinə görə cəmiyyəti məzəmmət edə bilmir, amma aşağı vəziyyətin bütün məsuliyyətini özü daşıyır. Fərd öz vəziyyətinin yüksəlməsi üçün çalışsa da onun aşağı vəziyyətinin saxlanmasına heç bir təminat yoxdur. Nə üçün başqaları yuxarı vəziyyətdə ola bilərlər, o isə yox? Bir çox Avropa və Amerika ölkələrində sosial vəziyyətindən narahat olan ənənəvi olaraq ən çox orta sinifdir.

Nisbətən açıq tipli sosial cəmiyyətdə təbəqələr arasında bəzi adamlar sosial mobillikdə çox böyük sürət götürərək, yaxşı mənsəb sahibi olurlar, digərləri isə mənəvi cəhət-dən pozğunlaşaraq içkiyə, narkotik maddələrin qəbuluna aludə olurlar. Bəzi fərdlər öz vəziyyətlərini saxlamaq məqsədilə sosial mobilliyin şaquli istiqaməti üzrə bir sıra maneələr fikirləşirlər. Məsələn, həmkarlar ittifaqı, sahibkarlar ittifaqı, aktyorlar cəmiyyəti, hüquqşünaslar cəmiyyəti və s. həmin maneələrdəndir. Bəzi fərdlər öz elmi adları, dərəcələri ilə, aktyorlar, müəllimlər, hərbçilər onlara verilən adlarla özlərini müdafiə edirlər.

Şaquli sosial mobillikdə irəliləmə təkcə güzəranın yaxşılaşmasa və imtiyazlar yox, həmçinin yeni məhdudiyyətlər, məsuliyyət yaradır. Yeni vəzifənin yaradacağı əlavə gərginliyə və məsuliyyətə görə bəzi adamlar onlara təklif olunan yüksək vəziyyətə keçməkdən imtina edirlər. Yeni təyin olunmuşlarda əsəbilik və stresslər

istisna olunmur. Yeni mədəniyyətə uyğunlaşma prosesi çox mürəkkəbdir, hətta bir sıra hallarda əsəb pozğunluğu
əmələ gətirə bilər.

Bir çox insanlar şaquli mobilliyə meyllidirlər və valideynlərindən fərqli olaraq onlar daha yüksək sosial vəziyyətə nail olurlar. Məsələn, əgər fərdin valideynləri fəhlə sinfinə mənsubdurlarsa, o isə ziyalı təbəqəsinə daxil olmuşdursa, onda fərd ilə valideynlər müxtəlif mədəniyyət səviyyələrində çalışmalı olurlar. Fərd valideynləri ilə söhbətdə bir sıra hallarda ümumi mövzu tapmaqda çətinlik çəkir; ətrafdakı hadisələrə müxtəlif nöqteyi-nəzərdən yanaşmaları onları bir-birindən xeyli uzaqlaşdırır. Uşaqlarının yuxarı qalxması üçün çalışmış valideynlər başa düşürlər ki, onlar arasında mənəvi ayrılıq yaranmışdır.

Mobillimin deqradasiyası fərdlər üçün daha pis nəticələr verə bilər. Bu zaman fərd öz dostlarını, yaxın qohumlarını itirə bilir, onun ailəsi dağıla bilir və s.

## Mühazirə 6. Sosial-etnik münasibətlərin sosiologiyası

1. Sosial-etnik münasibətlərin mahiyyəti və səciyyəvi cəhətləri
2. Milli-etnik problemlərin həlli yolları
3. Dağlıq Qarabağ münaqişəsi və onun tənzimlənməsinin dinamikası
4. Müasir dövrdə sosial-etnik münaqişələrin kəskinləşməsinin səbəbləri

# SOSİAL-ETNİK MÜNASİBƏTLƏRİN SOSİOLOGİYASI

### 1. Sosial-etnik münasibətləri n mahiyyəti və səciyyəvi cəhətləri

Sosial-etnik münasibətlərin öyrənilməsi xüsusi sosioloji nəzəriyyələr sistemində mühüm yer tutur. Bu onunla izah edilir ki, sosial-etnik münasibətlər sosial münasibətlər sisteminin çox mühüm və əhəmiyyəti daim artmaqda olan istiqamətlərindən biridir. Onun əsas məzmunu millətlər və digər etnik birliklər arasında sosial həyatın istehsalı və təkrar istehsalı

prosesində qərarlaşan əlaqə və münasibətlərin məcmusundan ibarətdir.

Sosial-etnik birliklər bununla səciyyələnir ki, onlarda insanların bir-biri ilə sıx əlaqədə olan iki tərəfi-sosial və etnik əlamətləri üzvi şəkildə birləşir. Həmin birlik formalarında sosial əlamətlər çox vacib və əhəmiyyətli yer tutur. Bununla yanaşı onlar həm də etnik keyfiyyətlər və xüsusiyyətlərlə səciyyələnirlər.

Sosial göstəricilərin, yəni bütövlükdə cəmiyyətin və onun struktur elementlərinin yetkinlik dərəcəsindən asılı olaraq bu və ya digər sosial-etnik birliyin fəaliyyətinin və inkişafının siyasi, iqtisadi, sosial və mənəvi keyfiyyətləri müvafiq surətdə artır və ya azalır.

İnsanların sosial-etnik münasibətlərinin müasir, mürəkkəb mərhələsi elə bir termindən istifadəni zəruri edir ki, bu termin onların sosial mahiyyətini inkar etmədən etnik dərkini də dolğun əks etdirsin. Belə bir anlayış etnosdur. **Etnos tarixən müəyyən ərazidə yaşayan, mədəniyyət (dil də daxil olmaqla) və psixoloji xarakterin bəzi xüsusiyyətlərinə, eləcə də özünəməxsusluğunu və başqalarından fərqlərini dərk edən insanların sabit məcmusudur.**

Etnosun əsas əlamətləri - dil, xalq incəsənəti, adətlər, ənənələr, mərasimlər, davranış normalan və vərdişlərdir, yəni mədəniyyətin elə komponentləridir ki, onlar nəsildən nəslə keçir və beləliklə, etnik mədəniyyəti formalaşdırır. İnsanların bu cür dayanıqlı birliyi onların sosial xüsusiyyətlərinin vacibliyini ifadə etməklə yanaşı, həmişə özünün etnik mənsubiyyətini saxlamağa çalışır. Bu, həm bütöv etnosa, həm də onun tərkib hissəsi olan etnik qruplara aiddir. Etnik qruplar həm kompakt, həm də müxtəlif ərazilərə yayılmış vəziyyətdə ola bilirlər.

Sosial-etnik münasibətlərin tarixi təkamülü qəbilə, tayfa, xalq və millət kimi birlik formalarından keçərək bu günə gəlib çatmışdır.

İlk qədim etnik birlik forması ibtidai icma cəmiyyətində yaranmış qəbilə hesab olunur. O, qan qohumluğuna əsaslanırdı. Bununla yanaşı, qəbilə daxilində birləşən insanlar mənafe ümumiliyinə, yaşayış məskəni, dil, adət və etiqadlar ümumiliyinə də malik olmuşlar. Öz tərkibində təxminən 30-50 nəfəri əhatə edən icma qəbiləsinin üzvləri əvvəllərdə ana xətti (matriarxat), sonralar isə ata xətti (patriarxat) ilə müəyyən olunurdu.

İbtidai cəmiyyətin son dövrlərində iki və daha çox qəbilənin birləşməsi nəticəsində tayfa adlı yeni etnik birlik forması təşəkkül tapdı. Qəbiləyə xas olan əsas əlamətlər (qan qohumluğu, dil və ərazi ümumiliyi, adət və etiqadlar ümumiliyi və s.) tayfada da özünü göstərmişdir. Bununla yanaşı tayfa birliyində əvvəla, sayca daha çox insanlar birləşirdi (bir neçə yüz nəfərdən min nəfərə qədər), sonra, tayfanın öz adı mövcud idi. Nəhayət, tayfa vahid mədəniyyət ünsürlərinin daha çox inkişafı ilə səciyyələnirdi.

Qəbilə və tayfalar cəmiyyətin inkişafında öz dövrünə görə çox mühüm rol oynamışlar. Bununla belə, ictimai həyatda baş verən dəyişikliklər (təsərrüfat funksiyalarının mürəkkəbləşməsi, ünsiyyətin və gediş - gəlişin

artması, ailə -nikah münasibətlərinin inkişafı və s.) prinsipcə yeni etnik birliyin yaranmasını zəruri edirdi. Bu tarixi tələbatın nəticəsi kimi yeni tarixi birlik forması olan xalq formalaşdı.

Sinfi münasibətlərin inkişafı ilə bağlı olaraq bu formanın yenisi ilə əvəz olunması prosesi getsə də, bir çox xalqlar-da nəsil - tayfa bölgüsünün qalıqları indi də saxlanılmaqdadır. Hazırda onlar Asiyada, Afrikada, Amerikada və Rusiyanın Şimal ərazisində mövcuddur. Qan qohumluğu, klan və tayfaçılıq əlamətləri hazırki dövrdə də özünü biruzə verməkdədir. Xalqda sosial xüsusiyyətlər, əlamətlər çox mühüm rol oynayır.

Əvvəlki birlik formalarından fərqli olaraq xalq qan qohumluğuna deyil, təsərrüfat və mədəniyyət əlaqələrinin ümumiliyinə əsaslanırdı. Xalqı yeni birlik forması kimi səciyyələndirən əsas cəhət budur ki, o, artıq sırf etnik birlik forması deyildir. O, ilk dəfə olaraq, sözün əsl mənasında sosial-etnik birlik forması mahiyyəti kəsb etmişdir. Xalq daha mütərəqqi birlik forması kimi iqtisadiyyatın, sosial əlaqələrin və mədəniyyətin inkişafında mühüm rol oynamışdır. Lakin ictimai tərəqqi gedişində xalqın da birlik forması kimi məhdudluğu özünü göstərməyə başladı. Nəticədə feodalizmin dağılması və kapitalizmin təşəkkülü dövründə insanların keyfiyyətcə yeni birliyi - millət yarandı.

Müasir sosioloji ədəbiyyatda milli-etnik problemlər təhlil edilərkən daha çox «millətlərarası» və ya «milli münasibətlər» terminlərindən istifadə edilir. Həqiqətən də, XX əsrdə məhz millətlərarası münasibətlər müasir sosial münasibətlər sistemində çox mühüm yer tutur. Buradan aydındır ki, tarixi birliklər arasındakı münasibətlərdən söhbət gedərkən birinci növbədə millət anlayışına diqqət yetirilməlidir.

**Millət tarixən formalaşmış etnos tipi olub, iqtisadi həyatın, dilin, ərazinin ümumiliyi ilə, mədəniyyətin, məişətin, psixoloji durumun və etnik xarakterin bəzi xüsusiyyətləri ilə səciyyələnən insanların xüsusi tarixi birliyidir. Millət xalqa nisbətən daha geniş tarixi birlik forması olub, kapitalizmin meydana çıxması və inkişafı ilə bağlıdır.** Millətlərin xalqları tarixi əvəzləməsi o demək deyildir ki, ikincilər yer üzündən silinmişdir. Xalq tarixən insanların tayfa birliyindən sonra gələn sosial-etnik birlik formasıdır. Onun meydana gəlməsinin başlanğıcı quldarlıq quruluşunun dağılması dövrünə təsadüf edir. Əgər tayfa birliklərinin səciyyəvi cəhəti onların qan qohumluğuna əsaslanan əlaqələri idisə, xalqlar üçün bu ərazi və təsərrüfat əlaqələridir. Xalq anlayışı sözün əsl mənasında feodalizm cəmiyyətinin məhsuludur. Lakin xalqlar sonrakı cəmiyyətlərdə də mövcuddur. Çünki onlar bir sıra səbəblərdən (azsaylı olma, inkişafdan geri qalma, müəyyən səbəblərdən özlərinin milli dövlət qurumunu yarada bilməmələri və s.) millət kimi formalaşa bilməmişlər.

Müasir elmi ədəbiyyatda sosial-etnik münasibətləri səciyyələndirərkən həmçinin «milli azlıq», «yerli» və «gəlmə» kimi anlayışlardan da istifadə edilir. Bunlar əsas etibarilə öz millətinin ərazisindən kənarda yaşayan milli (sosial-etnik) qrupları nəzərdə tutur. Məsələn, Rusiyada yaşayan azərbaycanlılar, beloruslar, gürcülər və s.

Bu qrupların öz daxili tərkibində bir neçə kateqoriyanı ayırmaq olar (onları həmçinin diaspora da adlandırırlar):

1. **Daxili diaspora** (öz respublikalarından kənarda yaşayanlar).
2. **Yaxın diaspora** (tarixi vətəni keçmiş sovet respublikaları olan sosial-etnik qruplar).
3. **Uzaq diaspora** (tarixi vətəni uzaq xarici dövlətlər olanlar).
4. **Milli - ərazi** qurumları olmayan diasporalar (kürdlər, qaraçılar və s.).

Bu və ya digər sosial-etnik birliyin tərkibində olan etnoqrafik qruplar özünəməxsusluğu ilə seçilir. Onlar əhalinin əsas hissəsindən mədəniyyətlərinin, dillərinin (ləhcə, danışıq tərzi) xüsusiyyətləri ilə fərqlənirlər.

Milli azlıqlar bir qayda olaraq miqrasiya (könüllü və ya məcburi), həm də bütöv xalqın deportasiyası nəticəsində əmələ gəlir. Bu, Rusiyada yunanların, inquşların, Dağıstanda yaşayanların və başqa xalqların başına gəlmişdir. Qeyd etməliyik ki, məhz buradan da, milli azlıqlar problemi, onların yaşadıqları mövcud dövlət quruluşunda hüquq və azadlıqlarının reallaşması ilə bağlı problemlər yaranır. Onları elmi əsaslarla demokratik prinsiplərə və sivil qaydalara arxalanmaqla həll etmək lazımdır.

İnsan birliklərinin sosial və etnik xüsusiyyətlərinin üzvi vəhdəti, onların rəngarəngliyi və qarşılıqlı əlaqəsi onlar arasındakı münasibətləri ayrı - ayrı ictimai - iqtisadi formasiyalarda və müxtəlif dövlətlərdə millətlər, xalqlar arasındakı iqtisadi, ərazi, hüquqi, mədəni və dil, eləcə də digər münasibətləri müəyyən etməyə imkan verir.

Sosial-etnik birliklər arasındakı münasibətlərin bu cür izahı (ədəbiyyatda bu çox vaxt milli məsələ adlandırılır), həm də onların özünəməxsusluğunu şərtləndirir. Yəni, əvvəla, birliklər arasındakı qarşılıqlı münasibətlər hər şeydən əvvəl ictimai münasibətlərin iqtisadi,

siyasi, sosial və mənəvi istiqamətləri vasitəsilə təzahür edir. İkinci xüsusiyyət sosial-etnik birliklər arasındakı münasibətlərdə iki tərəfin mövcudluğunda üzə çıxır: daxili (ərazi - dövlət qurumları çərçivəsində münasibətlər) və xarici (müxtəlif ərazi - dövlət qurumları sistemində münasibətlər).

Sonuncu amil keçmiş SSRİ-də mühüm yer tuturdu, çünki onun tərkibində 200-ə qədər millət, xalq və etnik qrup yaşayırdı. Bu həm də postsovet respublikaları, o cümlədən Azərbaycan üçün səciyyəvidir. Burada bir neçə sosial-etnik qrupun nümayəndələri yaşayır. Məsələ təkcə müxtəlif birliklərin sayının çox olmasında deyildir, həm də bundadır ki, 90-cı illərin əvvəlində SSRİ-nin dağılması nəticəsində yerli xalqların müəyyən hissəsi öz tarixi vətənlərindən kənarda qaldı. Bəzi respublikalarda millətçi - separatçı qüvvələrin səyləri nəticəsində yaranmış problemlər (Dağlıq Qarabağ, Abxaziya, Şimali Osetiya və s.) daha da mürəkkəbləşmişdir.

## 2. Müasir dövrdə sosial-etnik münaqişələrın kəskinləşməsinin səbəbləri

Sosial-etnik münaqişələr müəyyən səviyyədə cəmiyyətin inkişafının bütün mərhələlərində mövcud olmuşdur. Bunun əsas səbəblərini inkişafın qeyri-bərabərliyi, ərazi, dil, mənəvi həyat və adət-ənənələrin müxtəlifliyi, milli mədəniyyətlərin özünəməxsusluğunun qorunması, sosial nemətlərə nail olmaqdakı fərqlər, öz problemlərini digər xalqların hesabına həll etmək cəhdləri təşkil edir.

Bəzi müəlliflər müxtəlif konsepsiya, nəzəriyyə və təlimlərin köməyi ilə sosial-etnik münaqişələrə haqq qazandırmağa çalışırlar. Bu zaman zorakılığın müxtəlif formaları, fərdlərin, qrupların və təbəqələrin inkişafındakı

qeyri-bərabərliyi təsdiq edən faktlar əsas götürülür. Bunların sırasına birinci növbədə müxtəlif sosial-irqi nəzəriyyələri, o cümlədən faşizmi və s. aid etmək olar.

Keçmiş SSRİ-də milli siyasət və milli suverenliklə bağlı buraxılmış səhvlər bu gün mövcud olan konfliktlərin əsas səbəblərini şərtləndirir. Xüsusilə həmin dövrdə millətlərin milli suveren hüquqları - hər bir millətin öz sosial-siyasi quruluşunu seçmək azadlığı, ərazi bütövlüyü, iqtisadi sərbəstliyi və s. hüquqları kobud surətdə pozulmuşdur.

Məhz buna görə də keçmiş sovet məkanında etnik və millətlərarası münaqişələrin kəskinləşməsi səbəbləri üzərində daha ətraflı dayanmaq məqsədəuyğundur. Aydındır ki, Sovet İttifaqının dağılmasının əsas səbəblərindən biri onun ərazisində yaşayan müxtəlif xalqlar, millətlər arasındakı qarşılıqlı münasibətlərin kəskinləşməsi olmuşdur. Həm mərkəzdə, həm də müttəfiq respublikalarda müəyyən qüvvələr öz dar milli maraqlarını təmin etmək üçün köhnə haqq-hesabları və borcları ilə bağlı problemləri qabartmağa çalışırdılar. Bu isə qarşılıqlı narazılıqları gücləndirirdi. Digər səbəb sovet cəmiyyətinin iqtisadi, sosial və mənəvi tərəqqisində milli mədəniyyətlərin, milli dillərin və s. İnkişafında buraxılmış nöqsanlar və səhvlər idi.

Şübhəsiz, millətlərarası münaqişələrin yaranmasına şəxsiyyətə pərəstiş illərində milli problemlərin həllində yol verilmiş ciddi səhvlər və əyintilər də öz mənfı təsirini göstərmişdi. Xüsusilə, artıq 30-cu illərin əvvəllərindən başlayaraq guya SSRİ-də milli məsələnin həll olunması ilə əlaqədar olaraq ayrı-ayrı müttəfiq respublikalarda fəaliyyət göstərən milli şöbələr ləğv edilmiş, millətlərin qovuşması prosesi süni surətdə gücləndirilmişdir. Əgər 1926-cı ildə siyahıya alınma zamanı SSRİ-də 200-ə yaxın millət, xalq, etnik qrup qeydə alınmışdırsa, 1939-cu ildə bunların sayı 99-a endirilmişdir. Deməli, 13 il ərzində bu göstərici 2 dəfə azalmışdır. Xalqların etnik xüsusiyyətlərinin nəzərə alınmaması, süni surətdə assimilyasiya ayrı-ayrı sosial-etnik qrupların bir-birindən uzaqlaşmasını, yadlaşmasını və son nəticədə ciddi sosial narazılıqları şərtləndirirdi. Burada həmçinin kütləvi repressiyalar, bütöv xalqların öz ənənəvi yaşayış yerlərindən köçürülməsi, bir çox partiya və dövlət xadiminin, milli ziyalıların təqib olunması kimi neqativ proseslər də nəzərə alınmalıdır.

Millətlərarası münasibətlərin kəskinləşməsi həm də dövlətin, mərkəzin yeritdiyi siyasətdə regionların maraqlarının lazımi dərəcədə nəzərə alınmaması, nazirliklər və idarələr tərəfindən müttəfiq respublikaların, eləcə də digər ərazi-dövlət qurumlarının mənafelərinin pozulması ilə əlaqədar idi.

Millətlərarası münasibətlərin kəskinləşməsinin səbəblərindən biri də 80-ci illərin sonu - 90-cı illərin əvvəlində Sovet İttifaqına rəhbərlik etmiş şəxslərin korrupsiyaya qurşanmasının, vəziyyəti real qiymətləndirə bilməməsinin, ayrı-ayrı mafioz qruplarla əlaqələrinin, millətçilik təzahürlərinə qarşı ardıcıl mübarizə aparılmamasının nəticəsi idi. Həmin dövrdə ölkəyə rəhbərlik etmiş şəxslərdən biri Y. K. Liqaçov 1989-cu ilin sentyabrında etiraf etmişdi ki, «ötən ilin yazında mən Zaqafqaziyanın iki respublikasının sərhədlərinin dəyişdirilməsinin əleyhinə olduğumu birmənalı şəkildə deyən kimi bu, millətçiləri hövsələdən çıxartdı və onların bəd əməllərini çox gözləmək lazım gəlmədi».

Millətlərarası qarşılıqlı münasibətlərin kəskinləşməsinin mühüm səbəblərindən biri sovet cəmiyyətinin uzunmüddətli böhran vəziyyəti olmuşdur. Sosial problemlərin həllindəki çətinliklər, inflyasiya, cinayətkarlığın geniş vüsət alması və s. nəinki xalqlar arasında münasibətləri pisləşdirdi, həm də böyük bir ölkənin bir sıra regionlarında

genişmiqyaslı məlum konfliktlərin yaranmasına gətirib çıxardı.

Milli-etnik münasibətlərdəki münaqişələrin səbəblərindən danışarkən müstəqil dövlətlərin bir çox liderlərinin və parlament üzvlərinin yerli millətə başqalarına nisbətən üstün yer verməsi kimi yanlış siyasəti də qeyd etmək lazımdır (Pribaltika, Rusiya, Ermənistan, Gürcüstan və s.). Bu, məsələn, bir sıra MDB dövlətlərinin qanunvericiliyində ayrı - seçkilik hallarına yol verilməsində, milli mənsubiyyətə görə adamların işdən çıxarılmasında, qeyri-yerli əhalinin hüquqlarının pozulmasında, milli şovinizmdə və s. özünü göstərir.

Etnik münaqişələrin qızışdırılmasında bir sıra kütləvi informasiya vasitələri də əhəmiyyətli rol oynamışlar və indi də belə bir rol oynamaqda davam edirlər. Bəzən informasiya vasitələrində verilən məlumatlar qərəzli olur, bir xalqın digərinə qarşı nifrətini formalaşdırmağa xidmət edir.

Nəhayət, milli-etnik münasibətlərin müasir mərhələdəki böhranlı məqamlarını ictimai proseslərin idarə olunmasının qeyri-effektivliyi, hakimiyyətin müxtəlif strukturlarının fəaliyyətinin bir-biri ilə razılaşdırılmaması, hətta bəzi hallarda qarşı-qarşıya durması, yaranmış problemlərin həlli texnologiyasının olmaması, bəzən beynəlxalq təşkilatların bu münaqişələrə ikili standartlarla yanaşması, bu və ya digər səbəblərdən onların həllini istəməməsi ilə izah edilməlidir.

## 3. Milli-etnik problemlərin həlli yolları

Milli-etnik münasibətlərin tənzim olunması sahəsində aparılan işdə aşağıdakı iki istiqaməti nəzərə almaq lazımdır.

**Birincisi,** bütövlükdə cəmiyyətin effektiv fəaliyyətini təmin etməyin zəruri şərti kimi əhalinin bütün qruplarının, o cümlədən milli-etnik icmaların normal inkişafına əlverişli şərait yaradılması, etnik mühitdə münaqişəli vəziyyətlərə, böhran hallarına yol verilməməsi və onların qarşısını almaq texnologiyalarının işlənib hazırlanmasıdır.

**Ikincisi,** milli-etnik birliklərin və qrupların həyat tərzi ilə həmin ərazidə (kənddə, rayonda, vilayətdə və bütün ölkədə) yaşayan milli azlıqların həyat şəraiti arasında uyğunluq yaratmağa yönələn fəaliyyətdir.

Etnik mühitdə sosial tərəfin xüsusiyyətləri, hər şeydən əvvəl, sosial-etnik birliklərin ayrı-ayn qruplarının özünə-məxsusluğu ilə əlaqədardır. Bu həm problemin özünün, həm də əhalinin bu qruplarının etnik mühiti ilə şərtlənən məsələlərin birgə həllini nəzərdə tutur.

Bütövlükdə etnik mühitin səmərəli təşkili işi bir - biri ilə sıx bağlı olan aşağıdakı üç səviyyədə aparıla bilər:

**1.** Dövlət səviyyəsində müxtəlif sosial-etnik birliklər arasındakı münasibətlərin hüquqi tənzimlənməsi təmin olunmalı, millətlərarası münasibətlər sahəsində düzgün sosial siyasət formalaşdırılmalı və həyata keçirilməlidir. Etnik birliklərin inkişaf imkanlarını məhdudlaşdıra biləcək sosial ədalətsizlik halları aradan qaldırılmalıdır.

**2.** Sözügedən müddəaların həyata keçirilməsi təmin edilməlidir. Xalqların milli özünəməxsusluğunun süni surətdə silinməsinə aparan müasir texnoloji sivilizasiyanın, urbanizasiyanın və kütləvi mədəniyyətin yayılması ilə bağlı proseslərin qarşısı alınmalıdır. Bununla yanaşı müxtəlif sosial-etnik birliklərin nümayəndələri, yerli və gəlmə sakinlər arasında qarşılıqlı etimada əsaslanan münasibətlərin formalaşmasına səy göstərilməlidir.

**3.** Yerlərdə sosial-etnik birliklərin nümayəndələrinin yaşadığı şəraitə uyğunlaşması, onların məskunlaşması, təhsili, tibbi xidmətin təşkili ilə bağlı konkret vəzifələr həll edilməlidir. Sonra, hər bir etnosun nümayəndələrinə öz milli adət və ənənələrini, psixologiyasını və mədəniyyətinin etnik komponentlərini qoruyub saxlamaqda köməklik göstərilməlidir. Xalqların öz ərazisində yerləşən və onların həyati tələbatını ödəyən təbii ehtiyatlardan müstəqil istifadə etməsinə şərait yaradılmalıdır. Bu vəzifələrin yerinə yetirilməsində bütün hakimiyyət orqanları, bütün sosial institutlar, o cümlədən sosial xidmət müəssisələri böyük rol oynamalıdır.

Göründüyü kimi, milli-etnik problemlərin həllinin bütün aspektlərində başlıca rolu sosial siyasət oynayır. Məhz buna görə də cəmiyyətin siyasi təşkili sistemində sosial-etnik birliklərin həyatının bütün tərəfləri ilə, o cümlədən milli məsələlərlə məşğul olan orqanlar yaradılmalıdır. Bununla əlaqədar qeyd edək ki, müstəqillik əldə edildikdən sonra respublikamızda milli siyasət məsələləri üzrə dövlət müşaviri (1992-ci ildən bu günə qədər) vəzifəsi məhz bu funksiyaların yerinə yetirilməsi məqsədilə yaradılmışdır. Bu qəbildən olan orqanların fəaliyyətinin effektivliyi bütövlükdə cəmiyyətin inkişaf səviyyəsindən, ictimai proseslərin necə idarə olunmasından, ölkənin inkişafının müxtəlif mərhələlərində dövlətin sosial siyasətinin məzmunundan və istiqamətlərindən asılıdır.

Aydındır ki, millətlərarası və etnik münasibətlər cəmiyyət həyatının bütün sahələrində, ictimai münasibətlərin müxtəlif səpkilərində təzahür edir. Buna görə də həmin sahələrin hər birində səmərəli, elmi milli siyasət yeritmək tələb olunur. Məsələn, siyasi sahədə diqqəti mərkəzi və yerli hakimiyyətlər arasındakı münasibətlərin qurulmasına, milli qurumların maraqlarının uyğunlaşdırılmasına yönəltmək lazımdır. Öz-özünü tənzimləmə fəaliyyətini genişləndirmək problemi milli-dövlət quruluşu olmayan milli qrup və birliklər üçün daha çox aktualdır.

Sosial sahədə milli-ərazi qurumlarında kadrların seçilməsi və yerləşdirilməsi məsələləri, bütün xalqların nümayəndələrinin işgüzar və siyasi keyfiyyətlərinə görə rəhbər vəzifələr tutmasına bərabər imkanlar yaradan, dövlət işçilərinin milli mənsubiyyətə görə seçilməsində ədalətsizliyi istisna edən tədbirlərin görülməsi mühüm əhəmiyyət kəsb edir.

Siyasi strukturların mühüm vəzifələrindən biri milli-etnik münasibətlərin inkişafının proqnozlaşdırılması kimi idarəedici funksiyanın həyata keçirilməsi olmalıdır. Bütün bunlar millətçi ruhlu elementləri vaxtında aşkar etməyə, hadisələrin mənfi inkişafını qabaqlamağa imkan yaradır.

Milli-etnik münasibətlərin həllində, əhalinin müxtəlif sosial-etnik qruplarının hüquqlarına, sosial müdafiəsinə həsr olunan və ya buna aid maddələri olan beynəlxalq sənədlərin tələblərinin yerinə yetirilməsi mühüm rol oynayır. Belə sənədlər «İnsan hüquqlarının Ümumi Bəyannaməsi» (BMT-nin Baş Assambleyası tərəfindən 10 dekabr 1948-ci ildə qəbul olunub), «Milli və ya etnik dini və dil azlıqlarına məxsus şəxslər haqqında Bəyannamə» (İnsan Hüquqları Komitəsi tərəfindən 1993-cü ildə qəbul olunub) və s. aid edilə bilər.

Hər bir ölkə beynəlxalq sənədlərin əsas müddəalarını yerinə yetirməyə, eləcə də milli-etnik problemlərə aid özünün milli qanunverici və digər sənədlərini həyata keçirməyə çalışmalıdır. Azərbaycanda bu qəbildən olan məsələlər Konstitusiyada hərtərəfli əsaslandırılmış və hüquqi cəhətdən təsbit olunmuşdur. Bundan əlavə, «Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında» (1999) və «Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında» (1999) və s. aktların da xüsusi rolunu qeyd etmək lazımdır. Bu sənədlərdə söhbət cinsindən, irqindən, milliyyətindən, mənşəyindən və dil fərqindən asılı olmayaraq insanların bərabər hüquqlarının təminatından, qaçqın, məcburi köçkün vəziyyətinə düşmüş vətəndaşlara qayğı göstərilməsindən gedir.

Beynəlxalq dünya birliyinə və keçmiş Sovet İttifaqına daxil olan ölkələrin təcrübəsi göstərdi ki, artıq yaranmış və kəskinləşən etnik konfliktlərə tezliklə, fövqəladə dərəcədə çevik reaksiya verən mexanizmlərin yaradılması mühüm əhəmiyyət kəsb edir. Bu mexanizmlər münaqişəli vəziyyətlərin qarşısını ala bilən xüsusi özünümüdafiə dəstələrinin yaradılmasını, ayrı-ayrı rayonlarda fövqəladə vəziyyətin elan edilməsini, qanunsuz silahlı birləşmələrin buraxılmasını, cinayət işlərinin dərhal açılmasını və s. birləşdirə bilər. Tam qətiyyətlə demək olar ki, əgər bu tədbirlərin bir hissəsi vaxtında Dağlıq Qarabağda (Xankəndində) tətbiq edilsəydi, vəziyyət nəzarətdən çıxmaz və məlum hadisələr baş verməzdi. Bu baxımdan etnik, millətlərarası münaqişələrin həlli ilə bağlı beynəlxalq və ölkədaxili təcrübənin nəzərə alınması vacibdir.

Milli-etnik münaqişələrin qarşısının alınmasında müxtəlif yönümlü ictimai birliklər, sosial institutlar, elm və incəsənət xadimləri, görkəmli yazıçılar, tanınmış mədəniyyət xadimləri mühüm rol oynaya bilərlər. Təəssüflə qeyd etməliyik ki, Dağlıq Qarabağla bağlı məlum hadisələr zamanı erməni ziyalıları bu proseslərdə tamamilə əks- fitnəkar mövqedən çıxış etmişdilər.

İqtisadi sahədə sosial-etnik birliklər arasındakı qarşılıqlı münasibətlər, iqtisadi - təsərrüfat əlaqələri təbii- coğrafii, milli-tarixi və tarixən yaranmış əmək bölgüsünü nəzərə alaraq yaradılmalıdır. Xüsusilə bazar münasibətlərinin formalaşması şəraitində millətlərarası iqtisadi münasibətlər etnik birliklərin iqtisadi tələbatının təmin olunmasına yönəlməlidir.

Azsaylı və kiçik xalqların əksəriyyətinin yaşadığı ərazilərə xüsusi diqqət verilməlidir. Burada insanların sosial vəziyyətinə təsir edən təbii iqlim şəraitinin, demoqrafik situasiyanın nəzərə alınması sözügedən zəmində yarana bilən münaqişələrin qarşısının alınmasını şərtləndirən mühüm vasitələrdən biridir.

Mənəvi, ideoloji fəaliyyət sahəsində etnik konfliktlərin qarşısının alınmasına tarixin «ağ ləkələrin»in aşkar edilməsi, ayrı-ayrı etnik birliklərin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin öyrənilməsi və həqiqəti əks etdirən elmi əsərlərin, dərsliklərin yazılması köməklik edə bilər. Bütün bunlar xalqların mənəvi sahədə qarşılıqlı zənginləşməsinə, eyni zamanda onların milli özünəməxsusluğunun saxlanılması və inkişafına zəmin yaradır. Milli mənəvi mədəniyyət adətən kifayət qədər zəngin, eləcə də çoxplanlı hadisə olmaqla, cəmiyyətdəki iqtisadi, siyasi, əxlaqi, dini və digər ictimai münasibətlər kontekstində inkişaf edir, öz üzərində onların təsirini hiss edir, hətta müəyyən dərəcədə onlardan asılıdır.

Sosioloji tədqiqatlar göstərir ki, insanlarda milli özünüdərk, sağlam, sivil münasibətlər mədəniyyəti erkən yaşlarda formalaşmağa başlayır. Buna görə də ailədə, uşaq müəssisələrində, məktəblərdə və s. müvafiq tərbiyəvi işlər aparılmalıdır.

Milli-etnik qrupların nümayəndələrinin bir-biri ilə ünsiyyət məsələlərinin həllində kütləvi informasiya vasitələri mühüm rol oynayır. Bu, başlıca olaraq aşağıdakı amillə izah edilir. Azlıq təşkil edən etnik qruplar həm bir-birindən fərqləndiyi üçün, həm də yerli əhalinin dilini pis bildiyi üçün onların ünsiyyəti əsas etibarilə yerli millətin nümayəndələri vasitəsilə həyata keçirilir. Ona görə də kütləvi informasiya vasitələrinin nəinki yerli millətin dilində, həm də bu ərazidə yaşayan digər milli-etnik birliklərin dillərində fəaliyyət göstərməsi məqsədəuyğundur.

Etnik münasibətlərlə bağlı problemlərin nəzərdən keçirilən həlli yollarının

reallaşmasında konkret sosioloji tədqiqatlar əhəmiyyətli rol oynayır. Onlar cəmiyyət həyatının konkret siyasi, iqtisadi, sosial və mənəvi sahələrində etnik münasibətlərin daha aktual aspektlərini aşkar etməyə, bununla da bu münasibətlərin gələcəkdəki inkişafını proqnozlaşdırmağa kömək edir.

Milli-etnik münasibətlərin bütün kompleksinin ahəngdarlığının təmin olunması yalnız xalqlar arasındakı sosial-siyasi və digər münasibətlərin demokratikləşdirilməsi şəraitində mümkündür. Bu istiqamətdə görülən işlər bütün xalqların mənafeyinə cavab verir və millətlərarası münasibətlərin obyektiv inkişaf meyllərinin təsir imkanlarını genişləndirir. Həmin meyllərdən biri millətlərin iqtisadi və siyasi müstəqilliyinin inkişafında, dövlətçiliyin təkmilləşməsində və onların mənəvi mədəniyyətinin inkişafında ifadə olunur. Başqa bir meyl böyük və kiçik xalqların qarşılıqlı surətdə bir-birinə yaxınlaşmasında, onların əməkdaşlığının dərinləşməsində, iqtisadi və siyasi strukturların inteqrasiyasında özünü göstərir.

Bir-biri ilə qarşılıqlı əlaqədə olan bu meyllər bütün dünyada gedən milli proseslərdə təzahür edir. Hər bir dövlət özünün milli strategiyasını işləyib hazırlayarkən və həyata keçirərkən bu meylləri nəzərə almalıdır.

## 4. Dağlıq Qarabağ münaqişəsi və onun tənzimlənməsinin dinamikası

Dağlıq Qarabağ münaqişəsi, ilk növbədə, XX əsrin əvvəllərindən başlayaraq Azərbaycan xalqına qarşı zaman-zaman həyata keçirilən soyqırımı və deportasiya siyasətinin məntiqi nəticəsidir.

«Böyük Ermənistan» ideyası altında ermənilər guya özlərinin tarixi əraziləri hesab etdikləri torpaqları birləşdirməyə səy göstərirlər. Əvvəla onu qeyd edək ki, qondarma «Böyük Ermənistan» deyilən ərazi heç vaxt olmayıb və yalnız erməni təxəyyülünün uydurmasıdır. Bu ideyaların nəticəsidir ki, ərazi bütövlüyümüzə qarşı

ermənilərin qəsdi daha intensiv xarakter alır. Lakin Ermənistan öz məqsədlərini pərdələməklə həmin ideyaların həyata keçirilməsi istiqamətində konkret addımlar atsa da, birbaşa ərazi iddiaları ilə çıxış etməmişdir. Uzun illərdən bəri Azərbaycan torpaqlarının ələ keçirilməsinə yönəlmiş planın ilkin mərhələsində Ermənistanda yaşayan azərbaycanlıların kütləvi surətdə öz yurdlarından qovulması Azərbaycan və Ermənistan arasındakı münasibətlərin daha da kəskinləşməsinə səbəb oldu.Tədricən Ermənistanın ərazi iddiaları özünü açıq şəkildə büruzə verməyə başladı. Bu, rəsmi ifadəsini Ermənistan SSRİ Ali Sovetinin Dağlıq Qarabağı Ermənistana birləşdirmək haqqında qərarında tapdı. Münaqişənin sonrakı mərhələsində ermənilər açıq təcavüzə keçmiş və Dağlıq Qarabağda apardıqları işğalçı müharibə və etnik təmizləmə siyasətinin nəticəsində respublikamızın ərazisinin 20%-ni işğal etmiş, 18 mindən çox həmyerlimiz həlak olmuş, 20 mindən artıq insan yaralanmış, 50 mindən çox həmyerlimiz əlil olmuş, 4 min-dən yuxarı həmvətənimiz isə itkin düşmüşdür. Müharibə nəticəsində 4 mindən çox sənaye və kənd təsərrüfatı müəssisəsi, 600-dən artıq məktəb və uşaq bağçası, 250 xəstəxana, 724 şəhər, kənd və qəsəbə dağıdılmış və yandırılmışdır. Ermənistandan qovulmuş soydaşlarımızın 380 kəndi ələ keçirilmiş və bütün var-dövləti talan edilmişdir. Respublikamıza təxminən 50 milyard ABŞ dollarından artıq məbləğdə ziyan dəymişdir.




Ermənistan - Azərbaycan və Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində ilk təşəbbüslər erməni işğalçı qüvvələrinin Dağlıq Qarabağ ətrafındakı əraziləri zəbt etdiyi dövrdən başlamışdır. Məlumdur ki, münaqişə ilə bağlı olaraq BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir: 30 aprel 1993-cü il tarixli 822 saylı və 29 iyul 1993-cü il 853 saylı qətnamələrdə «vəziyyətin bölgədə sülh və təhlükəsizlik üçün qorxu törətməsi», 14 oktyabr 1993-cü il 874 saylı və 11 noyabr 1993-cü il 884 saylı qətnamələrdə isə vəziyyətin gərginləşməsindən yaranan narahatçılıq hissi ifadə olunurdu.

Sənədlərin öyrənilməsi göstərir ki, BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağın və ona bitişik bir sıra rayonların Ermənistan tərəfindən işğalını tanımışdır. Belə ki, qətnamələrdə atəşin biryolluq dayandırılması məqsədilə bütün hərbi əməliyyatların qarşısının alınması və işğalçı qüvvələrin Kəlbəcər, Ağdam rayonlarından, eləcə də

Azərbaycanın işğal edilmiş başqa rayonlarından dərhal çıxarılması tələb edilir.[1] Xeyli müddət keçdiyinə baxmayaraq, BMT Təhlükəsizlik Şurasının qətnamələri indiyə kimi icra edilməmişdir. Bütün bunlar dünyada hələ də müxtəlif məsələlərin, o cümlədən ərazi münaqişələrinin həllində ikili standartların mövcud olmasını göstərir. Problemin həllini əngəlləyən digər bir mühüm səbəb münaqişəyə dair 4 qətnamənin hamısının BMT Nizamnaməsindəki «Mübahisələrin dinc yolla tənzimlənməsi» adlanan VI fəslə aid olduğundan onların yalnız tövsiyə xarakteri daşımasıdır. Əgər həmin qətnamələr «Sülhə təhlükə, sülhün pozulması və təcavüz aktları ilə bağlı tədbirlər» adlanan VII fəslə uyğun olaraq qəbul edilsəydi, onda qətnamələrin yerinə yetirilməsi məcburi xarakterli olardı. Qətnamələrdə Ermənistan - Azərbaycan münaqişəsi sözügedən tərəflər arasında mübahisə kimi qiymətləndirilmişdir. Bu, ilk növbədə, münaqişədə iştirak edən tərəflərin tanınması və onların bir-birinə qarşı iddiaları ilə bağlıdır.

Ermənilər bu münaqişədə xalqların və millətlərin öz müqəddəratını həll etməsi prinsipinə istinad edirlər. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 2-ci maddəsinin 4-cü hissəsinə əsasən bütün üzv dövlətlər öz

beynəlxalq münasibətlərində hər hansı bir dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı və yaxud Birləşmiş Millətlər Təşkilatının məqsədləri ilə bir araya sığmayan hər hansı bir şəkildə güclə hədələməkdən və gücün tətbiqindən çəkinməlidirlər. Ona görə də dünya təcrübəsində ərazi bütövlüyü və millətlərin öz müqəddəratını təyin etməsi prinsipləri bir-biri ilə ziddiyyət təşkil edərsə, həmişə ərazi bütövlüyü prinsipi əsas götürülür. Onu da qeyd etmək zəruridir ki, müqəddəratı təyin etmək hüququndan danışarkən nəzərə almaq lazımdır ki, bu hüququn subyekti milli azlıqlar deyil, xalqdır. Yalnız xalq öz müqəddəratını təyin etmək hüququna malikdir və onun iradəsi ilə dövlət ərazisinin dəyişdirilməsi həyata keçirilə bilər.

Beləliklə, Azərbaycan ərazisinə əsasən XIX əsrin əvvəllərində köçürülmüş ermənilər milli azlıq olduqları üçün öz müqəddəratlarını təyin etmək hüququna malik deyillər. Milli azlıq təşkil edən ermənilərin ərazi dəyişikliyi ilə bağlı etdikləri cəhdlər yalnız separatizm xarakteri daşıyır, beynəlxalq hüquq normalarına ziddir və qətiyyətlə dəf edilməlidir.

Həm ərazi bütövlüyü prinsipi, həm millətlərin öz müqəddəratını təyin etməsi prinsipi, həm də milli azlıqların hüquqları insan hüquqları ilə qırılmaz surətdə bağlıdır. Məhz bu baxımdan insan hüquqlarının müdafiəsi mexanizminə malik olan Avropa Şurasının belə məsələlərdə müstəsna rolu vardır. Azərbaycan və Ermənistan Avropa Şurasının üzvləri olduqdan sonra sözügedən təşkilatın orqanları tərəfindən Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına yönəlmiş bir sıra aktlar qəbul edilmiş, eləcə də Ermənistan təcavüzkar dövlət kimi tanınmışdır. Lakin bütün bunlar BMT qətnamələri kimi tövsiyə xarakteri daşıyır və münaqişənin həllinə kömək etmir. Təəssüflə qeyd etmək lazımdır ki, münaqişənin tənzimlənməsi prosesində də ikili yanaşmalar mövcuddur. Nədənsə, Dağlıq Qarabağ ərazisində yaşayan ermənilərin hüquqları dünyanın əksər dövlətləri tərəfindən tanınıb müdafiə edilsə də, erməni təcavüzü nəticəsində öz ata-baba torpaqlarından didərgin düşmüş və hazırda çətin sosial-iqtisadi şəraitdə yaşayan 1 milyondan artıq həmyerlilərimizin hüquqları kifayət qədər tanınmır və müdafiə edilmir.

ATƏT-in Minsk qrupu və onun üzvləri olan ABŞ, Rusiya və Fransa Ermənistan - Azərbaycan və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması istiqamətində bir sıra təkliflərlə çıxış etmişlər. Birinci təklif (18 iyul 1997-ci il) «Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair hərtərəfli saziş», ikincisi (2 dekabr 1997-ci il) «Dağlıq Qarabağ silahlı münaqişəsinin dayandırılması haqqında saziş», üçüncüsü isə (7 noyabr 1998-ci il) «Dağlıq Qarabağ silahlı münaqişəsinin hərtərəfli həllinin prinsipləri haqqında» adlanır. Bu təkliflərin bəziləri Ermənistan, bir qismi isə Azərbaycan tərəfindən qəbul edilməmişdir. Yalnız 2-ci təklifə, yəni mətbuatda mərhələli həll variantı kimi tanınmış saziş layihəsi hər iki dövləti qismən razı salırdı. Lakin Ermənistanda baş verən siyasi hadisələr, bu münaqişənin həllinə mane olan xarici dövlətlərin mövqeyi, Ter-Petrosyanın istefası problemi xeyli dərinləşdirdi, yeni hakimiyyətə gələn qüvvələr isə

sözügedən saziş layihəsini rədd etdilər. Bu münaqişədə mühüm məsələlərdən biri də Dağlıq Qarabağın statusu ilə bağlıdır. ATƏT-in Minsk qrupu Azərbaycana axırıncı dəfə
«Ümumdövlət» təklifini vermişdir. Aydındır ki, bu yalnız erməni dövlətinin mənafeyinə xidmət edir. İstər ermənilər, istərsə də onun bir sıra havadarları, o cümlədən bəzi beynəlxalq təşkilatlar problemə yalnız ikili standartla yanaşaraq münaqişənin həllini qəsdən dolaşığa salır, həlli müşkül olan problemə çevirirlər. Təbii ki, ümumi dövlət ideyası ilə bağlı layihəni ümummilli liderimiz Heydər Əliyev «qaradan da qara» sayaraq, mahiyyətində Azərbaycanda ikinci erməni dövləti yaratmaq niyyəti duran bu təklifi qətiyyətlə rədd etmişdir.

Ermənistan artıq iqtisadi müstəvidə uduzduğu kimi, siyasi müstəvidə də uduzacağını başa düşür. Bu ölkənin Bakı-Tiflis-Ceyhan, Bakı-Tiflis-Ərzurum kimi beynəlxalq layihələrdən kənarda qalması, Bakı-Tiflis-Qars dəmir yolunun çəkilməsi ilə beynəlxalq aləmdən təcrid olunması iqtisadi sahədə qazandığı «uğurlar»dır.

Məlum olduğu kimi, Azərbaycan dövləti bütün rəsmi və qeyri-rəsmi səviyyələrdə keçirdiyi görüşlərdə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin yalnız beynəlxalq hüquq normaları əsasında mümkünlüyünü bəyan etmişdir. Azərbaycan işğal olunmuş ərazisinin qeyri-şərtsiz azad edilməsi, beynəlxalq hüquq normalarına tam uyğun olaraq, Dağlıq Qarabağa Azərbaycanın tərkibində ən yüksək dərəcəli özünüidarəetmə statusunun verilməsi əsasında münaqişənin ədalətli həllinə nail olmağa çalışır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz çıxışlarında və müxtəlif səviyyəli görüşlərində dəfələrlə bəyan etmişdir ki, Azərbaycan heç zaman «mövcud reallıqlar» əsasında həll variantı ilə razılaşmayacaq və torpaqlarının bir qarışını belə heç kimə verməyəcəkdir. Azərbaycan üçün Ermənistanla başa çatmamış müharibə təxirəsalınmaz xarici və daxili sosial-siyasi problemdir və yeni müstəqil dövlət kimi ölkəmiz bütün sahələrdə, xüsusilə hərbi sahədə öz mövqelərini daha da möhkəmləndirməlidir.

## Mühazirə 7. Sosial təşkilatlar

1. Sosial təşkilatlann mahiyyəti
2. Sosial təşkilatların əsas elementləri
3. Sosial təşkilatlarm formal və qeyri-formal növləri

### 1. Sosial təşkilatların mahiyyəti

Sosial təşkilatlar məqsədyönlü sosial sistemlərdir. Sosioloji elmdə və

gündəlik praktikada bu anlayışdan bir neçə aspektdə istifadə edilir.

**Birincisi,** təşkilat dedikdə müəyyən insanlar qrupunun yeni normalar və qaydalar işləyib hazırlamağa, dayanıqlı əlaqələr yaratmağa yönəlmiş qarşılıqlı əlaqələrini ifadə edən fəaliyyət forması başa düşülür. Məsələn, rəhbər işçilər istehsalat prosesini elə təşkil etməlidir ki, əməliyyatların yerinə yetirilməsinin fasiləsizliyi və tezliyi təmin edilsin. Bu fəaliyyət istehsalat prosesinin təşkili deməkdir. **İkincisi,** təşkilat hər hansı bir obyektin atributu kimi, onun nizamlanma strukturuna malik olmaq cəhdi kimi başa düşülür. Bu mənada həmin anlayış təşkilatlanmış və ya təşkilatlanmamış strukturları fərqləndirmək üçün istifadə edilir. **Üçüncüsü,** sözügedən anlayış bəzən müəyyən ictimai funksiyanı yerinə yetirən institut xarakterli sosial qrupu ifadə edir.

Qeyd olunan hər üç məna birbiri ilə sıx bağlıdır. Bu, təşkilatın mahiyyətini başa düşməkdə və onun elmi təyinatını hərtərəfli açmaqda mühüm rol oynayır.

Sosial təşkilatların tədqiqatçılarından olan S. S. Frolov onları məqsədlərin əldə edilməsinə yönələn rasional sistemlər kimi xarakterizə edir. Onun fikrincə, təşkilatların müəyyənləşdirilməsində aşağıdakı istiqamətlər mövcuddur.[1]

**Birinci istiqamət** K. Bernardın nəzəriyyəsi ilə bağlıdır. Həmin nəzəriyyəyə görə, təşkilat insanların kooperasiyasının elə növüdür ki, o, digər sosial qruplardan şüurluluğu və məqsədyönlü olması baxımından fərqlənir. Göründüyü kimi, burada insanların birgə fəaliyyətinə, onların kooperasiyasına, habelə məqsədə nail olmağın zəruriliyinə daha çox diqqət yetirilir.

**İkinci istiqaməti** D. .Març və Q. Saymonun nəzər-nöqtələri daha yaxşı səciyyələndirir. Onların fikrincə, təşkilat qarşılıqlı fəaliyyətdə olan insanların birliyidir. Elə birlik ki, o, cəmiyyətdə daha geniş yayılmışdır və mərkəzləşdirilmiş koordinasiya sisteminə malikdir.

P. Blau və Y. Skott təşkilatların müəyyənləşdirilməsinin **üçüncü istiqamətini** təqdim edirlər. Onların fikrincə, təşkilatlar əsas məqsədlərin əldə olunması naminə formalaşdırılır.


A. Etsioninin mövqeyi **dördüncü istiqaməti** ifadə edir. O göstərir ki, təşkilat spesifik məqsədləri həyata keçirmək naminə təşkil olunan sosial birliklərdir. Burada başlıca diqqət təşkilatın, onun üzvlərinin şüurlu fəaliyyətinə yönəldilir.

Təşkilatın müəyyənləşdirilməsini açıqlayan bu istiqamətlərin təhlili onu digər sosial qruplardan fərqləndirən iki səciyyəvi cəhəti qeyd etməyə əsas verir. **Birincisi,** təşkilatlar bir-biri ilə qarşılıqlı əlaqədə olan, spesifik məqsədlərin əldə edilməsinə yönəlmiş sosial qruplardır. Təşkilat üzvlərinin hərəkətləri fəaliyyətin konkret sahələrində nəzərdə tutulan nəticələr əldə etmək üçün əlaqələndirilir. Məsələn, siyasi partiya öz proqramını reallaşdırmaq naminə fəaliyyət göstərir. **İkincisi**, təşkilat özünün yüksək

dərəcədə formalaşmış olması ilə səciyyələnir. Təşkilatın daxili strukturunu yaradan reqlamentlər, qaydalar və davranış normaları onun üzvlərinin bütün fəaliyyət sahələrini əhatə edir. Onlar aydın və dəqiq şəkildə təsbit olunur, bütün rolları və rol əlaqələrini ehtiva edir.

## 2. Sosial təşkilatların əsas elementləri

Sosial təşkilatlar dəyişkən və mürəkkəb daxili struktura malikdir. Bu strukturun təhlilinə aşağıdakı modeldən başlamaq olar:




**Cədvəl 1.**

Göründüyü kimi, sosial struktur istənilən təşkilatın mərkəzi elementidir. O, təşkilatın iştirakçıları arasındakı qarşılıqlı münasibətlərin tənzimləyicisi kimi çıxış edir. Bu məsələ ilə bağlı ədəbiyyatda müxtəlif baxışlar mövcuddur. Onlardan K. Devisin mövqeyi daha orijinaldır. O, hesab edir ki, insan cəmiyyətində ikiqat reallıq adlana bilən bir sistem mövcuddur: bir tərəfdən sual yaradan normativ sistem, digər tərəfdən isə sual yaradan faktiki qaydalar. Hər bir fərd çoxsaylı qaydalar, qadağalar və icazələrlə əhatə olunmuşdur. Onlar ictimai həyatı nizamlamaq üçün zəruridir. Lakin həmişə qaydalar üzrə yaşamaq sadəcə olaraq mümkün deyildir. Bizim həyatımız müəyyən qədər qaydalardan kənara çıxmağa istiqamətlənir.

Təşkilatın strukturunda mühüm ünsürlərdən biri də məqsədlərdir. Belə ki, təşkilatlar müəyyən məqsədləri həyata keçirmək üçün yaradılır; onların fəaliyyəti də hər şeydən əvvəl, öz məqsədlərinə nail olub-olmamasına görə qiymətləndirilir. Bununla yanaşı, məqsədlər təşkilatın əsl məramının anlaşılmasında mühüm amillərdən biridir. Bəzi tədqiqatçılar belə hesab edirlər ki, məqsədlər təşkilati davranışın təhlilində xüsusilə zəruridir, başqaları isə əksinə, onların əhəmiyyətini kiçiltməyə çalışrrlar.

Ümumilikdə götürdükdə təşkilatın məqsədlərini yüksək qiymətləndirən mövqe daha geniş yayılmışdır. Məqsəd təşkilatın əldə etməyə çalışdığı əsas nəticə hesab olunur. Fərdlərin birgə fəaliyyəti onlarda müxtəlif səviyyəli və məzmunlu məqsədlər yaradır. Təşkilati məqsədlərin qarşılıqlı surətdə əlaqəli olan üç növü vardır: məqsəd-vəzifə, məqsəd-istiqamət və məqsəd-sistem. Birinci daha yüksək səviyyəli təşkilat tərəfindən verilən və təşkilatın təyinatını əks etdirən proqramlar, planlar və tapşırıqlardır. Bu məqsədlər prioritet əhəmiyyət kəsb edir. Onların əldə olunması səviyyəsi təşkilatın fəaliyyətinin uğurluluğunun əsas meyarı kimi qiymətləndirilir. Məsələn, məktəbdə dərs demək, xəstələrin xəstəxanaya qəbulu və müalicəsi müvafiq təşkilatlar mövcudluğunun mənasını müəyyən edən məqsəd-vəzifələrdir. Məqsəd-istiqamətlər iştirakçıların ehtiyac və maraqlarının ödənilməsi ilə bağlı olan, eləcə də təşkilat tərəfindən reallaşdırılan xüsusi məqsədlərdir. Buraya kollektivin ümumi məqsədi ilə yanaşı, həm də təşkilatın hər bir üzvünün konkret məqsədi daxil olur. Nəhayət, məqsəd-sistemlər təşkilatın bütövlüyünün, sabit fəaliyyətinin, inteqrativ keyfiyyətlərinin təmin edilməsi zərurətindən irəli gələn məqsədlərdir. Sistem kimi götürülən təşkilatın məqsədləri məqsəd-vəzifə və məqsəd - istiqamətlərlə üzvi şəkildə qarşılıqlı əlaqədədir.

Sosial təşkilatın üzvləri və ya iştirakçılar hər bir təşkilatın mühüm tərkib hissələridir. Onlar təşkilatın sosial strukturunda müəyyən mövqe tutur və müvafiq sosial rol yerinə yetirirlər. Bunun üçün zəruri keyfiyyət və vərdişlər toplusuna malik olurlar. Bu fərdlərin

potensialının birləşdirilməsi nəticəsində yüksək nailiyyətlər əldə etmək mümkündür.

Qeyd olunmalıdır ki, hər bir təşkilat müəyyən mənada süni xarakter daşıyrr, yəni o insanlar tərəfindən yaradılır. Buna görə də onun strukturunu və texnologiyasını daim təkmilləşdirməyə ehtiyac vardır. Bu, qeyri-formal səviyyədə və ya özünüidarə səviyyəsində təşkilat üzvlərinin hərəkətlərinə effektiv nəzarəti çətinləşdirir. Odur ki, təşkilatın fəaliyyətinin elmi surətdə idarə edilrnəsi ən ciddi və zəruri problemlərdən biridir.

## 3. Sosial təşkilatların formal və qeyri-formal növləri

Müxtəlif təşkilatlar adətən bu və ya digər fəaliyyət və ya xidmət növünə görə ixtisaslaşırlar. Bu öz növbəsində on-ların arasında funksiyaların dəqiq bölgüsünü zəruri edir. Həmin əsasda texnoloji əlamətlərə görə təşkilati strukturlar yaradılır ki, onlar da müəyyən funksiyaları yerinə yetirirlər. Sosiologiyada belə strukturlar üfüqi strukturlar adlandırılır. Əməyin funksional bölgüsünə əsaslanan təşkilatlar formal təşkilatlar adlanır. Onlara aşağıdakı xüsusiyyətlər xasdır:

1. Onlar rasionaldır (onların fəaliyyətinin əsasında məqsədəuyğunluq durur).
2. Onların daxilində insanların münasibətləri əsasən xidməti səciyyə daşıyır.
3. Məqsədlər ancaq funksional məqsədlərdir (yəni bilərəkdən birqiymətlidirlər).

Formal təşkilatın əsas funksiyası fərdləri kollektiv əməyin vasitələri və məqsədləri ilə birləşdirməkdir. Bu xüsusiyyətlər onlara aşağıda göstərilən məsələləri uğurlu həll etməyə imkan verir (bunu müəyyən dərəcədə onların üstünlükləri hesab etmək olar):

1. İnsanların fəaliyyətinin və təşkilatın struktur elementlərinin müxtəlifliyindən irəli gələn çatışmazlıqları məhdudlaşdırmaq yolu ilə səmərəliliyin artırılması.

2. Vahid bir orqanizm kimi bütövlüyün təmin edilməsi. Formal sosial təşkilatı insanların sosial mühəndislik sahəsində çox qiymətli və qədim ixtiralarından biri hesab etmək olar. Formallaşdırma sosial münasibətləri rəsmi sənədlərdə, qanunlarda, təlimatlarda təsbit olunmuş normalar və qaydaların köməyi ilə bir növ sadələşdirir. Bu isə insanların, sosial birliklərin və qrupların davranışında gözlənilən problemləri qabaqcadan müəyyən dərəcədə həll etməyə və səmərəli təşkilatlar yaratmağa imkan verir.

Sosial təşkilatın formal strukturu bölmələr və işçi yerlər arasındakı qarşılıqlı əlaqə və münasibətləri bir sıra nizamlayıcı sənədlərdə təsbit edir. Onlar qanuniləşdirilmiş tələblər, standartlar, nümunələr və davranış normalarının məcmusudur. Burada bütün işçilərin statusu, vəzifə və rol bölgüsü dəqiq şəkildə müəyyən olunur. Deyilənlərdən aydın olur ki, formal struktura malik təşkilatlar bütün əsas münasibətlərin qayəsini (məğzini) təşkil edir, onlarda sosial qaya-qanunun qərarlaşmasına səy göstərir.

Bütün müasir formal təşkilatlar öz mahiyyətinə görə müəyyən qədər bürokratik xarakter daşıyır. Bu məsələ ilə bağlı ideal bürokratik təşkilatın M. Veber tərəfindən verilən xarakteristikasını nəzərdən keçirək.

1. Təşkilatın hər bir hissəsinin məqsəd və vəzifələri aydın müəyyənləşdirilmiş olur. Onun qarşısında duran məqsədlərə çatmaq üçün zəruri olan bütün fəaliyyət ən sadə əməliyyatlara qədər dəqiqləşdirilir. Bu yüksək dərəcədə ixtisaslaşmaya imkan yaradır. İxtisaslaşma isə peşəkarlığın artmasına kömək edir və personalı (işçi heyətini) onların keyfiyyətinə görə seçmək mümkün olur.

2. Təşkilat iyerarxiya prinsipləri üzərində qurulur, yəni mövqelər və vəzifələr hakimiyyətin çoxmərhələli strukturu şəklində təşkil olunur. Adətən belə iyerarxiya piramida formasında çıxış edir. Bu piramidada hər bir vəzifəli şəxs yuxarıda duranlar qarşısında həm özünün şəxsi qərarları və hərəkətləri, həm də onun tabeliyində olanların qərarları və hərəkətləri üçün məsuldur. Digər tərəfdən o, özündən aşağıda olanlar üzərində hakimiyyətə malik olur. Bu hakimiyyətin həcmi və hüdudları dəqiq surətdə müəyyənləşdirilir.

3. Vəzifəli şəxslərin qərarları və hərəkətləri formal şəkildə təsbit olunmuş qayda və təlimatlar sistemi ilə idarə olunur. Belə inzibati təşkilatlarda fəaliyyət bu ümumi təlimatların konkret hallara (situasiyalara) tətbiqi deməkdir. Təlimatlar fəaliyyətdə müəyyən yeknəsəqlik yaratsa da, bütövlükdə hakimiyyət strukturu ilə birgə fəaliyyətin müxtəlif növlərini əlaqələndirməyə, təşkilatın sabitliyini təmin etməyə imkan verir.

4. Formal təşkilat xüsusi inzibati heyətə malikdir. Onun vəzifəsi təşkilatın normal işini, hər şeydən əvvəl onun rabitə kanallarının fəaliyyətini təmin etməkdir. Əgər istehsal heyəti əsas məqsədlərə çatmaqda birbaşa (bilavasitə) iştirak edirsə, inzibati heyət bu işdə yalnız vasitəlı (bilvasitə), yəni təşkilatın fəaliyyətinin təmin olunmasına yardım göstərmək yolu ilə iştirak edir.

5. Vəzifəli şəxslər müştərilərlə və digər vəzifəli şəxslərlə təmaslarında şəxssizlik yönəmini rəhbər tutmalıdırlar. Hər bir əməkdaş bütün şəxsi mülahizələrini kənara qoymalı

və tam emosional qərəzsizlik mövqeyində dayanmalıdır. Tabeliyində olanlarla da məhz bu cür davranmaq zəruridir. Münasibətlərin belə rəsmi olmasının səbəbi iyerarxik səviyyələr, vəzifəli şəxslər ilə onların müştəriləri arasında sosial məsafənin qorunub saxlanılmasının zəruriliyidir.

**6.** Təşkilat tərəfindən əməkdaşların muzdla tutulması onların xidmət üzrə irəli çəkilməsini nəzərdə tutur. Böyüklüyə və ya uğurlu fəaliyyətə görə irəliyə çəkilmə sistemi mövcud olmalıdır. Muzdla tutulma siyasi, ailə və digər əlaqələrə deyil, fəaliyyətdəki keyfiyyətlərə əsaslanır. Adətən vəzifəli şəxslər vəzifələrə seçilmirlər, onlar təyin edilirlər. Buna görə də onlar hər hansı qrupdan yox, yuxarı pillədə duran rəislərdən asılı olurlar. Qulluqçular işdən əsassız olaraq azad edilməkdən mühafizə olunmalıdırlar.

M. Veber hesab edirdi ki, formal strukturun bu cəhətləri təşkilatın yüksək səmərəliliyini təmin edə bilər. Başqa sözlə, formal struktur səmərəlilik (rasionallıq) prinsipləri üzərində qurulmalı, şəxssizlik münasibətlərini möhkəmləndirməli və ilk növbədə yuxarıdan aşağıya idarəetmə təsirlərinin həyata keçirilməsinə yönəlməlidir.

Peşəkarlığın artması və informasiya texnologiyalarının inkişafı prosesləri müasir formal təşkilatın fəaliyyətinə müsbət təsir göstərir. Yüksək ixtisaslı mütəxəssislər avtoritetlər iyerarxiyasına bağlanmırlar, adətən orta ixtisaslı işçilərdən daha çox səlahiyyətə malik olurlar. Təbii ki, bu hal bürokratik iyerarxik strukturun bürokratik təbiətini aradan qaldırır və daha çevik idarəetmə sisteminin yaranmasına səbəb olur. Bundan əlavə, informasiya texnologiyaları aşağı ixtisaslı işçiləri sıxışdırıb çıxarır və onların gördüyü işlərin bir hissəsini maşınların öhdəsinə verir. Buna görə əminliklə demək olar ki, əgər mexanikləşdirmə standartlaşmaya doğru aparırsa, informasiyalaşdırma təşkilatın çevikliyinə doğru aparır.

Formal strukturdan fərqli olaraq, qeyri-formal struktur aşağıdan başlayaraq yuxarıya istiqamətlənməklə qurulur və hər şeydən əvvəl, öz-özünə təşkil proseslərinin nəticələrini təsbit edir (möhkəmləndirir). O, işçilərin

şəxsi xüsusiyyətlərini və real insanlar arasındakı (vəzifəlilər arasında yox) münasibətləri əks etdirir. Bu halda bir çox normalar situasiya xarakteri daşıyır ki, bu da qeyri-formal strukturu çevik və mütəhərrik edir.

Qeyri-formal struktur özündə həm formallaşmış xidməti və işçi əlaqələri, həm də insanların ünsiyyəti zamanı yaranan sosial, psixoloji asılılıqları ehtiva edir. Münasibətlərdə qarşılıqlı rəğbət və antipatiyalar, sosial-etnik amil, yaş, peşə və s. ilə bağlı amillər əhəmiyyətli rol oynayır.

Təşkilatda qeyri-formal strukturun əmələ gəlməsi bir sıra səbəblərlə şərtlənir. Həmin səbəblər aşağıdakılardır:

- təşkilatda sosial münasibətlərin tam məcmusunu formallaşdırmağın mümkünsüzlüyü;
- təşkilatın strukturunda konkret insanların özünəməxsus (spesifik) xüsusiyyətlərini və keyfiyyətlərini nəzərə almaq zərurəti;
- xarici mühitin dəyişməsinə təşkilatın reaksiya vermək zərurəti;
- təşkilatda gözlənilməyən situasiyaların (vəziyyətlərin) yaranmasının və meydana çıxan problemlərin həllı üçün yeni yanaşmaların tələb olunmasının qaçılmazlığı.

Real olaraq qeyrı-formal struktur qeyri-formal qrupların şəbəkəsi kimi fəalıyyət göstərir. Bu qruplar formal cəhətdən möhkəmlənmiş bölmələrə çox oxşardırlar. Onların öz liderləri, öz iyerarxiyaları vardır. Geniş açıqlanmayan həvəsləndirmələr və sanksiyalar (cəzalar) sistemi ilə qüvvətləndirilmiş yazılmamış davranış qaydaları və normaları fəaliyyət göstərir. İstənilən təşkilatda şayələr və məxfi məlumatlar şəklində qeyri-formal kommunikasiya (rabitə) mövcuddur və bəzən bu, rəsmi məlumata nisbətən həqiqətə daha çox yaxın olur.

İnsanları qeyri-formal qruplara daxil olmağa çox vaxt aşağıdakı səbəblər sövq edir:

**1.** Mənsubiyyət hissinin təmin olunması; belə ki, təşkilat formalarının çoxu insanları bilərəkdən sosial təmaslarından məhrum edir.

**2.** İş yoldaşları tərəfindən yardımın zəruriliyi. İdeal halda tabelikdə olanlar heç nədən çəkinib - utanmadan özlərinin birbaşa (bilavasitə) rəhbərlərinə müraciət etmək imkanına malik olmalıdırlar. Əgər bu baş vermirsə, rəis öz tabeliyində olanlarla qarşılıqlı münasibətini diqqətlə araşdırıb qaydaya salmalıdır.

**3.** İnsanın mühafizə olunmağa can atması. İnsanlar həmişə yəqin etmişlər ki, güc birlikdədir. Onlar özlərini xarici mühitin yad təsirlərindən qorumaq üçün müəyyən icmalarda birləşirdilər. İndi isə öz hüquqlarını müdafiə etmək üçün həmkarlar ittifaqlarında və s.-də birləşirlər.

**4.** İnsanların bir-biri ilə ünsiyyətdə olma tələbatı. İnsanlar onların ətrafında nələrin baş verdiyini, xüsusilə də əgər bunlar onların mənafelərinə toxunursa, bilmək istəyirlər. Lakin formal təşkilatlarda daxili təmaslar olduqca zəifdir. Qeyri-formal təşkilat məlumat əldə etmək üçün qeyri-formal kanallara yol açır.

**5.** İnsanların rəğbət bəslədikləri şəxslərə yaxın olmaq arzusu.

Həm formal, həm də qeyri-formal təşkilatlar real sosial nizama öz töhfələrini verirlər, bir-birini tamamlayır, təşkilatdaxili əlaqələri zənginləşdirir və təkmilləşdirirlər. Strukturların qarşılıqlı təsirinin sinergetik effekti münasibətlərin müvafiq dərəcədə formallaşdırılması ilə təmin olunur. Bunlar da öz növbəsində həll edilən təşkilati məsələlərin xarakteri ilə müəyyən edilir. Burada ümumi yaxınlaşma meyli belədir: yaradıcılığın rolu yüksək olduqca, daha çox çeviklik göstərilməli, dəyişmiş şəraitə uyğunlaşmaq bacarığı tələb olunduqca, hər bir insanın fərdi xüsusiyyətlərindən daha fəal istifadə edilməli, təşkilatın strukturu isə nisbətən az formallaşmış olmalıdır.

## Mühazirə 8. Sosial nəzarət

1. Sosial nəzarətin məzmunu və funksiyaları
2. Sosial nəzarətin strukturu
3. Sosial nəzarət metodları

### 1. Sosial nəzarətin məzmunu və funksiyaları

Sosial nəzarət mürəkkəb, birmənalı izah edilməyən ictimai hadisədir. Təsadüfi deyildir ki, fəlsəfi-sosioloji fikir tarixində bu problemə müxtəlif cür yanaşılmışdır. Bütün görkəmli sosioloqlar bu problemin araşdırılmasına öz töhfəsini verməyə səy göstərmiş, maraqlı mülahizələr söyləmişlər. Sosial nəzarət cəmiyyətin fəaliyyətində, inkişafında mühüm əhəmiyyət kəsb edir, insanın, sosial qrupların davranışı, həyat tərzi ilə əlaqədar ən müxtəlif prosesləri əhatə edir.

Sosial nəzarət termini elmi dövriyyəyə fransız sosioloqu **və** kriminoloqu Qabriel Tard (1843-1904) tərəfindən daxil edilmişdir. O, əvvəlcə sosial nəzarəti cinayətkarın ictimai fəaliyyətə qayıtması vasitəsi kimi nəzərdən keçirmişdir. Sonralar o, həmin anlayışın məzmununu genişləndirərək, onu şəxsiyyətin sosiallaşmasının mühüm amillərindən biri kimi izah etmişdir.

Q. Tardın təsiri altında sosial nəzarət nəzəriyyəsinin işlənib hazırlanmasında iki Amerika sosioloqunun xüsusi xidmətləri qeyd olunmalıdır:

Birincisi, Amerika sosiologiyasının və sosial psixologiyasının banilərindən biri sayılan Edvard Rossdur (1866-1951). E. Ross belə hesab edirdi ki, sosial nəzarət «sağlam» sosial qayda yaratmaq məqsədilə fərdin davranışına cəmiyyətin məqsədyönlü təsiridir. Onun fikrincə, belə sağlam qayda məlum cəmiyyətdə fərdlərin hansı tipinin ən geniş yayılmasından asılıdır. Məsələn, E. Ross Qərbi Avropa, Amerika, Slavyan, indus və s. tipləri

ayırd edir və üstünlüyü əvvəlkilərə verir. O, qeyd edir ki, sosial nəzarət uzunmüddətli tarixi inkişafın məhsuludur, yalnız xüsusi mülkiyyət zəminində mümkün ola bilir.

İkincisi, Çikaqo məktəbinin bünövrəsini qoyanlardan biri Robert Parkdır (1864-1944). Məlum olduğu kimi, Çikaqo məktəbi sosial elmlərdə ilk məktəblərdən biridir. O, 1915-1935-ci illərdə Amerika sosiologiyasında üstün mövqeyə malik olmuş, ümumiyyətlə sosiologiyanın inkişafına əhəmiyyətli təsir göstərə bilmişdir. Bu məktəb dünyada ilk sosiologiya fakültəsinin bazasında formalaşmış, ən müxtəlif sosial problemlərin, o cümlədən sosial nəzarət probleminin işlənməsində dərin iz buraxmışdır. Həmin məktəbin liderlərindən olan R. Park belə hesab edirdi ki, sosial nəzarət sosial qüvvələrlə insan təbiəti arasında müəyyən nisbəti təmin edən vasitədir. O, sosial nəzarətin üç formasını ayırd edir: 1. elementar (əsasən məcburi) sanksiyalar; 2. ictimai rəy; 3. sosial institutlar.

R. Laper sosial nəzarət nəzəriyyəsini maraqlı tədqiqatları ilə zənginləşdirmişdir. Laperin fikrincə, sosial nəzarət elə bir vasitədir ki, onun köməyi ilə fərd mədəniyyəti mənimsəyərək, nəsildən-nəslə ötürür. Fərdi səviyyədə sosial nəzarət fərdlə konkret situasiya arasında vasitəçi rolunu yerinə yetirir. R. Laper belə bir nəticəyə gəlir ki, sosial nəzarətin müxtəlif tipli cəmiyyətlərdə fəaliyyət göstərən üç universal mexanizmi vardır: 1. Fiziki sanksiyalar (qrup normalarını pozmağa görə fərdin cəzalandırılması); 2. İqtisadi sanksiyalar (cərimə, qorxutma və s.); 3. İnzibati sanksiyalar.

Cəmiyyətdəki institutların möhkəmləndirilməsində sosial nəzarət mexanizmi mühüm rol oynayır. Eyni ünsürlər -insanların davranış qaydaları və normaları həm sosial institutlara, həm də sosial nəzarət sisteminə daxil olur. Bu qaydalar və normalar fərdlərin davranışını təsbit edir və standartlaşdırır. Görkəmli Amerika sosioloqu
T. Parsons (1902-1979) qeyd edirdi ki, «sosial nəzarət ayn-ayrı şəxslərin, sosial qrupların davranışında və fəaliyyətində ola biləcək... kənarlaşma meyllərinin qarşısını alır». Sosial nəzarət sayəsində cəmiyyətdəki mövcud mədəniyyətin ayrı-ayn fərdlər, sosial qruplar və təbəqələr tərəfindən mənimsənilməsi prosesi intensivləşir; insanların qarşılıqlı əlaqələri uzlaşdırılır, ictimai sistemin sahmanlı, nizamlı fəaliyyəti təmin olunur. Nəticə etibarilə insanların mütləq əksəriyyəti etdiyi hərəkətlərin müqabilində onu nə gözlədiyini irəlicədən bilir, fəaliyyətinin mümkün nəticələrini dərk edir.

Faktlar göstərir ki, cəmiyyətdə hər bir şəxs, hər bir sosial qrup, onların fəaliyyəti sosial nəzarətin bu və ya digər formaları, növləri, nümunələri ilə əhatə olunmuşdur. Şəxsin, qrupun özünün daxilindən, yaxın əhatəsindən başlayaraq onları müxtəlif nəzarət sistemləri əhatə edir. Siyasi-hüquqi sistem, ictimai əxlaq, adət və ənənələr, peşə- vəzifə sistemi, ailə və s. bu qəbildəndir. Bu sistemlər qarşılıqlı surətdə bir-biri ilə bağlıdır: cəmiyyətin inkişafının müxtəlif pillələrində və məqamlarında həmin sistemlərin rolu dəyişilə bilər. Lakin bütün hallarda (istər az-çox sabit dövrlər, istərsə də kəskin təzadların,

sarsıntıların gücləndiyi dövrlər olsun) sosial nəzarət sistemi mövcud olmalı, insanların davranışına və fəaliyyətinə öz təsirini göstərməlidir.

Sosial nəzarət sistemin özünütənzimləməsinin elə üsuludur ki, həmin sistemi təşkil edən ünsürlərin sahmanlı qarşılıqlı təsirini normativ (o cümlədən hüquqi) baxımdan nizamlamaq vasitəsilə təmin edir. Sosial nəzarətin

istiqaməti və məzmunu məlum sosial sistemin tarixən şərtlənmiş sosial-iqtisadi, siyasi, mənəvi-ideoloji, əxlaqi və digər sosial-mədəni xarakteristikalarından asılıdır.

Sosial nəzarət fərdlərin davranışına cəmiyyət tərəfindən nizamlayıcı təsirlərin daha ümumi sisteminin bir ünsürüdür. Bu təsir formasının fərqləndirici xüsusiyyəti nizamlılıq, formallaşdırılma, fərdə verilən tələbələrin qətiliyi, normativliyi, sanksiyalarla təminatıdır. Sosial nəzarət sistemi sosial normalardan istifadə edir; həmin normalar ideologiyada, fəlsəfi-etik baxışlarda, bədii yaradıcılıqda və s. öz əksini tapır.

Sosial nəzarət sistemi bir sıra Qərb sosioloqlarının əsərlərində aqressiv davranış üzərində nəzarət vəzifəsi ilə əlaqədar nəzərdən keçirilir. Bu cür nəzarət fərdin sosiallaşması kimi ümumi prosesin bir hissəsi olaraq araşdırılır. Aqressiv davranış problemi isə öz növbəsində daha geniş problemə - kənaraçıxan (deviant) davranış probleminə daxil edilir. Belə yanaşma sosial nəzarətin yaranmasının sosial-mədəni dinamikasını aşkara çıxarmaq cəhdləri ilə bağlıdır. Əslində sosial nəzarət problemi daha çox yığnaq psixologiyasına dair əsərlərdə, kortəbii qrup davranışı üzərində nəzarət metodlarının işlənib hazırlanması ilə əlaqədar olaraq öyrənilir. Bu halda ustanovkaların tədqiqinə, qeyri-formal qrupların nəzarətedici roluna və s. xüsusi diqqət yetirilir. Bu qəbildən olan tədqiqatlarda fərdə sosial nəzarətin obyekti, sosial struktur təşəkküllərinə isə nəzarətedici və məcburedici qüvvə rolu ayrılır. Sosial nəzarət mexanizmi barəsində belə təsəvvür birtərəflidir. Əslində sosial nəzarət prosesində fərdlə cəmiyyət öz arasında toqquşur. Lakin onların qarşılıqlı təsiri olduqca mürəkkəb xarakter daşıyır; fərdi keyfiyyətlərin sosial standartlara sadəcə «bənd edilməsi» məsələyə dərindən nüfuz edilməməsini sübut edir.

Ölkədə hər bir şeyin öz axarı ilə getməsi üçün insanlar müəyyən qaydalara əməl etməlidirlər. Sosial nizam ən azı adamların əksəriyyəti tərəfindən ümumi normalara əməl olunmasını tələb edir. Sosial nizam olmasa, insanların qarşılıqlı fəaliyyəti əsil problemə çevrilər, onların gözləmələri isə mənasızlaşardı. Cəmiyyət öz üzvlərinin fəaliyyətinin uyğunluğuna əsaslı sosial normalarla sosial nəzarətin köməyi ilə təminat verməyə çalışır. Bəs sosial nəzarət necə başa düşülməlidir? Sosial nəzarət «cəmiyyət hüdudlarında insanların davranışını müəyyən edən metodlar və strategiyalardır.[1]

Nəzərə almaq lazımdır ki, sosial nəzarətin mahiyyəti və rolu müxtəlif tədqiqatçılar tərəfindən birmənalı qiymətləndirilmir. Məsələn, funksionalistlər sosial nəzarətin hər şeydən əvvəl yuridik aktlarda ifadə olunduğunu vurğulayır, onu labüd tələb kimi nəzərdən keçirirlər; sosial nəzarət olmazsa, cəmiyyətin salamat qalması və yaşaması mümkün deyildir. Əgər əhali ictimai davranış standartlarına əməl etməkdən imtina etsə, institusional sistemin fəaliyyəti pozular, dağılıb gedər. Bu səbəbdən funksionalistlər xaosu səmərəli sosial nəzarətin alternativi hesab edirlər. Konflikt nəzəriyyəsinin tərəfdarları isə qeyd edirlər ki, sosial nəzarət hakimiyyətdə təmsil olunan sosial qrupların mənafeləri naminə cəmiyyətdəki bütün digər qrupların ziyanına olaraq həyata keçirilir; həm də bu zaman heç bir sosial struktur neytral mövqedə qala bilməz. Ona görə də vəzifə mühafizə üçün sosial nəzarət metodlarından və instrumentlərindən istifadə etməklə institusional strukturlara sosial həyatın nemətlərini və imkanlarını ədalətsiz bölüşdürməyə şərait yaradan mexanizmləri aşkar etməkdən, optimal addımlar atmaqdan ibarətdir.

Sosial həyatda sosial nəzarət proseslərinin üç əsas tipi fəaliyyət göstərir:

1. Fərdləri öz cəmiyyətinin normativ gözləmələrini internalizasiya etməyə sövq edən proseslər;

2. Fərdlərin sosial təcrübəsini təşkil edən proseslər;
3. Müxtəlif formal və qeyri-formal sosial sanksiyalar tətbiq edən proseslər.

Məlum olduğu kimi, cəmiyyət üzvləri fasiləsiz surətdə sosiallaşma prosesini keçirirlər. Onlar bu proses sayəsində təfəkkürün, hiss və davranışın elə sistemlərini mənimsəyirlər ki, onlar məlum cəmiyyətin mədəniyyəti üçün xarakterikdir. Uşaq yaşlarında digər adamların gözləmələrinə uyğunluq hər şeydən əvvəl xarici nəzarət proseslərinin məhsuludur. Yaşa dolduqca insanın davranışı getdikcə daha artıq dərəcədə daxili tənzimləyicilərlə idarə olunur. Bu tənzimləyicilər çox funksiyalar yerinə yetirirlər, halbuki onlar əvvəllər-uşaq yaşlarında xarici nəzarət mexanizmləri vasitəsilə yerinə yetirilirdi. İnternalizasiya prosesi belə baş verir: fərdlər cəmiyyətdə üstün olan davranış standartlarını öz şəxsiyyətinə «hopdururlar». İnsan bu standartları çox zaman düşünmədən, müəyyən suallar vermədən, qeyd-şərtsiz özünün «ikinci naturası» kimi qəbul edir. İnsan qrupun həyatına daha dərindən nüfuz etdikcə, qrupun qayğıları ilə «yükləndikcə» özü haqqında müəyyən təsəvvürlər işləyib hazırlayır; bu təsəvvürlər onu davranışını qrupun normalarına müvafiq surətdə nizamlayır. Qrup üzvlərinin etdiyini etməklə o, öz identikliyini əldə edir. Qrup onun öz qrupuna çevrilir; o, qrupun normalarını öz normaları kimi qəbul edir. Beləliklə, sosial nəzarət özünənəzarətə çevrilir.

Fərdi təcrübənin formalaşmasında və təkamülüdə sosial institutların özünəməxsus yeri vardır. Bir qayda olaraq insan mövcud reallıq haqqında öz təsəvvürünü sosial problemlərin təsiri altında işləyib hazırlayır. Bu təsəvvürün alternativləri ilə cəmiyyət tərəfindən formula edildiyi tərzdə qərarlaşır. İnsan demək olar ki, xeyli məhdud bir aləmdə yaşayır və fəaliyyət göstərir. Başqa sözlə, o, özünün məlum mədəniyyətlə şərtlənmiş sosial

əhatəsi hüdudları ilə bir növ məhdudlaşır. Ona görə də çox zaman insan alternativ standartların mövcudluğu imkanını ağlına belə gətirmir.

Nəzərə almaq lazımdır ki, əhalinin əksər hissəsi adətən yaşadığı cəmiyyətin normalarına riayət edir, çünki bilir ki, əks halda onu cəza gözləyir. Ətrafdakılar qaydaları pozan adamlara rəğbət göstərmir, bəzən çox kəskin, hətta düşməncəsinə yanaşırlar. Normalardan çıxma hallarının nəticələri həbs, hətta ölüm ola bilər. Normalara riayət olunması isə bəyənilir, populyarlıq, nüfuz və s. kəsb edir. Elmi ədəbiyyatda birinci halı nonkorformizm, ikinci hah isə konformizm adlandırırlar. Bu halda qeyd olunur ki, insanlar nonkorformizmin xeyirsizliyini və konformizmin üstünlüklərini olduqca tez dərk edirlər.

Bəs sosial nəzarət cəmiyyətdə hansı funksiyaları yerinə yetirir?

Bəzi mənbələrdə sosial nəzarətin sabitləşdirici və məqsədli funksiyalarından bəhs edilir. Zənnimizcə, ikinci funksiya dəqiq ifadə olunmamışdır. Əslində məqsədlilik sosial nəzarətin bütün təzahürlərinə, növlərinə xas olmaqla onun istiqamətini səciyyələndirir. Bundan əlavə, məqsədlilik sabitləşdirici funksiyanın məzmununu da əhəmiyyətli dərəcədə ifadə edir.

Bəzi mənbələrdə isə sosial nəzarətin mühafizəedici və sabitləşdirici funksiyaları göstərilir. Zənnimizcə, məsələnin belə qoyuluşu daha məntiqlidir. Ona görə də bu funksiyaları bir qədər müfəssəl nəzərdən keçirək.

Sosial nəzarətin mühafizəedici funksiyası məlum sistemin tarixən şərtlənmiş sosial-iqtisadi, sosial-siyasi, sosial-hüquqi xarakteristikalarından, onun tarixi inkişaf prosesində yerindən asılıdır. Sosial nəzarətin sabitləşdirici funksiyası isə hökmran sosial münasibətlərin, sosial strukturların (qrup, sinif, dövlət) təkrar istehsalında təzahür edir.

Sosial nəzarətin hər iki funksiyası bir-biri ilə sıx bağlıdır, bir-birini qarşılıqlı surətdə tamamlayır. Bu əlaqəni aydın təsəvvür etmək üçün belə bir sadə misala müraciət edək. Cəmiyyətdə sosial nəzarət sistemi vətəndaşların hüquqlarının reallaşmasını təmin edirsə, deməli, onların hüquqları qorunur, mühafizə edilir. Hüquqların qorunması isə cəmiyyətin sabitliyini təmin edən çox mühüm amillərdən biridir. Sabitlik möhkəmləndikcə hüquqlar daha da dolğunlaşmaq, real məzmun kəsb etmək imkanı qazanır.

Məlum olduğu kimi, hüquqlar müvafiq vəzifələrdən ayrılmazdır. Hüquqlar insanın nə edə biləcəyini müəyyənləşdirirsə, vəzifələr onun nə etməli olduğunu ifadə edir. Həm hüquqlar, həm də vəzifələr insanın davranışını müəyyən hüdudlarla məhdudlaşdırır. Hüquq vəzifəni, vəzifə isə hüququ nəzərdə tutur. Onlar bir- birindən ayrı düşəndə sosial struktur deformasiyaya uğrayır. Məsələn, qədim dünyada qulun statusu ancaq vəzifələri nəzərdə tuturdu; onun demək olar ki, heç bir hüququ yox idi. Totaliar cəmiyyətlərdə hüquqlarla vəzifələr qeyri-simmetrikdir: belə ki, hökmdarın və yüksək vəzifəli şəxslərin hüquqları maksimum həddədir, vəzifələri isə minimum həddədir. Demokratik cəmiyyətlərdə isə hüquq və vəzifələr daha çoz simmetrikdir. Araşdırmalara əsasən demək olar ki, sosial strukturda hüquq və vəzifələrin nisbəti cəmiyyətin inkişaf səviyyəsinə fəal təsir göstərən amildir. Hüquqlar əslində «bəşəriyyətin sivilizasiya yolu ilə uzunmüddətli və mürəkkəb hərəkətinin nəticəsidir».[1] Bu prosesdə vəzifələr də dəyişilmiş, yeni məzmun kəsb etmişdir.

Sosial nəzarət elə xüsusi mexanizmdir ki, o, hakimiyyət səlahiyyətlərindən istifadə etməklə ictimai nizamı təmin edir. Bu, çox mürəkkəb, çoxşaxəli bir prosesdir. Həmin prosesin normal cərəyanı hakimiyyətlə yanaşı, sosial normalara, sanksiyalara möhtacdır.

Sosial nəzarətin mühafizəedici və sabitləşdirici funksiyaların reallaşması sayəsində

adi vətəndaşların həyat fəaliyyəti təmin olunur. Sosial nəzarət instrumentləri, metodları son dərəcə rəngarəngdir: münasibətlərin təkbətək aydınlaşdırılması, psixoloji təzyiq, fiziki zorakılıq, iqtisadi məcburiyyət və s. Nəzarət metodları sərt, yumşaq, birbaşa (bilavasitə) və vasitəli ola bilər. Bu metodların kəsişməsi də mümkündür: bir-başa sərt, birbaşa yumşaq, vasitəli sərt, vasitəli yumşaq.

Sosial nəzarətin müxtəlif növlərinin, tiplərinin və formalarının insana təsiri bir-birindən fərqlidir. Bu baxımdan görkəmli sosioloq P. Bergerin sosial nəzarət konsepsiyası diqqəti cəlb edir. P. Bergerin fikrincə, insan müxtəlif konsentrik dairələrin mərkəzində dayanır. Həmin dairələrin hər biri sosial nəzarətin yeni sistemidir, onun müəyyən növünü, tipini və formasını təmsil edir. P. Berger 5 dairə - 5 sistem müəyyənləşdirir:

1-ci dairə - ən xarici və ən böyük dairə siyasi-hüquqi sistemdir. Bu sistem qüdrətli dövlət aparatı ilə təmsil olunmuşdur. Onun qarşısında, demək olar ki, hamı gücsüzdür. Dövlət vergilər toplayır, vətəndaşları hərbi xidmətə çağırır, onları özünün sonsuz qaydalarına tabe olmağa məcbur edir, zəruri hesab etdikdə azadlıqdan, hətta həyatdan məhrum edir.

Mərkəzə - insana doğru irəlilədikdə 2-ci dairə - insana maksimum təzyiq göstərən ictimai əxlaqdır, adət və ənənələrdir. Bizim mənəviyyatımıza əslində hamı nəzarət edir: polis, valideynlər, qohumlar, tanışlar, dostlar və s. Onlardan hər biri öz manerasına uyğun olaraq, öz səlahiyyətləri dairəsində sosial nəzarət instrumenti tətbiq edir.

Yuxarıdakı iki dairəni böyük məcburiyyət dairələri adlandırmaq olar. Bu dairələrdə fərd cəmiyyətin digər üzvləri ilə birlikdə olur.

Lakin nəzarətin kiçik dairələri ilə mövcuddur (3-5-ci dairələr). 3-cü dairə - peşə sistemidir. İnsan iş yerində çox-saylı təlimatlarla, peşə vəzifələri ilə, məhdudiyyətlərlə və s. ilə üzləşməli olur. Onlar insana nəzarətedici (çox zaman olduqca sərt) təsir imkanlarına malikdir. Məsələn, biznesmenlərə lizensiya verən təşkilatlar, işçi-peşə birlikləri, həmkarlar təşkilatları nəzarət edirlər. Kolleqa və əməkdaşlar tərəfindən qeyri-formal nəzarətin müxtəlif üsullarını da buraya əlavə etməliyik. Peşə sistemi (peşə və vəzifə) əslində fərdin qeyri-istehsal həyatında nəyi edib- etməməsini də əhəmiyyətli dərəcədə həll edir.

4-cü dairə - sosial nəzarətin müstəqil sistemi olan ictimai mühitdir. Bu mühit uzaq və yaxın, tanış olmayan və tanış olan adamları əhatə edir. Ətraf mühit insana öz tələblərini verir: bunlar hadisələrin geniş dairəsini əhatə edən yazılmamış qanunlardır, qeyri-formal tələblərdir. Bu tələblər geyinmək və danışmaq manerasını, estetik zövqləri, siyasi və dini əqidələri, hətta özünü stol arxasında aparmaq manerasını da əhatə edə bilər.

5-ci, sonuncu dairə - ailə və şəxsi dostlar dairəsidir. Bu dairə fərdin xüsusi həyatının cərəyan etdiyi sahədir. Burada fərdə sosial, daha dəqiq desək, normativ təzyiq azalmır, əksinə, artır. Məhz bu dairədə fərd ən mühüm sosial əlaqələr qurur. Bu dairənin psixoloji yükü daha böyükdür. P. Berger qeyd edir ki, rəis sizi işdən çıxarıb, mövcudluq vasitələrindən məhrum edərsə, bu, xalis iqtisadi fəaliyyətdir. Lakin işdən çıxarılma evin qadınının, uşaqların hissiyyatına təsir göstərərsə, həmin iqtisadi fəaliyyətin psixoloji nəticələri sarsıdıcı ola bilər. Nəzarətin digər sistemlərindən fərqli olaraq, yaxınların, ailənin təzyiqi elə məqamda üzə çıxa bilər ki, fərd ona hazırlıqlı deyildir. İşdə, nəqliyyatda, ictimai yerlərdə insan bir qayda olaraq, daha ehtiyatlılıdır və təhlükəni qarşılaşmağa potensial surətdə hazırdır. Qeyd etdiyimiz sonuncu dairənin daxili hissəsini, özəyini qadınla kişi arasındakı intim münasibətlər təşkil edir. İnsan məhz intim münasibətlərdə özünün çox mühüm hisslərinə kömək axtarır. Bu əlaqələri qiymətləndirməmək özünü itirməklə risk etmək deməkdir.

Konsentrik dairələrin mərkəzində olan insan öz vəziyyətini nəzərə alaraq, kimə güzəştə getməyi, kimə tabe olmağı, kimi yola gətirməyi və s. götür-qoy edir və nəhayət, bu qənaətə gəlir ki, cəmiyyət özünün bütün əzəməti, qüdrəti ilə onu sıxır. Bu qənaət onun sonrakı fəaliyyətinin daha nizamlı, daha tarazlı olmasına kömək edir.

Sosial nəzarətin məzmununun və funksiyalarının nəzərdən keçirilməsi nəzəri-metodoloji baxımdan
əhəmiyyətli olan başqa bir problemi-sosial nəzarətin strukturunu araşdırmağı zəruri edir.

## 2. Sosial nəzarətin strukturu

Sosial nəzarət insanların davranışını sosial cəhətdən tənzimləməyin və ictimai qayda yaratmağın xüsusi mexanizmidir. Elmi ədəbiyyatı araşdırdıqda məlum olur ki, bu mexanizmin strukturu birmənalı izah edilmir. Bəziləri sosial nəzarəti dinamik model kimi nəzərdən keçirir və onun aşağıdakı ünsürlərini qeyd edirlər:

- fərd;
- sosial birlik (qrup, sinif, cəmiyyət);
- fərdi (nəzarət olunan) fəaliyyət;
- sosial (nəzarətedici) fəaliyyət.

Zənnimizcə, bu struktura müəyyən dərəcədə haqq qazandırmaq olar. Çünki sosial nəzarət əslində fərdin, sosial qrupun və onların rəngarəng fəaliyyətinin zəminində bütöv,

dinamik sistem kimi çıxış edə bilir. Lakin sosial nəzarətin belə başa düşülməsində müəyyən natamamlıq hiss olunur. Belə ki, əvvala, həm fərd, həm də sosial qrup sosial nəzarətin subyekti ola bilər. İkincisi, həm fərdi fəaliyyət, həm də sosial fəaliyyət nəzarət olunan və nəzarətedici xarakter kəsb edə bilər. Başqa sözlə, fərdi fəaliyyət heç də həmişə nəzarət olunan fəaliyyət, sosial fəaliyyət isə heç də həmişə nəzarətedici fəaliyyət deyildir. Konkret situasiyalarda vəziyyət dəyişə, başqalaşa bilər.

Görünür müəlliflər təklif olunan strukturun natamamlığını hiss edərək, iki məqamın nəzərə alınmasını vacib sayırlar:

Birincisi, fərdi fəaliyyətlə sosial fəaliyyətin qarşılıqlı münasibəti məsələsidir. Müəlliflərin fikrincə, fərdi fəaliyyətlə sosial fəaliyyətin qarşılıqlı münasibəti nəzarətolunan və nəzarətedici fəaliyyət kimi başa düşülsə də, qarşılıqlı təsir prosesinin xüsusiyyəti nəzərə alınmalıdır. Başqa sözlə, həmin münasibət müqabil əlaqəsi olmayan biristiqamətli nəzarət kimi başa düşülməməlidir. Sosial nəzarətedici fəaliyyət aktı fərdi nəzarətolunan davranışa reaksiya kimi sosial nəzarət sisteminə qoşularaq, öz növbəsində sosial stimul funksiyasını yerinə yetirir (bu pozitiv və ya neqativ ola bilər), fərdi fəaliyyətin sonrakı aktlarının xarakterini irəlicədən müəyyən edə bilər. Nəticədə fərdi fəaliyyət aktları sosial fəaliyyətə reaksiya kimi çıxış edir.

İkincisi, sosial nəzarət sistemi ünsürlərinin qarşılıqlı təsirinin sosial-psixoloji xarakterli bir sıra mühüm xarakteristikalardan asılı olmasıdır. Həmin xarakteristikalar sırasına ilk növbədə sosial persepsiya, qavrayış ustanovkası aid edilir. Eyni bir sosial reallığı fərd (fərdi persepsiya) və sosial qrup (qrup persepsiyası) məhz həmin prizmadan qavrayır. Situasiyanın qiymətləndirilməsi və qavramanın xarakteri əsasında fərdin və müvafiq sosial qrupun özünüqiymətləndirməsi formalaşır.

Elmi ədəbiyyatda sosial nəzarətin strukturunun 3 başlıca ünsürdən ibarət olması fikri geniş yayılmışdır:

1. hakimiyyət;

2. normalar;
3. sanksiyalar.

Zənnimizcə, bu nöqteyi-nəzər mahiyyəti daha dəqiq əks etdirir.

Əvvəlcə qeyd edək ki, sosial nəzarət və hakimiyyət bir-biri ilə sıx bağlı olan anlayışlardır. Bu anlayışlardan hansının daha geniş, hansının daha məhdud olmasını demək çətindir. Bəzi müəlliflər belə hesab edirlər ki hakimiyyət daha geniş anlayışdır; o, nəzarəti özünün bir funksiyası kimi ehtiva edir. Bu fikir o halda doğrudur ki, söhbət təşkilatdan gedir. Lakin söhbət cəmiyyətdən getdikdə vəziyyət dəyişir: sosial nəzarət anlayışı daha geniş məzmun kəsb edir, hakimiyyət isə nəzarəti həyata keçirmək vasitəsi kimi çıxış edir. Çünki hökumət, parlament, kütləvi informasiya vasitələri, sıravi vətəndaşlar və s. sosial nəzarətin həyata keçirilməsində özünəməxsus yer tuturlar. Hakimiyyət sayəsində normalar yaratmaq (məsələn, hüquqi qanunlar və ya davranış qaydaları), habelə onların yerinə yetirilməsi üzərində nəzarət qoymaq, səmərəli sanksiyalar sistemi tətbiq etmək mümkün olur. Hakimiyyət əslində əhatəedici anlayış kimi təzahür edir, sosial nəzarətin digər iki çox mühüm ünsürünü-normaları və sanksiyaları sıx birləşdirə bilir.

Diqqət yetirsək, aydın müşahidə etmək olar ki, əslində cəmiyyətin hər bir üzvü öz üzərinə müəyyən hakimiyyət funksiyaları götürür. Məsələn, yaşlı adam zibili küçəyə atan bir cavana irad tutursa, o, bir növ hakimiyyət funksiyası təzahür etdirir. Lakin polis, məhkəmə, parlament, hökumət, ordu daha böyük hakimiyyətə malikdir. Bu halda hakimiyyət funksiyaları başqasını düz yola dəvət edən yaşlı adamın hərəkəti ilə müqayisədə daha təsirli, daha realdır. Çünki onların nəinki əmrlər, göstərişlər verməк (sosial normalar yaratmaq) səlahiyyətləri vardır, həm də həmin əmrlərin, göstərişlərin (sosial normaların) icrası üzərində səmərəli nəzarət imkanları mövcuddur.

İstənilən cəmiyyətdə yuxarıların və aşağıların hakimiyyət uğrunda mübarizəsi gedir. Aşağılar həmişə çalışırlar ki, hakimiyyətə nəzarət etsinlər, onun hər addımını izləsinlər ki, mümkün sui-istifadələrin sayını maksimum azaltsınlar. Azlığın hakimiyyəti isə əksinə, çalışır ki, əhatəedici nəzarətdən yayınsın, daha çox maneələr yaratsın, bir növ keçilməz olsun. Bu mənada yuxarıların və aşağıların mənafeləri diametral əkslik təşkil edir. Elə cəmiyyətlər var ki, onlar müxtəlif istiqamətli mənafeləri barışdıra bilir və elə mexanizmlər və ya institutlar yaradıblar ki, onlar sosiumun münaqişələr, toqquşmalar, müharibələr nəticəsində dağılmasına imkan verməsinlər. Bəzi cəmiyyətlər isə buna nail ola bilmirlər.

Etiraf etməliyik ki, biz «hakimiyyət» sözündən çox istifadə edirik, lakin onun mənasına lazımınca diqqət yetirmirik. Bu anlayışın məzmunu ilə yaxından tanış olduqda görürük ki, o, heç də birmənalı izah edilmir. Hakimiyyətdən bəhs etdikdə çox zaman siyasəti düşünürük. Əslində isə hakimiyyət adi həyatımızda da hər birimizə aiddir. Əgər biz kiməsə tabe oluruqsa, bunu ona görə edirik ki, o, bizim üzərimizdə hakimiyyətə malikdir. Valideynləri, müəllimləri, polis işçilərini, məşqçiləri və s. xatırlayaq. Onlar müqabil tərəfi vacib, zəruri hesab etdiklərini yerinə yetirməyə məcbur edirlər. Təsadüfü deyildir ki, təsir, nüfuz və ya qüdrət haqqında mühakimələr yürüdürkən çox zaman həmin anlayışlarla məhz hakimiyyəti ifadə edirik.

Görkəmli sosioloq M. Veber hakimiyyəti öz iradəsini digər adamların arzularına, istəklərinə rəğmən qəbul etdirmək imkanı və ya qabiliyyəti kimi nəzərdən keçirirdi. Bu və ya digər hərəkəti o zaman hakimiyyətin təzahürü adlandırmaq olar ki, həmin hərəkət insanı nə isə etməyə məcbur edir, sövq edir, halbuki həmin insan öz iradəsi ilə başqa cür hərəkət

edərdi. P. Morris isə qeyd edir ki, hakimiyyət sadəcə olaraq kiməsə və ya nəyəsə təsir göstərmək qabiliyyəti deyildir, kiminsə və ya nəyinsə dəyişilməsinə yönəlmiş fəaliyyətdir, prosesdir.

Araşdırmalar göstərir ki, hakimiyyətin təbiətinə dair müxtəlif konsepsiyalar, mövqelər bir-birindən fərqli olsa da, onlardan birinin digərini inkar etməsi qənaətinə gəlmək olmaz. Çünki belə fərqlilik hakimiyyət fenomeninin ayrı-ayrı aspektlərini əks etdirir. Müasir politoloji və sosioloji ədəbiyyatda hakimiyyətin minimum üç aspekti ayırd edilir:

- Direktiv aspekt. Bu halda hakimiyyət əmrlərin, direktivlərin, sərəncamların yerinə yetirilməsini təmin edən fenomen kimi başa düşülür. Məlum cəmiyyətin yüksək hakimiyyət instansiyasından bəhs edərkən məhz bu mənanı əsas tuturlar. Hakimiyyətin direktiv aspekti adətən aparıcı hesab olunur.
- Funksional aspekt. Bu halda hakimiyyət ictimai idarəetmə funksiyasını reallaşdırmaq qabiliyyəti və bacarığı kimi başa düşülür.

Kommunikativ aspekt. Bu aspekt nəzərdə tutur ki, hakimiyyət hər iki tərəf (idarə edən və idarə olunan) üçün anlaşıqlı olan ünsiyyət və dil vasitəsilə reallaşır.

Yeri gəlmişkən qeyd edək ki, məhşur Amerika politoloqu və idarəetmə nəzəriyyəçisi, iqtisadiyyat üzrə Nobel mükafatı laureatı Q. Saymon qeyd edirdi ki, kommunikasiyasız nə hakimiyyət, nə də təsir mövcud olmazdı.
Q. Saymon kommunikasiyanı təkcə nitq qarşılıqlı təsiri kimi yox, bu sözün geniş mənasında başa düşürdü.

Sosial nəzarətin ikinci struktur ünsürü normalardır. Normalar elə tələblərdir ki, onlar cəmiyyətdə özünü düzgün aparmaq üçün nə etmək lazım olduğunu diktə edir. Bu tələblər fərdə və qrupa istiqamətlənməklə nəyi isə

etməyə icazə verir, nəyi isə etməyi qadağan edir. Normalar cəmiyyətdə idarəetmə sistemində yüksək qiymətləndirilir; onlar cəmiyyətin sıx birləşməsində əvəzsiz rol oynayır, ictimai xaosun baş verməsinə mane olur, sabitliyin güclənməsinə kömək edir. Elmi ədəbiyyatda belə bir fikir söylənilir ki, normalar hakimiyyətin birinci silahıdır. Həmin normaların icrası üzərində nəzarət isə onun ikinci silahıdır. Bu qənaətlə bütövlükdə razılaşmaq olar. Çünki məhz normalar dəyərlərimizin qoruyucusu, mühafizədir. Hətta davranışın ən sadə normaları da qrup və bütövlükdə cəmiyyət tərəfindən yüksək qiymətləndirilən cəhətləri özündə əks etdirir. İnsanın həyat fəaliyyətinin müxtəlif sahələrini nəzərdən keçirdikdə aydın olur ki, onların hər birinin ümumi və spesifik normalar sistemi mövcuddur.

Sosial normalar müvafiq davranış tələbləri, tapşırıqları və gözləmələridir. Sosial normaların meydana gəlməsi və fəaliyyəti, cəmiyyətin sosial-siyasi təşkilində yeri ictimai münasibətlərin nizama salınmasına olan obyektiv tələbatla müəyyən olunur.

Sosial normaların (bunları çox vaxt «Ümumi qaydalar» adlandırırlar) meydana gəlməsinin əsasında hər şeydən əvvəl maddi istehsalın tələbatları dayanır. İstehsal, bölgü və mübadilə aktlarının təkrar olunması, yəni sosial qarşılıqlı təsirlərin təkrar olunması elə ümumi qaydaların varlığını tələb edir ki, onlar müvafiq ictimai münasibətlərin iştirakçılarına müntəzəm surətdə həmin qarşılıqlı təsirlərə qoşulmaq imkanı versin. Bunun sayəsində sosial normalar özündə sosial qarşılıqlı təsirlərin mücərrəd modelini təcəssüm etdirir. Bu model fərdlərə imkan yaradır ki, onlar ictimai münasibətlərin digər iştirakçılarının fəaliyyətini irəlicədən görə bilsinlər, öz davranışını müvafiq qaydada nizama salsınlar. Bunun sayəsində sosial normalar fərd səviyyəsində onun davranışının ölçüsünə, cəmiyyət səviyyəsində isə həmin davranışın qiymətləndirmə miqyasına çevrilir.

Sosial normalar bir sıra spesifik əlamətlərə malikdir:

- onlar rasional baxımdan dərk olunmuş və məntiqi cəhətdən formula edilmiş qaydalar şəklində ifadə oluna bilər; bu halda vasitələrə məqsədlərə, yaxın məqsədlər uzaq məqsədlərə və s. tabe edilir;
- sosial normaların əksəriyyəti üçün xarakterik cəhət onların çox zaman ictimai şüurda göstərilən elementlərə (məqsədlər, vasitələr) ayrılmasıdır. Başqa sözlə, onlar bütöv nümunələr, stereotiplər (davranış standartları) kimi mövcud olur, məhz bu cür qavranılır, davranışda təkrar istehsal edilir;
- sosial normaların məzmunu fərdlərin və sosial qrupların real davranışından hasil edilir;
- həmin normaların fəaliyyi çox zaman kortəbii təzahür edərək, insanların şüurunda heç də həmişə dolğun

əksini tapa bilmir;

-sosial normalar insanların davranışını nizama salır, ictimai münasibətlərin ən rəngarəng növlərini tənzimləyir. Bunlar müəyyən normalar iearxiyası kimi təşəkkül tapır, sosial əhəmiyyət baxımından fərqlənir və spesifik xüsusiyyətlər kəsb edirlər;

- sosial normalar fəal qarşılıqlı təsirə malik olan fenomendir. Məsələn, siyasi normalar ideoloji sərvətlər sistemi ilə birbaşa bağlıdır, iqtisadi xarakterli normalara təsir göstərir; iqtisadi xarakterli normalar texniki normalara təsirsiz qalmır və s. Ailə münasibətləri və əxlaq sahəsinə aid olan normalar əslində sosial cəhətdən əhəmiyyətli davranış aktlarının bütün məcmusunu əhatə edir. Hüquqi normalar qeyd edilən normaların ən mühümlərini birləşdirir və əlaqələndirir.

İnsanların qarşılıqlı ictimai təsirləri prosesi sosial normaların işlənib hazırlanması üçün başlıca zəmindir. Təkrar olunan, sabit qarşılıqlı təsirlər müəyyən nizam, qayda yaradılmasını tələb edir, başqa sözlə, ictimai tələbatlarla şərtlənən sosial qarşılıqlı təsirlər müvafiq standartlar işləyib hazırlamağı zərurətə çevirir.

Aydın məsələdir ki, sosial qarşılıqlı təsirlər birbirindən təcrid olunmuş fərdlər arasında deyil, sosial qruplarda, təbəqələrdə birləşmiş insanlar arasında həyata keçirilir. Sabit sosial təşəkküllərin yaranmasının özü qarşılıqlı təsirlərin ayrı-ayrı kateqoriyalarının nizama salınması sayəsində, yəni insan birgəyaşayışını istənilən formaları üçün zəruri olan əsas tələbləri əks etdirən sosial normaların meydana gəlməsi sayəsində mümkün olur.

Sosial normaların institusional xarakteri onlara sosial mənada son dərəcə mühüm xüsusiyyət bəxş edir: onlar nisbi sabitliyə, daimilik xüsusiyyətinə malik olur; əgər onlar hüquqda təsbit edilmişdirsə, ən ümumi xarakter daşıyır. Lakin məhz bu xüsusiyyət onları mobillikdə, yeniləşən sosial-iqtisadi şəraiti nəzərə almaqla özbaşına dəyişilmək imkanından məhrum edir. Dəyişən sosial şəraitlə fərqlilik artdıqca institusional sosial normaların tənzimedici funksiyasının səmərəliliyi azalır. Başqa sözlə, reallıqdan ayrı düşmək müvafiq normaların sosial səmərəliliyini sarsıdır. Bu şəraitdə ictimai münasibətlər sahəsində spontan olaraq, özbaşına yeni, qeyri-institusional sosial normalar meydana gəlir. Onlar bir tərəfdən dəyişilmiş şəraiti adekvat əks etdirə bilər, digər tərəfdən isə institusional nəzarətdən kənarda qalaraq, ümumi məcburilik xarakteri kəsb etmədiyindən legitimləşməyərək, hüquq pozulmalarına və cinayətkarlığa yol açа bilər. Çox zaman müəyyən məhdud, lokal mənada adekvat olan həmin normalar bütövlükdə iqtisadiyyat miqyasında disfunksiyalara gətirib çıxara bilər. İqtisadiyyat isə institusional tənzimləməyə məhz ona görə möhtacdır ki, o, bütün cəmiyyət üçün qarşlıqlı surətdə əlaqəli vahid sistemdir. Normaların belə institutlaşması iqtisadi inkişafın yeni, dəyilmiş obyektiv şəraitinə, hər şeydən əvvəl isə cəmiyyətin məhsuldar qüvvələrinin yeni, qabaqcıl xarakteristikalarına adekvat olmalıdır.

Sosial nəzarətin strukturunun üçüncü ünsürü sanksiyalardır. Sanksiyalar insanların sosial normalara riayət etməsini stimullaşdıran mükafatlandırma və cəzalandırma vasitəsidir.

Etiraf etməliyik ki, sanksiya sözünü işlədəndə adətən daha çox onun neqativ aspektinə diqqət yönəlir. Halbuki yuxarıda qeyd etdiyimiz kimi, sanksiyalar təkcə cəzanı (neqativ aspekti) yox, həm də mükafatlandırmanı (pozitiv aspekti) nəzərdə tutur. Sanksiyalar sosial normaların qoruyucularıdır. Diqqət yetirsək, görərik ki, normalar həm dəyərlər, həm də sanksiyalar tərəfindən müdafiə olunur.

Sosial sanksiyalar bütöv, çoxşaxəli sistemdir. Bu sistem normaların yerinə yetirilməsi üçün, yəni konformizm üçün (onlarla razılaşma) mükafatları, normalardan kənara çıxmaya görə, yəni deviantlığa görə cəzaları nəzərdə tutur.

Konformizm (latınca conformis - oxşar, uyğun deməkdir) üçün uyğunlaşma, mövcud qaydaları, hökmran rəyləri passivcəsinə qəbul etmək, öz mövqeyinin olmaması, ən güclü təzyiq qüvvəsinə malik istənilən nümunəyə qeyritənqidi yanaşma xarakter cəhətdir. Bu halda şəxsiyyət qrupun real və ya təsəvvür olunan təzyiqinə itaətkarlıq göstərir. Lakin unutmaq olmaz ki, konformizm ümumən qəbul edilmiş qaydalarla zahiri razılıqdır. İnsan daxilən həmin qaydalarla Razılaşmaya bilər, bu barədə heç kəsə məlumat verməyə bilər. Konformizm sosial nəzarətin məqsədi ola bilər, lakin o, sosiallaşmanın məqsədi deyildir. Çünki sosiallaşma ümumən qəbul edilmiş normalarla daxili razılaşmanı, onların «qəbul olunmasını» nəzərdə tutur. Deviantlıq (latınca deviatio - kənara çıxma deməkdir) məlum cəmiyyətdə ümumən qəbul edilmiş normaları və qaydaları pozan davranışı ifadə edir. Göründüyü kimi, hər iki davranış tərzi normalarla bilavasitə bağlıdır.

Sosial sanksiyalar sosial nəzarət sistemində çox mühüm rol oynayır. Ozü-özlüyündə normalar heç nəyə nəzarət etmir. Normalara əsaslanmaqla adamların bir qismi digərinin davranışına nəzarət edir. Normalara əməl olunması, habelə sanksiyaların yerinə yetirilməsi bizim davranışımızı məqbul məcraya yönəldir. Bizim hər birimiz yaxşı bilirik ki, mühüm elmi kəşf üçün rəsmi mükafat, ağır cinayət əməli üçün həbs gözlənilir. Biz başqa bir adamdan müəyyən hərəkət gözləyəndə ona ümüd edirik ki, o, təkcə mövcud normanı yox, həm də onun yerinə yetirilməsi (yerinə yetirilməməsi) üçün müvafiq sanksiyanı da bilir.

Deməli, normalar və sanksiyalar vahid bir tam halında birləşmişdir. Hər hansı bir normanı müşayət edən sanksiya yoxdursa, onda norma şüara, dəvətə, çağırışa çevrilir, real davranışı nizamlaya bilmir. Bu halda norma sosial nəzarət ünsürü olmaqdan qalır.

Sosial sanksiyaların tətbiqində spesifik məqamlar mövcuddur. Elə hallar olur ki, sanksiyaların tətbiqi kənar şəxslərin iştirakını tələb edir. Elə hallar da olur ki, buna ehtiyac qalmır. Sanksiyaların tətbiqi baxımından spesifik şəraiti aydın başa düşmək üçün iki situasiyanı müqayisə etmək kifayətdir:

1-ci situasiya - işçi başqa bir müəssisədə daha münasib işə getmək istəyir. O, ərizə ilə müdiriyyətə müraciət edir, ilkin sərəncam və ya əmr hazırlanır. Həmin işçinin işdən çıxması müəssisənin (təşkilatın) kadrlar şöbəsi tərəfindən rəsmiləşdirilir.

2-ci situasiya - müəyyən cinayət əməli üçün həbs. Bu situasiya ilkin istintaqı, məhkəmə dinləmələrini, yuxarı instansiyalara verilmiş şikayətlərə baxılmasını və nəhayət, son qərar qəbul olunmasını nəzərdə tutur. Başqa sözlə, bu situasiya uzunmüddətli mürəkkəb proseduranı şərtləndirir.

Sanksiyalara və onların tətbiqinə aid olan bəzi məqamları xüsusi qeyd etməyə ehtiyac vardır.

Əvvəla, insanın özünün özünə sanksiyalar tətbiq etməsi heç zaman baş vermir. İnsan müəyyən hadisə və prosesi daxilən təhlil edərək müəyyən qənaətə gəlir: özünü ya təqsirli bilir, ya da təqsirsiz hesab edir. Həmin qənaət özünə münasibətdə sanksiya tətbiqi ilə nəticələnmir.

Sanksiyaların tətbiqi insanın özünə doğru istiqamətlənmişsə, daxili təhlil aparılırsa, belə nəzarət formalarını özünənəzarət adlandırmaq daha düzgün olardı.

İkincisi, qrup vərdişlərini pozanlara tətbiq edilən sanksiyalar az sayda adamların olmasını tələb edir. Bu işə çoxsaylı adamların cəlb olunması nəzarətin təsirliliyini zəiflədə bilər, lüzumsuz səs-küy doğura bilər.

Beləliklə, sanksiyaların fəal, qüdrətli təsir, nəzarət imkanları vardır. Həmin imkanlardan düzgün, vaxtında və səmərəli istifadə olunmalı, konkret vəziyyət diqqətlə, hərtərəfli araşdırılmalıdır.

## 3. Sosial nəzarət metodları

Cəmiyyətin, sosial qrupların, müxtəlif sosial təşkilatların sabitliyi belə sosial təşəkküllərin üzvlərinin optimal qarşılıqh təsirlərini təmin edən xüsusi mexanizmin - sosial nəzarət mexanizminin xarakterindən və səmərəliliyindən asılıdır. İnsanların bu cür təşəkküllərdə birləşməsi iki prinsipial məqamın təsiri altında baş verir.

Birincisi, obyektiv amildir. Bəşəri mövcüdluğun fundamental tələbatları sosial praktikanın müxtəlif növlərinin həyata keçirilməsi prosesində səylərin, hərəkətlərin birləşdirilməsini, əlaqələndirilməsini zəruri edir. Bu amilin reallaşması labüddür; onun dərk olunub-olunmaması labüdlüyü aradan qaldırmır.

İkincisi, subyektiv amildir. Bu, müxtəlif sosial praktika növlərinə, sosial təşkilat formalarına cəlb olunmuş, qoşulmuş insanlar sayəsində kəsb edilən mənadır, xarakterdir.

Qeyd edilən hər iki amilə müvafiq surətdə istənilən sosial təşkilata xas olan nəzarət mexanizmindən bəhs etmək mümkündür. Bu mexanizm fərdləri ictimai, ümumqrup məqsədlərinə tabe edir, cəmiyyət hüdudlarında onların birliyini qoruyub saxlayır; sosial dəyərlərdən və normalardan ibarət olan spesefik sistem tətbiq edir, onu müdafiə edir, həmin normaların qrup, cəmiyyət üzvləri tərəfindən mənimsənilməsini təmin edir, onlara riayət olunmasını mükafatlandırır, onların tələblərindən kənara çıxma hallarının qarşısını alır. Sosial nəzarət mexanizminin mənası və əsas funksiyası da bundadır. Sosial təşəkküllərin, strukturların obyektiv-subyektiv xarakteri məhz burada təzahür edir. Sosial nəzarət obyektiv cəhət kimi çıxış edir: o, istənilən sosial təşəkkülün labüd surətdə meydana çıxan elementidir. Sosial nəzarət həm də şüurlu surətdə formalaşdırılmış, tətbiq olunmuş, qərarlaşmış formadır. Söhbət birinci halda qeyri-formal, ikinci halda isə formal sosial nəzarət haqqında gedir.

Formal sosial nəzarət dövlət tərəfindən qanunvericilik qaydasında icazə verilən fəaliyyətlərin stimullaşdırılması, qadağan olunan fəaliyyətlərin müəyyənləşdirilməsi və onların müqabilində sanksiyalar tətbiqi yolu ilə həyata keçirilir. Formal nəzarət həm də elə sosial strukturlarda həyata keçirilir ki, qəbul olunmuş normalara əməl edilməsi normativ aktlarla (nizamnamə, təlimatlar, əsasnamə və s.) və müvafiq sanksiyalarla təmin edilir. Formal sosial nəzarət, onun yaradılması və həyata keçirilməsi sosial qarşılıqlı təsirlərin rasional təşkili prosesinin nəticəsidir. Formal sosial nəzarətin agentləri dövlət hakimiyyəti orqanlarına səlahiyyəti olanlardır, bütün hakimiyyət strukturlarıdır. Onların fəaliyyəti müvafiq qaydalarla müəyyən edilmişdir. Sanksiyalar cinayət məsuliyyəti, inzibati tədbirlər və intizam tənbehləri formasında olur.

Formal sosial nəzarətin səmərəliliyi məlum dövlət hakimiyyətinin və səlahiyyətli müvafiq strukturların legitimlik dərəcəsinə birbaşa mütənasibdir. Bu səmərəliliyin tabe, ikinci dərəcəli şərtləri sırasına müvafiq sanksiyaların sərtliyi, cəzanın ağırlığı və onun real tətbiqinin dönməzliyi dərəcəsi aid edilə bilər.

Qeyri-formal sosial nəzarət isə qarşılıqlı təsirlərin özünütəşkilinin nəticəsidir. Onun funksiyası da sosial qarşılıqlı təsirlərin normativ nizamlanmasıdır. Lakin unudulmamalıdır ki, belə nəzarət üçün seçilən normaların məzmunu formalaşdırılmamışdır; həmin normalar sosial qruplarda, birliklərdə kortəbii surətdə meydana gəlir, onların üzvlərinin davranışında məhz belə sosial təşəkküllər üçün xarakterik olan sanksiyaların tətbiqi təhlükəsi altında təkrar istehsal olunur. Qeyri-formal sosial nəzarətin agentləri həmin qruplar və birliklərdir, onların ən nüfuzlu üzvləridir (məsələn, ailədə valideynlər, sosial qrupların qeyri-formal liderləri və «diqqətdə olan» digər şəxsləri). Sanksiyalar məhdud (və ya real tətbiq) formasında özünü göstərir: fiziki zorakılıq, rəddetmə, üzvlükdən məhrumetmə, habelə hədə, məsxərəyə qoyma, müdafiədən imtina etmə və s.

Qeyri-formal sosial nəzarətin səmərəliliyi müvafiq sosial qrupların və təşəkküllərin birlik dərəcəsinə, onların üzvlərinin sosial vəhdət və həmrəylik səviyyəsinə birbaşa mütənasibdir. Sosial (qrup) normalarının pozulmasına görə sanksiyaların ağırlığı və qaçılmazlığı sosial təşəkküllərin dağılması, birliyin pozulması, sosial həmrəyliyin itirilməsi ilə əlaqədar olaraq, öz nəzarətedici effektindən məhrum olur. Qeyri-formal nəzarətin səmərəliliyinin çox mühüm, həlledici komponenti məhz sosial həmrəylik fenomenidir.

Qeyri-formal sosial nəzarətdən bəhs edərkən çox zaman klassik nümunə kimi ənənəvi kənd icmasına qeyd edirlər. Həqiqətən kənd icması öz üzvlərinin həyatının, demək

olar ki, bütün aspektlərinə nəzarət edirdi. Məsələn, münaqişə və mübahisələrin həlli, gəlin seçilməsi, uşağa ad qoyulması və s. Yazılı normalar mövcud olmamış, ictimai rəy qüdrətli nəzarətedici imkanlar kəsb etmişdir (bu rəyi çox zaman icmanın ağsaqqal üzvləri ifadə etmişlər). Sosial nəzarət sisteminə din üzvi surətdə qoşulmuşdur. Ayin və mərasimlərə ciddi riayət olunması sosial normalara rəğbət hissi tərbiyə etmiş, həmin normaların zəruriliyinin daha dərindən dərk olunmasına kömək etmişdir. Nişanlanma, yeni ailə qurulması, yetkinliyə çatma, uşağın doğulması, məhsul yığımı və s. xüsusi təntənə ilə qeyd olunmuşdur. Göründüyü kimi, formal nəzarət metodlarından fərqli olaraq, qeyri-formal metodlar praktik surətdə hamıya müyəssər olmuşdur[1].

Qeyri-formal nəzarəti həm də ailə, qohumlar, dostlar və tanışlar yerinə yetirə bilərlər. Onları qeyri-formal nəzarətin agentləri adlandırırlar.

Formal nəzarət tarixən qeyri-formal nəzarətdən sonra meydana gəlmişdir. Bu, mürəkkəb cəmiyyətlərin və dövlətlərin doğulması (məsələn, qədim Şərq imperiyalar) dövrünə təsadüf edir, hərçənd onun rüşeymləri, ilk təzahürləri daha əvvəlki dövrlərə aiddir. Mövcud qaydaları pozanlara rəsmən tətbiq olunan formal sanksiyaların dairəsi (məsələn, ölüm cəzası, qəbilədən qovulma, vəzifədən kənar edilmə, habelə mükafatların bütün mümkün növləri) dəqiq müəyyənləşdirilmişdir.

Bu bir həqiqətdir ki, müasir cəmiyyətlərdə formal nəzarətin əhəmiyyəti getdikcə artır. Bu onunla əlaqədardır ki, mürəkkəb cəmiyyətdə, xüsusən çoxmilyonlu ölkədə nizamı, sabitliyi qoruyub saxlamaq o qədər də asan vəzifə deyildir. Burada ayrı-ayrı qrupların, təbəqələrin mənafeləri toqquşur, ictimai praktika durmadan zənginləşir. Qeyri-formal nəzarət insanların o qədər də böyük olmayan qrupu ilə məhdudlaşmışdır. Ona görə də belə nəzarəti lokal (məhəlli, yerli) nəzarət adlandırırlar. Formal nəzarət isə əksinə, ölkənin bütün ərazisində fəaliyyət göstərir, qlobal məna kəsb edir. Belə nəzarəti xüsusi strukturlar və adamlar - formal nəzarət agentləri həyata keçirirlər. Onlar

xüsusi təlim görmüş nəzarət funksiyalarının yerinə yetirilməsi üçün əmək haqqı alan şəxslərdir. Onlar sosial statusların və rolların daşıyıcılarıdır (məsələn, məhkəmə, polis, həkim-psixiatr, sosial işçi, dini idarənin, məscidin xüsusi vəzifəli şəxsləri və s.)

Əgər ənənəvi cəmiyyətlərdə sosial nəzarət yazılmamış qaydalara əsaslanırdısa, müasir cəmiyyətlərdə artıq yazılmış normalara (qanunlar, fərmanlar, qərarlar, təlimatlar və s.) istinad edir. Sosial nəzarət təsisatlaşmış xarakter kəsb edir.

Nəzarət metodları tətbiq edilən sanksiyalardan asılı olaraq, aşağıdakı kimi təzahür edə bilər:

- sərt;
- yumşaq;
- birbaşa (bilavasitə);
- vasitəli.

Nəzarətin qeyd olunan metodları kəsişə bilər. Məsələn, siyasi repressiya, reket, mütəşəkkil cinayətkarlıq birbaşa sərt nəzarət instrumentlərinə aiddir. Konstitusiyanın və mülki məcələlərin fəaliyyəti birbaşa yumşaq nəzarət instrumentlərinə, kütləvi informasiya vasitələri vasitəli yumşaq nəzarət instrumentlərinə, beynəlxalq birliyin iqtisadi sanksiyaları vasitəli sərt nəzarət isntrumentlərinə aiddir.

Nəzarət metodları həm də ümumi və detal ola bilər. Məsələn, menecer öz tabeçiliyində olan şəxsə tapşırıq verirsə, lakin tapşırığın yerinə yetirilməsi gedişinə nəzarət etmirsə, deməli, o, ümumi nəzarət metodundan istifadə edir. Əgər menecer fəaliyyətin hər bir məqamına müdaxilə edir, nəyisə düzəldir, sahmana salırsa, deməli, o, detal nəzarət metodundan istifadə edir. Sonuncunu həm də nəzarətçi adlandırırlar. Nəzarət cəmiyyətin həm mikro, həm də makro səviyyəsində həyata keçirilir. Başqa sözlə, nəzarət irimiqyaslı sosial sistem hüdudlarınadək yayılır.

Ümumi nəzarət zamanı ancaq son nəticə izlənilir. Fikrimizi sadə bir nümunə ilə izah edək. Müəllim şagirdlərə Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini açıqlayan inşa yazmağı tapşırır. Həftənin sonunda inşa yazıların yoxlanılacağını bildirir. Həftənin sonunda o, yerinə yetirilmiş işlərin keyfiyyətini yoxlayır və müvafiq qiymətlər yazır. Bu halda müəllimi hansı ədəbiyyatdan istifadə olunması, köməyə kimlərin cəlb edilməsi və s. kimi məsələlər maraqlandırmır. O, şagirdlərə tam fəaliyyət sərbəstliyi verir.

Lakin detal nəzarət zamanı vəziyyət dəyişir, başqalaşır. Müəllim vəzifələri, tapşırığın həcmini və yerinə yetirilməsi müddətlərini müəyyənləşdirir. Bundan əlavə, o, inşanın planını verir, müvafiq ədəbiyyatı göstərir və tələb edir ki, iş müstəqil surətdə yerinə yetirilsin, heç kimin köməyindən istifadə olunmasın. Müəllim əlavə olaraq bildirir ki, yazılmış hissələr günaşırı təqdim olunsun ki, o, vaxtında səhvləri düzəltsin və zərurət yaransa, şagirdi istiqamətləndirsin. Deməli, müəllim işin yerinə yetirilməsinin bütün gedişinə nəzarət edir. Göründüyü kimi, detal nəzarət zamanı fəaliyyət

sərbəstliyi çox məhduddur.

Məlum olduğu kimi, nəzarət idarəetmənin tərkib hissəsidir. Lakin idarəetmənin elə mühüm, əhəmiyyətli hissəsidir ki, nəzarətin növündən, metodlarından asılı olaraq, idarəetmənin özü də xeyli dərəcədə dəyişir. Belə ki, nəzarət metodları idarəetmə üslubunda (demokratik, avtoritar) dərin iz buraxır. Nəzarət prosesində ilkin planlar son nəticələrlə müqayisə olunur, kənaraçıxmalar olduqda, səbəbləri araşdırılır və müvafiq tədbirlər (məsələn, cərimə olunmaq, tənbeh edilmək, işdən çıxarılmaq və s.) görülür. Nəzarət məhz onunla qüdrətlidir ki, o, ciddi qüsurlar aşkara çıxarıldıqda cəza tədbiri ilə sona çatır. Cəza olmasa, nəzarətdən qorxmağa ehtiyac qalarmı? Əlbəttə, yox. Lakin cəza ədalətli olmalı, işin mahiyyətini, real vəziyyətini, xarakterini, sosial nəticələrini dəqiq əks etdirilməlidir. Ümumiyyətlə, istənilən kollektivin sərəncamında əmək vəzifələrinin vicdanla yerinə yetirilməsi, mənəvi-psixoloji iqlimin yaxşılaşdırılması üçün kompleks hüquqi və ictimai təsiredici vasitələr vardır. Həmin vasitələrdən vaxtında, səmərəli və optimal istifadə olunması olduqca ciddi məsələdir.

Kollektiv üzvlərinə hüquqi, əxlaqi, ictimai vasitələrlə təsir göstərilməsi sabit və dinamik fəaliyyət stereotiplərinin işlənib hazırlanmasına, istehsal tapşırıqlarının keyfiyyətli, dürüst yerinə yetirilməsinə kömək edir. Bununla da işçilərdə birgə işləmək mədəniyyətinin, tam qüvvə ilə çalışmaq vərdişinin, əməyə münasibətdə sosial cəhətdən optimal nümunənin formalaşması prosesi sürətlənir.

## Mühazirə 9. Sosial-ərazi birlikləri

1. İlkin sosial-ərazi birlikləri anlayışı
2. Şəhərin sosiologiyası
3. Kəndin sosiologiyası
4. Region spesifik sosial-ərazi sistemi kimi

### 1. İlkin sosial-ərazi birlikləri anlayışı

İlkin sosial-ərazi birlikləri (məskunlaşma üzrə birliklər) şəhər, kənd, qəsəbə və ya digər daimi yaşayış məskənlərinin əhalisindən ibarət olan spesifik sosial qrupdur[1].

Məskunlaşma üzrə birliklərin formalaşmasının obyektiv əsası vardır. Bu halda iki məqama xüsusi diqqət yetirilməlidir:

a) Əmək bölgüsü, işçilərin bu və ya digər əmək növü üzrə bölüşdürülməsi. Əmək növləri həmişə ərazi baxımından lokallaşmışdır ki, bu

da daimi yaşayış məskənini formalaşdırır. Bu, öz növbəsində məskənin əhalinin həyat fəaliyyətinin bilavasitə mühitinə çevrilməsini şərtləndirir. Həmin mühit hüdudlarında əhali öz gündəlik tələbatlarını ödəyir. İstənilən yaşayış məskənini sadəcə müşahidə etməklə dediklərimizə əmin olmaq mümkündür.

b) Müxtəlif məskənlərdə (məsələn, şəhər-kənd; kiçik şəhər, iri şəhər; monosənaye mərkəzi-çoxfunksiyalı şəhər məskəni və s.) həyat fəaliyyəti şərtlərinin sosial-iqtisadi, sosial-mədəni baxımdan qeyri-yekcinsliyi.

Məhz bu amillər əsasında konkret məskənin əhalisində qrupyaradıcı sosial əlamətlər formalaşır, ümumi mənafelər təşəkkül tapır. Bu mənafelərin mövcudluğu sosial-ərazi fərqləri faktını bir növ qeydə alır. Bunun sayəsində konkret məskənin əhalisi demoqrafik xarakterli ümumiliklə yanaşı həm də sosial birliyə çevrilir. Məskunlaşma üzrə birliklərdə formalaşan sosial əlaqələrin tipi mövcud ictimai münasibətlərin xarakterini əks etdirir. Lakin ictimai münasibətlərin ifadəlilik səviyyəsi məlum yaşayış məskənindəki həyat fəaliyyəti şərtlərinin xüsusiyyətlərindən asılıdır.

Məskunlaşma üzrə birliklər sosial münasibətlərin ərazi baxımından təzahüründə onların subyektləridir. Onların formalaşmasında məskənlərdəki həyat fəaliyyəti şərtlərinə xas olan fərqlər dərin iz buraxır. İlkin sosial- ərazi birliklərinə xas olan iqtisadi, sosial-mədəni proseslər sosiologiya tarixində diqqəti cəlb edən mühüm məsələlərdən biri olmuşdur. Bunu ondan görmək olar ki, şəhərin sosiologiyası, kəndin sosiologiyası kimi sosioloji bilik sahələri təşəkkül tapıb inkişaf etmişdir.

İnsanların yerləşməsi ilə sosial inkişaf arasında əlaqənin mövcudluğu faktını sosiologiya XIX əsrin sonu - XX əsrin əvvəllərində kifayət qədər aydın ifadə etmişdir. F. Tönnis, K. Byuxer, R. Makkenzi ərazi birliyini başlıca olaraq bu və ya digər ərazidə insanların birgə yaşaması prizmasından nəzərdən keçirmişlər. Bu halda cəmiyyətdən fərqli olaraq birliyin «lokallığı», digər sosial qrupların formalaşması amillərindən fərqli olaraq, onun «ərazi mənsubiyyəti» ön plana çəkilmişdir.

Sosial-ərazi birlikləri sosiologiyanın mühüm kateqoriyalarından biridir. Bu kateqoriya əhalinin sosial diferensiasiyasının müəyyən kəsimidir; elə kəsimi ki, o, cəmiyyətin tarixən şərtlənmiş ərazi-məskunlaşma baxımından təşkili əsasında təşəkkül tapmışdır.

Sosial-ərazi birliyi tarixi kateqoriyadır. Onun meydana gəlməsi şəxsi qan qohumluğuna əsaslanan ibtidai icma quruluşundan sinifli cəmiyyətə keçidlə bağlı olmuşdur. Həmin cəmiyyətin başlıca əlamətlərindən biri də bu olmuşdur ki, o, ictimai məqsədlər üçün əhalini qohum qruplar üzrə yox, eyni bir ərazidə yaşamağa görə ayırmışdır. Məhz bu vaxtdan etibarən insanın yaşayış yeri, eləcə də bütövlükdə əhalinin yerləşməsi sosial determinasiya həlqəsi, eyni zamanda sosial inkişaf amili və mühiti olur.

Sosial-ərazi birliyinin ilkin şərti fərdin yaşayış məskəninə spesifik

şəkildə bağlılığıdır; bu, öz zahiri ifadəsini daimi yaşayış yeri hadisəsində tapır. Yaşayış yerinin daimi xarakteri o deməkdir ki, insanların məskunlaşması istehsala «bağlanmışdır», onların yerləşməsi bütövlükdə həmin istehsalın yerləşməsinin ardınca gedir.

Yuxarıda qeyd etdik ki, sosial-ərazi birliklərinin formalaşması ilk növbədə əmək bölgüsü, onun növləri ilə şərtlənmişdir. Bu baxımdan tamamilə təbiidir ki, adamların bu və ya digər əmək növlərinə görə bölüşdürülməsi məskənlər səviyyəsində də mövcuddur. Bunu aşağıdakı məqamlar xüsusilə aydın nümayiş etdirir:

1) işçinin istehsal vasitələri ilə birləşməsi müəyyən ərazi «bağlılığını» nəzərdə tutur;

2) texnikanın və texnologiyanın inkişafı fərdin istehsal prosesinə qoşulmasının xarakterini dəyişdirsə də, bu proses həmişə ərazi baxımından müəyyənlik kəsb edir;

3) işçinin müəyyən əmək növünə bağlanmasının özü onun həm məkan baxımından, həm də sosial münasibət baxımından yerini dəyişməsi imkanlarını məhdudlaşdırır.

Deməli, məskunlaşma məsələsinə bəsit yanaşmaq olmaz. Əslində o, insanın həyat fəaliyyətinin bilavasitə mühiti kimi nəzərdən keçirilməlidir. Bu, sosioloji baxımdan o deməkdir ki, birliklərin və şəxsiyyətin sosial

inkişafını determinasiya edən sosial-iqtisadi şərtlər öz funksiyasını təkcə bütövlükdə cəmiyyət səviyyəsində deyil, həm də müəyyən məskən səviyyəsində yerinə yetirir, çünki insan (və bütövlükdə əhali) məhz orada əməyin subyekti, istehsalın subyekti və i.a. kimi çıxış edir. İnsanların həyat fəaliyyəti şərtləri işçinin istehsal vasitələri ilə birləşməsi formasından başlayaraq, məskəndə konkret xarakter daşıyır. Başqa sözlə, bu şərtlər onların sosial inkişafının faktiki əsası funksiyasını yerinə yetirir.

Lakin insanların məskənlərə təkcə bağlanması və məskənlərin onların həyat fəaliyyətinin bilavasitə mühitinə çevrilməsi sosial-ərazi birliyinin əmələ gəlməsi üçün hələ kifayət deyildir. Bu cür birlik yalnız elə bir əsasda təşəkkül tapa bilər ki, müəyyən yerdə insanların həyat fəaliyyəti şərtləri digər yerdəki şərtlərdən fərqli olsun və bu əsasda ümumi mənafelər formalaşsın. Məskənlərdə həyat şəraitində mövcud olan fərqlər bu və ya digər ərazinin, regionun iqtisadi və sosial inkişafındakı bərabərsizliyin təzahürüdür. Bu bərabərsizlik məhsuldar qüvvələrin inkişaf səviyyəsindəki fərqlərlə, ərazilərin təsərrüfat baxımından mənimsənilməsindəki fərqlərlə şərtlənir. Məhz bu əsasda məskənlərdə həyat şəraitindəki fərqlər təkcə iqtisadi sahədə yox, həm də sosial həyat sferasında mövcud olur. Öz ictimai mənasına görə həmin fərqlər sosial-ərazi fərqləri kimi özünü göstərir. Şəhərlə kənd arasındakı fərqlər belə fərqlərin xüsusi halıdır. Sosial-ərazi fərqləri isə həm şəhər məskənləri, həm də kənd məskənləri arasında təzahür edir.

Sosial-ərazi birliyi təkcə şəhərin, aqlomerasiyanın, kəndin əhalisi deyildir. Məskənlər daha mürəkkəb ərazi- inzibati təşəkküllərinə (rayon, vilayət, respublika) qoşulmuşlar. Belə təşəkküllər də iqtisadi və sosial inkişafın spesifikası baxımından fərqlənirlər. Bu halda sosial-ərazi birliyi iyerarxiyasında məskənlər xüsusi rol oynayır: istənilən inzibati vahid müstəvisində sosial-ərazi fərqlərinin əsasında həmişə yaşayış məskənlərində həyat şəraitinin vəziyyəti dayanır. Həmin yerlərdə həyat şəraiti sosial inkişafın bilavasitə əsası olur. Buna görə də ayrıca məskənin əhalisi ilkin sosial-ərazi birliyi kimi çıxış edir. İlkin sosial-ərazi birliklərinin məcmusu isə obyektiv surətdə sosial- ərazi strukturunun aşağı, ilkin səviyyəsini təşkil edir.

***Sosial-ərazi strukturu nədir?***

Sosial-ərazi strukturu insanların sabit birliklərinin və bu birliklər arasındakı münasibətlərin məcmusudur; belə birliklər müxtəlif ərazi-inzibati təşəkküllərində həyat fəaliyyəti şəraitində mövcud olan sosial qeyri-yekcinslik əsasında formalaşırlar. Sosial-ərazi strukturu cəmiyyətin sosial strukturunun təzahürlərindən biridir. Bu struktur insanların müxtəlif məskənlərə və ərazi-inzibati təşəkküllərinə mənsubiyyətinin sosial nəticələrini qeydə alır, cəmiyyətin ərazi baxımından təşkilinin mühüm tərəfi kimi çıxış edir.

Sosial-ərazi strukturunun obyektiv əsası son nəticədə məhsuldar qüvvələrin inkişaf səviyyəsidir; bu, müəyyən tarixi hüdudda bir məskən formasının digərindən (şəhər və kənd), bir regionun digərindən (mərkəz və əyalət) üstün inkişafının labüdlüyünü şərtləndirir. İstehsalın yerləşdirilməsində və əhalinin məskunlaşmasında iqtisadi meyarların hökmranlığı tarixi inkişafın qeyri-bərabərliyini doğurur. Bu və ya digər ölkə hüdudlarında regionların və ərazilərin iqtisadi inkişafının qeyri-bərabərliyi bunun təzahürlərindən biridir. Bu əsasda regional kəsimdə həyat fəaliyyəti şəraitinin sosial baxımdan müxtəlif cür qiymətləndirilməsi təşəkkül tapır, sosial-ərazi fərqləri formalaşır. İnsanların iqtisadi və sosial cəhətdən müxtəlif cür inkişaf etmiş ərazilərə mənsubiyyəti, ən əvvəl onların məskənlərə özünəməxsus bağlılığı (daimi yaşayış yeri) sosial-ərazi

birliklərinin formalaşması ilə nəticələnir; bu birliklər spesifik sosial təşəkküllərdir.

Cəmiyyətin sosial-ərazi strukturu öz ünsürlərinin - sosial-ərazi birliklərinin sosial inkişaf səviyyəsində irəliləyişin müxtəlif dərəcədə olması ilə səciyyələnir. Həmin birliklərə mənsubiyyət isə sosial diferensiasiya amillərindən biri kimi çıxış edir.

Cəmiyyətin sosial-ərazi strukturunun optimallaşdırılmasının əsas istiqamətləri aşağıdakılardır:

- aqrar-sənaye inteqrasiyasının hər vasitə ilə inkişaf etdirilməsi;
- şəhərdə və kənddə bütün mülkiyyət formalarının inkişaf etdirilməsi;
- kəndin sosial baxımdan yenidən qurulması;
- müxtəlif tipli şəhərlərin böyüdülməsinə, inkişafına dair diferensiallaşdırılmış və hərtərəfli ölçülüb-biçilmiş siyasət yeridilməsi; bu halda iri şəhərlərin «yükünün» tədricən azaldılması, onların profilinin dəyişdirilməsi, kiçik və orta şəhərlərin inkişafının stimullaşdırılması;
- məskunlaşmada inteqrasiya proseslərinin hər vasitə ilə stimullaşdırılması;
- bütün səviyyələrdə məskunlaşma sistemlərinin məqsədyönlü formalaşdırılması;
- ölkənin inzibati-ərazi quruluşuna dair islahatların həyata keçirilməsi;
- inzibati-ərazi vahidlərinin sosial-iqtisadi və mədəni inkişafının respublika ilə tarazlı olmasının əməli surətdə reallaşdırılması və s.

Beləliklə, sosial-ərazi birliklərinin strukturunun və fəaliyyətinin optimallaşdırılması ciddi məsələ olaraq qalır. Bu birliklərin inkişafının ən ümumi istiqaməti sosial baxımdan ədalətli cəmiyyət quruculuğunun əsas komponentlərinin formalaşması olmalıdır. Deməli, sosial-ərazi birliklərinin inkişafı çox mürəkkəb prosesdir. Bu

prosesin idarə olunması sosial-ərazi birliklərinin hər bir növünün inkişaf mexanizmlərini, onların qarşılıqlı fəaliyyətinin qanunauyğunluqlarını dərindən bilməyi tələb edir[1].

Yeri gəlmişkən qeyd edək ki, ilkin sosial-ərazi birliklərinin fəaliyyəti həmin birliklərdə toplanan əhalinin sosial təkraristehsalının səviyyəsini təmin edir. Sosial təkraristehsal sosial münasibətlər, birliklər, təsisatlar, sosial norma və dəyərlər sisteminin təkamülü prosesidir. Bu proses ictimai inkişafın konkret mərhələsinə xas olan sosial sistemin dəyişilməsi meyllərini təcəssüm etdirir. Ona görə də sosial təkraristehsalı sosial-ərazi sisteminin mühüm funksiyası kimi səciyyələndirmək olar. Belə təkraristehsal əhalinin ictimai həyatda normal iştirakı üçün zəruri olan müəyyən sosial keyfiyyətlərin məcmu halında təkraristehsalını nəzərdə tutur. Başqa sözlə, sosial təkraristehsalda kəmiyyət aspekti (bu, fərdlərin fiziki təkraristehsalını nəzərdə tutur) ilə yanaşı keyfiyyət aspekti (bu, zəruri sosial keyfiyyətlərin qazanılmasını nəzərdə tutur) də hökmən müəyyən yer tutur. Həyata qədəm qoyan yeni nəsillər mütərəqqi sosial keyfiyyətlərin daha yüksək səviyyəsinə yüksəlməyə səy göstərirlər. Lakin bu proses müəyyən çətinliklərlə, ziddiyyətlərlə müşayiət olunur.

## 2. Şəhərin sosiologiyası

Əhalinin yerləşməsi öz təbiətinə görə məlum ətalətə malikdir. Belə ki, onun strukturunun dəyişilməsi adətən çox zəif gedir, tarixi inkişaf meyllərinin, regional, milli adət və ənənələrin təsirinə məruz qalır.

Sosiologiyada əhalinin yerləşməsinin şəhər, kənd və region kimi formalarını fərqləndirirlər. Bunları sosial- ərazi birliklərinin başlıca ünsürləri kimi ayırd etmək və nəzərdən keçirmək olar. Bunlar «mürəkkəb ərazi təşəkkülləri olub, təbii və maddi-əşyavi kompleksləri, habelə bir-biri ilə qarşılıqlı surətdə bağlı olan bu komplekslər əsasında istehsal, bölgü, mübadilə və istehlak prosesində təkrar istehsal edən, yəni fəaliyyət göstərən və inkişaf edən insanların məcmusunu birləşdirirlər»[2].

Şəhər insanların yerləşməsinin ərazi baxımından təmərküzləşmiş formasıdır. Şəhər əhalisi əsasən qeyri-kənd təsərrüfatı əməyi ilə məşğul olur. Şəhər üçün əhalinin əmək və istehsaldan kənar fəaliyyətinin rəngarəngliyi, sosial və peşə baxımından qeyri-yekcinslik, spesifik həyat tərzi xarakterikdir. Müasir şəhər ən əvvəl sənaye, nəqliyyat, xidmət sahəsində istehsal funksiyalarının təmərküzləşdiyi yerdir. Şəhərin müxtəlif tipləri mövcuddur; onların inkişafı üçün adətən müxtəlif funksiyaların (istehsal, ticarət, inzibati, hərbi, elmi, dini və s.) baza təşkil etməsi, yaxud əlaqələndirilməsi xarakterik cəhətdir.

Müasir şəhərin spesifik funksional strukturu və əhali məşğulluğu vardır. Onun bu xüsusiyyətlərini aşağıdakı cəhətlər tamamlayır:

Birincisi, nisbətən kiçik ərazidə xeyli əhali kütləsinin təmərküzləşməsi ilə, deməli, yüksək əhali sıxlığı ilə bağlı məskunlaşma xüsusiyyətləri;

İkincisi, şəhərin siması ilə, spesifik şəhər mühiti ilə şərtlənən arxitektura-planlaşdırma xüsusiyyətləri; tikililərin nisbi kompleksliliyini xarakter xüsusiyyət hesab etmək olar.

Üçüncüsü, əhalinin sosial strukturu və şəhər həyat tərzi ilə sosial cəhətdən şərtlənmiş xüsusiyyətlər; Dördüncüsü, hüquqi xüsusiyyətlər; şəhərlər bir qayda olaraq, yaxın ərazilərin siyasi-inzibati mərkəzləridir[3].

Respublikamızın şəhər şəbəkəsi nisbətən mürəkkəb xarakterə malikdir. Onun

inkişafına xas olan aşağıdakı
əsas cəhətləri qeyd etmək olar:

1. Şəhərlərin böyüməsi. Bu böyümə müxtəlif istiqamətlidir. Şəhərlərin böyüməsinə bazar münasibətlərinin qərarlaşması və inkişafı da müəyyən təsir göstərmişdir.
2. İri çoxfunksional şəhərlərin, xüsusən Bakının tərkibinin genişlənməsi və şəbəkəsinin inkişafı.
3. Xüsusən iri şəhərlər zonasında şəhər aqlomerasiyalarının yaranması.
4. Şəhər məskən tipinin əhalinin əksəriyyəti üçün xarakterik olması. Statistika göstərir ki, 1970-ci ilə qədər respublikada şəhər əhalisi kənd əhalisi ilə müqayisədə azlıq təşkil etmişdir. 1970-ci ildə əhalinin şəhər və kənd üzrə bölgüsündə tarazlıq yaranmışdır. Həmin ildən etibarən şəhər əhalisinin sayca artması kiçik istisnalar nəzərə alınmazsa, sabit meylə çevrilmişdir. Aşağıdakı cədvəl ayrı-ayrı illərdə şəhər və kənd əhalisinin nisbəti barəsində aydın təsəvvür yaradır[4].

Müasir şəhərin özünəməxsus problemləri vardır. İri şəhərlərin qeyri-mükəmməlliyi, istehsalın yerləşdirilməsində və genişləndirilməsində yol verilən nöqsanlar, miqrasiya və demoqrafiq proseslərin kortəbiiliyi, şəhərsalma xarakterli qüsurlar ekologiyadakı pozuntular, monosənaye şəhərlərində əhalinin cins-yaş strukturundakı müəyyən disproporsıyalar, xidmət sahəsının ən ciddi müasir tələblərə cavab verməməsı, bir sıra

hallarda cəmiyyətəzidd halların geniş yayılması aılə-nikah münasibətlərindəki nizamsızlıqlar və s. bu qəbildəndir Bunlar xeyli dərəcədə səhərin spesifikası ilə bağlıdır.

| İllər | Bütün əhali (min nəfər) | O cümlədən şəhərdə | | Bütün əhaliyə nisbətən (faizlə) | |
|---|---|---|---|---|---|
| | | şəhərdə | kənddə | şəhərdə | kənddə |
| 1959 | 3.698 | 1.769 | 1.931 | 48 | 52 |
| 1970 | 5.117 | 2.564 | 2.553 | 50 | 50 |
| 1979 | 6.028 | 3.200 | 2.828 | 53 | 47 |
| 1989 | 7.021 | 3.806 | 3.215 | 54 | 46 |
| 1990 | 7.131.9 | 3.847,3 | 3.284,6 | 53,9 | 48,1 |
| 1995 | 7.643,5 | 4.005,6 | 3.637,9 | 52,4 | 47,6 |
| 1999 | 7.953,4 | 4.053,5 | 3.899,9 | 51,0 | 49,0 |
| 2000 | 8.016,2 | 4.086,4 | 3.929,8 | 51,0 | 49,0 |
| 2001 | 8.081,0 | 4.107,5 | 3.973,5 | 50,8 | 49,2 |
| 2002 | 8.141,4 | 4.130,1 | 4.011,3 | 50,7 | 49,3 |
| 2003 | 8.202,5 | 4.154,3 | 4.048,2 | 50,7 | 49,3 |
| 2004 | 8.265,7 | 4.254,3 | 4011,4 | 51,5 | 48,5 |
| 2005 | 8.347,3 | 4.298,3 | 4.298,3 | 51,5 | 48,5 |
| 2006 | 8.436,4 | 4.366,8 | 4.079,8 | 51,6 | 48,4 |
| 2007 | 8.532,7 | 4.397,6 | 4.136,1 | 51,5 | 48,5 |

Azərbaycanın statistik göstəriciləri. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2007.

Qeyd olunan problemlərin həlli şəhərin inkişafının meyllərini, qanunauyğunluqlarını obyektiv surətdə nəzərə almağı, mərkəzi dövlət idarəçiliyi ilə yerli təşəbbüskarlığı, fəaliyyəti düzgün əlaqələndirməyi, elmi sosial siyasət işləyib hazırlamağı və həyata keçirməyi tələb edir. Şəhərin tələbatları bütün cəmiyyətin tələbatları ilə optimal şəkildə əlaqələndirilməlidir.

Şəhərin təkmilləşdirilməsi elə bir istiqamətdə getməlidir ki, əhali üçün daha sağlam və münasib şərait yaradılsın. İri şəhərlərin böyüməsini məhdudlaşdırmaq imkanları axtarılmalı, yeni sənaye komplekslərinin bunlarda yerləşdirilməsinə yol verilməməlidir. Sənaye mərkəzlərində həm qadın, həm də kişi əməyindən səmərəli istifadəyə optimal şərait yaradılmalı, şəhər təsərrüfatı və müasir xidmət sahələri inkişaf etdirilməlidir. Kiçik şəhərlərdə və qəsəbələrdə onların inkişafını sürətləndirmək imkanları axtarılmalıdır (məsələn, ixtisaslaşdırılmış müəssisələrini, filialların yaradılması). Şəhərlərin arxitekturasına, estetik tərtibatına, abadlığına diqqət artırılmalıdır.

Şəhərin təkmilləşdirilməsinə bu yaşayış məskəninə dair sosioloji tədqiqatlar da müəyyən kömək göstərə bilər. Belə ki, bu tədqiqatlar şəhərin sosial strukturunun dinamikasını, həyat tərzinin xarakter cəhətlərini öyrənmək, sosial planlaşdırma məsələlərini həll etmək və s. baxımdan əhəmiyyətlidir.

Etiraf etməliyik ki, bu vaxta qədər şəhərlərin inkişafı əsasən sənayeləşmə prosesi ilə şərtlənmişdir. Bu, sənaye mərkəzlərində əhalinin təmərküzləşməsinə, adamların həyat tərzinin əhəmiyyətli dərəcədə dəyişilməsinə gətirib çıxarmışdır. Hazırda elmi-texniki tərəqqinin nailiyyətlərini, sənayeləşmənin gələcək meyllərini və mövcud ekoloji vəziyyəti nəzərə almaqla məskunlaşma sistemini inkişaf etdirməyə səy göstərilir. Bu, cəmiyyətin

keyfiyyətcə yeni ərazi təşkilinə imkan yaradır.

Son vaxtlara qədər şəhərlərin inkişafi əsasən ekstensiv xarakter daşımışdır; şəhərlərin sayı, ölçüləri, əhalisi artmışdır. Lakin şəhər həyat tərzinin reallaşdırılmasının məkan formaları nisbətən zəif inkişaf etmişdir. İndi vəzifə yeni şəhərlər salmaqdan daha çox artıq mövcud olan şəhərlərin məkan və sosial-təşkilati xarakteristikalarını yaxşılaşdırmaqdan ibarətdir. Şəhərlərdə yeni çevik strukturlar yaradılmalı, layihələndirmənin və planlaşdırmanın kompleks xarakteri təmin olunmalı, cəmiyyətin sosial inkişaf məqsədləri region, şəhər səviyyəsində konkretləşdirilməlidir.

Elmi cəhətdən əsaslandırılmış planlaşdırma üçün şəhərlərin inkişafının ənənəvi meyllərindən daha çox elmi- texniki tərəqqinin, insan amilinin imkanlarına istinad etmək, məskunlaşma sisteminin formalaşması üçün gələcək ehtiyatları nəzərə almaq lazımdır. Ehtiyatların (maddi, insan, informasiya, təşkilati) dürüst proqnozunun hazırlanmasına ehtiyac vardır.

Şəhər həyat tərzinin inkişafı da çox mühüm məsələdir. Bu halda iki cür problem qarşıya çıxır. Birincisi, istehsalda və onun hüdudlarından kənarda yeni sosial münasibətlər nümunələrinin yaradılması mexanizmlərinin öyrənilməsi və formalaşması ilə, sosial-mədəni istehlak formalarının, normalarının inkişafı ilə, mədəniyyətin və

sosial münasibətlərin müxtəlif normalarının varisliyi mexanizmlərinin təmin edilməsi ilə əlaqədardır. İkincisi, həmin proseslərin inkişafını sürətləndirmək üçün mövcud ehtiyatların yenidən bölüşdürülməsi və əlavə ehtiyatlar axtarılmasıdır.

Sənayenin əsasən ekstensiv inkişafı, daha geniş miqyasda eyni iş yerləri olan strukturun (özü də səmərəli olmayan strukturun) təkrar istehsalı kənardan iş qüvvəsinin şəhərə axınını stimullaşdırır ki, bu da şəhərin hədsiz böyüməsinə gətirib çıxarır. Bu problem kiçik və orta şəhərlərdə, xüsusən sənayenin bir sahəsini əsas götürən şəhərlərdə daha kəskin şəkildə qarşıya çıxır. Ümumiyyətlə, gənc şəhərin monofunksiyalılığı bir sıra çətinliklər (məsələn, peşə seçiminin, əməyi dəyişdirmək imkanının az olması, gənclərin miqrasiyasının güclənməsi və s.) doğurur.

İndiki şəhər məskənlərinin xarakterik xüsusiyyətlərindən biri məskunlarının bir qisminin başqa rayonlardan, kəndlərdən gəlməsidir. Başqa sözlə desək, şəhərlər bir sıra hallarda şəhər həyat tərzinə bələd olmayan, əvvəllər sənaye-də işləməyən kənd sakinləri hesabına formalaşır ki, bu da həmin şəhərlərin inkişafına təsirsiz qalmır. Əhalinin işə düzəlməsi ilə bağlı problemlərin kəskinliyi şəhər mühitində, bütövlükdə cəmiyyətdə sosial gərginliyi xeyli dərəcədə gücləndirir.

Keçən əsrin 80-ci illərinin sonundan etibarən özünü göstərən bir meyli də qeyd etməliyik. Belə ki, SSRİ-nin iflası, sonra isə məlum transformasiya prosesləri ilə əlaqədar olaraq, hasiledici və emaledici sənayedə çalışanların xüsusi çəkisi tədricən azalmış, xidmət, idarəetmə, ticarət sahələrin-də çalışanların sayı artmışdır.

Hazırda şəhərin sosial strukturu dinamikasını nəzərə almaqla onun inkişaf edən istehsal və mədəniyyət sahələrinin optimal seçilməsi problemi meydana çıxır. Bu problemə müxtəlif qəbildən olan digər problemlər qrupu da qovuşur. Bunlar əsasən aşağıdakılardan ibarətdir:

a) müxtəlif şəhərlərdə əmək ehtiyatlarının dürüst öyrənilməsi və onlardan səmərəli istifadə olunması;

b) idarəetmənin optimallaşdırılması və demokratikləşdirilməsi, həm mərkəzi, həm də yerli orqanların hüquq və məsuliyyətinin artırılması;

c) xüsusi demoqrafik problemlər;

ç) xidmət sistemində və mənzillə təminatda mütənasibliyin olmaması;

d) ekoloji problemlər (təbii mühitin mühafizəsi və süni mühitin nəzarət olunan inkişafı).

Mütəxəssislərin fikrincə, məskunlaşmanın inkişafının ümumi meyli belə ifadə oluna bilər: istehsalın sonrakı təmərküzləşməsi və onun xarakterinin dəyişilməsi bir tərəfdən iri şəhərlərə yaxın zonalarda əhalinin cəmləşməsinə səbəb olacaqdır, digər tərəfdən isə əhalinin miqdarını həmin şəhərlərin hüdudlarında məhdudlaşdırmağa imkan verəcəkdir (onların ərazilərində geniş şəhər təşəkküllərinin-aqlomerasiyaların meydana gəlməsi hesabına). Aqlomerasiyalar müxtəlif məhdud funksional məskənlərin diferensial şəbəkəsini əhatə edəcəkdir. Bu halda urbanizasiya şəhər hüdudlarından kənara çıxır və aqlomerasiyanın bütün ərazisinə, o cümlədən də kəndə yayılır.

Müasir Azərbaycan şəhəri bütövlükdə özünün mürəkkəb bir dövrünü yaşayır. Bu mürəkkəblik bir sıra səbəblərlə bağlıdır. Həmin səbəblər aşağıdakılardır:

a) Azərbaycanın işğal olunmuş rayonlarından başqa ərazilərə, o cümlədən şəhərlərə məcburi qaçqınların və köçkünlərin gəlməsi bu məskənlərdə ənənəvi nizamı, tərtibi xeyli dərəcədə pozmuş, müəyyən bir gərginlik yaratmışdır. Təkcə Bakı şəhərində kortəbii surətdə qərarlaşmış «kiçik bazarları», qanunsuz tikilmiş obyektləri və s. xatırlamaq

kifayətdir. Bu sahədə müəyyən bir nizam, qaydaqanun yaratmaq üçün xeyli iş görülmüşdür və görülməkdədir.

b) Müasir Azərbaycan şəhəri kəndə əvvəlki köməyi göstərə bilmir, şəhərin kəndə hamilik fəaliyyəti xeyli zəifləmişdir. Şəhərlərarası əlaqələr də qənaətləndirici deyildir. Şəhərlərin keçmiş SSRİ məkanındakı əlaqələri pozulduğundan yeni əlaqələr yaratmaq imkanları axtarılır. Bu sahədə artıq müəyyən uğurlar qazanılmışdır.

c) 80-ci illərin sonu - 90-cı illərin əvvəllərində şəhər həyatının öz simasını itirməsi təhlükəsi yaranmış, müxtəlif cinayətkar ünsürlərin fəallaşması aşkar surətdə ciddi narahatlıq yaratmış, şəhərlərin abadlaşdırılması unudulmuş, şəhərsalma siyasətində ciddi əyintilərə yol verilmişdir. Bundan əlavə, şəhərlərdə həyata keçirilən islahatlar bir sıra hallarda hərtərəfii götür-qoy edilməmiş, elmi cəhətdən kifayət qədər əsaslaşdırılmamış, müvafiq proqramların işlənib hazırlanması və reallaşdırılması, əhalinin imkansız və azimkanlı təbəqələrinin sosial müdafiəsi tədbirlərinin həyata keçirilməsi sistemli xarakterdə olmamışdır. Lakin bu o demək deyildir ki, şəhərlərimizdə uğurlu addımlar atılmamışdır. Faktlar təsdiq edir ki, son illərdə sosial problemlərin həllinə kömək edə biləcək iqtisadi bünövrə yaratmaq istiqamətində ciddi nailiyyətlər qazanılmışdır. Bunu ondan görmək olar ki, bir sıra çətinliklərə baxmayaraq, ölkənin sənaye həyatında müəyyən canlanma baş verməkdədir. İqtisadi və sosial inkişafı xarakterizə edən əsas makroiqtisadi göstəricilər əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Respublikamız öz inkişaf sürətinə görə dünyada öncül mövqelərə çıxmışdır. Qazanılan nailiyyətlərə şəhərlərimiz öz töhfəsini getdikcə artırır.

## 3. Kəndin sosiologiyası

Kənd tarixən təşəkkül tapan, daxilən diferensial olan nisbi müstəqil sosial-ərazi sistemidir. O, maddi-əşyavi mühitin, təbii-coğrafi şəraitin, insanların spesifik sosial-məkan təşkilinin vəhdəti ilə səciyyələnir.

Kənd şəhərdən sosial-iqtisadi inkişafına, insanların rifahının səviyyəsinə, məişətinin təşkilinə görə məlum geriliyi ilə fərqlənir. Bu, müvafiq surətdə əhalinin sosial strukturunda və həyat tərzində müəyyən iz buraxır. Kənd üçün şəhərlə müqayisədə əmək fəaliyyəti növlərinin azsaylılığı, nisbətən yüksək sosial və peşə yekcinsliyi səciyyəvidir. Nisbi sabit xüsusiyyətlərə malik olan kənd özünün əsas komponentləri baxımından şəhərə uyğundur. O, şəhərlə birlikdə tarixən cəmiyyətin sosial və ərazi (məkan) strukturunun bütövlüyünü formalaşdırır.

Sosiologiya kənddəki proseslərə ciddi əhəmiyyət verir; bu elmi maraq zəminində onun xüsusi sahəsi - kəndin sosiologiyası təşəkkül tapmışdır. Bu sahə kənd sosial-ərazi birliyinin meydana gəlməsi, fəaliyyəti və inkişafı qanunauyğunluqlarını, onun sosial-iqtisadi təbiətini, təkraristehsal strukturunu, təbiətlə və maddi-əşyavi mühitlə əlaqəsini, həyat tərzini, tipologiyasını öyrənir. Kəndin sosiologiyasında əhalinin sosial təkraristehsalı prosesinin tədqiqi, onun şərait, məqsəd və nəticələrinə uyğun olan tədbirlər görülməsi mərkəzi problemlərdəndir. Təkcə fərdlər, kənd əhalisi təkrar istehsal olunmur, həm də onların qarşılıqlı əlaqələri, münasibətləri və digər komponentləri təkrar istehsal olunur.

Kənd əhalisinin xarakter xüsusiyyəti onun kifayət qədər yüksək stabilliyidir: adamların mütləq əksəriyyəti kənddə fasiləsiz yaşayır (belə ki, doğulduğu gündən kənddə yaşayanlar təxminən 70 faizə yaxındır).

Kənd əhalisinin sosial-sinfi strukturu mürəkkəb olub, müəyyən dinamizmə malikdir; burada sosial birliklərin fasiləsiz dəyişilməsi prosesi müşahidə olunur. Kənddə əhalinin yeni sosial kateqoriyaları (məsələn, fermerlər) formalaşmaqdadır. Araşdırmalar göstərir ki, perspektivdə onların rolu daha da artacaqdır. Lakin qeyd olunmalıdır ki, kənddə əməyin yeni, mütərəqqi formalarının tətbiqi xeyli dərəcədə ləngiyir. Ona görə də «yeni yanaşma lazımdır; onun əsasında insanın cəmiyyətdəki vəziyyəti dayanmalıdır». Yalnız belə olduqda insanın, onun qabiliyyətlərinin, sosial fəallığının inkişafı təmin edilə bilər.

Əmək qabiliyyətli kənd sakinlərinin öz əməyinə münasibəti, ondan razı qalıb-qalmaması bu yaşayış məskəninin inkişafı baxımından çox əhəmiyyətli məsələdir. Məlum olduğu kimi, əməkdən razı qalmaq görülən işin şəxsi maraqlara, meyllərə uyğunluğundan, əmək haqqından və şəraitindən, ifadəetmənin səviyyəsindən və s. asılıdır. Aparılmış sosioloji tədqiqatlar göstərir ki, bu sahədə ciddi problemlər mövcuddur. Daha ixtisaslı və təhsilli işçilər daha ciddi tələblər irəli sürürlər, peşə yüksəlişində daha fəaldırlar. Azixtisaslı və ixtisassız adamların əksər hissəsi də öz işlərindən razı deyildir, eyni zamanda peşə baxımından inkişafla əlaqədar problemlərə münasibətdə passivdir. İşçilərin xeyli hissəsinin qeyri-yaradıcı, icraçı əməyə istiqamətlənməsi əhəmiyyətli dərəcədə kəndin mövcud imkanları ilə şərtlənir. Qeyd etmək lazımdır ki, son illərdə kəndin müasir texnika ilə təmin olunmasına diqqət xeyli güclənmişdir. Bu, kənd təsərrüfatı əməyində yaradıcı ünsürlərin artmasına kömək edəcəkdir.

Ümumiyyətlə, kənddə işçilərin sosial irəliləyişi vacib məsələlərdən biridir. Sosiologiyada sosial irəliləyiş dedikdə sosial statusun yüksəlməsi başa düşülür. Bu yüksəlmə ictimai təkraristehsalın (inkişafın) tələbatları ilə şərtlənir, insanların şəxsi

mənafeləri ilə vasitələnir. Sosial irəliləyişdə cəmiyyət (kollektiv) tərəfindən işçinin qabiliyyətlərinin, fəallığının, təşəbbüskarlığının, işgüzar keyfiyyətlərinin və s. etirafı ifadə olunur. Sosial irəliləyiş prosesi özündə bunları birləşdirir: a) ixtisas, dərəcə, bilik cəhətdən məlum peşə hüdudlarında yüksəlmək;
b) daha yaradıcı işə keçmək; c) vəzifədə yüksəlmək, irəli çəkilmək; ç) fəxri adlar, mükafatlar almaq və s. Sosial irəliləyişdə motiv böyük rol oynayır: eqoist məqsədlər, yoxsa ictimai cəhətdən əhəmiyyətli məqsədlər izlənilir? Sosial irəliləyiş təkcə konkret işçinin şəxsi uğuru deyildir; o, elə bir şəraitdir ki, işə təşəbbüskar, yaradıcı münasibət istehsalın inkişafına, kollektivin geniş sosial təkraristehsalına kömək edir.

Kəndin həyat tərzi özünəməxsus cəhətlərə malikdir. Əhali sıxlığının çox da böyük olmaması, təbii mühitlə üzvi bağlılıq, kəndlinin əldə etdiyi torpaq payında əməyin tətbiqi, ictimai xidmətin zəif inkişaf etməsi və s. özünəməxsusluğun mənbələridir. Buraya istehsal əməyinin zəif diferensiasiyası, onun texniki və enerji təchizinin nisbətən aşağı olması, iş yerlərinin və onları seçmək imkanlarının məhdudluğu, əməyin təbiətin ritminə və tsikllərinə tabeliyi, əmək məşğuliyyətinin qeyri-bərabərliyi, iş şəraitinin nisbətən ağırlığı və s. əlavə olunmalıdır. Nəzərə alınmalıdır ki, kənddə istirahət növləri çox da rəngarəng deyildir, əmək mobilliyi zəifdir, əmək və məişət daha sıx qovuşmuşdur; şəxsiyyətlərarası münasibətlər də spesifikdir, sosial və milli cəhətdən homogen ailələr üstünlük təşkil edir, ünsiyyət anonimliyi, demək olar ki, yoxdur, ictimaiyyətin insanların davranışı üzərində güclü sosial nəzarəti var, milli adətlər, ənənələr, yerli nüfuz sahibləri etiraf olunur. Həyat ritmi şəhərlə müqayisədə az gərgindir, adamlar ünsiyyətin daha sadə formalarından istifadə edir, psixoloji yükü daha az hiss edirlər. Adamların bir qismi kənd və qəsəbələrdə yaşamaqla şəhərlərdə işləyir.

Keçən əsrin 80-ci illərinin sonundan başlayan məlum proseslər, xüsusən Azərbaycanın bir sıra rayonlarının Ermənistan tərəfindən işğalı, nəticədə normal fəaliyyət ritminin pozulması kəndlərimizin inkişafına son dərəcə

ciddi ağrılı məqamlar gətirmişdir. Erməni işğalçılarının törətdiyi vəhşiliklər, işğal olunmuş ərazilərə sözün həqiqi mənasında qatı düşmən münasibəti respublikamızın müstəqillik yolu ilə irəliləməsi prosesində xeyli problemlər doğurmuşdur. Buna baxmayaraq Azərbaycan regionda öz liderlik mövqeyini daha da möhkəmləndirir, kəndlərin inkişafmı stimullaşdırmaq və sürətləndirmək istiqamətində uğurlu addımlar atır. Əslində müasir şəraitdə həm şəhərlə kəndin yeni sosial münasibətləri qərarlaşır, həm də kənddaxili sosial əlaqələr yenidən qurulur.

Əhalinin sosial təkraristehsalında miqrasiya müəyyən iz buraxır. Sənayenin inkişafı, daha geniş sferada əmək tətbiq etmək imkanı, həyat səviyyəsi və s. miqrasiya axınlarının əsas istiqamətlərini formalaşdırmışdır. Keçmiş SSRİ məkanında keçən əsrin 20-ci illərinin ortalarından başlayaraq şəhər əhalisi kənd əhalisinin hesabına əhəmiyyətli dərəcədə artmışdır. 1926-90-cı illərdə şəhərə gələnlər və onların nəsilləri ölkədə şəhər əhalisinin $^2/_3$ hissəsindən çoxunu təşkil etmişdir. Nəticədə kəndlərin bir çoxunda cins-yaş strukturu qeyri-tarazlı olmuşdur (qadınlar və yaşlı əhali hesabına). 70-80-ci illərdə müəyyən sabitləşmə meylləri olmuş, əhalinin kəndə miqrasiya axını bir qədər artmışdır. Lakin şəhərə miqrasiya üstün meyl olaraq qalır. Bir çox sosioloqlar bunu mütərəqqi meyl hesab etsələr də, ciddi təsərrüfat və sosial itkilərə diqqəti cəlb edirlər. Ona görə də səmərəsiz miqrasiya sosial- iqtisadi və mədəni-məişət tədbirləri ilə nizamlanmalıdır.

Kənd məskənlərinin tipləşdirilməsi problemi prinsipcə çoxdan qoyulmuşdur. Urbanizasiya prosesini əks etdirən tipologiyalar geniş yayılmışdır. Bu tipologiyaların çıxış momenti müxtəlif tipli məskən strukturunun sosial- iqtisadi məzmunundakı fərqlərdir. Məsələn, kənd əhalisinin sosial tərkibinin və həyat tərzinin spesifikasını öyrənmək vəzifələrinə uyğun olaraq, əhalinin fəaliyyət göstərdiyi müasir təsərrüfatların tiplərinə görə tipləşdirmə aparmaq olar. Bu halda müasir kəndin əsas sosial-struktur tipləri kimi həmin təsərrüfat tipləri, sənaye-inzibati tipləri ayırd edilir. Onlar kənd məskənlərinin qarışıq sosial-struktur tipləri ilə tamamlanır. Son vaxtlarda fermer təsərrüfatları ilə yanaşı digər təsərrüfat strukturları da meydana çıxır. Belə model sosial-strukturda və həyat tərzində baş verən dəyişikliklərin müqayisəli təhlili üçün əhəmiyyətlidir.

Kənd əhalisinin sosial inkişaf meyllərini və şəhərə miqrasiyası səbəblərini kompleks qaydada öyrənərkən kəndin ümumi tipoloji modelini yaratmaq üçün başqa əsaslardan istifadə edilir. Bu halda kənd təsərrüfatında və qeyri-kənd təsərrüfatı sahələrində, habelə xidmət sferasında çalışanların xüsusi çəkisinin nisbəti, məskənlərdə adamların miqdarı, mədəni-məişət müəssisələri ilə təminat, nəqliyyat şəbəkəsinin inkişafı, kütləvi kommunikasiya vasitələrinin mövcudluğu, əhali yerləşməsinin xarakteri, əhalinin rifah səviyyəsi və digər əlamətlər nəzərə alınır. Beləliklə, xalis kənd (aqrar); əsasən kənd; aqrar-sənaye və sənaye-aqrar tipli məskənləri ayırd etmək olar.

Araşdırmalar göstərir ki, müxtəlif kənd məskənlərində yaşayan adamların peşə-ixtisas səviyyəsində, təhsilində, sərvət və mobillik yönümlərində, habelə digər əlamətlərində fərqlər aydın surətdə nəzərə çarpır.

Kənd əhalisinin və onun miqrasiyasının, sosial inkişafının bu və ya digər aspektlərinin təhlilini təmin edən daha xüsusi tipoloji modellər məskənlərin ölçülərinə (adamların miqdarına) görə, əhalinin sahə məşğuliyyətinin üstünlüyünə görə, əhalinin yerləşməsi sistemində əlaqələrin tipinə görə və s. ayrılmasını nəzərdə tutur. Belə tipoloji modellər yalnız sosioloji tədqiqatın bu və ya digər vəzifələrinə tətbiq edildikdə müəyyən

məna kəsb edir; hər bir konkret halda seçmə tədqiqatın məqsədlərindən asılıdır. Həmin modellərin ən ümumiləşmiş variantı müasir kəndin çoxölçülü təsnifatıdır.

Azərbaycan kəndlərinin bir qisminin işğal zonasında olması, kəndlərin şəhərlərdən qənaətbəxş səviyyədə kömək ala bilməməsi, islahatların həyata keçirilməsində müəyyən qüsurlara, pozuntulara yol verilməsi və s. - bütün bunlar ümumi inkişafımıza təsir göstərir. Lakin bu o demək deyildir ki, kəndlərdə uğurlu addımlar atılmamışdır. Son illərdə, faktların təsdiq etdiyi kimi, sosial problemlərin həllinə kömək edə biləcək iqtisadi bünövrə yaratmaq istiqamətində müəyyən nailiyyətlər qazanılmışdır. Bazar münasibətlərinin və strukturlarının qərarlaşması ilə əlaqədar bir sıra çətinliklərə baxmayaraq, kəndlərin simasında, onların şəhərlərlə münasibətlərində irəliləyişlər aydın şəkildə müşahidə olunur. «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramı»nın reallaşdırılması istiqamətində əməli səylər gücləmişdir. Aqrar islahatların həyata keçirilməsi nəticəsində torpağın və əmlakın xüsusi mülkiyyətə verilməsi, yanacaq satışı və vergi üzrə edilən güzəştlər və s. bu kimi tədbirlər istehsalçıların maddi marağının artmasına səbəb olmuş və ayrı-ayrı məhsul növlərinin istehsalında irəliləyişlər əldə edilmişdir. Daxili bazarın tələblərini nəzərə alan istehsalçılar bir sıra əsas kənd təsərrüfatı məhsullarının istehsalını xeyli artırmışlar.

## 4. Region spesiflk sosial-ərazi sistemi kimi

Region xüsusi tədqiqata ehtiyacı olan sosial-ərazi sistemidir. Regionun sosioloji anlamı bunu əsas tutur ki, region onun hüdudlarında yaşayan əhalinin təşkilinin sosialməkan ümumiliyinə malik olmalıdır. Region təbii şəraitinin özünə-məxsusluğu, istehsalın təşəkkül tapmış ixtisaslaşması, məhsuldar qüvvələrin, istehsal infrastrukturunun inkişafının müəyyən səviyyəsi ilə fərqlənir, habelə spesifik sosial struktur və infrastrukturla, əhalinin spesifik həyat tərzi ilə səciyyələnir. Təbii şərtlərin ərazi diferensiasiyası əməyin ictimai (ərazi) bölgüsünün

təbii əsasını təşkil edir; bu bölgü əhalinin spesifik sosial həyat şəraitində və sosial simasında tarixən təsbit olunur və davam edir.

Regionun müxtəlif tipləri vardır. Belə ki, mikroregionlardan, kiçik regionlardan başlamış təbii-təsərrüfat əlamətlərinə görə bir sıra ərazi-iqtisadi rayonları və onların hissələrini birləşdirən zonalara qədər müxtəlif səviyyəli tipləri ayırd etmək olar.

İstənilən tipə aid olan regionun sosial siması bütövlükdə cəmiyyətin sosial simasının ən ümumi cəhətlərinin spesifik təzahürüdür; o, eyni zamanda özünün konkret xüsusiyyətlərinin məcmusu ilə daha zəngindir. Bu halda nəzərə almaq lazımdır ki, regionun sosial siması aşağıdakıları əks etdirir:

- cəmiyyətin sosial münasibətlərinin maddi-iqtisadi bazasının ərazi təşkilini;
- onun ərazisində yaşayan əhalinin demoqrafik, entik, təsərrüfat və s. xüsusiyyətlərini.

Ölkəmizin müxtəlif regioniarının tarazlı inkişafını təmin etmək ən ciddi problemlərdən biri olaraq qalır. Bunun üçün regionların təsərrüfat-iqtisadi, mədəni-məişət, milli-etnik və s. xüsusiyyətləri, əhalinin həyat fəaliyyətinin müxtəlif formaları hərtərəfli araşdırılmalıdır:

Region əhalinin yerləşməsinin iki əsas formasının - şəhərin və kəndin sosiologiyasının inteqrasiyaedici obyektidir. Sosial-ərazi birliyi forması kimi regionun sosioloji baxımdan öyrənilməsi şəhərin və kəndin yaxınlaşmasının sosial qanunauyğunluqlarını, bu prosesdə urbanizasiya və miqrasiyanın rolunu, yeni məskunlaşma aqlomerasiyası formalarının insanın əmək və məişət fəaliyyətinin şərait və məzmununa, həyat tərzinə təsiri xüsusiyyətlərini öyrənməyi nəzərdə tutur.

Cəmiyyətin regional strukturu bir çox cəhətdən ictimai əmək bölgüsündə konkret regionun tutduğu yerlə, oynadığı rolla şərtlənir. Bununla əlaqədar olaraq, onların aşağıdakı tiplərini ayırd etmək olar: sənaye, sənaye-aqrar, aqrar-sənaye, aqrar regionları. Ölkədə əksər regionlar ikinci və üçüncü tipə aiddir.

Regionların sosioloji təhlili, dinamikasının proqnozlaşdırılması «açıq», yaxud əksinə «qapalı» sosial-ərazi sistemi kimi regionun spesifikasını nəzərə almadan mümkün deyildir, yəni müəyyənləşdirilməlidir ki, həmin sistemin sosial inkişafı daxili və ya xarici ehtiyatların təbii təkrar istehsalı (sadə, yaxud geniş) hesabına hansı dərəcədə baş verir. Ölkədəki regionların əksəriyyəti «açıq» sosial-ərazi sistemidir. Bu baxımdan əhalinin miqrasiyasının sosial problemlərinə xüsusi diqqət yetirilməlidir.

Miqrasiya ölkələr, rayonlar, müxtəlif tipli yaşayış məntəqələri arasında adamların yerdəyişmələrinin məcmusudur. O, yerdəyişmələrin müxtəlif növlərini əhatə edir: dönməz, yaxud stasionar, mövsümi, mayatnik xarakterli, epizodik yerdəyişmələr. Sosial, iqtisadi və demoqrafik baxımdan dönməz miqrasiya ən mühüm məna kəsb edir, çünki bu son nəticədə ərazi cəhətdən yenidən bölüşdürülmək deməkdir. Dönməz miqrasiya əhalinin daimi tərkibinin formalaşmasında, onun bu və ya digər rayonda sakin olmasında çıxış momentidir. Miqrant adaptasiya mərhələsində olan yeni sakindir. Miqrasiya prosesinin strukturu mobilliyin formalaşması, yerdəyişmə və yeni yaşayış yerinə adaptasiya kimi fazaları əhatə edir.

Əhalinin miqrasiyasının ümumi funksiyalarına aiddir:

a) məkan mütəhərrikliyinin bu və ya digər səviyyədə təmin olunması (mütəhərrikliyin artması funksiyası);

b) əhalinin ümumi sayının ayrı-ayrı ərazilər arasında məhsuldar qüvvələrin yerləşməsi ilə əlaqədar olaraq yenidən bölüşdürülməsi (yenidən bölüşdürmə funksiyası);

c) müxtəlif ərazilərin əhalisinin keyfiyyət tərkibinin dəyişilməsi (əhalinin seleksiyası funksiyası).

Regionda miqrasiyanın intensivliyi məlum ərazidə yerdəyişmələrin ümumi sayından və əhalinin sayından asılıdır. Adətən əhalinin daha mütəhərrik olan hissəsi sosial cəhətdən daha fəal olur.

Əməyin dəyişilməsi, yəni iş yerinin və növünün dəyişilməsi müasir sənayenin qanunudur. Əmək ehtiyatlarının ölkə üçün faydalı istiqamətlərdə miqrasiyası məhsuldarlığı yüksəltməyin mühüm amilidir. O, adamlardan peşə vərdişlərindən, xüsusi hazırlığından daha dolğun istifadə etməyə, azad olmuş işçi qüvvələrini tələbat olan istiqamətdə stimullaşdırmağa imkan verir.

Miqrasiya təkcə iqtisadi yox, həm də sosial funksiyaları yerinə yetirir; cəmiyyət üzvlərinin sosial vəziyyəti, ictimai əmək bölgüsündə yeri dəyişilir, fərdlərin bir sosial qrupdan digərinə keçməsi, daha mürəkkəb ixtisasa yiyələnməsi baş verir.

Bir obyekt kimi regionu əslində istənilən istiqamətdə tədqiq etmək olar. Onun sosial problemlərinin tədqiqi kompleks xarakter daşımalıdır. Keçmiş SSRİ məkanında belə tədqiqatlar cəmi iki layihə hüdudunda aparılmışdır: Həmin layihələrdən biri cəmiyyətin sosial inkişafının göstəricilərinə, digəri isə həyat tərzi problemlərinə aid olmuşdur. Layihələr SSRİ EA Sosioloji Tədqiqatlar İnstitutu tərəfindən 1979-87-ci illərdə reallaşdırılmışdır (EA müxbir üzvü Q. V. Osipovun, f.e.d., prof. N. T. Levıkinin rəhbərliyi altında). Belə kompleks sosioloji tədqiqatlar

regionların sosial inkişaf planlarını və proqnozlarını tərtib etmək üçün real informasiya bazası yaradır, qəbul edilmiş idarəetmə qərarlarının sosial nəticələrini aşkara çıxarmağa imkan verir. Hazırda respublikamızda belə kompleks xarakter daşıyan sosioloji tədqiqatlar aparılmasına ehtiyac vardır.

Son illərdə regionlarımızın sosial-iqtisadi və sosial-mədəni inkişafına diqqət daha da artmışdır. Bu baxımdan «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)» xüsusi əhəmiyyətə malikdir. Proqram Respublika Prezidentinin 2004-cü il 11 fevral tarixli fərmanı ilə təsdiq edilmişdir. Proqramda Azərbaycan Respublikasının iqtisadi rayonlarının (Abşeron; Gəncə-Qazax; Şəki-Zaqatala; Quba-Xaçmaz; Aran; Yuxarı Qarabağ; Kəlbəcər-Laçın; Dağlıq Şirvan; Naxçıvan) ümumi xarakteristikası verilir, 2004-2008-ci illərdə regionların sosial-iqtisadi inkişafının əsas istiqamətləri, habelə Dövlət Proqramı üzrə həyata keçirilməli olan təbdirlər müəyyənləşdirilir[1].

Dövlət Proqramının əsas məqsədi respublikanın rayonlarında mövcud potensialdan istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixrac yönümlü məhsul istehsalının stimullaşdırılmasına, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluğun səviyyəsinin, xüsusilə gənclərin faydalı əməklə məşğulluğunun artırılmasına və ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsinə nail olmaqdır. Bu məqsədə uyğun olaraq aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

- müəssisələrin istehsal fəaliyyətini bərpa etmək və yeni istehsal müəssisələri yaratmaq;
- yerli resurslardan istifadənin səmərəsini artırmaq;
- regionların inkişafı üçün zəruri infrastrukturun yaradılmasını və inkişafını təmin etmək;
- aqrar sektorda islahatların ikinci mərhələsini sürətləndirmək, bunun üçün müxtəlif servis mərkəzləri yaratmaq, toxumçuluq bazasını genişləndirmək, texnika ilə təminatı yaxşılaşdırmaq və digər zəruri tədbirləri həyata keçirmək;
- investorların regionlara cəlb olunması üçün əlverişli şəraitin yaradılmasını təmin etmək;
- yeni iş yerlərinin yaradılmasını həvəsləndirmək;
- əhalinin kommunal xidmətlərlə təminatını yaxşılaşdırmaq.

Dövlət Proqramının təsdiqindən sonrakı dövr ərzində görülən işlər sübut edir ki, regionların sosial-iqtisadi siması yeniləşir, müasirləşir, onların tarazlı inkişafı istiqamətində uğurlu addımlar atılır. Dövlət başçısının ayrı-ayrı regionlara səfərləri mövcud problemləri diqqətlə araşdırmağa, həmin problemlərin işgüzar və konkret həllinə kömək edir.

## Mühazirə 10. Siyasətin və idarəetmənin sosiologiyası

1. Siyasətin sosiologiyası sosioloji elmin mühümsahəsi kimi
2. Siyasi institutların mahiyyəti və fəaliyyəti
3. Siyasi sosiallaşma
4. Siyasi mədəniyyət
5. İdarəetmənin sosial təbiəti və strukturu
6. Sosial idarəetmənin xarakter xüsusiyyətləri və struktur ünsürləri
7. Sosial idarəetmə mürəkkəb proses kimi
8. Sosial idarəetmə metodları

## 1. Siyasətin sosiologiyası sosioloji elmin mühüm sahəsi kimi

Siyasi sosiologiya sosiologiyanın çox mühüm sahələrindən biri olub, siyasəti və siyasi münasibətləri öyrənir. Onun əsas predmeti siyasi hakimiyyətdir, onun cəmiyyətdə fəaliyyətinin və bölgüsünün forma və metodlarıdır. Bu predmet çərçivəsində fərdlərin, sosial qrupların, etnik birliklərin və onların təşkilatlarının real siyasi şüuru, maraqları və davranışına xüsusi diqqət yetirilir.

Siyasətin sosiologiyası xüsusi sosioloji bilik sahəsi kimi Qərbdə XX əsrin 30-50-ci illərində qərarlaşmışdır. Lakin onun predmet sahəsini, yəni siyasətə sosioloji yanaşmanı həmin dövrlə məhdudlaşdırmaq doğru olmazdı. Qədim yunan mütəfəkkirlərini, ilk növbədə Platonu və Aristoteli, Yeni dövr nəzəriyyəçilərini (Makiavelli, Boden, Hobbs, Monteskye, Tokvil və başqaları), fransız ensiklopedistlərini (Didro, Dalamber, Russo, Volter, Helvetsi, Holbax və s.), Sen-Simonu, Lokku, Ferqyussonu və Hegeli xatırlamaq kifayətdir. Onların ideyaları siyasəti və onun nəzəri-metodoloji mənalandırılmasını nisbi muxtar həyat və elm sahəsi kimi ayırd etməkdə, eyni zamanda siyasəti sosial sfera ilə qarşılıqlı təsirdə öyrənməkdə mühüm rol oynamışdır. Bu ilkin şərtlər sosiologiyada M. Veber,
V. Pareto, Q. Moska, R. Mixels, A. Bentli, D. Trumen, Q. Lassuel kimi görkəmli mütəfəkkirlər, habelə digər məktəb və cərəyanların nümayəndələri tərəfindən reallaşdırıldı.

Bir cəhətə də xüsüsi diqqət yetirilməlidir: Qərbdə siyasi sosiologiyanın təşəkkülü ümumi sosiologiyanın inkişafı ilə sıx əlaqədə, siyasi elmlə (politologiya ilə) qarşılıqlı təsirdə və rəqabətdə baş vermişdir. Məsələn, ümümi sosiologiyada siyasi sosiologiyanın siyasi sistem nəzəriyyəsinə adaptasiya olunması (T. Parsons və onun ardıcılları), sosiologiyanın bir çox mərkəzi konsepsiya və anlayışlarının (məsələn, təsisatlaşma, sosiallaşma, sosial diferensiasiya və inkişaf) siyasiləşməsi və siyasətin təhlil instrumentinə çevrilməsi özünü göstərir. Siyasi sosiologiyanın digər sələfi olan siyasi elm müstəqil akademik fənn kimi xeyli əvvəl təşəkkül tapmışdır. Belə ki, həmin

elmin ilk kafedraları Qərbi Avropada və Amerikada XIX əsrin sonu - XX əsrin əvvəlində meydana gəlmiş, tezliklə milli assosiasiyalara çevrilmişdir. Artıq 1949-cu ildə YUNESKO-nun nəzdində Beynəlxalq Siyasi Elm Assosiasiyası (BSEA) yaranmışdır. Siyasi sosiologiya nümayəndələri, habelə sosioloji yönümlü politoloqlar təklif edirdilər ki, siyasət perspektivdə sosial struktur və qeyri-formal sosial institutlar, ictimai rəy və davranış baxımından, bir sözlə, sosial-siyasi proseslərin, norma və münasibətlərin bütün kompleksi kimi, şəxsiyyətin və kiçik qrupların sosial-mədəni və psixoloji xarakteristikalarının bütün rəngarəngliyini tədqiq etməklə təhlil olunsun. Bu halqa diqqət yetiriləsi məqamlar xeyli artır. Məsələn, təkcə razılıq və sabitlik məsələlərini yox, həm də münaqişə və dəyişiklikləri araşdırmaq lazım gəlir. Təkcə siyasi partiyaları və həmkarlar təşkilatlarını yox, bütün ictimai təşkilatları və hərəkatları, qeyri-formal birlikləri öyrənməyə ehtiyac yaranır və s.

Siyasi sosiologiya nümayəndələrinin, sosioloji yönümlü politoloqların mühüm xidmətlərindən biri də onların sosiologiyada geniş istifadə olunan bir sıra anlayışları (məsələn, aktyor, rol, status, mövqe, dəyər, gözləmə, yönüm və s.) siyasətin tədqiqinə daxil etmələridir.

Nəzərə almaq lazımdır ki, artıq XX əsrin 50-60-cı illərində Qərbdə, ən əvvəl ABŞ-da siyasi elmin özündə sosiologiyalaşma meyli güclənir. Mütəxəssislər bunu iki mühüm amillə izah edirlər: **1)** pozitivist-biheviorist dünyagörüşü və metodologiyasının üstün nüfuza malik olması ; **2)** empirik təhlil metodlarının geniş tətbiq edilməsi. Öz növbəsində siyasi sosiologiya sahəsində çalışanlar rəsmi siyasi təsisatları və normaları (əlbəttə, bu sahə üçün xarakterik olan metodlarla) öyrənməyin zəruriliyini etiraf etdilər. Təsadüfi deyildir ki, hazırda siyasi sosiologiya və siyasi elm nəzəri-metodoloji və kateqoriya-anlayış baxımından o qədər də fərqlənmir. Təsisatlaşma aspektində siyasi elmin imkanları daha genişdir: inkişaf etmiş ölkələrdə siyasi elmə dair çoxsaylı fakültələr və kafedralar mövcuddur, halbuki siyasi sosiologiya, demək olar ki, ancaq ümumi sosiologiya çərçivəsində öyrənilir və tədris olunur.

Hazırda siyasi sosiologiyanın predmet sahəsi qeyri-yekdil mövqeləri əks etdirir. Bunun səbəbləri müxtəlifdir
:

- siyasi sosiologiyaya dair nəzəriyyələr, anlayış aparatı, tədqiqat metodları və empirik şərtlər kifayət qədər

rəngarəngdir;

- onun meydana gəlməsi mənbələri, həm də inkişaf qolları müxtəlif və ziddiyyətlidir;
- siyasətin müxtəlif cür başa düşülməsi, XX əsrdə siyasət sahəsinin özünün genişlənməsi və dəyişilməsidir;
- alimlərin nəzəri - dünyagörüşü mövqelərinin fərqli xüsu-siyyətlərə malik olmasıdır;
- cəmiyyətşünaslıq elmlərinin ümumən etiraf olunan nəzəri-metodoloji əsaslarının olmamasıdır;

- həmin elmlərin inkişafına milli xüsusiyyətlərin müəyyən təsir göstərməsidir;
- həmin elmlərin qarşılıqlı nisbətindəki fərqlilikdir (xüsusən siyasi sosiologiyanın və siyasi elmin dövlətşünaslıqla, siyasi fəlsəfə, siyasi tarix və siyasi iqtisadla qarşılıqlı münasibəti və qarşılıqlı təsiridir);
- ayrı-ayrı ölkələrin sosial elmlərində üstün paradiqmaların bir-birini əvəz etməsi, nəticədə bu fərqliliyin özünəməxsus iz buraxmasıdır. Məsələn, ABŞ-ın siyasi sosiologiyası üçün xalis empirik yönüm, konflikt və siyasi hakimiyyət strukturu problemlərinə üstün diqqətin formalaşması xarakterikdir. Almaniyada siyasi sosiologiyaya dövlətşünaslığın və siyasi fəlsəfənin, Böyük Britaniyada isə siyasi tarixin və siyasi iqtisadın fəal, güclü təsiri hiss olunur.

Deməli, siyasi sosiologiyanın xüsusi istiqamət kimi formalaşması və təkamülü kifayət qədər mürəkkəb zəmində baş vermiş, müxtəlif amillərin təsirinə məruz qalmışdır. Sosiologiya tarixinə nəzər yetirdikdə aydın olur ki, həm XIX əsrdə, həm də XX əsrdə əslində hər bir görkəmli sosioloq dövlət və cəmiyyət məsələlərini təhlil edərkən siyasi həyatın müxtəlif aspektlərinə toxunmuş, maraqlı, orijinal mülahizələr söyləmiş, yaşadığı cəmiyyətin, dünyanın siyasi reallıqlarını öz konsepsiyasına uyğun mənalandırmağa səy göstərmişdir.

## 2. Siyasi institutların mahiyyəti və fəaliyyəti

Siyasi institutların təşəkkülü uzunmüddətli prosesdir. O, öz başlanğıcını qarşılıqlı təsirin keyfiyyətcə yeni növü olan siyasi hakimiyyətin tədricən təşəkkül tapdığı vaxtdan götürür. Siyasi hakimiyyətin təsisatlaşması müasir sosial inkişafın zəruri şərtidir.

Siyasi institutlar siyasi hakimiyyətin reallaşmasını həyata keçirirlər. Bu hakimiyyətin zəruriliyi onunla şərtlənir ki, fərdlərə, sosial qruplara müyəssər olan ehtiyatlar, sərvətlər və sosial cəhətdən əhəmiyyətli digər obyektlər heç zaman tükənməz deyildir. Onlara yiyələnmək sferasını genişləndirmək kimi təbii səyi məhdudlaşdıra bilən sosial cəhətdən müəyyənləşmiş hüdudlar olmalıdır. Belə ehtiyatlar, sərvətlər təkcə maddi xarakterli deyildir. Onlara həm də təhlükəsizlik, informasiya əldə etmək imkanı, status, nüfuz, hakimiyyət aiddir. Zəruri hüdudlar olmadıqda qarşılıqlı sosial təsirlər nizamlana bilməz. Anarxiyaya, sosial sistemlərin nizamsızlığına gətirib çıxaran mübahisələr, münaqişələr, toqquşmalar labüd olar. Hüdudların müəyyənləşdirilməsi və təmin edilməsi cəmiyyətdə hakimiyyət münasibətlərinin qərarlaşmasını tələb edir. Hakimiyyət mübahisə və münaqişələrin inkişafının elə hüdudlarını müəyyənləşdirməyə qadir olmalıdır ki, onlara nail olmağı təmin edən hakimiyyət qərarı hamı tərəfmdən məcburi akt kimi qəbul edilsin.

Hakimiyyəti bir subyektin digər subyektin (və ya subyektlərin) davranış aktlarına, fəaliyyətinə nəzarət imkanı kimi müəyyənləşdirmək olar. Siyasi hakimiyyət bütövlükdə cəmiyyəti əhatə edir. Ancaq siyasi hakimiyyət üçün bütün növ sanksiyaların tətbiqi hüququ etiraf olunur (fiziki məcburiyyət, mülkiyyətdən, azadlıqdan məhrumetmə və s.). Lakin siyasi hakimiyyətin zorakılığı legitim olmalıdır, yəni cəmiyyətin əksər üzvləri tərəfindən etiraf və qəbul olunmalıdır.

Dövlət mühüm siyasi institutdur. O, təsisatlaşmış siyasi hakimiyyəti həyata keçirir. Siyasi sosiologiya sahəsində maraqlı tədqiqatları olan M. Veberə görə, siyasi hakimiyyətin bazası kimi legitimlik ənənəyə, əksəriyyət tərəfindən etiraf olunan avtoritetə (harizmaya) və rasional seçimə əsaslana bilər. Ənənəvi hakimiyyət qədimdən təşəkkül tapmış

ənənələrin sarsılmazlığına, müqəddəsliyinə, hakimiyyət orqanlarının təbii qanuniliyinə ən ümumi inama istinad edir. Harizmatik hakimiyyət bir şəxsin böyüklüyünə, müqəddəsliyinə, bütün başqaları üzərində üstünlüyünə, onun qəhrəmanlığına hökmran inama əsaslanır; belə hakimiyyətin əsası həmin şəxsin simasında millətin atası, rəhbəri, şəksiz lideri kimi təzahür edir; ona tam əminliklə, Könüllü, əqidə gücünə, şəxsi sədaqətlə tabe olurlar. Rasional xarakterli hakimiyyət qərarlaşmış qaydanın qanuniliyinə üstün inama, əksəriyyət tərəfindən dövlət orqanlarının hakimiyyəti həyata keçirmək hüququnun əsaslılığına istinad edir.

Siyasi hakimiyyət müxtəlif cür yarana və bölüşdürülə bilər. Dövlət idarəçiliyi formalarının ənənəvi tipologiyası hakimiyyətin bölgüsü üsullarını əks etdirir: avtokratiya, yəni bir nəfər idarəedicinin hökmranlığı; oliqarxiya, yəni bir neçə imtiyazlı şəxsin hökmranlığı; demokratiya, yəni xalqın hakimiyyəti. Aristotel avtokratiyanın tiraniyaya (tiranın hökmranlığı), oliqarxiyanın plutokratiyaya (cinayətkarların hökmranlığı), demokratiyanın oxlokratiyaya (yığnağın hökmranlığı) keçməsinin daim meydana gələn fenomenlərinə xüsusi diqqət yetirmişdir.

Mütəxəssislərin fikrincə, məlum idarəetmə formasında qanunla özbaşınalığın qarşılıqlı nisbətinin əhəmiyyətli dərəcədə dəyişilməsi belə keçidin əsasını təşkil edir. Avtokratiyadan tiranlığa keçid öz təcəssümünü qanuni monarxın tiranla əvəz olunmasında tapır. Qanuni monarxın hakimiyyəti varislik hüququna əsaslanır, idarəetmənin özü isə mövcud qanunlara, norma və ənənələrə əməl etməklə bağlıdır. Tiranın idarəetməsi özbaşına zorakılığa əsaslanır, hər hansı norma ilə bağlı deyildir. Dövlət hakimiyyəti cinayətkar varlanma, əməl üçün istifadə olunduqda oliqarxiyanın plutokratiyaya keçməsindən bəhs etmək olar. Oxlokratiya isə əksəriyyətin elə hökmranlığıdır ki, o, qanunla bağlı deyildir, yığnağın zorakılığına istinad edir.

XX əsrdə siyasi idarəetmənin xüsusi forması olan totalitar dövlət meydana gəlmişdir. Almaniyada hitlerizm, SSRİ-də stalinizm, Kambocada Pol Pot rejimi buna misal ola bilər. Totalitar dövlətin xarakteristikasında prinsipial cəhət hökmran qüvvə tərəfindən qanunların sadəcə olaraq özbaşına pozulması deyildir, hüquqi tənzimləmənin total, ən ümumi, ən əhatəli terrorla əvəz olunmasıdır. Qanunsuzluq tiranlığın mahiyyətidir. Terror totalitar hökmranlığın mahiyyətü xüsusiyyətidir.

Totalitar dövlətin xarakteristikasında bu xüsusiyyətləri qeyd edirlər: vahid dövlət ideologiyası; terrorun tətbiqi; kütləvi informasiya vasitələri üzərində tam nəzarət; silahlara nəzarətsiz sərəncamçılıq; iqtisadiyyatın tam miqyasda idarə olunması.

Ən yeni dövrdə hüquqi dövlət konsepsiyası etiraf olunur və inkişaf etdirilir. Bu konsepsiya istənilən dövlət fəaliyyəti formasının hüquqa, ən əvvəl Konstitusiyaya tabe olması ideyasına əsaslanır. Demokratik cəmiyyətdə Konstitusiyanın başlıca vəzifəsi vətəndaşların ən mühüm hüquq və azadlıqlarını qorumaq naminə dövlət hakimiyyətinin həlledici məhdudlaşdırıcısı, vətəndaş cəmiyyətinin əsas institutlarının özinkişafının və özünütəşkilinin mühüm təminatçısı olmaqdır. Konstitusiya dövlət hakimiyyətini hüquqla məhdudlaşdıraraq, bəyan etdiyi mülki və siyasi hüquqları mühafizə edir, hüququn başlıca funksiyasını reallaşdırır. Bu funksiya azad yaşamağın, fəaliyyət göstərməyin təcəssümü və meyarı olmalıdır. Azadlıq olmadan hüquq yuridik fiksiyadır, özbaşınalığın pozitiv sanksiyasıdır. Hüquqsuz azadlıq hamının hamıya qarşı müharibəsidir, cəmiyyətin və dövlətin dağılmasıdır.

Azərbaycanda vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu getdikcə daha mühüm nailiyyətlər qazanır. Siyasi partiyaların, həmkarlar və digər təşkilatların, birliklərin azad, sərbəst fəaliyyəti üçün əlverişli şərait yaradılır. Təhlil göstərir ki, onların fəaliyyətində, qarşılıqlı əlaqə və münasibətlərində yeni, maraqlı cəhətlər meydana gəlir, tədricən inkişaf edir və sabit meylə çevrilir. Kütləvi informasiya vasitələrinin rolunun artması ictimai-siyasi həyatımızda getdikcə dərinləşən demokratikləşmənin mühüm göstəricilərindən biridir. Lakin nəzərdən qaçırmaq olmaz ki, həm siyasi partiyaların, müxtəlif təşkilatların, həm də kütləvi informasiya vasitələrinin fəaliyyəti Konstitusiya prinsiplərinə, qanunçuluğa əsaslanmalıdır. Ümummilli, ümumdövlət maraqları onların fəaliyyətində həmişə önəmli yer tutmalıdır.

## 3. Siyasi sosiallaşma

Hazırda ictimai həyatın siyasiləşməsi inkişafımızın xarakter xüsusiyyətlərindən birinə çevrilmişdir. Bu, təbiidir ki, siyasətin bütün aspektlərinin daha dərindən, hərtərəfli öyrənilməsinə ciddi tələbat doğur. Siyasi sosiallaşma aktuallığı getdikcə artan proseslərdən biridir.

Siyasi sosiallaşma insanın müvafiq informasiyaya yiyələnməsi, siyasi davranış ideyalarını, baxışlarını, nümunələrini qavraması prosesidir.

Siyasi sosiallaşma ünsürləri məktəb yaşından əvvəl təzahür edə bilər. Lakin bu proses ilk məktəb yaşlarından etibarən müntəzəm xarakter alır. Belə ki, sosial psixoloqlarının və pedaqoqların fikrincə, 8-13 yaş uşaqda siyasi baxışların formalaşmasının mühüm mərhələsidir. Bu yaşda siyasi quruluşdan, siyasi proseslərdən daha çox siyasi xadimlərdən, rəhbərlərdən bəhs etməyə meyllilik güclü olur. Başqa sözlə, ümumi siyasi proseslərin fərdləşdirilməsi aydın müşahidə edilir. Ayrı-ayrı ictimai

qüvvələrə, hətta xalqlara, dövlətlərə rəğbət və ya nifrət, tənqidi mövqe təzahür edə bilər. Bu prosesdə ailədə və məktəbdə məsələlərin müzakirəsi, müəyyən yönümün olması (təbiidir ki, yaşlıların köməyi ilə) mühüm rol oynayır.

13-14 yaşdan etibarən sosiallaşmanın yeni mərhələsi başlanır. Yeniyetməlik adlanan bu mərhələnin səciyyəvi xüsusiyyəti dağınıq siyasi informasiyanın müəyyən sistem halında formalaşmasıdır. Bu sistemdə nəinki siyasi həyatın ayrı-ayrı məqamları, ən məşhur şəxsiyyətləri özünə yer tapır, həm də ölkədəki ümumi siyasi vəziyyət, siyasi hakimiyyətin strukturu, cəmiyyətin və dövlətin məqsədləri barəsində müəyyən təsəvvür formalaşır. Məhz bu dövrdə müxtəlif ictimai təşkilatların, o cümlədən siyasi yönümlü təşkilatların fəaliyyətinə qoşulmaq istiqamətində ilk cəhdlər reallaşır.

Bir çox cəmiyyətlərdə 18 yaş insanın siyasi həyatda tam hüquqlu iştirakının başlandığı müddət hesab olunur. İnsanın bir vətəndaş kimi təşəkkülü əsasən başa çatır. Bu zaman onun dünyagörüşü bir növ tamamlanmış məna kəsb edir. Siyasi rəğbət və ya nifrət qabarıq şəkildə təzahür edir. Bəziləri üçün siyasi proseslərdə iştirak etmək onun sonrakı həyatının mühüm komponentinə çevrilir. Millətin, sosial qrupun struktur ünsürü olan insan konkret şəraitdən asılı olaraq müstəqil surətdə siyasi fəaliyyətə qoşulur, cəmiyyətin siyasi münasibətlərini bu və ya digər dərəcədə təcəssüm etdirir.

Bəzi tədqiqatçıların fikrincə, yetkin həyata qədəm qoymaqla siyasi sosiallaşma prosesi başa çatır. Bu fikirlə razılaşmaq çətindir. İş ondadır ki, öz həyatı dövründə insan, hətta müəyyən sosial qruplar öz siyasi yönümünü dəyişə bilər, öz siyasi fəaliyyətini başqa formalarda davam etdirə bilər, gerçəkliyi təhlil edərək, siyasi dissidentə çevrilə, yaxud siyasi məsələlərə laqeydlik yolunu tuta bilər. Deməli, insan bütün həyatı ərzində siyasi sosiallaşmaya məruz qala bilər. Onun gəncliyində formalaşmış siyasi mövqeyindən, müəyyən sərvət yönümlərindən uzaqlaşıb-

uzaqlaşmaması burada xüsusi məna kəsb etmir. Siyasi yönümün, mövqeyin dəyiş-məməsi onun siyasi insan kimi dəyişməz qalması demək deyildir. O, öz həyatında müəyyən təshihlər aparır, siyasi reallıqlara öz münasibətini dəqiqləşdirir, öz həyat fəaliyyətinin konkret formalarını başqalaşdırır.

Yeri gəlmişkən bir məsələyə də aydınlıq gətirilməlidir. Tarixin sərt dönüşlərində insanların siyasi həyata qoşulmasına xüsusi diqqət yetirilmiş, hər kəsin siyasətdə iştirakı hüququ etiraf olunmuş, bunun üçün müəyyən təminatlar verilmişdir. Lakin bu, uzun müddət ərzində əhalinin bir qisminə müyəssər olmuşdur. Tarixi proses sübut edir ki, siyasi kolliziyalar zamanı siyasi problemlərin həllində iştirak edənlərin sayı kəskin surətdə artır. Lakin qələbə ya məğlubiyyət məqamları keçdikdən sonra iştirakçıların azalması müşahidə edilir.

Mütəxəssislərin fikrincə, ümumi meyl belədir ki, siyasət getdikcə daha çox adamın həyatına daxil olur. Sabit xarakter daşıyan bu meyl əhəmiyyətli dərəcədə onunla əlaqədardır ki, siyasi hüquq və azadlıqların dərk olunması, reallaşması siyasi fəaliyyətdə, demək olar ki, hamının iştirakı üçün əsas yaradır. Müxtəlif səviyyədə rəhbərin, liderin mövqeyi, siyasi proseslərə bələdliyi, elmi cəhətdən əsaslı strategiya və taktika işləyib hazırlamaq bacarığı böyük məna kəsb edir. Lakin bu, adamların siyasi davranışının, fəaliyyətinin həlledici əhəmiyyətini kiçiltməyə əsas vermir.

Belə bir cəhət də unudulmamalıdır: bəzən insanların siyasi fəaliyyətini məhdudlaşdırmaq, yaxud başqa bir məcraya yönəltmək halları özünü göstərir. Lakin insanların siyasi həyatdan hər hansı formada uzaqlaşdırılması, real tarixi prosesə adekvat olmayan səmtə istiqamətləndirilməsi ciddi nəticələrə gətirib çıxara bilər. Məsələn, açıq və ya gizli şəkildə bütövlükdə siyasi sistemə münasibətdə yadlaşma təzahür edə bilər.

Hazırda ictimai-siyasi həyatda təkcə bir ölkə əhalisinin yox, bir çox dövlətlərin əhalisinin sosial dəyərlərinin akkumulyasiyası baş verir. İndiki mərhələdə müxtəlif siyasi yönümlü insanlar cəmiyyətin militaristləşdirilməsinə, təcavüz və müharibə siyasətinə, irqi və milli ayrı - seçkiliyə, terrorizmə, qadınların hüquqlarının məhdudlaşdırılmasına, gənc nəslin vəziyyətinin pisləşməsinə, ətraf mühitə qeyri-insani münasibətə, təbii ehtiyatlardan səmərəsiz istifadəyə və s. qarşı öz etirazlarını bildirirlər.

Göründüyü kimi, siyasi sosiallaşma mürəkkəb, çoxcəhətli proses olub, müvafiq informasiyanın mənimsənilməsini, şərhini, öz mənafe və tələbatlarına uyğunlaşdırılmasını, həmin mənafe və tələbatların cəmiyyətlə, dövlətlə qarşılıqlı münasibətlər prosesində, real həyatda reallaşdırılmasını nəzərdə tutur.

## 4. Siyasi mədəniyyət

Siyasətin sosiologiyasında siyasi mədəniyyət problemi mühüm əhəmiyyət kəsb edir. O, siyasi hakimiyyət funksiyalarının həyata keçirilməsi prosesində reallaşdırılan (və ya reallaşdırılmalı olan) nəzəri müddəaların, baxışların, rəylərin, sərvət yönümlərinin və s. məcmusu kimi təsəvvür edilə bilər.

Siyasi mədəniyyət üçün əsas çıxış nöqtəsi əhalinin məlumatlı olması, nəzəri-siyasi problemlərə bələdliyidir. İlkin biliklər, məlumatlar adətən kortəbii surətdə əldə edilir, təhsil sayəsində, kütləvi informasiya vasitələrinin fəaliyyəti sayəsində az - çox sistemli xarakter daşıyır.

Sistemli məqsədyönlü siyasi təhsilin olmaması ciddi nəticələrə gətirib çıxara bilər.

Siyasi yönümün itirilməsi, tarixi yaddaşın zəifləməsi və ya təhrifi, siyasi davranışın passivliyi, siyasi hadisələrə marağın sönməsi, laqeydlik və s. bu qəbildəndir.

Siyasi mədəniyyət üçün siyasi yönüm, dəyərlər, ustanovkalar mühüm əhəmiyyətə malikdir. Çünki bunlar

əqidəni, fəaliyyətə hazırlığı formalaşdırır.

Təhlil göstərir ki, respublikamızda siyasi yönümlər kifayət qədər rəngarəngdir. Onların spektri müxtəlif olmaqla yanaşı yayılma dərəcəsi də bir-birindən fərqlidir. Azərbaycanda Prezident və parlament seçkilərinin nəticələri göstərdi ki, siyasi partiyaların çox olmasına baxmayaraq, əsas siyasi yönümlər və əqidələr bir neçə partiya (xüsusən Yeni Azərbaycan Partiyası) ətrafında cəmləşir.

Nəzərdən qaçırmaq olmaz ki, siyasi mədəniyyət fəaliyyətdə təcəssümünü tapır. Lakin siyasi mədəniyyət təkcə siyasi həyatda iştirakı xarakterizə etmir, o həm də insanın yetkinlik dərəcəsini, dərketmənin mənalılığını, dərinliyini, siyasi biliyin praktikaya necə qoşulmasını və s. əks etdirir.

Aydın məsələdir ki, insanın siyasi fəaliyyəti onun yaşadığı dövlətin hüquqi normaları ilə tənzimlənir. Bu o deməkdir ki, şəxsiyyətin siyasi mədəniyyətinin formalaşması və təkamülü baxımından hüquqi normaların mükəmməlliyi xüsusi məna kəsb edir. Bu normalar cəmiyyətin dinamik inkişafına istiqamətlənməli, zərurət yarandıqda yeniləşməlidir, müasirləşməlidir. Demokratik cəmiyyət quruculuğunun uğurla həyata keçirilməsi mükəmməl hüquqi prinsiplərə və normalara, qanunların aliliyinə möhtacdır. Bu quruculuq eyni zamanda vətəndaşların siyasi mədəniyyətinin yetkinliyini nəzərdə tutur. Ümummilli liderimiz H. Ə. Əliyev qeyd edirdi ki, demokratiya «hər bir cəmiyyətin, hər bir dövrün tələblərinə uyğun olaraq inkişaf edir».

Xatırlatmaq yerinə düşər ki, bazar münasibətlərinin və strukturlarının qərarlaşması, hüquqi demokratik dövlət quruculuğu vətəndaşların siyasi şüurunda köklü dəyişmələrin baş verməsini tələb edir. Ona görə də müstəqil

inkişafımıza, milli maraqlara və tələbatlara istinad edən dərkolunmuş siyasi mədəniyyətin formalaşdırılması ümdə vəzifələrdən olaraq qalır.

Bir məsələyə də diqqət yetirilməlidir: son zamanlar milli ideyadan, onun ictimai-siyasi həyatda rolundan çox danışırlar. Milli ideya ictimai şüura «hopmuş» ideyaların kristallaşması ola bilər. Başqa sözlə, belə ideya üstün sosial yönümlərin, dəyərlərin təmərküzləşməsi ola bilər. Milli ideya şəxsi, qrup və ictimai maraqları ifadə edərək, onları əlaqələndirərsə, o zaman birləşdirici, səfərbəredici ideya ola bilər.

# İDARƏETMƏNİN SOSİOLOGİYASI

## 1. İdarəetmənin sosial təbiəti və strukturu

Əvvəlcə bir-birinə çox yaxın olan iki anlayışın mənasına diqqət yetirilməlidir: menecment və idarəetmə. Bəzən həmin anlayışları ümumiyyətlə eyniləşdirirlər. Belə eyniyyəti texniki mənada qəbul etmək olar, çünki menecment hərfən idarəetmə deməkdir. Başqa sözlə, «menecment» və «idarəetmə» anlayışlarını texniki mənada sinonim sözlər kimi işlətmək olar. Qərbdə menecment anlayışının işlədilməsində kifayət qədər sərbəstlik vardır. Lakin bəzi sosioloqlar sosial-mədəni hadisə kimi həmin anlayışların fərqləndirilməsini zəruri hesab edirlər. Onların fikrincə, menecment hər şeydən əvvəl kommersiya idarəetməsinin instrumentidir. İdarəetmə isə insanların qarşılıqlı fəaliyyətini nizamlayan mexanizmdir.

«İdarəetmə» və «sosial idarəetmə» anlayışlarını da müqayisə etmək və fərqləndirmək məqsədəuyğundur. Bu halda qeyd etmək olar ki, idarəetmə daha geniş anlayışdır; o, müxtəlif təbiətə malik orqanizmlərin, sistemlərin (bioloji, sosial, texniki) funksiyası olub, onların müəyyən strukturunu saxlamağı, fəaliyyət rejimini nizamlamağı, fəaliyyət məqsədlərini reallaşdırmağı təmin edir. Sosial idarəetmə isə geniş və dar mənada işlədilir. Geniş mənada sosial idarəetmə dedikdə bioloji və texniki sistemləri idarəetmədən fərqli olaraq, bütün və hər cür ictimai prosesləri idarəetmə başa düşülür. Dar mənada isə sosial idarəetmə cəmiyyət həyatının sosial sferasına xas olan hadisə və proseslərin idarə olunmasını nəzərdə tutur, sosial siyasətin reallaşdırılması vasitəsi kimi çıxış edir.

İdarəetmə həmişə hakimiyyətin və səlahiyyətlərin prezumpsiyasına, aşağıların yuxarılara tabeliyinə, iqtisadi, sosial və mədəni nemətlərə yiyələnməkdə bərabərsizliyə əsaslanır. Rolların və statusların üfüqi və şaquli diferensiasiyası müxtəlif cür təsbit olunur. İdarəetmə fərdlərin, qrupların, kollektivlərin fəaliyyətinin müəyyən rejimidir, nizamıdır, nəzərdə tutulan norma və qaydaların hüdudlarında həmin fəaliyyətin məhdudlaşdırılmasıdır.

İdarəetmə piramidası mürəkkəb struktura malikdir. O, elə qurulmuşdur ki, onun konusunda ən imtiyazlı, səlahiyyətli vəzifələr yerləşir. Bu vəzifələr aşağı qatlardakı imtiyazsız, yaxud az imtiyazlı mövqelərlə müqayisədə çox azdır. Deməli, mövcud yerlərə nisbətdə irəliləmək, yüksəlmək iddiasında olanlar daha çoxdur. Yüksəlmək səyi idarəetmə karyerasının əsas motividir.

«İdarəetmənin strukturu» anlayışını idarəetmə problemlərinə həsr olunmuş ədəbiyyatda tez - tez rast gəldiyimiz «təşkilatın strukturu» anlayışı ilə müqayisə edək.

Təşkilatın strukturu daha geniş anlayış olub, həm formal, həm də qeyri - formal təşkilatı əhatə edir. İdarəetmənin strukturu isə təşkilatın strukturunun mühüm ünsürü olub, ancaq formal təşkilatı əhatə edir.

İdarəetmənin strukturu əslində idarəetmə səviyyələrinin aşağıdan yuxarıya doğru nizamlı yerləşməsidir. Burada adətən üç səviyyəni ayırd edirlər: aşağı səviyyə (məsələn, sex rəhbərləri, baş ustalar); orta səviyyə (məsələn, şöbə, bölmə rəhbərləri); yüksək səviyyə (məsələn, baş idarəedici, böyük idarəedicilər). Bu, tipik struktur hesab oluna bilər. İri kompaniyalarda bu səviyyələr arta bilər (məsələn, aşağı, kiçik, orta, böyük, yüksək səviyyələr). Silahlı qüvvələrdə, sahə və regional idarəetmə orqanlarında idarəetmənin daha çox səviyyəsi mövcuddur. İcraçılarla (fəhlə və qulluqçularla) yüksək səviyyə rəhbərləri arasında daha çox səviyyələr mövcuddursa, belə idarəetmə strukturunu şaquli idarəetmə strukturu adlandırırlar. Rəhbərlik səviyyələri az olduqda isə onu üfüqi idarəetmə strukturu adlandırırlar.

Bir neçə minilliklər ərzində mövcud olan, funksional xidmətləri istisna edən ənənəvi idarəetmə strukturu xətti struktur adlanır. XX əsrin əvvəllərində meydana gələn, funksional xidmətlərin bütöv şəbəkəsini əhatə edən (kadrlar şöbəsi, reklam şöbəsi, təchizat şöbəsi, marketinq şöbəsi, mühasibat və s.) yeni idarəetmə strukturu xətti - qərargah strukturu adlanır.

Yüksək səviyyə rəhbərləri özlərini inzibatçılar hesab edirlər. Onlar firmanın, kompaniyanın və s. fəaliyyətini istiqamətləndirirlər. Lakin onların işində inzibatçılıq və idarəetmə birləşir: inzibatçılıq yüksək rəhbərin simasında təşkilatın başlıca məqsədlərini və siyasətini müəyyən edir, bütün digər rəhbərlərin məşğul olduğu idarəetmə isə həmin məqsədlərin və siyasətin reallaşması üçün zəruri olan əməliyyatların yerinə yetirilməsini təmin edir.

Təbiidir ki, inzibatçılıq və idarəetmə funksiyaları qarşılıqlı surətdə kəsişirlər. Həmin funksiyaların yerinə yetirilməsi ilə eyni adamların məşğul olması məcburi deyildir. Lakin istənilən səviyyədə eyni bir şəxs öz iş vaxtının bir hissəsini inzibatçılığa, digər hissəsini isə idarəetməyə sərf edə bilər. İdarəetmə səviyyəsi yüksək olduqca inzibatçılığa daha çox vaxt, idarəetməyə isə daha az vaxt ayrılır və əksinə. İdarə-etmədən tam kənarda qalmaq isə əslində mümkün deyildir.

## 2. Sosial idarəetmənin xarakter xüsusiyyətləri və struktur ünsürləri

Yuxarıda qeyd etdiyimiz kimi, idarəetmənin sosiologiyası sosioloji biliyin spesifik sahəsidir; o, **idarəetmənin sosial əsaslarını, dinamik sistemini, proseslərini, onların sosial funksiyalarını və prinsiplərini, idarəetmə qərarlarının xüsusiyyətlərini, idarəetmə fəaliyyətinin sosial tərəflərini, onların təşkilatlarda və cəmiyyətdə effektivlik dərəcəsini, idarəetmə sahəsindəki münasibətləri öyrənir.**

Sosiologiya başlıca diqqəti sosial sistemlərin idarə olunması, başqa sözlə, sosial idarəetmə üzərində cəmləşdirir.

Sözün geniş mənasında sosial idarəetmə birliklərin, habelə müəyyən çərçivədə sosial hadisə və proseslərin idarə olunması deməkdir. Sözün məhdud mənasında isə o, idarəetmə subyektinin müəyyən fəaliyyət prinsiplərinə əsaslanmaqla idarəetmə obyektinin qarşısında məqsəd və vəzifələrin qoyulmasına, həmin obyektə təsirin rəngarəng vasitə, üsul və metodlarından istifadə etməklə onların həllini təşkil etməyə istiqamətləndirmək deməkdir.

Bioloji və texniki sistemlərin idarə olunmasından fərqli olaraq, sosial idarəetmə ən əvvəl qarşıya şüurlu surətdə məqsədlər qoyulması ilə səciyyələnir; həmin məqsədlər idarəetmə obyektinin səviyyə və miqyaslarından asılı olaraq diferensiallaşır. Məsələn, cəmiyyəti idarəetmə onun keyfiyyət spesifikasını saxlamaqla, onun sabit fəaliyyət göstərməsini, təkmilləşməsini, inkişafını təmin etməklə əlaqədardır. Təşkilatları idarəetmənin məqsədi ən əvvəl struktur bölmələrin ümumi vəzifələrin həllinə yönəlmiş səylərini əlaqələndirməkdən, onların fəaliyyətinin səmərəsini yüksəltməkdən ibarətdir. Fərdi səviyyədə isə idarəetmənin məqsədi işçilərin öz funksional vəzifələrini daha yaxşı həyata keçirməsinə şərait yaratmaqdır.

İdarəetmə cəmiyyətə onun istənilən inkişaf pilləsində daxilən xas olan xassədir; o, ən ümumi xarakter daşıyır, cəmiyyətin sistemli təbiəti, insan əməyinin ictimai kollektiv xarakteri, əməkdə və həyatın digər sahələrində qarşılıqlı təsirdə, ünsiyyətdə olmaq, öz fəaliyyət məhsullarını mübadilə etmək zərurəti ilə şərtlənir.

Adətən kortəbii və şüurlu idarəetmə mexanizmlərini fərqləndirirlər. Kortəbii idarəetmə bir-biri ilə kəsişən müxtəlif qüvvələrin, təsadüfi faktların, amillərin sistemə təsirinin nəticəsidir. Şüurlu idarəetmə isə idarəetmə subyektləri (ictimai institutlar, təşkilatlar - ayrı-ayrı rəhbərlər) tərəfindən həyata keçirilir.

Sosial idarəetmə öz obyektinin spesifikası ilə şərtlənən bir sıra xüsusiyyətlərlə səciyyələnir:

1. Sosial idarəetmə insanların birgə fəaliyyətinin müxtəlif variantı mövcud olduğu şəraitdə meydana gəlir, bu fəaliyyətin normal axarını təmin edir, adamların davranışına nizamlayıcı təsir göstərir.

2. Sosial idarəetmə idarəetmənin həm obyektini, həm də subyektini, ictimai münasibətlərin xüsusi növünü - idarəetmə münasibətlərini nəzərdə tutur. Bu münasibətlər inteqral xarakter daşıyır; onlara obyektiv - subyektiv xüsusiyyətlər xasdır;

3. Sosial idarəetmə hakimiyyəti, avtoriteti, habelə iradi məqamları nəzərdə tutur.

4. Sosial idarəetmə insan fəaliyyətinin bir növü, onun ətraf mühitə fəal münasibətlərinin bir forması olduğundan həmin fəaliyyətin məqsəd və vəzifələrini, gedişini, vasitələrini də əhatə edir.

5. Müasir dünyada sosial idarəetmə siyasi xarakter daşıyır. İdarəetmədə insanların ictimai həyatının və fəaliyyətinin təkcə obyektiv tələbatları yox, həm də onların mənafeləri, maraqları nəzərə alınır. Bu mənafelər cəmiyyətdə qərarlaşmış mövqelərin saxlanılmasına yaxud yeniləşməsinə, dəyişilməsinə istiqamətlənə bilər.

Sosial idarəetmənin bilavasitə vəzifəsi sosial sistemdə, təşkilatda sosial nizam yaratmaqdır. Sosial nizam sosial sistemin mütəşəkkilliyini, sosial hərəkətlərin qaydaya salınmasını ifadə edir. Bu o deməkdir ki, sosial nəzarət mövcuddur, müəyyən məhdudiyyətlər, sanksiyalar, normalar fəaliyyətdədir, sosial hərəkətlərin uyğunluğu, əlaqələndirilməsi, sabitliyi təmin edilmişdir. Sosial nizam yaratmaq kimi mürəkkəb vəzifəni yerinə yetirmək üçün idarəetmə orqanı (idarəedici sistem) idarə olunan sistemlə müqayisədə daha yüksək sosial nizam səviyyəsinə malik olmalıdır. Bu, idarəetmənin ən ümumi qanunlarından biridir.

Sosial təşkilatlarda məqsədyönlü idarəedici təsirlə yanaşı sosial nizamın digər mənbələri (təşkilati qayda və özünütəşkil) də mühüm əhəmiyyət kəsb edir. Təşkilati qayda funksiyaların müəyyən səviyyədə ixtisaslaşmasını, sosial hərəkətlərin eyni istiqamətliliyini və sinxronluğunu təmin etməlidir. Təşkilati effekt yüksək olduqca qarşıya qoyulmuş məqsədlərə çatmaq imkanları da artır. Strukturlaşdırılmış sərt iyerarxik sistem bir tərəfdən sosial nizamın saxlanılmasına kömək edir, sosial hərəkətlərin qeyri - müəyyənliyini aradan qaldırır, digər tərəfdən isə idarəetmə strukturlarının bürokratlaşmasını gücləndirir. Sərt iyerarxiyanın qüsurlarını zəifiətməyə kömək edən əsas mexanizm özünütəşkildir. Sosial sistemlər yüksək dərəcədə özünütəşkil edən sistemlər kimi fəaliyyət göstərirlər. Ona görə də sosial idarəetmədə idarəetmə səyləri ilə sistemdə özünütəşkil meylləri arasında optimal nisbət olması mühüm şərtdir. Mövcud ictimai mütəşəkkilliklə sosial qrupların və ayrı - ayrı fərdlərin onun hüdudlarından kənara çıxma səyləri arasında meydana gələn ziddiyyətlərin həlli yolları axtarılmalıdır. Çünki sosial təşkilat təkcə müəyyən məqsədlərə çatmaq instrumenti yox, həm də müxtəlif mənafe və tələbatlara malik adamları birləşdirən spesifik birlikdir. Bundan əlavə, real sosial qayda nəticə etibarilə çoxpilləli və rəngarəng özünütəşkil

proseslərindən ibarətdir. Deməli, özünütəşkil sosial təşkilatın mahiyyətli xüsusiyyətidir. Məhz özünütəşkil sayəsində təşkilat canlı orqanizm kimi fəaliyyət göstərir, sosial qaydanı vaxtı keçmiş normalardan xilas edir və yeniləşdirir, dəyişən şəraitə uyğunlaşa bilir. Özünütəşkil proseslərinin məhdudlaşdırılması təşkilati strukturların köhnəlməsinə, idarəetmə münasibətlərinin bürokratlaşmasına, sosial nizam yaratmaq qabiliyyətinin zəifləməsinə gətirib çıxarır və nəticədə idarəetmənin effektivliyi azalır.

Beləliklə, sosial idarəetmədə sosial nizamın üç mənbəyinə uyğun olaraq, idarəetmənin üç növündən bəhs etmək olar: **a)** idarə olunan sistemə bilavasitə idarəedici təsir; **b)** təşkilati qaydanı idarəetmə; **c)** özünüidarə.

### 3. Sosial idarəetmə mürəkkəb proses kimi

Sosial idarəetmə prosesi müəyyən növ fəaliyyətin ümumiləşmiş ifadəsidir, qarşıya qoyulmuş məqsədlərə nail olmaq istiqamətində reallaşdırılan ardıcıl hərəkətlərin məcmusudur.

Elmi ədəbiyyatda qeyd olunur ki, idarəetməyə proses mövqeyindən yanaşmanı təklif edənlər XX əsrin 30-cu illərində inzibati idarəetmə tərəfdarları olmuşlar. Lakin onlar idarəetmə mərhələlərini funksiyalar kimi nəzərdən keçirərkən həmin funksiyaların qarşılıqlı əlaqəsinə lazımınca diqqət yetirməmişlər. Lakin idarəetməyə proses mövqeyindən yanaşanların digər qismi həmin qüsuru aradan qaldırmağa səy göstərmiş, müəyyən təşkilat hüdudlarında hərəkətlərin və ya funksiyaların qarşılıqlı əlaqəsini, ümumi fasiləsiz axarını nəzərə çarpdırmışlar. Bu konsepsiyanın ilk müəlliflərindən sayılan Anri Fayol belə hesab edirdi ki, idarə etmək planlaşdırmaq, təşkil etmək, sərəncam vermək, əlaqələndirmək və nəzarət etmək deməkdir.

Hazırda sosial-fəlsəfi ədəbiyyatda, idarəetmə nəzəriyyəsinə və praktikasına həsr olunmuş əsərlərdə idarəetmə prosesi təşkilati və funksional struktur baxımından təhlil olunur. Başqa sözlə, həmin prosesdə müəyyən mərhələlər və ya funksiyalar ayırd edilir.

Təşkilati struktur baxımından sosial idarəetmə prosesini bir-birinin ardınca gələn müəyyən mərhələlərin məcmusu kimi başa düşmək olar. Belə mərhələlərin ayırd edilməsinə müxtəlif müəlliflərin fərqli yanaşması mövcuddur. Həmin yanaşmaların müqayisəli təhlili göstərir ki, fərqlər əsasən məsələyə nə dərəcədə konkret yanaşma ilə əlaqədardır. Bəziləri (məsələn, V. Q. Afanasyev) 4 mərhələ - qərarın işlənib hazırlanması və qəbulu, təşkiletmə, tənzimetmə, uçot və nəzarət, bəziləri (məsələn, Q. Q. Vasilyev) 6 mərhələ - idarəetmə probleminin qoyulması, zəruri informasiyanın toplanılması, qərarın işlənib hazırlanması, qərarın qəbul edilməsi, qəbul olunmuş qərarın icrasının təşkili, nəzarət və s. ayırd edirlər.

İdarəetmə prosesinin nə dərəcədə konkret diferensiasiyası ilə şərtlənən fərqli mövqelərin olması təbii sayılmalıdır. Zənnimizcə, ayrı-ayrı mövqelərdə 3 mərhələnin ayırd edilməsi ümumi cəhətdir və demək olar ki, heç kəsdə etiraz doğurmur:

1. Qərarın işlənib hazırlanması və qəbul olunması;
2. Qərarın icrasının təşkili;
3. İcranın yoxlanılması (nəzarət).

Sosial idarəetmə prosesini təşkilati struktur baxımından bir-biri ilə sıx əlaqədar olan bu üç mərhələdən ibarət sistem kimi təsəvvür etmək mümkündür. Bu sistem, şübhəsiz, ümumi xarakter daşıyır.

İdarəetmənin funksiyalarına münasibətdə də vahid mövqe formalaşmamışdır. Müasir elmi ədəbiyyatda ən müxtəlif funksiyalardan bəhs edilir: **planlaşdırma; təşkiletmə; sərəncamçılıq; motivləşdirmə; nəzarət; kommunikasiya; tədqiqetmə; qiymətləndirmə; qərarların qəbul olunması; işçi heyətin seçilməsi; danışıqlar aparılması və s.** İdarəetməyə dair ayrı-ayrı nəşrlərdə demək olar ki, idarəetmə funksiyaları sadalanır, lakin onların fərqi çox azdır.

Mütəxəssislərin fikrincə, Amerika menecmentində belə bir yanaşma üstünlük təşkil edir ki, idarəetmə fəaliyyətinin mühüm növlərini bir neçə anlayışda birləşdirməklə ifadə etmək olar. Hesab olunur ki, idarəetmə prosesi 4 funksiyadan ibarətdir: **planlaşdırma, təşkiletmə, motivləşdirmə, nəzarət.** Qeyd edilən bu funksiyalar əlaqələndirici proseslərlə - kommunikasiya və qərarların qəbulu prosesləri ilə birləşirlər.

Planlaşdırma bu məqamları nəzərdə tutur: bütövlükdə idarəetmə sisteminin, o cümlədən onun ayrı-ayrı hissələrinin elmi cəhətdən əsaslandırılmış inkişaf proqramının işlənib hazırlanması; həmin proqramı reallaşdırmaq sahəsində idarəetmə subyektlərinin məqsəd və vəzifələrinin müəyyənləşdirilməsi; proqramın zəruri ehtiyatlarla (maddi-maliyyə, əmək, təşkilati) təmin olunması; planlaşdırılan nəticələrə nail olmaq vasitələrinin müəyyən edilməsi.

Planlaşdırma proqnozlaşdırma ilə sıx bağlıdır, çünki idarəetmə sisteminin məqsədyönlü inkişafının təmin olunması həmin sistemin gələcək vəziyyətinin mümkün variantlarını işləyib hazırlamağı nəzərdə tutur.

Təşkiletmə idarəetmə subyektlərinin fəaliyyətinin çox mühüm növü olub, daha konkret məqsədlərə istiqamətlənir, idarəedən və idarəolunan sistemlərin formalaşmasını, onlar arasında münasibətlərin nizamlı sahmana salınmasını nəzərdə tutur. Təşkiletmə zərurət olduqda yeni idarəetmə orqanlarının, strukturlarının

yaradılması, kadrların seçilməsi və yerləşdirilməsi, müvafiq orqanların və vəzifəli şəxslərin səlahiyyətlərinin müəyyənləşdirilməsi, struktur məsələlərin həlli, idarəetmə münasibətləri iştirakçılarının qarşılıqlı təsir və əlaqə qaydalarının müəyyənləşdirilməsi və s. kimi məsələlər kompleksini əhatə edir.

Motivləşdirmə funksiyası qarşıya qoyulan və planda əksini tapan vəzifələrin təşkilat üzvləri tərəfindən yerinə yetirilməsində mühüm rol oynayır. Faktlar sübut edir ki, qədim zamanlardan işçilərə hədə, cəza və s. ilə, nisbətən az adama isə mükafatlarla təsir göstərmək imkanlarından istifadə olunmuşdur. XVIII əsrin sonundan etibarən belə bir inam möhkəmlənmişdir ki, adamların çox qazanmaq imkanı olduqda onlar daha səylə, daha yaxşı işləyirlər. Bu motivləşdirmə asan və sadə qavranılan məsələ hesab olunmuşdur. Tədricən insan münasibətlərinə diqqətin artması, Elton Meyonun eksperimentləri («Uestern Elektrik» zavodunda -ABŞ) sayəsində belə bir cəhət aydınlaşdı ki, insan hərəkətlərinin motivləşməsi əsasən iqtisadi amillərlə deyil, müxtəlif tələbatlarla şərtlənmişdir. Hazırda artıq dərk edilir ki, işçiləri effektiv motivləşdirmək üçün müəyyənləşdirmək vacibdir ki, hansı tələbatlar hansı işçilər üçün aktualdır, həmin tələbatları hansı işlə ödəmək mümkündür. Yaxşı təşkil olunmuş səmərəli əmək işçinin fəaliyyətini motivləşdirən çox mühüm amildir.

Nəzarət idarəetmə prosesinin daimi fəaliyyət göstərən komponentidir. İdarəetmə sisteminin nizamlı fəaliyyəti üçün nəzarətin üç aspektindən bəhs edirlər:

Birinci aspekt standartların müəyyənləşdirilməsidir. Bu, məlum zaman kəsiyində əldə ediləcək məqsədlərin dəqiq müəyyən olunmasını nəzərdə tutur, işlənib hazırlanan planlarda əsaslandırılır. İkinci aspekt məlum dövrdə əldə edilmiş nəticələrin ölçülməsi və gözlənilən nəticələrlə müqayisə edilməsidir. Üçüncü aspekt zərurət yarandıqda ilkin plandan ciddi kənara çıxmaları təshih etmək üçün fəaliyyət göstərməkdir.

Yuxarıda qeyd edilən funksiyaları sıx əlaqələndirən, onların qarşılıqlı asılılığını təmin edən iki xarakteristikaya -qərarların qəbuluna və kommunikasiyaya xüsusi diqqət yetirilməsi məqsədəuyğundur.

İdarəetmə qərarı rəhbərliklə tabelikdə olanlar arasındakı münasibətlərin mühüm ünsürüdür, hakimiyyətin təşkilatda reallaşdırılması mexanizmidir.

Sosial idarəetmədə qərarlar öz rəngarəngliyi ilə seçilir. Onları müəyyən əsaslara görə tiplərə ayırmaq olar. Məzmununa və xarakterinə görə aşağıdakı tipləri qeyd etmək olar:

**a)** sərt determinə edilmiş qərarlar - onların məzmunu normativ sənədlərlə irəlicədən müəyyən olunur;

**b)** təşəbbüs xarakterli qərarlar - onlar idarəetmə orqanlarının təşəbbüsü ilə qəbul olunur və qərar qəbul edənin yaradıcı töhfəsini nəzərdə tutur;

**c)** situasiya xarakterli qərarlar - onlar əsasən epizodik və ya lokal xarakter daşıyır;

**ç)** yenidən təşkiletmə xarakterli qərarlar - onlar təşkilati strukturların dəyişilməsinə, yeniliklərin tətbiqinə istiqamətlənmişlər.

Qərarların qəbul olunmasında iştirak dərəcəsinə görə təkbaşına və qrup halında qəbul edilmiş qərarları fərqləndirmək olar.

Fəaliyyət müddətinə görə qısamüddətli və uzunmüddətli qərarları, fəaliyyət sferasına görə təşkilati, kadr,

əmək, məişət və s. qərarları ayırd etmək olar.

Qərarların qəbul olunması prosesi müəyyən mərhələləri əhatə edir: məqsəd və

vəzifələr haqqında subyektiv təsəvvürün formalaşması; mümkün nəticələrin qiymətləndirilməsi; nəticələrə təsir edən mümkün şəraitin proqnozlaşdırılması; alternativin seçilməsi.

Səmərəli və obyektiv qərarlar qəbul etmək, problemin mahiyyətini və miqyaslarını aydın təsəvvür etmək üçün adekvat, dəqiq informasiya olması vacibdir. Belə informasiyanı əldə etməyin üsulu kommunikasiyadır. Kommunikasiya informasiya mübadiləsi prosesidir. İdarəetmə obyektinin, idarəedici sistemin və xarici mühitin vəziyyəti barəsində məlumatların məcmusu məhz idarəetmə informasiyasıdır. Bunsuz qəbul olunan qərarların əsaslandırılması və reallaşdırılması mümkün deyildir. İnformasiya idarəetmə prosesinin bütün mərhələlərində, bütün idarəetmə funksiyalarının reallaşdırılmasında zəruri olan ünsürdür.

## 4. Sosial idarəetmə metodları

Sosial idarəetmənin metodları ayrıca işçiyə, qrupa və bütöv kollektivə məqsədyönlü təsir metodlarının kompleksidir. Aydın məsələdir ki, idarəetmənin qeyd edilən səviyyələrindən hər birinin öz spesifik problemləri mövcuddur. Ona görə də tətbiq olunan metodlar bir-birindən fərqlənir. Bu metodların bəziləri bütün səviyyələri əhatə edir, bəzilərinin tətbiqi isə onların ancaq biri ilə məhdudlaşır. Məsələn, ayrıca bir işçiyə münasibətdə fərdin davranışına təsir göstərə bilən aşağıdakı metodları tətbiq etmək olar:

**a)** birbaşa təsir (işçiyə müəyyən iş icra etmək üçün əmr, sərəncam, tapşırıq vermək olar);

**b)** motivlər, mənafelər və tələbatlar vasitəsilə təsir (stimullaşdırma);

**c)** dəyərlər sistemi vasitəsilə təsir (tərbiyə, təhsil və s.);

**ç)** sosial mühit vasitəsilə təsir (əmək şəraitinin yeniləşməsi, inzibati və qeyri-formal təşkilatda statusun dəyişilməsi və s.).

Müəssisə kollektivinə daxil olan qrupa münasibətdə sosial idarəetmə metodları belə bölüşdürülə bilər:

**a)** qrupun tərkibinin məqsədyönlü formalaşdırılması (məsələn, qrupun peşə-ixtisas əlamətlərinə görə formalaşması, iş yerlərinin sayına və xüsusiyyətlərinə görə mobil qrupların yaradılması və s.); **b)** qrupun sıx vəhdətinin təmin edilməsi (sağlam rəqabətin təşkili, rəhbərlik üslubunun təkmilləşdirilməsi, sosial-psixoloji amillərdən istifadə olunması və s. vasitəsilə bunu həyata keçirmək mümkündür). Bütövlükdə kollektiv, təşkilat səviyyəsində aşağıdakı metodlardan istifadə oluna bilər:

**a)** formal və qeyri-formal strukturların uzlaşdırılması. Bu baxımdan planlaşdırılmış və həqiqi, real əlaqələr, normalar arasındakı ziddiyyətlərin aradan qaldırılması xüsusi məna kəsb edir.

**b)** idarəetmənin demokratikləşməsi. Bu baxımdan ictimai təşkilatların rolunun yüksəldilməsi, ümumi qərarların işlənib hazırlanmasına işçilərin cəlb olunması, bəzi rəhbərlərin seçkili olması qaydasının tətbiqi, əmək fəallığının inkişaf etdirilməsi və s. özünü tamamilə doğruldur.

**c)** sosial planlaşdırma. İşçilərin ixtisasının artırılması və rifahının yaxşılaşdırılması, kollektivin sosial strukturunun təkmilləşdirilməsi, adamların sosial müdafiəsinə kömək edən tədbirlərin həyata keçirilməsi və s. kollektivin fəaliyyətinə səmərəli təsir göstərir. Müəssisədə sosial planlaşdırma sosial proseslərin inkişafının məqsəd, vəzifə və göstəricilərini, habelə onları həyata keçirmək vasitələrini müəyyənləşdirməyin elmi cəhətdən əsaslandırılmasını təmin etmək deməkdir.

Yeri gəlmişkən qeyd edək ki, elmi ədəbiyyatda təşkilatın idarə edilməsi baxımından xarakterinə görə aşağıdakı metodların ayırd edilməsinə tez-tez rast gəlmək mümkündür:

**a)** inzibati-təşkilati metodlar; bu metodlar dövlətin iradəsinə və nüfuzuna istinad edir və idarəetmə obyektinə bilavasitə təsir göstərir. İdarəetmənin inzibati-təşkilati metodlarının xarakter xüsusiyyətləri sırasına bunlar aid edilə bilər: operativlik; idarə olunan obyektə birbaşa təsir; göstərişlərin, sərəncamların, əmrlərin və digər inzibati qərarların yerinə yetirilməsinin məcburi xarakteri; yerinə yetirilməyən əmr və sərəncamlar üçün ciddi surətdə müəyyən edilmiş məsuliyyət; səhv qərarların qəbulu üçün fərdi məsuliyyət. Bu metodların üstün cəhətlərinə baxmayaraq, onların tətbiqində müəyyən qüsurlar da özünü göstərir: qərarların qəbulun-a özbaşınalıq, volyuntarizm və bürokratizm təzahürləri.

**b)** iqtisadi metodlar; bu metodlar idarəetmədə və təsərrüfat fəaliyyətində iqtisadi qanunlardan və münasibətlərdən səmərəli istifadəni təmin edən tədbirlərin məcmusudur. İqtisadi metodların reallaşdırılmasının əsasını nəticə etibarilə adamların maddi maraqlarının aşkara çıxarılması və on-ardan istifadə olunması təşkil edir; bu maraqlar işçiləri iqtisadi qanunların tələblərini yerinə yetirməyə sövq edir.

sosial-psixoloji metodlar; bu metodlar ayrı-ayrı işçilərin və kollektivlərin fərdi

xarakteristikalarını nəzərə almaqla tətbiq edilən metodlardır. Sosial-psixoloji metodlardan səmərəli istifadə olunması şəxsiyyətin və kollektivin mövcud potensialının azad, sərbəst inkişafına, onların fəaliyyətinin aktiv yaradıcı əsasda qurulmasına kömək edir. Ona görə də hər bir rəhbər işçi idarəetmənin sosial - psixoloji əsaslarına yiyələnməyə ciddi səy göstərməlidir. İşçinin davranışı, onun digər şəxslərlə qarşılıqlı təsiri, ünsiyyəti və s. hərtərəfli öyrənilməlidir. Bu halda şəxsiyyət ünsiyyətin mühüm ünsürü, kollektiv fəaliyyətin iştirakçısı, çoxsaylı qrupların üzvü kimi nəzərdən keçirilməlidir. Lakin kiçik kollektivlərin, böyük sosial birliklərin, kütləvi proseslərin xüsusiyyətlərinə də diqqət yetirilməlidir.

## Mühazirə 11. Ailənin və mənəvi həyatın sosiologiyası

1. Ailənin mahiyyəti
2. Ailənin funksiyaları
3. Ailə strukturlarınm tipologiyası
4. Nikah anlayışı və boşanma
5. Təhsilin sosiologiyası
6. Elmin sosiologiyası
7. Dinin sosiologiyası
8. Mədəniyyətin sosiologiyası

### 1. Ailənin mahiyyəti

Ailə elə çoxaspektli sosial qurumdur ki, sosiologiyanın bütün bölmələrində ondan bəhs olunması təəccüblü deyil. O, özündə sosial təşkilatın, sosial strukturun, institutun və kiçik qrupun xassələrini təcəssüm etdirir. Ailə sosiologiyası daha geniş problemlər dairəsinin - sosiallaşdırmanın, təhsilin, siyasətin və hüququn, əməyin, mədəniyyətin və s. öyrənilməsi predmetinə daxildir; o, sosial nəzarət və sosial nizamsızlıq, sosial mobillik, miqrasiya və demoqrafik dəyişikliklər proseslərini daha mükəmməl başa düşməyə imkan verir. İstehsal və istehlakın əksər sferalarında sosioloji tədqiqatlar ailəyə istinadsız mümkün deyildir.

Ailəyə maraq geniş məzmunlu çoxfunksionallığın öyrənilməsində əlavə unikal vasitəçi roluna idrakı maraqla dəstəklənir; onun bir fenomen kimi sosiomədəni, sərhəd mahiyyətli, sosiumun istənilən konstruksiyalaşdırılması zamanı strukturların kəsişməsində, makro və mikroanalizin sərhəddində qərarlaşan təbiəti xüsusilə əhəmiyyətlidir. Ailə sosietal proseslərin mikromühitin sosial davranışının nəticələrinə reduksiyasını həyata keçirmək və empirik yolla tədqiq olunan faktlarda qlobal səciyyəli problemləri müəyyənləşdirmək imkanlarına malikdir.

Bu baxımdan ailənin tərifləri onun universallığının müxtəlif

görüntülərini ehtiva etməyə çalışmalı və burada, hər şeydən əvvəl, ailənin sosial instituta və sosial qrupa xas əlamətləri definisiyada toqquşmamalı, əksinə, üst-üstə düşməlidir. Ümumailə fəaliyyəti, yaxud ailə davranışı haqqında təsəvvürlərə müraciət edərkən, ailənin, nikahını və qohumluğun müxtəlif keyfiyyətli xüsusiyyətlərini birləşdirən qənaət-bəxş ailə defmisiyaları əldə etmək mümkündür.

Ailə yaradan münasibətlər kimi ailənin həyat fəaliyyətinin müxtəlif tərəflərini vurğulayan çoxsaylı ailə definisiyaları mövcuddur (məsələn, ailə bir-birini sevən insanlar, yaxud ümumi əcdadları olan və ya bir yerdə yaşayan şəxslər qrupudur; ailənin əlamətlərinin əhatəli sıralanması da bu qəbildəndir). Əhalinin nəsilartırma meyarlarını və sosial-psixoloji tamlığını nəzərə alan ailə definisiyaları arasında sosioloq A. Q. Xarçevin verdiyi tərifə görə, **ailə həyat yoldaşları, valideynlər və övladlar arasında tarixən konkret münasibətlər sistemi, üzvləri nikah və qohumluq əlaqələri, ümumi məişət və qarşılıqlı məsuliyyətlə birləşmiş, sosial vacibliyi, əhalinin fiziki və mənəvi artımına cəmiyyətin ehtiyacı ilə şərtlənən kiçik qrupdur.**

Ailənin hüquqi əsası olan nikah kişi və qadın arasında əlaqələrin, birgəyaşayışın və seksual portnyorluğun, uşağın dünyaya gəlməsi ilə nəticələnən formalarının leqitim etirafı kimi çıxış edir. Ailənin mahiyyətinin daha dolğun anlaşılması üçün ailənin məkanda lokallaşmasını (yaşayış yeri, ev, mülkiyyət) və ailənin iqtisadi bünövrəsini - valideyn və uşaqların məhdud məişət və iaşə hüdudlarından kənara çıxan iqtisadi əsaslarını nəzərdə tutmaq lazımdır.

Beləliklə, ailə ər-arvadlıq-valideynlik-qohumluq əlaqələri ilə bağlanmış və bununla əhali artımını və ailə ənənələrini, varisliyini, həmçinin uşaqların sosiallaşdırılmasını və ailə üzvlərinin mövcudluğunu təmin edən, vahid ümumailə fəaliyyətinə əsaslanan insan toplumudur.

Yalnız ər-arvadlıq - valideynlik - qohumluq üçər münasibətlərinin varlığı ailənin yaradılmasından ciddi formada danışmağa imkan verir. Bu münasibətlərdən birinin, yaxud ikisinin olmaması haçansa məhz ailə olmuş qrupların fraqmentarlığını səciyyələndirir.

Belə vəziyyət ölkənin bəzi ailələrində müşahidə olunur. Bundan əlavə, ailə qurmayan insanlar ya ər-arvadlıq münasibətləri olmayan valideynlərdən, ya da faktik, yaxud legitim övladsız nikahla yaşayanlardan ibarətdir. Bu fraqmentar «qırıq» ailə formasına «ailə qrupu» termini uyğun gəlir: burada birgə ev təsərrüfatı və yalnız qohumluq, yaxud valideynlik və ya ər-arvadlıq əlaqələri ilə birləşən insanlar qrupu nəzərdə tutulur.

Adətən ər-arvad cütlüyü ailənin özəyi hesab edilir və ailələrin tərkibinin bütün statistik təsnifatları bu «özəyə» uşaqların, qohumların, qaynana və qaynataların əlavə olunmasından asılı olaraq aparılır. Sosioloji baxımdan ailənin əsas tipini - əhali arasında daha çox yayılmış, sadalanan münasibətlərin üçəp vəhdəti bərqərar olan ailəni əsas götürmək düzgündür. Üç münasibətdən biri olmayanda yaranan

ailəvi birlikləri isə, yuxarıda deyildiyi kimi, ailə qrupları adlandırmaq məqsədə müvafiqdir. Bu dəqiqləşdirmə onunla əlaqədardır ki, son zamanlar Qərbdə və bəzi hallarda ölkəmizdə ailə sosiologiyasında onun mahiyyətini üç əlamətdən hər hansı biri ilə, əsasən ər-arvadlıq, yaxud hətta portnyorluqla bağlamaq meylləri nəzərə çarpır. Təsadüfi deyildir ki, M. Sasmen və S. Stenmetsin Amerika ensiklopediyasında nikah və ailəyə dair bir neçə fəsli ailənin «alternativ formalarına», yəni

«ailə qrupları» adlandırılması daha dəqiq olacaq formaya həsr etmişlər, hərçənd ki, bu fəsillər faktik olaraq ər- arvadlığa və ya daha çox portnyorluğa və birgəyaşayışa aiddir.

Ailənin formalaşması bir sıra mərhələlərdən keçir. Onların içərisində ən mühümləri aşağıdakılardır: 1. nikahın bağlanması - ailənin yaranması; 2. uşaq doğumunun başlanması - ilk uşağın doğulması; 3. uşaq doğumunun sona çatması - sonuncu uşağın doğulması; 4. «boş yuva» - sonuncu uşağın ailəni tərk etməsi; 5. ailənin mövcudluğunun sona çatması - ərin və ya arvadın vəfat etməsi. Hər bir mərhələdə ailə ancaq özünə xas olan sosial və iqtisadi xüsusiyyətlərə malik olur.

Ailə sosial institut kimi cəmiyyətin formalaşması ilə eyni vaxtda meydana gəlmişdir. Həmin dövrdə ailənin fəaliyyəti normativ dəyərlərlə tənzimlənirdi. Dövlətin yaranması ilə ailə münasibətlərinin nizamlanması hüquqi xarakter daşımağa başladı. Nikahın hüquqi qeydiyyatı yalnız ər-arvadın yox, həm də onların birgə həyatını sanksiyalaşdıran dövlətin üzərində müəyyən öhdəliklər qoyur. Bundan sonra sosial nəzarət və sanksiyalar yalnız ictimai rəylə deyil, həm də dövlət orqanları tərəfindən həyata keçirilir. Yeri gəlmişkən qeyd edək ki, bu, cəmiyyətdə ailənin dağılmasının qarşısının alınmasında və onun sabitliyinin güclənməsində mühüm amillərdən biridir.

## 2. Ailənin funksiyaları

Ailənin funksiyalarından danışarkən yadda saxlamaq lazımdır ki, söhbət cəmiyyət səviyyəsində meydana çıxan, ümumi əhəmiyyətli nəticələrə malik olan və cəmiyyətin digər institutları sırasında ailənin rolunu sosial institut kimi müəyyənləşdirən milyonlarla ailənin həyat fəaliyyətinin sosietal nəticələrindən gedir.[1] Vurğulamaq zəruridir ki, bu, onların həyata keçirilməsi üzrə ixtisaslaşmış institutlara sanki təhkim olunmuş cəmiyyət funksiyalarıdır. Bu səbəbdən də hər bir institutun öz təkrarsızlığını, profilini müəyyənləşdirən əsas funksiyaları vardır. Ailənin funksiyalarını əsas və ikinci dərəcəlilərə bölmək olmaz, onların hamısı əsasdır, lakin ailəni digər institutlardan fərqləndirən funksiyaları seçmək zərurəti ailənin spesifik və qeyri-spesifik funksiyalarını vurğulamağa gətirib çıxarır. A. Q. Xarçevə görə, ailənin spesifik funksiyaları onun mahiyyətindən irəli gəlir və sosial hadisə kimi onun xüsusiyyətlərini əks etdirir, qeyri-spesifik funksiyalar isə müəyyən tarixi şəraitdə ailənin onları həyata keçirməyə məcbur olduğu, yaxud uyğunlaşdığı funksiyalardır.

Ailənin **doğum (reproduktiv funksiya), uşaqların himayəsi (ekzistensial funksiya), onların tərbiyəsi (sosiallaşdırma funksiyası)** kimi spesifik funksiyaları cəmiyyətin bütün inkişaf mərhələrində qalır, hərçənd tarixin gedişində ailə və cəmiyyət arasındakı əlaqənin xarakteri dəyişikliklərə uğraya bilər. İnsan cəmiyyəti daim əhali artımına ehtiyac duyduğundan, uşaqların doğumu və sosiallaşdırılmasının təşkilinin sosial forması kimi ailəyə sosial tələbat həmişə aktualdır. Bu həm də elə özünəməxsus formadadır ki, bu zaman həmin sosietal funksiyaların həyata keçirilməsi ailəvi həyat tərzinə fərdlərin şəxsi motivasiyası şərtilə, hər hansı xarici məcburiyyət və təzyiqsiz baş verir.

Ailə və uşaqlara şəxsi tələbat, nikah və ailəyə dair şəxsi arzu və meyl çox mühüm şərtdir. Bu o deməkdir ki, ailə və cəmiyyətin mövcudluğu yalnız milyonlarla insanın ailəvi həyat tərzi və uşaqlara tələbatı ilə şərtlənir, həm də yalnız bu səbəbdən əhalinin artımı baş verir. Əhali artımının sosial təşkilini insanların şəxsi motivlərinə deyil, təhrikə əsaslanan

digər formalarını ağıla gətirmək, təsəvvür etmək mümkün olsa da, bu formalar artıq ənənəvi sosial-mədəni mənada tarixdən məlum olan bütün ailə tiplərinə alternativ ailə sayıla bilməz.

Yuxarıda deyilənlər ictimai həyatın dəyişməsinin elə potensial imkanlarını səciyyələndirir ki, bu zaman əhali artımına olan sosial ehtiyac şəxsiyyətin sosial davranışını istənilən formalarını seçmək azadlığı ilə ziddiyyətə girir. Belə təzadlı perspektivin nə qədər real olduğunu məhz ailə sosiologiyası cavablandırmalıdır, axı, onun-ailənin
«mütərəqqi» inkişafı nəzəriyyələrindən əlavə, həm də ailə «böhranı» nəzəriyyələri vardır.

Ailənin «cəmiyyətin bütün inkişaf şəraitində» öz spesifik funksiyalarını «həmişə» saxlaması haqqında tezis nisbidir. Təəssüf, amma sosiumun prinsipcə elə dəyişməsi mümkündür ki, bu zaman insanların fərdi istəkləri əleyhinə olan sosial davranış növlərinə məcbur edilməsi tədbirləri sosial baxımdan məqbul sayıla bilər.

Belə nəticənin mümkünlüyü gələcəyin bədbin və ya nikbin qiymətləndirilməsindən deyil, ailənin uşaqlara ehtiyacının tarixən azalmasından və cəmiyyətin sadəcə əhali artımına ehtiyacı olmasından asılıdır.

Ər-arvadın uşaqlara olan şəxsi tələbatı ilə sosiumun işçilərə olan şəxssizləşdirilmiş tələbatı arasındakı ziddiyyəti (razılıq olmamasının, uyğunsuzluğun, depopulyasiyanın kökləri məhz buradadır) aradan qaldıran təkamül nəticəsində meydana çıxan institut kimi ailənin gələcəyi sosial sistemin ailəni, ər-arvadı onun səciyyəvi funksiyalarının gerçəkləşdirilməsinə şəxsən cəlb edilməsi ilə birlikdə qoruyub saxlaya bilməsindən asılıdır.

Ailənin mülkiyyətin toplanması və ötürülməsi, statusu, istehsal və istehlakın, ev təsərrüfatının, istirahət və asudə vaxtın təşkili, ailə üzvlərinin sağlamlığı və rifahı, gərginliyin aradan qaldırılması və hər kəsin Mənlinin özünümühafizəsi ilə bağlı mikroiqlimin yaradılması və s. haqqında qayğı ilə əlaqədar qeyri-səciyyəvi funksiyaları

ailə ilə cəmiyyət arasında əlaqənin tarixi xarakterini əks etdirir, ailədə uşaqların doğulması, saxlanması və tərbiyəsinin məhz necə baş verdiyinin tarixən keçici görüntüsünü açıqlayır. Odur ki, ailə dəyişiklikləri müxtəlif qeyri-səciyyəvi funksiyaların tarixi mərhələlərin müqayisəsində ən nəzərə çarpan şəkildə aşkarlanır: yeni şəraitdə onlar modifikasiya olur, məhdudlaşır və ya genişlənir, tam və ya qismən yerinə yetirilir, hətta tamamilə yox olur.

Ailə münasibətlərinin, ailəvi rolların təhlili onun funksiyalarını dərk etmək üçün mühüm əhəmiyyət kəsb edir. Ailəvi rol insanın cəmiyyətdəki sosial rollarından biridir. O, ər ilə arvadın ailədə yeri və funksiyaları ilə müəyyən olunur və izdivac (ər, arvad), valideyn (ata, ana), uşaq (oğul, qız, qardaş, bacı), nəsildaxili (baba, nənə) və s. rollara bölünür. Ailəvi rolun icrası bir sıra şərtlərdən asılıdır. Ailənin hər bir üzvü özü üçün dəqiq müəyyən etməlidir ki, bu və ya digər davranış ona hansı qaydaları, normaları diktə edir. Ailədə yaşına görə, eləcə də, rol statusuna görə hamıdan böyük, məsələn, ailə başçısı - ər olmasına baxmayaraq, əgər o, zəif iradəlidirsə, müasir şəraitdə bu rolda müvəffəqiyyət qazana bilməyəcəkdir. Ailəni uğurla idarə etmək üçün rolun şəraitin tələblərinə müvafiq surətdə dəyişkən olması və bununla bağlı rolda davranışın çevikliyi mühüm əhəmiyyət kəsb edir. Ailədə sözügedən funksiyaların yerinə yetirilməsi zamanı rol münaqişələrinin yaranması da müşahidə oluna bilər.

XX əsrin əvvəlləri üçün sosial institutlar ailə ilə daha çox qovuşaraq, təhsil və tərbiyə (məktəb və uşaq bağçaları), müdafiə və mühafizə (polis və ordu), qidalanma, geyimlə təchizat, asudə vaxt (xidmət sferası), rifah və sosial statusun ötürülməsi (industrial muzdlu əmək) funksiyalarını öz üzərinə götürürlər.

### 3. Ailə strukturlarının tipologiyası

Ailə strukturlarının tipləri rəngarəngdir və izdivacın, qohumluğun və valideyn olmağın xarakterindən asılıdır.

Monoqam izdivac - bu, bir kişinin bir qadınla nikahıdır. Bəşər tarixində monoqamiyaya poliqamiyadan - bir nəfərin bir neçə nəfərlə nikahından 5 dəfə az rast gəlinir. Həm də poliqamiya iki cür olur: poliginiya - bir kişinin bir neçə qadınla nikahı və poliandriya - bir qadının bir neçə kişi ilə nikahı.

Ailə qruplarının strukturlaşdırılması zamanı həm izdivac, həm də qohumluq sistemləri nəzərə alınırsa, nikahın (poliqamiyanın) ekzotik formaları meydana çıxır: fraternal poliandriya (bir neçə qardaşın bir qadınla nikahı) və sororal poliginiya (bir neçə bacının bir ərlə nikahı).

Ekzoqam nikahlar qrup nikahlarına aiddir ki, bu zaman ər və ya arvadı həmin qrupdarı kənarda, başqa nəslin üzvləri arasında axtarırlar. Endoqam nikahlar iki ekzoqam nəsildən ibarət olan tayfa daxilində bağlanır. Nikah nəsillərinin üzvləri arasında cinsi əlaqələrə qadağa tam aqamiya doğurur, qismən aqamiya isə müəyyən dövrdə müəyyən vaxt ərzində (məsələn, mövsümi işlər zamanı cinsi tabu əsasında) seksual münasibətlərdən çəkinmə ilə səciyyələnir. Bu terminologiyadan, adətən, ailə və nikahın mənşəyi məsələlərinin, həmçinin bəzi davranış problemlərinin müzakirəsi zamanı istifadə edilir və onlar qrup halında nikahı fərdi nikahdan fərqləndirməkdə yardımçı olur.

Ailə strukturlarının valideynlik-izdivac-qohumluq meyarları ilə müəyyənləşdirilən tipləri rəngarəngdir və ata, yaxud ana xətlərindən biri ilə bağlı hansısa xüsusiyyətləri ön

plana çəkir. Bununla əlaqədar ailə və qohumluq etnososiologiyasında və ailə sosiologiyasında sosial və fizioloji atalıq, yaxud analıq fərqləndirilir. Buradan da ailə qruplarının patri - və ya matrilokalizasiyası əsasında patrilineal və matrilineal ailələr fərqləndirilir ki, bunlarda soyad, əmlak, sosial vəziyyətə vərəsəlik ya ata, ya da ana xətti üzrə olur.[1]

Hakimiyyət meyarına əsasən ailə «dövlətinin» başçısının ata olduğu patriarxal və ən yüksək nüfuz və təsirə ananın malik olduğu matriarxal ailələr fərqləndirilir. Dəqiq fərqlənən ailə başçısının olmadığı, hakimiyyətin ata ilə ana arasında durumdan asılı olduğu hallarda eqalitar ailələrdən danışmaq olar.

Lakin ailədə hakimiyyət və nüfuzdan, qərarların birgə, yaxud avtoritar qəbulundan asılı olaraq, ailə strukturlarının daha çox saymı fərqləndirmək mümkündür. Belə ki, amerikalı sosioloq Morris Zeldiç ailənin bir nüfuz strukturunun və ərlə arvaddan birinin qərar qəbul etdiyi yuxarıda göstərilən tiplərindən başqa, ailə qərarlarının birgə müzakirə olunduğu partnyorluq ailəsini də fərqləndirir ki, ər daha üstün nüfuza malik olduğu halda, bu, ərin, arvad üstün olduğu halda isə qadının dominantlıq etdiyi ailə olacaqdır. Partnyorluğun sinkratik tipi ər-arvad bərabər nüfuza malik olduğu halda meydana çıxacaqdır. Bundan başqa, birdən çox nüfuz strukturuna malik ailələr də fərqləndirilir, həm də qərarların birgə müzakirəsi zamanı kollegial ailə yaranır, qərarın ər-arvaddan biri tərəfindən qəbul olunması isə avtonom ailə adlandırılır.

Daha sonra ərlə arvadın, onların valideynlərinin, yaxud qohumlarının sosial durumuna görə ailələr homogen (ər-arvad təxminən eyni sosial stratdan olur), yaxud heterogen (ərlə arvad müxtəlif sosial qrup, kasta və ya sinifdən olur) ola bilər. Ailə və nikahların sosial və demoqrafik əlamətlərə görə daha geniş səciyyələndirilməsi üçün

milliyyət, yaş, peşə, təhsil və s. baxımından eynicinsli homoqam ailələr fərqləndirilir ki, bunlarda sosial- demoqrafik indikatorlar üzrə fərqlər müşahidə edilir.

Məkan-ərazi lokallaşmasına görə ailələr patrilokal (təzə evlənənlər yaşamaq üçün ərin atasının evinə köçürlər) və matrilokal (təzə evlənənlər arvadın valideynlərinin evində yaşayırlar) olur. Müasir şəhər ailələrində, əksər hallarda, ailələrin unilokallığından danışmaq lazım gəlir, çünki mənzilin olması gənc ailənin lokallaşmasını müəyyənləşdirir.

Müasir urbanizə olunmuş aqlomerasiyalarda ən geniş yayılan nuklear - valideynlər və övladlardan, yəni iki nəsildən ibarət ailələrdir. Nuklear ailədə üçdən artıq olmayan mövqe (ata-ər, ana-arvad, oğul-qardaş və ya qız-bacı) var. Mürəkkəb ailə ümumi təsərrüfatı olan iki və daha artıq ailəni birləşdirən, üç və daha artıq nəsildən (baba-nənə, valideynlər və övladlardan, nəvələrdən) ibarət olur.

Təkrar ailələrdə (təkrar, birinci olmayan nikaha əsaslanan) ər-arvadla birlikdə həmin nikahdan olan övladlarla yanaşı, ər və ya arvadın yeni ailəyə özü ilə gətirdiyi övladlar da ola bilir. Boşanmaların sayının artması əvvəllər, praktiki olaraq, ər və ya arvaddan hər hansı birinin vəfatı nəticəsində meydana çıxan belə ailələrin sayının artmasına səbəb olmuşdur. Keçmişdə təkrar ailələrdə uşaqlar bir ana və iki ataya (bir ata və iki anaya) indikindən xeyli az hallarda malik olurdu. Müvafiq olaraq, yalnız doğma valideynləri olan övladlarla, onlardan başqa, həm də ögey ata və ya anaları olan övladlar arasında qohumluq münasibətləri də mürəkkəbləşmişdir.

## 4. Nikah anlayışı və boşanma

**Nikah - kişi ilə qadın arasında cəmiyyət tərəfindən təsdiqlənən və onların bir-birinə və onların uşaqlarına nəzərən hüqıq və vəzifələrini tənzimləyən münasibətlər formasıdır.**

Hüquqi baxımdan nikah - kişi ilə qadının ailə qurmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınan könüllü, bərabərhüquqlu ittifaqıdır. Ölkəmizdə yalnız vətəndaşlıq aktlarının dövlət qeydiyyatı (VADQ) orqanlarında bağlanmış nikah etibarlı hesab olunur. Əgər nikah ailənin əsası olmasaydı, o da dostluq kimi, qanunvericiliyin predmeti olmazdı. Hal-hazırda nikahın bağlanması Azərbaycan Respublikasının Ailə məcəlləsi ilə tənzimlənir.

Sosioloji baxımdan, nikah münasibətlərinin rəsmi qeydiyyatının, onların hüquqi rəsmiləşdirilməsinin olub- olmaması ailənin sosial institut kimi vəziyyətinin çox mühüm göstəricisidir. Son onilliklər ərzində müşahidə olunan nikahın rəsmi qeydiyyatından imtina edilməsi, birgə yaşamanın yayılması ailənin dərinləşməkdə olan böhranına, ailə dəyərlərinin tənəzzülünə şəhadət edir. Bütün bunların nəticəsi kimi cəmiyyətdə uğursuzluq kəskinləşir, sosial davranışın deviant formaları artır. Məsələ heç də yalnız onda deyil ki, dünyanın bir sıra ölkələrində (o cümlədən Azərbaycanda da) nikahdankənar doğulmaların sayı və payı artır, hərçənd bu, öz-özlüyündə, ilk növbədə «ana» ailələri adlanan ailələrdən olan uşaqların natamam sosiallaşması ilə bağlı çoxsaylı sosial problemlər yaradır. Nikah münasibətlərini qanuniləşdirmədən birgə yaşamaq imkanının özü bir çox insanların şüurunda qanuni nikahın və ailənin sosial təsisatlar kimi, birgə yaşamanın yeganə normativ forması kimi dəyərini kiçildir.

Nikahın bağlanması nikah davranışının, yəni məqsədi nikaha ehtiyacın ödənməsi olan davranışın, nikah tərəfdaşının seçilməsi ilə bağlı davranışın son mərhələsidir.

Nikah seçimi dedikdə, nəticə etibarilə mümkün mülki nikah tərəfdaşlarının məcmusundan (onu bəzən nikah dairəsi də adlandırırlar) bu və ya digər yolla hər bir konkret şəraitdə yeganə olan tərəfdaşın seçilməsi nəzərdə tutulur ki, o da ər (arvad) və ya birgə yaşanılacaq şəxs olur.

Nikah seçimi prosesi tarixən konkret prosesdir. O, cəmiyyətdə mövcud olan iqtisadi, sosial, sosial-mədəni şəraitdən və digər şərtlərdən asılıdır. Nikah seçimi prosesinin əsas xüsusiyyətləri onunla bağlıdır ki, müxtəlif mədəniyyətlərdə və tarixi inkişafın müxtəlif mərhələlərində istər mümkün seçim imkanı, istərsə də fərdi seçim azadlığının dərəcəsi müxtəlifdir.

Birinci münasibətdə, yəni nikah tərəfdaşının seçimlərinin mümkün imkanının müəyyənləşdirilməsində bütün mədəniyyətlər bir-birindən təkrar nikahlara yol verilib-verilməməsi ilə fərqlənir. Əgər təkrar nikahlara, seriyalı monoqamiyaya yol verilirsə, onda nikah tərəfdaşının seçimi zamanı aparılan məcmu çox geniş olur və özündə həm nikahda olanları, həm də nikahda olmayanları ehtiva edir.

Burada mahiyyət ondan ibarətdir ki, bəzi mədəniyyətlərdə kişi və qadının nikahda olub-olmamasından asılı olmayaraq, nikah onlar üçün daim mümkün olur. Amerika sosioloqu B. Farberin yazdığı kimi, hər bir insan, ən azı nəzəri cəhətdən həmişə əks cinsdən olan şəxs üçün potensial ər və ya arvaddır. Burada mühüm cəhət odur ki, nikahda olmaq insanın daha sonrakı nikahları bağlamaq imkanını qətiyyən məhdudlaşdırmır.

Əksinə, təkrar nikahlara yol verilməyən mədəniyyətlərdə, ənənəvi, sərt monoqamiya mədəniyyətlərində (məsələn, islamda) mümkün seçim imkanı özündə artıq nikahda olanları və hətta əvvəllər nikahda olmayanları ehtiva etmir. İnsan bu mərhələyə qanunla müəyyən edilən kamilliyə çatdıqda daxil olur.

Boşanmanın səbəbləri barədə məsələ hələ də kifayət qədər dolğun öyrənilməmişdir. Boşanmanı sosial fenomen kimi ailə sosiologiyasının «boşanmanın sosiologiyası» adlanan bölməsi öyrənir. Bu elmin predmeti boşanma hərəkətləridir. Bu mövzu çərçivəsində boşanma hərəkətləri və boşanma amilləri barədə məsələni qısa şəkildə nəzərdən keçirməklə kifayətlənəcəyik.

Boşanmanın səviyyəsini müəyyən edən mühüm amillərdən biri ailə-nikah qanunvericiliyidir.

Belə ki, XX əsrin əvvəllərində Azərbaycanda boşanmalar, məlum olduğu kimi, çox nadir hadisə idi. Məsələ heç də onda deyil ki, boşanma o zamankı əxlaq və sosial normalara zidd idi. O zaman qüvvədə olan qanunvericilik boşanmanın mümkünlüyünü kəskin şəkildə məhdudlaşdırırdı. Boşanmaya ər-arvaddan birinin xahişi üzrə yalnız bir neçə müstəsna səbəb olduqda icazə verilirdi: ərin və ya arvadın zinakarlıq etdiyi və ya ərin (və ya arvadın)
«nikahda cinsi əlaqəyə» qabil olmaması sübuta yetirildiyi halda; ər-arvaddan birinin cinayət məsuliyyətinə cəlb olunaraq ən azı üç il müddətinə azadlıqdan məhrum edilməsi halında; ər-arvaddan birinin xəbərsiz itkin düşmüş hesab edilməsi halında və s.[2]

Məlumdur ki, 1990-cı illərdə Dağlıq Qarabağda erməni separatçılarının fəaliyyəti və Ermənistanın respublikamıza təcavüzü ilə əlaqədar olaraq boşanmanın kəskin sıçrayışı müşahidə olunmuşdu. 1965-ci ildə 39077, 1990-cı ilə isə 73119 nikah bağlanmış, boşanmaların sayı isə müvafiq olaraq 3537, 14040 olmuş, başqa sözlə, bu müddətdə boşanmaların sayı bağlanan nikahlara nisbətdə 2,1 dəfə artmışdır.[3] Adətən, normal şəraitdə belə proseslər baş vermir. Doğrudan da, belə kəskin sıçrayışın səbəbi sözügedən təcavüzlə yanaşı, boşanma haqqında qanunvericilikdə boşanma prosedurunu əhəmiyyətli dərəcədə sadələşdirən dəyişikliklərin edilməsidir. Belə ki, 1960-cı illərdə bu sahədə qanunvericilikdə edilmiş müəyyən dəyişikliklərdən sonra çoxdan bəri bir yerdə yaşayan və ola bilsin ki, hətta yeni, lakin rəsmi surətdə qeydiyyatdan keçməmiş ailəsi olan yüz minlərlə insan özlərinin faktiki boşanmalarını rəsmiləşdirdilər.

Boşanma amilləri arasında əsas yerlərdən birini demoqrafik və sosial-iqtisadi determinantlar tutur. Belə ki, ər-arvadın yaşı mühüm rol oynayır. Bu, demoqrafik dəyişən üç müxtəlif modifikasiyada irəli çıxır: nikah bağlama yaşı, boşanma anındakı yaş, arvadlar və ərlərin yaşları arasındakı fərq.

Birinciyə, yəni nikah bağlama yaşına gəlincə, tədqiqatlar göstərir ki, bu dəyişəndən asılı olaraq boşanmanın ehtimalı aşağıdakı kimi dəyişir: əvvəlcə o, çox cavan yaşlarda bağlanan nikahlara xas olan yüksək səviyyədən aşağı düşür, sonra isə yenidən ahıl yaşda bağlanan nikahlar üçün artır. Boşanmanın ən az ehtimalı maksimum nikah yaşlarında bağlanan nikahlarda müşahidə olunur.

Boşanma anında yaş haqqında onu demək olar ki, boşanma Azərbaycanda 35-39 yaş intervalında maksimum həddə çatır. Təkcə 2005-ci ildə 1895 boşanmış ailələrin 1870-i və ya 21%-i 35-39 yaş hüdudundadır.[4] Daha sonra isə tədricən 50-55 yaşdan yuxarı yaşlarda ən aşağı səviyyələrə qədər enir. Bu zaman maksimum boşanma ehtimalı yaşlı qadınlarda kişilərə nisbətən daha aşağıdır.

Ərlə arvadın yaşları arasındakı böyük fərq boşanmanın ehtimalını artırır, bu zaman arvad ərdən yaşca böyük olduqda bu ehtimal daha yüksək olur.

Boşanma tezliyinin müəyyənləşdirilməsində nikahın sıra nömrəsi də müəyyən rol oynayır. Bu məsələ üzrə məlumatlar az olsa da, aparılan tədqiqatlar təkrar nikahlar üçün daha yüksək boşanma tezliyini göstərir. Bu meyl həm ölkəmizə aiddir, həm də xarici ölkələrə dair materiallarda aşkar edilmişdir.

Boşanmanın mühüm amillərindən biri də boşanan ər-arvadın uşaqlarının sayıdır. Demoqrafik statistikanın məlumatları göstərir ki, uşaq olmayan ailələrdə boşanmanın ehtimalı bir və daha artıq uşağı olan ailələrlə müqayisədə daha çoxdur. Beş il ərzində 2000-ci ildən 2005-ci ilədək bütün tip ailələrdə bu artmışdırsa da, boşanma ən çox məhz uşaqsız ailələrdə üstün meylə malik olmuşdur: müvafiq olaraq 63%; 18%; 19% və yaxud uşaqsız ailələrdə boşanmanın sayı 1 uşaqlıya nisbətən 3,5 dəfə, 2 uşaqlıya nisbətən isə 3,3 dəfə çoxdur.[5]

Statistik məlumatların təhlili göstərir ki, boşanmanın mühüm cəhətlərindən biri də qeydiyyatdan keçməmiş nikahlarla, yəni birgə yaşamaqla bağlıdır. Daha dəqiq desək, onların «sınaq nikah» adlanan növü ilə bağlıdır. Hərçənd belə birgə yaşamaların üzvləri deyirlər ki, biz ona görə öz müasibətlərimizi qanun çərçivəsinə salmırıq ki, özümüzü yoxlayaq və beləliklə də, nikahı daha da möhkəmlədək. Amma reallıqda hər şey başqa cürdür. Bu cür birgə sınaq yaşamalarından sonra bağlanan nikahlar daha az möhkəm olur və normal dediyimiz nikahlara nisbətən daha sürətlə və tez-tez dağılır.

Nikaha qədər birgə yaşamanın nikahın möhkəmliyinə mənfi təsirini izah edən səbəblər nikaha zəif meyllə yanaşı, həm də «qeyri-qanuni» ər-arvadda özünün və öz tərəfdaşının düzgün olmayan obrazının mövcudluğu ilə bağlıdır. Hətta «sərbəst» birgə yaşama dövründə tərəfdaşların hər biri öz portnyoru qarşısında bilərəkdən və ya bilməyərəkdən özünün ən yaxşı Mənini seçimli şəkildə nümayiş etdirə bilir. Nikah bağlandıqdan sonra isə onların
«əsl» Məni üzə çıxa və tərəfdaşında əsl şok yarada bilər. Bu isə, öz növbəsində, əvvəlki münasibətləri dağıda və nəticədə boşanmaya gətirib çıxara bilər.

İsveçdə 4966 qadın arasında aparılan sorğu göstərmişdir ki, nikahların dağılması əmsalı özünün gələcək həyat yoldaşı ilə nikah bağlamamışdan qabaq birgə yaşayanların içərisində bunu etməyənlərlə müqayisədə təqribən 80% yüksəkdir. Nikahın bağlanmasından əvvəl birgə yaşayan, yaxud nikahın möhkəmliyinə inanmayan və ya nikaha bir institut kimi prinsipial şəkildə qarşı çıxan şəxslər, görünür, çox güclü xarici təsirin altında nikah bağlayıblarmış.

Bundan başqa, qanuni nikahın bağlanması labüd surətdə rolların dəyişməsi və müvafiq surətdə tərəfdaşların qarşılıqlı münasibətlərinin dəyişməsi ilə bağlıdır. Bunlar isə, çox ehtimal ki, onların mənfi reaksiyasına səbəb olacaqdır. Məsələn, tərəfdaşların bərabərliyi təsəvvürlərinə əsaslanan münasibətlər nikah bağlandıqdan sonra daha ənənəvi stereotiplərə üz tuta bilər. Yaxud ər və arvad bu mövqedə ola bilərlər ki, onların birgə yaşadıqları zaman məqbul olan münasibətləri və davranış nümunələri nikahın ərlə arvad üzərinə qoyduğu sosial və qanuni məhdudiyyətlər kontekstinə heç bir vəchlə uyğun gəlmir.

Nəhayət, hamı tərəfindən qəbul edilmiş sosial normaların birgə yaşayış zamanı labüd olaraq pozulmasının subyektiv qavrayışı da öz rolunu oynaya bilər. Bu normalar isə, hələ ki, «pasportda ştampın» olmasını tələb edir. Birgə yaşayan şəxslər o insanlardır ki, onlar bir yerdə yaşamağa başlayaraq, könüllü surətdə sosial normaları pozurlar. Nikah bağladıqda, nikahın uğursuz olması halında onlar nikahın saxlanması üçün heç bir qeyri-ənənəvi nikah təcrübəsi olmayan şəxslərə nisbətən daha az məsuliyyət hiss edə bilirlər.

Ölkəmizdə bu məsələ üzrə belə zəngin empirik material yoxdur. Lakin xarici tədqiqatçıların çıxardığı nəticələr qismən bizə də tətbiq oluna bilər. O cümlədən getdikcə daha çox yayılan «sınaq nikahları», mülki nikahlar ehtimal ki, nikahların qeyri-stabilliyi və boşanmanın artması amili kimi öz rolunu artıracaqdır. Madam ki, ölkəmiz, bir çox demoqrafların rəyinə görə, müəyyən sürətlə ailəvi, demoqrafik və iqtisadi dəyişikliklər üzrə Qərbin keçdiyi mərhələlərdən keçir, onda yəqin ki, biz istisna təşkil etməyəcəyik.

Belə görünür ki, ictimai rəy müasir dövrdə boşanmanı şərtləndirən mühüm amillərdən biri kimi çıxış edir. Xüsusi sosioloji tədqiqatların nəticələri göstərir ki, nəinki cəmiyyətin boşanmaya qarşı dözümlülüyü artır, həmçinin boşanmanın yolverilən olmasını əsaslandıran səbəb və motivlərin strukturu da dəyişir. Yalnız tamamilə konkret üzürlü səbəb olduqda boşanmanın yol verilən olmasının qəbul edilməsi ilə yanaşı (ər-arvaddan birinin sonsuz olması, subuta yetirilmiş xəyanət və s.), bəzi hallarda ər-arvad arasında məhəbbətin, ünsiyyətin, qarşılıqlı anlaşmanın olmaması halın-da da boşanma ehtimal artır. Tədqiqatlar göstərir ki, gənclərin 60-65%-i kəbin kəsdirənə qədər bir-birini sevərək evləndiklərini etiraf etmişlər. Digərləri isə təsadüfən, sevmədən, müəyyən məqsəd güdərək

evləndiklərini bildirmişlər. Məhz buna görə də bəzi nikahların müddəti 4-7 aya və yaxud 1 ilə qədər davam edir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, yuxarıda göstərilən səbəblərlə yanaşı, aparılan araşdırmalara görə iqtisadi, sosial vəziyyətin, mənzil şəraitinin qənaətbəxş olmaması, narkomanlıq, sərxoşluq, cinayətkarlıq və deviant davranışın digər növləri müasir Azərbaycan cəmiyyətində nikahın pozulmasını şərtləndirən əsas səbəblər kimi çıxış edir.

Boşanma ilə bağlı statistik materialların təhlili göstərir ki, bu və ya digər səbəbdən nikah yaşına çatmış gənclərin ölkəmizi tərk etməsi bu sahədəki problemləri artırır. Belə ki, ilk növbədə bu proseslər nikahın qocalmasına, bir sıra hallarda isə bəzi bölgələrdə qızların ailə qura bilməməsinə səbəb olur. Yaşayış səviyyəsinin aşağı olması bəzi gənclərin vaxtında ailə qurmamasına, müəyyən bir qisminin isə boşanmasına səbəb olur.

Lakin qeyd etmək lazımdır ki, Azərbaycan dövlətinin apardığı uğurlu siyasi, iqtisadi, sosial islahatlar, insanların sosial vəziyyətinin yaxşılaşdırılması üçün görülən tədbirlər, ünvanlı sosial yardım proqramının icra olunması, nəhayət, gənclərin mənzil və sosial şəraitinin yaxşılaşdırılması üçün güzəştli şərtlərlə «İpoteka» proqramının həyata keçirilməsi, fikrimizcə, sözügedən problemlərin aradan qaldırılmasına köməklik göstərəcəkdir.

# MƏNƏVİ HƏYATIN SOSİOLOGİYASI

## 1.Təhsilin sosiologiyası

**Təhsilin sosiologiyası sosioloji biliyin bir sahəsi olub, sosial institut olan təhsil sistemini, onun fəaliyyət və inkişaf qanunauyğunluqlarını, cəmiyyətlə qarşılıqlı təsirini öyrənir.**

Bu istiqamətin meydana gəlməsi XX əsrin 20-ci illərinə təsadüf edir, başlıca olaraq, sosial stratifikasiya,
əmək bölgüsü, ictimai proses olan təhsil və tərbiyə konsepsiyaları ilə sıx əlaqədə təşəkkül tapmışdır.

Təhsilin sosiologiyasının problematikası kifayət qədər genişdir. Buraya əsasən aşağıdakıları aid etmək olar:

- təhsil sistemlərinin, xüsusən müasir təhsil sistemlərinin meydana gəlməsi, fəaliyyəti və inkişafı;
- elmi-texniki tərəqqi və qloballaşma şəraitində təhsilə verilən istehsal-texniki və sosial tələblər;
- təhsil sahəsində sosial bərabərlik və bərabərsizlik problemi;
- tədris müəssisəsi sosial sistem kimi;
- təhsil sisteminin siyasi institutlarla, cəmiyyətin sosial strukturu ilə, milli münasibətlərlə, insanların mənəvi dünyası ilə qarşılıqlı əlaqə və təsiri;
- fərdin sosiallaşmasında və inkişafında təhsil sisteminin, onun müxtəlif altsistemlərinin rolu.

Sosioloji biliyin bu sahəsinin əhəmiyyətini ondan görmək olar ki, Beynəlxalq Sosiologiya Assosiasiyasında artıq 1970-ci ildən «Təhsilin sosiologiyası» adlı tədqiqat komitəsi fəaliyyət göstərir.

İnkişaf etmiş ölkələrdə təhsilin sosiologiyasına maraq ikinci dünya müharibəsindən

sonra, xüsusən 60-70-ci illərdə əhəmiyyətli dərəcədə artmışdır. Bu, iki mühüm səbəblə bağlı idi:

**a)** təşəkkül tapmış təhsil sistemi elmi-texniki tərəqqinin yeni tələblərindən geri qalırdı;

**b)** tələbələrin, əhalinin müxtəlif qruplarının ali və orta təhsilin demokratikləşməsi uğrunda kütləvi çıxışları genişlənmişdi.

Ayrı-ayrı ölkələrdə təhsilin böhranlı vəziyyətinə dair müxtəlif istiqamətli müzakirələr onunla nəticələndi ki, bu sahədə tədqiqatlar, elmi axtarışlar xeyli intensivləşdi. Təhsilin müxtəlif pillələrinin əhaliyə müyəssərliyi, təhsil alan gənclərin həyat tərzi, pedaqoji heyətlə qarşılıqlı münasibətləri, ictimai münasibətlər, maraqlar və gözləmələr sistemində vəziyyət və s. məsələlər əhatəli tədqiqat obyektinə çevrildilər. Bu halda elmi axtarışların istiqamətləri tədricən genişlənir, diqqətdən kənarda qalan, yaxud az diqqət yetirilən problemlərə dair tədqiqatlar meydana gəlirdi. Məsələn, «şansların bərabərləşməsində», sosial mobillikdə təhsil amili; fasiləsiz təhsilin sosial problemləri; işçilərin yenidən hazırlanmasının və ixtisasının artırılmasının müxtəlifliyi; məzunların əmək bazarında vəziyyəti; ali məktəblərin onların sosial-mədəni mühiti ilə qarşılıqlı əlaqə və təsiri; cəmiyyətin təhsil sisteminə təsir hüdudları; həmin sistemə iqtisadi konyukturanın, siyasi rejimlərin dəyişilməsinin, ideoloji amillərin nəticələrini neytrallaşdırmaq imkanlarının axtarılması, o cümlədən təhsil müəssisələrinin muxtariyyətinin genişləndirilməsi; müxtəlif cəmiyyətlərdə təhsil sistemlərinin meydana gəlməsi, tarixi təkamülü, fəaliyyəti və inkişafı xüsusiyyətlərinin öyrənilməsi; orta və ali təhsilin sosial-selektiv rolu; təhsildə ayrı-seçkilik və bərabərsizlik hallarının aradan qaldırılması; bir sıra kompensasiyaedici proqramların işlənib hazırlanması və həyata keçirilməsi; təhsil sisteminin liberallaşdırılması və demokratikləşdirilməsi; təhsil alan şəxslərin maraqlarının nəzərə alınması və
s. bu qəbildəndir.

Qeyd edilməlidir ki, təhsil sistemindəki yeniləşməyə və demokratikləşməyə münasibət birmənalı deyildir. Belə ki, bəziləri bu prosesləri təqdir edir, bəziləri isə yox. Məsələn, təhsilin sosiologiyasında yeni mühafizəkar istiqamətin nümayəndələri təhsilin selektiv, elitar modelini müdafiə edir, təhsil alan gənclərin kütləvi çıxışlarına, həmin çıxışlarda irəli sürülən yeniləşmə, demokratikləşmə tələblərinə öz qəti etirazlarını bildirirlər.

Təhsil institutu öz sosial funksiyalarına görə nisbi müstəqilliyə malikdir; o, təhsilin tarixən keçici sistemlərinin varisliyini təmin edir, cəmiyyətin fəaliyyətinə və inkişafına aktiv təsir göstərir. Bu sistemin vəziyyəti və funksiyaları sosial-iqtisadi münasibətlərlə, sosial əlaqələrin strukturu, siyasi və ideoloji proseslərin xüsusiyyətləri ilə sıx bağlıdır. Təhsilin funksiyaları həm də sosial təkraristehsalda və insanların topladıqları biliklərin, vərdişlərin nəsildən-nəslə ötürülməsində ümumbəşəri tələbatlarla, yeni nəsillərin daha yüksək təhsil, elm və mədəniyyət səviyyəsinə yüksəlməsi meylləri ilə müəyyən olunur. Hərçənd faktlar tarixdə bunun əksi olan vəziyyətlərin də olduğunu göstərir. Buna baxmayaraq, əhalinin təhsil səviyyəsinin yüksəlməsini cəmiyyətin qanuna-uyğunluqlarından biri hesab etmək olar.

Təhsil sistemi gənc nəslin intellektual, mənəvi və fiziki inkişafı prosesinə sosial nəzarət funksiyasını uğurla həyata keçirməkdə müəyyən nailiyyətlər qazanmışdır. Peşə təhsili isə bundan əlavə, əmək prosesinə qədəm qoyan

nəslin cəmiyyətin sosial strukturunun müxtəlif ünsürləri üzrə bölüşdürülməsinə nəzarətdə mühüm rol oynayır. Məhz bu məqsədlərin reallaşdırılması üçün təhsil sisteminin müxtəlif pillələri müəyyən səlahiyyətlərə malikdir (məsələn, təhsilin sonrakı pilləsini keçmək, müvafiq təhsilə uyğun vəzifə tutmaq, konkret əmək növü ilə məşğul olmaq).

Qeyd etmək lazımdır ki, təhsilin sosial effektivliyi təkcə adamların aldığı biliklərin həcmindən və keyfiyyətindən deyil, həm də onların tətbiqi dərəcəsindən, insanların əmək və ictimai fəaliyyətində praktik surətdə reallaşmasından asılıdır. Hazırda məhz bu sahədə öz həllini gözləyən kifayət qədər problem vardır. Ali təhsilli mütəxəssislərin, yüksək ixtisaslı fəhlələrin xeyli qismi təhsil sayəsində qazandıqları bilik və bacarıqlarını praktikada tətbiq etmək imkanına malik deyildir. Bu, işçinin öz əməyinə marağını azaldır, onun peşə yüksəlişinə mane olur. Faktlar göstərir ki, təhsilin sosial effektivliyi kifayət qədər yüksək deyildir. Təhsilin formal səviyyəsi ilə faktik səviyyəsi arasında ayrılıq mövcuddur. Gənclərin ümumtəhsil və peşə hazırlığı arasında, cəmiyyətin tələbatları ilə məzunların həyat planları arasında da müəyyən ayrılıq müşahidə olunur.

Təhsil sisteminin səmərəliliyini yüksəltmək asan məsələ deyildir. Bu, bir sıra ziddiyyətlərin həlli ilə bağlı olan mürəkkəb prosesdir. Həmin ziddiyyətlərin ən mühüm olanları bunlardır: **a)** cəmiyyətin inkişaf tələbatı ilə onun mövcud olan diferensiasiyası arasındakı ziddiyyət. Bu diferensiasiya əhəmiyyətli dərəcədə alınan təhsilin səviyyəsi və keyfiyyəti ilə şərtlənir; **b)** qərarlaşmaqda olan bazar strukturlarının irəli sürdüyü tələbatlarla gənclərin sosial - peşə yönümü arasındakı ziddiyyət; **c)** şəxsiyyətin inkişafının zəruri səviyyəsi ilə təhsil müəssisələri məzunlarının ümumi inkişafının real səviyyəsi arasındakı ziddiyyət.

Respublikamız təhsil sahəsində ümumən etiraf olunan uğurlar qazanmışdır. 2007-ci ildə 15 və yuxarı yaşda əhalinin hər 1000 nəfərinə 765 nəfər ali və tam orta təhsilli şəxs düşürdü. Halbuki 1999-cu ildə əhalinin siyahıya alınmasının məlumatlarına əsasən bu göstərici 758 nəfər olmuşdur. Həmin ildə 1760 məktəbəqədər müəssisə, 4516 ümumtəhsil məktəbi, 56 dövlət, 4 qeyri-dövlət orta ixtisas məktəbi, 28 dövlət və 14 qeyri-dövlət ali məktəbi fəaliyyət göstərmişdir. Respublika Dövlət Statistika Komitəsinin apardığı araşdırmalar göstərir ki, təhsil sistemində nəzərə çarpacaq dərəcədə müsbət dəyişikliklər baş verməkdədir. Bu dəyişikliklər tədris proqramlarına və metodlarına, fənlərin məzmununa, dərsliklərə və s. təsir göstərmiş, təhsil proseslərinin səmərəliliyi xeyli yüksəlmişdir. Lakin təhsil sistemində həllini gözləyən problemlər də az deyildir. Həmin problemlər (məsələn, kənd məktəblərinin pedaqoji kadrlarla təminatı, təhsil müəssisələrinin maddi-texniki bazası və s.) diqqətlə öyrənilir və onların həlli istiqamətində müəyyən addımlar atılır.

## 2. Elmin sosiologiyası

**Elmin sosiologiyası elmin dinamikasını və cəmiyyətlə qarşılıqlı münasibətlərini öyrənən sosioloji bilik sahəsidir.** Bu sahə XX əsrin 30-cu illərində elmi fəaliyyətə dair tədqiqatların xüsusi istiqaməti kimi formalaşmağa başlamış, 60-cı illərdə xüsusi sosioloji fənnə çevrilmişdir. Onun inkişafı fəlsəfə və elmin metodologiyası, idrak sosiologiyası, elmin təhlilinə informasiya və sosial yanaşmalarla sıx bağlı olmuşdur. Daha dəqiq desək, bir-birinə yaxın bilik sahələrinin qarşılıqlı təsiri sayəsində elmin sosiologiyası nisbi müstəqil istiqamət kimi təşəkkül tapmış və inkişaf etmişdir.

Əvvəlcə elmin sosiologiyası idrak sosiologiyasının tərkib hissəsi və köməkçi sferası kimi nəzərdən keçirilmişdir. Bunun başlıca səbəbi ondan ibarətdir ki, ənənəvi olaraq elm fəlsəfi cəhətdən yalnız biliyin xüsusi tipi kimi, idrak nəzəriyyəsinin predmeti kimi başa düşülmüşdür. E. Dürkheymin, M. Veberin, M. Şelerin,
K. Mannheymin ideya irsində həm təbii, həm də «formal» elmlərin məzmun tərəfinin sosioloji metodlarla tədqiqinin mümkün olmadığı göstərilmişdir. Lakin artıq keçən əsrin 30-cu illərində elmə sosioloji yanaşmalar
C. Bernalın, U. Oqbornun, P. Sorokinin, T. Parsonsun əsərlərində işlənib hazırlanmışdır. Onların tədqiqatlarının
əhəmiyyətini kiçiltmədən qeyd etmək lazımdır ki, elmin sosiologiyasının sonrakı inkişafına ən böyük təsiri
R. Merton göstərmişdir. O, «XVII əsrdə İngiltərədə elm, texnika və cəmiyyət» əsərində (1933) Yeni dövrün elminin təşəkkülündə puritan dininin və əxlaqının rolunu ön plana çəkir. Sonralar o, elmin sosioloji konsepsiyasını işləyib hazırlamışdır. Bu konsepsiya ötən əsrin 60-cı illərində üstün paradiqma olmuşdur. Konsepsiyanın fəlsəfi əsasını pozitivist ideyalar təşkil edir. Həmin ideyalar elmi biliyin sosial neytrallığını əsas tutur. Elmi biliyin artmasının kumulyativ xarakteri qeyd olunur. R. Mertonun işləyib hazırladığı konsepsiyanın ümumsosioloji əsasını isə struktur funksionalizm təşkil edir.

Mertonun fikrincə, sosiologiya elmi sosial institut kimi öyrənir; Bu cür institut olmaq sayəsində elm öz muxtariyyətini mühafizə edir, yeni və etibarlı bilik əldə olunmasına yönəlmiş fəaliyyəti stimullaşdırır. Elmi kəşf mükafat tələb edən nailiyyətdir. Alimin töhfəsi etiraf olunmalıdır; bu, onun nüfuzunu, statusunu və karyerasını müəyyən edən amildir. Elmin fəaliyyəti məcburi normalar və dəyərlər məcmusu ilə tənzim olunur. Bu normalar və dəyərlər elmin etosunu təşkil edir. Etosa aşağıdakılar daxildir:

- universalizm - bu, elmin müddəalarının obyektivliyinə və subyektdən asılı olmamasına inamı ifadə edir;
- ən ümumilik - bu, biliyin ümumun malı olmasını ifadə edir;

- niyyətsizlik - bu, elmdən şəxsi mənafelər üçün istifadənin qadağan olunmasını nəzərdə tutur;
- mütəşəkkil skeptisizm - bu, alimin öz həmkarlarının işlərini qiymətləndirməkdə məsuliyyətini ifadə edir.

Lakin alim rəqabət mübarizəsi şəraitində, ziddiyyətli vəziyyətdə fəaliyyət göstərir. Onun davranışına normalar və dəyərlər sisteminin təsiri də eyni cür olmur. Ona görə də elmin fəaliyyəti və inkişafi ziddiyyətlidir; o, müxtəlif, hətta əks qütblər, prinsiplər arasında tərəddüd edir.

Mertonun konsepsiyası «xalis» elm modelinə istinad etsə də, elmin sosiologiyasında empirik tədqiqatlara və nəzəri araşdırmalara ciddi təsir göstərmişdir. Nəticədə daha praktik. daha konkret planda tədqiqatlar aparılmışdır. Elmi biliyin strukturu, «görünməz kolleclər», sosial əlaqələr və kommunikasiyalar şəbəkəsi, elmdə sosial stratifikasiya və s. bu qəbildəndir.

Lakin 70-ci illərin əvvəlində vəziyyət xeyli dəyişir: elmin sosiologiyasında Merton paradiqmasının tənqidi genişlənir. Bu tənqid elmin postpozitivist metodologiyasının, ən əvvəl T. Kunun «Elmi inqilabların strukturu» əsərinin təsiri altında formalaşan mövqelərdən aparılırdı. Elm həmin əsərdə elmi birlik tərəfindən qəbul edilmiş paradiqma kimi nəzərdən keçirilir. Bu fəlsəfi əsasda elmin normativ xarakterə malik sosiologiyasından fərqli olan və koqnitiv adlandırılan sosiologiyası formalaşmağa başlamışdır. Burada elmin koqnitiv (idraki) tərəfinin sosial tərəfdən birbaşa asılı olduğu əsas götürülür. Elmin sosiologiyasının bu istiqaməti Ingiltərədə meydana gəlmiş, burada onun konseptual əsasları və tədqiqat proqramları işlənib hazırlanmışdır. Bunlarda ümumi cəhət sosioloji metodların tətbiqi sahəsini genişləndirmək, elmi biliyi də həmin metodların fəaliyyət sferasına daxil etmək səyidir. Bu halda elm sosial şəraitin, münasibətlərin, mənafelərin məhsulu kimi başa düşülür. Lakin elmi bilik sosial şəraitlə əlaqələndirilsə də, onun obyektiv reallığa münasibəti nəzərdən qaçırılırdı.

Koqnitiv adlandırılan istiqamətin inkişafı alimlərin idrak fəaliyyəti prosesində meydana gələn konkret vəziyyətlərin mikrososioloji tədqiqatlarına təkan verdi. Bu tədqiqatlarda elmin koqnitiv və sosial aspektlərinin qarşılıqlı əlaqəsi haqqında qiymətli empirik materiallar öz əksini tapmışdır.

Ötən əsrin 80-ci illərinə doğru elmin sosial tədqiqinin rəngarəng, lakin öz metodoloji əsaslarına görə bir - birinə yaxın olan konseptual sxemləri meydana gəldi. Məsələn, «konstruktivist proqram» (K. Knorr-Tsetina) elmi sosial konstruksiya kimi nəzərdən keçirir.

Yeni konsepsiyalar üçün elmdə koqnitiv və sosial kimi «ənənəvi» fərqləndirmələrdən imtina edilməsi xarakterikdir. Yəni elmin idraki əsası az və ya çox dərəcədə sosial fəaliyyətlə, müzakirələrlə, alimlərin münasibətləri ilə əvəz olunur.

Göründüyü kimi, elmin sosiologiyasında konsepsiyalar kifayət qədər müxtəlifdir. Bu müxtəliflik elmi bilik istehsalı proseslərində baş verən dəyişikliklərlə, müasir şəraitdə elmlə cəmiyyət arasında qarşılıqlı əlaqə və təsirlərin mürəkkəbləşməsi, elmin sosiologiyasında etibarlı və adekvat metodoloji ustanovkaların olmaması ilə şərtlənir. Lakin bu prosesləri nəzəri cəhətdən dərk etmək obyektiv zərurətdir.

Elm təbiət, cəmiyyət və təfəkkür haqqında yeni biliklər əldə edilməsinə yönəldilmiş tədqiqatçılıq fəaliyyəti sferasıdır. Bu, müxtəlif şəraiti və məqamları əhatə edir: müəyyən

biliklərin, qabiliyyətlərin, ixtisasın və təcrübənin daşıyıcısı olan alimlər - onların fəaliyyəti elmi əməyin bölgüsünə və kooperasiyasına əsaslanır; elmi idarələr, eksperiment və laboratoriya avadanlığı; elmi-tədqiqat işinin metodları, anlayış və kateqorial aparatı, elmi informasiya sistemi; elmi istehsalın, fəaliyyətin müqəddəm şərti, vasitəsi və yaxud nəticəsi kimi çıxış edən mövcud biliklərin bütün məcmusu.

Elm ictimai əmək bölgüsünün zəruri nəticəsidir; o, zehni əməyin fiziki əməkdən ayrılması, bu fəaliyyətin adamların xüsusi qrupunun spesifik məşğələ növünə çevrilməsi sayəsində təşəkkül tapmış, uzunmüddətli təkamül yolu keçmiş, çoxşaxəli mürəkkəb sistemə çevrilmişdir.

Respublikamızda elmi fəaliyyətin səmərəli təşkilinə, optimallaşdırılmasına diqqət getdikcə artır. Bunu ondan görmək olar ki, 2007-ci ildə elmi tədqiqat və işləmələri yerinə yetirən işçilərin sayı 33.520 nəfər olmuşdur. Onların 1696 nəfəri elmlər doktoru, 8644 nəfəri isə elmlər namizədidir. Həmin işçilərin əsas kütləsi elmi təşkilatlarda və ali məktəblərdə, çox az hissəsi isə sahibkarlıq sahəsində çalışır (Azərbaycanın statistik göstəriciləri, Bakı, 2007, s. 210-211).

## 3. Dinin sosiologiyası

**Dinin sosiologiyası sosial institut olan dini, onun genezisini, cəmiyyətdə yerini və rolunu öyrənir, onun meydana gəlməsinin, fəaliyyətinin, tarixi təkamülünün sosial qanunauyğunluqlarını, digər sosial institutlarla qarşılıqlı əlaqə və təsirini üzə çıxarır.**

Dinin sosial mahiyyəti və təbiəti barəsində təlim dinin sosioloji nəzəriyyəsinin əsasını təşkil edir. Din xüsusi təsəvvürlərin, etiqadların sistemidir. Bu təsəvvürlər, etiqadlar həmişə emosional yaşantılarla, hisslərlə və xüsusi dini - kult fəaliyyəti ilə, habelə dini təşkilatla (məbədlər, kultu icra edənlər - ruhanilər, dindarlar) müşayiət olunur. Bundan əlavə, adətən dində mənəvi-etik normaların və tapşırıqların müəyyən toplusu da öz əksini tapır. Göründüyü

kimi, din müxtəlif ünsürlərin mürəkkəb kompleksi kimi çıxış edir. Bu kompleksdə etiqadlar və emosional yaşantılar mərkəzi yer tutur.

Qərbdə dinin sosiologiyasının baniləri E. Dürkheym və M. Veber hesab olunur. Dinin «kollektiv təsəvvür» kimi funksional baxımdan öyrənilməsi ənənəsi Dürkheymlə bağlıdır. Dürkheymə görə, din cəmiyyətin sıx birləşməsinin, fərdlə sosial bütöv arasında əlaqələrin qərarlaşmasının əsas vasitəsidir. M. Veberlə bağlı olan ənənə isə dini hər şeydən əvvəl sosial fəaliyyətin motivi kimi şərh edir, bu və ya digər ictimai dəyişiklik prosesində onun rolunu aşkara çıxarır.

Qərbin din sosiologiyasında dini fenomenlərin öyrənilməsində iki səviyyəni ayırd etmək olar:

**a)** nəzəri səviyyə - dini bütöv altsistem kimi nəzərdən keçirir və onun digər sosial strukturlarla qarşılıqlı təsirini üzə çıxarır;

**b)** empirik səviyyə - sosial-demoqrafik qrupların, ayrıca şəxsiyyətlərin dindarlığını öyrənməyi təklif edir.

Nəzəri səviyyədə bir neçə cərəyan mövcuddur. Bunların içərisində XX əsrin 70-ci illərinə qədər funksional məktəb üstün olmuşdur. Bu cərəyanın nümayəndələri (T. Dia, L. Şnayder, M. Zinqer və s.) funksionalizmin ümumi nəzəri prinsiplərinə istinad edərək, onları dinin öyrənilməsinə tətbiq etməyə səy göstərmişlər. Onların fikrincə, din etiqadlar, normalar və dəyərlər sistemi yaradır ki, bunlar da cəmiyyət üzvlərini sıx birləşdirir, onun bütövlüyünü, birliyini təmin edir. Dürkheymin ardınca funksionistlər dini cəmiyyəti inteqrasiya edən çox mühüm amil hesab edirlər. Onlar dinin funksiyalarına xüsusi yer ayırırdılar.

60-cı illərin sonu - 70-ci illərin əvvəlində Qərbin din sosiologiyasında fenomenoloji istiqamətin nümayəndələri (xüsusən Amerika sosioloqu P. Berger və Almaniya sosioloqu T. Lukman) daha əhəmiyyətli mövqelər qazandılar. Onlar E. Husserlin bəzi fəlsəfi müddəalarına istinad edərək, cəmiyyəti və sosial institutları insanların intersubyektiv şüurunun məhsulu kimi nəzərdən keçirirlər. Onlar «sosial reallıqların» plyuralizmini ön plana çəkir, «gündəlik həyat reallığını» başlıca reallıq elan edirlər; bu reallığın üzərində elm, incəsənət, din və fəlsəfədən ibarət olan «simvolik universumlar» sistemi yüksəlir.

**Din dini ideyaları, təsisatları, təşkilatları, insanların dini fəaliyyətində meydana gələn münasibətləri əhatə edir.** Ona görə də dinin strukturunu üç başlıca komponentdən ibarət olan sistem kimi təsəvvür etmək olar: **dini şüur, dini fəaliyyət, dini təşkilatlar.**

Dini şüur ictimai şüurun spesifik formasıdır; Dini şüur nisbi müstəqilliyə malikdir, onun öz inkişaf məntiqi vardır. O, dini ideologiyanı və psixologiyanı əhatə edir.

Dini ideologiya ən əvvəl din fəlsəfəsini nəzərdə tutur. Din fəlsəfəsi dünya, təbiət, cəmiyyət və insan haqqında dini müddəaların məcmusu kimi çıxış edir. Dini ideologiya din fəlsəfəsi ilə yanaşı teologiyanı və dini istiqamətli müxtəlif cür iqtisadi, siyasi, hüquqi nəzəriyyələri özündə birləşdirir. Dini psixologiya isə dini nümunələrin, ideyaların, təsəvvürlərin, emosiyaların, əhval-ruhiyyələrin və s. spesifik sintezidir. Dini psixologiyanın varisliyində adət və ənənələrin rolu böyükdür. Yeri gəlmişkən qeyd edək ki, dini şüurun hər iki səviyyəsi (ideologiya və psixologiya) qarşılıqlı surətdə bir - birinə təsir göstərir. Mütəxəssislər bu təsir prosesində dini psixologiyanın aparıcı, müəyyənedici rolunu qeyd edirlər.

Dini şüur dini fəaliyyətdə təzahür edir. Bu fəaliyyətin isə kult və kultdankənar formaları mövcuddur. Dini kult dini inamların reallaşdırılması səyidir. Kult xüsusi

hərəkətlər sistemidir; həmin hərəkətlərin köməyi ilə insanlar fövqəltəbii varlığa, onların inamının predmeti olan münasibətlərə təsir göstərməyə çalışırlar.

Adətən kultun iki növünü ayırd edirlər: magiya və rəhm dilənən kult. Magiya real surətdə mövcud olan, müəyyən xassə və əlaqələrə malik olması güman edilən predmetlərə təsiri nəzərdə tutur. Rəhm dilənən kultda yüksək varlığın, yəni allahın obrazı əsasdır. Bu kultun müxtəlif formaları mövcuddur: dini mərasimlər, qurban kəsmə, dua, dini bayramlar və s. Kultdankənar fəaliyyət mənəvi və praktik sferalarda həyata keçirilir. Dini ideyaların işlənib hazırlanması, teologiya müddəalarının sistemləşdirilməsi və şərhi, ilahiyyat əsərlərinin yaradılması - bütün bunlar, kultdankənar mənəvi dini fəaliyyəti təşkil edir. Praktik dini fəaliyyətə isə missionerlik fəaliyyəti, ilahiyyat fənlərinin tədrisi, dini təşkilatlarda və institutlarda idarəetmə fəaliyyəti, dini təbliğat və s. aiddir.

Dinin spesifikası dini münasibətlərdə də özünü göstərir. Dini münasibətlər sosial münasibətlərin tərkib hissəsi olub, insanların dini fəaliyyəti prosesində onların dini şüuruna uyğun olaraq təşəkkül tapır. Dini fəaliyyətin növündən asılı olaraq, bu münasibətləri kult və kultdankənar münasibətlər kimi nəzərdən keçirmək olar. İctimai münasibətlər sistemində həmin münasibətlərin vəziyyəti və yayılması dinin cəmiyyətdəki digər institutlar içərisində tutduğu yerlə, onun ictimai həyat sferalarına təsiri ilə bilavasitə bağlıdır.

Əhalinin dindarlıq səviyyəsi dini münasibətlərin vəziyyətinin çox mühüm xarakteristikasıdır. Adətən dindarlıq anlayışı insana xas olan və onun fövqəltəbii varlığa inamında, itaətində təzahür edən müəyyən əlamətlərin məcmusunu ifadə edir. Dindarlığın dərəcəsini, səviyyəsini, xarakterini müəyyən etmək üçün dini şüurun, dini davranışın müxtəlif göstəricilərindən istifadə olunur, fərdin və ya qrupun dini əsasda daxil olduğu, qoşulduğu münasibətlər təhlil edilir. Bu halda dindarlığın dərəcəsi onu göstərir ki, dinin ayrıca şəxsə, sosial qrupa təsiri necədir; dindarlığın səviyyəsi onu göstərir ki, məlum regionda, sosial - qrupda dindar və qeyri-dindar əhalinin

nisbəti necədir; dindarlığın xarakteri isə bu və ya digər dini konfessiyanın, sosial qrupların dindarlığının spesifikasını, fərqini üzə çıxarır.

Aparılmış sosioloji tədqiqatların nəticələrinə əsasən qeyd etmək olar ki, dinin xalqın mədəniyyətinə, adət və ənənələrinə nüfuzu insanların daha geniş dairəsinin dini fəaliyyətdə iştirakına səbəb olur. Onlar bu fəaliyyəti öz milli mədəniyyətinin, adət və ənənələrinin müəyyən hissəsi kimi qiymətləndirirlər. Dərin tarixi kökləri olan din insanların həyat tərzinə nüfuz edərək, onların milli xüsusiyyətlərinin formalaşmasında böyük rol oynamış, digər sosial institutlara fəal təsir göstərmişdir.

Din müxtəlif funksiyalar yerinə yetirir. Bunlar müxtəlif mənbələrdə bir-birindən fərqli göstərilir. Aşağıdakı funksiyalardan bəhs etmək olar:

a) **Dünyagörüşü funksiyası.** Din gerçəkliyi spesifik şəkildə əks etdirir, fövqəltəbii qüvvələrin və varlıqların real surətdə mövcudluğunu etiraf edir.

b) **Tənzimedici funksiya.** Din müəyyən dəyərlər və normalar sistemi işləyib hazırlamışdır; həmin sistem insanların davranışını motivləşdirir və tənzimləyir.

c) **Kommunikativ funksiya.** Bu funksiya kult və kultdankənar fəaliyyət prosesində ünsiyyətdə təzahür edir.

ç) **İnteqrasiyaedici, mühafizəedici funksiya.** Din müxtəlif birliklər səviyyəsində inteqrasiyanı təmin edə bilər, bu və ya digər ictimai amilin sabitliyini qoruya bilər.

d) **Kompensasiyaedici funksiya.** İnsanın təbii və ictimai qüvvələr qarşısında real acizliyi, imkansızlığı tam aşkara çıxdıqda din onu xeyli dərəcədə yumşalda bilən, kompensasiya edən vasitə kimi çıxış edir.

Dinin cəmiyyətdəki rolu, yerinə yetirdiyi funksiyalar ictimai inkişaf gedişində dəyişir. Bu mənada sakralizasiya və sekulyarizasiya proseslərindən bəhs etmək olar. Sakralizasiya müxtəlif sosial institutların, münasibətlərin, ictimai və fərdi şüur formalarının dini təsir və sanksiyalaşdırma sferasına geniş surətdə cəlb olunması deməkdir. SSRİ-nin iflasından sonra bu prosesdə müəyyən canlanma hiss edilir.

Dinin sosiologiyasında sekulyarizasiya fəal müzakirə olunan mühüm problemlərdən biridir. Hazırda bu anlayışı insanın dini təsirdən azad olması kimi başa düşürlər. Bu prosesdə qlobal sosial dəyişikliklər, elmi-texniki və mədəni tərəqqi mühüm rol oynayır. Sekulyarizasiya probleminə eynimənalı münasibət yoxdur. Başlıca səbəb dinin necə başa düşülməsidir. Dinin geniş izahına tərəfdar çıxan sosioloqlar (M. Zinqer, R. Bella, T. Lukman və s.) sekulyarizasiya anlayışını əsassız sayırlar. Dinin mövcudluğunu fövqəltəbii olana inamla əlaqələndirən sosioloqlar isə (B. Uilson, Ç. Qlok və başqaları) sekulyarizasiyanı çox mühüm sosial proses hesab edirlər; elə proses ki, dinin müasir cəmiyyətdə vəziyyətini kökündən dəyişdirir.

Yeri gəlmişkən qeyd edək ki, sekulyarizasiyanın özünün izahı cəhdləri də bir-birindən fərqlidir. Məsələn,

B. Uilson onu insanların əvvəlki, kapitalizməqədərki birliklərinin yox olması, şəxsiyyətlərarası münasibətlərin fərdsizləşməsi və formallaşdırılması ilə izah edir. Sekulyarizasiyanın əleyhdarları (R. Bella, E. Qrili və başqaları) isə T. Parsonsun belə bir ideyasından istifadə edirlər ki, cəmiyyətdə sekulyarizasiya yox, yalnız institutların struktur və funksional diferensiasiyası baş verir.

Dinin sosiologiyasında diqqəti cəlb edən mühüm məqamlardan biri Qərb sosioloqları tərəfindən dindarlığın empirik tədqiqatlarının metodologiya və metodikasının işlənib hazırlanmasıdır. Bu problemin həllinə Amerika sosioloqu Ç. Qlok daha çox töhfə

vermişdir. O, dindarlığın «çoxölçülü» modelləri adlandırılan modelləri işləyib hazırlamışdır.

Dinin sosiologiyasında qarşıda duran vəzifələrdən biri qeyri-ənənəvi dinlərin, mistik təlimlərin yayılması miqyaslarını, hüdudlarını, habelə inkişafı imkanlarını öyrənməkdən ibarətdir.

Müstəqil inkişaf şəraitində respublikamızda dövlətlə dinin qarşılıqlı münasibətləri demokratik əsaslarda qurulmuşdur. Mövcud qanunvericilik aktları zəminində dinlərin, konfessiyaların azad, sərbəst fəaliyyəti təmin edilmişdir.

## 4. Mədəniyyətin sosiologiyası

Mədəniyyət anlayışı elmi ədəbiyyatda birmənalı şərh edilmir. Onun gündəlik - adi şüur səviyyəsində başa düşülməsində bu, xüsusilə aydın hiss olunur.

Elmi şərhdə mədəniyyət insan fəallığının genişmiqyaslı və çoxşaxəli sistemi kimi nəzərdən keçirilir. Mədəniyyətin yığcam tərifini adətən insanların fəaliyyətinin müxtəlif nəticələrinə, öz sosial varlığını mühafizə edib saxlamaq və yeniləşdirmək sahəsində fəallığın rəngarəng formalarına müncər edirlər. Sosial varlıq isə maddi obyektləri, insanların fəaliyyət və qarşılıqlı təsir normalarını, təsəvvürlərini, qiymətlərini əhatə edir. Bir sıra hallarda mədəniyyətə elmi yanaşma onu qiymətləndirmə rakursunda nəzərdən keçirilməsini nəzərdə tutur. Başqa sözlə, mədəniyyət sosial subyektə, fəaliyyət normalarına və standartlarına, sosial praktikanın bu və ya digər sahəsində təsbit olunmuş mənəvi fəallığın növlərinə yiyələnməyin yüksək səviyyəsi kimi izah edilir. Bu halda nitq,

ünsiyyət, asudə vaxt, peşə mədəniyyətindən və s. bəhs edirlər. Deməli, mədəniyyət hər hansı etnosun, yaxud ölkə vətəndaşlarının həyat fəaliyyətinin bütöv, davamlı üsuludur; elə üsulu ki, o, tarixən təşəkkül tapır, tədricən yeniləşir, lakin eyni zamanda yüz illər, bəzən min illər ərzində öz-özünə identikliyini qoruyub saxlayır. Əslində təşəkkül tapan və yeniləşən mədəniyyətin hüdudlarında xüsusi dünya formalaşır; bu dünya təbii aləmi tamamlayır, bir çox insan nəsillərinin əməyini, fəaliyyətini təcəssüm etdirir.

İstənilən mədəniyyət bioloji-təbii əsasa söykənir; insanın özü də sosial-mədəni, habelə bioloji-cismani əsasların vəhdətidir. Mədəni landşaft, yaşayış məskənləri, mürəkkəb mexanizmlər, rəngarəng əşyalar və s. - bütün bunlar təbii materiallara möhtacdır.

Mədəniyyət ictimai həyatın fundamental ünsürüdür. O, cəmiyyətə, sosial qruplara, fərdə davranışın təşkilini, düşüncələrini, emosiyalarını, qiymətlərini formalaşdırmağın normalaşmış üsullarını bəxş edir. Mədəniyyətin uzunmüddətli fəaliyyət göstərən mexanizmləri sosial praktikanı dinamikləşdirməyə, ənənələri, davranış və fəaliyyət normalarını yeniləşdirməyə, vaxtı keçmiş normalardan, ənənələrdən imtina etməyə imkan verir. İnsanın doğulduğu, yaşadığı, həyatının cərəyan etdiyi mədəni kontekst onun üçün doğmadır, əzizdir.

Elmi ədəbiyyatda qeyd olunur ki, mədəniyyətin elmi təhlilinin başlanğıcı XIX əsrə təsadüf edir. Filosoflar, etnoqraflar və antropoloqlar mədəniyyəti təhlil etməyin analitik prinsiplərini işləyib hazırlayırlar. Filosoflar mədəniyyəti öyrənmək üçün nəzəri zəmin yaradır, etnoqraflar, antropoloqlar isə arxaik birliklərin, xalqların mədəni praktikasını təhlil edirlər. Beləliklə, sosial (mədəni) antropologiyanın bünövrəsi qoyulur; o, inkişaf edərək, XX əsrin ortalarında mədəniyyətşünaslıq (kulturologiya) kimi formalaşır.

Sosiologiya ilə antropologiya arasında sıx əlaqələr yaranır və inkişaf edir. Onların spesifikası qalmaqla mədəniyyətə dair ciddi tədqiqatlar aparılır. Lakin uzun müddət mədəniyyətin elə nəzəri anlamı formalaşmır ki, elmi birliyi qane etsin. Antropoloji və sosioloji fikrin qarşılıqlı əlaqəsi və təsiri tələb edirdi ki, bu fənlərdən hər birinin təhlil predmeti daha dəqiq müəyyənləşdirilsin. Bu, mədəniyyət haqqında təsəvvürlərin dəqiqləşdirilməsinə kömək edirdi. Tədricən mədəniyyətin başa düşülməsində özünü göstərən əvvəlki ixtilaflar arxada qalır. İndi ümumən etiraf olunur ki, mədəniyyət öz quruluşuna görə son dərəcə mürəkkəb fenomendir, inkişaf amilləri baxımından çoxplanlı tarixi hadisədir; o, xalqların, qrupların, konkret insanların həyat fəaliyyətini nizamlamaqda misilsiz rol oynayır.

Sosioloji və kulturoloji biliyin qovuşağında elmi təhlilin fənlərarası sahəsi - mədəniyyətin sosiologiyası meydana gəlmişdir. **Mədəniyyətin sosiologiyası sosiomədəni dəyişikliklərin qanunauyğunluqlarını, sosial münasibətlər, strukturlar, institutlar prizmasında mədəniyyətin fəaliyyət xüsusiyyətlərini öyrənir.**

Mədəniyyət sosiologiyasını nəzərdən keçirərkən bu sahəyə öz töhfələrini vermiş G. Zimmelin, P. Sorokinin,
M. Veberin adlarını xüsusi qeyd etməliyik. Onların ənənələrini davam etdirən tədqiqatçılar maraqlı konseptual ümumiləşdirmələr aparmış, mədəniyyətin məna konstruksiyaları ilə müxtəlif sosial qrupların fəaliyyət sistemlərinin, müxtəlif xalqların ictimai həyat şəraitinin qarşılıqlı nisbəti, uyğunluğu məsələlərini hərtərəfli təhlil etmişlər.

Bəs mədəni fəaliyyətin struktur ünsürləri hansılardır?

1. **Kommunikativ ünsür.** Bu ünsür mədəniyyət dillərinin müxtəlifliyini nəzərdə

tutur. Bu dillər müxtəlif işarə vahidlərinin çoxsəviyyəli sistemidir. İnsanlar kommunikativ fəaliyyət prosesində bu dillərdən istifadə edirlər. Buraya verbal (linqvistik) dil, jest, predmet - məkan, qrafik, obrazlı (o cümlədən bədii), formallaşdırılmış dil, emosiyaların dili, peşə fəaliyyətinin dili (lüğət ehtiyatı, əmək texnologiyaları, alətləri və s.) aiddir. Mədəniyyət dillərinin formalaşması mənbələri həm təbii ilkin şərtlərə, həm də insanların qarşılıqlı fəaliyyətinin müəyyən sosial-kommunikativ, qiymət-məna xüsusiyyətlərinə malikdir. Mədəniyyət dilləri insanların kommunikasiya prosesində, onların birgə fəaliyyətində təşəkkül tapır və inkişaf edir. Mədəni kommunikasiyanın əsas kanalları şifahi kommunikasiya və yazılı nitqdir.

2. **Semantik ünsür.** Buraya mənəvi dəyərlər, mədəni fəallığın məna, işarə və simvolları daxildir. Mənəvi dəyərlər sosial əlaqələri nizamlamağın çevik sistemidir, şüurun fəal yönümləridir. Məna insan təcrübəsinin sosial- mədəni kommunikasiyaya qoşulması üsuludur, insanı əhatə edən obyektlərlə, onun öz vəziyyəti və fəaliyyəti ilə sıx bağlıdır. O, tarixi təcrübə zəminində təşəkkül tapır, məlum birliyin bu və ya digər hadisəyə maraqlı münasibətini ümumiləşdirir. Mənanın mədəniyyətdə formalaşması uzun vaxt tələb edir. Mədəni işarələr və simvollar müəyyən dəyər - məna xüsusiyyətinə malikdir. Onlar gerçəklik haqqında bəzi məlumatları əks etdirir. Əslində sosial mühit işarə sistemləri ilə doludur. Onlar mədəniyyətin spesifik mətnləridir. İnsan həmin işarələrin mənasını nəzərə alır, müvafiq davranış nümayiş etdirir, öz hərəkətlərini başqalarının hərəkətləri ilə uyğunlaşdırır. Mədəni işarə öz məzmunundan «ayrılırsa», yeni məna kəsb edirsə, simvola çevrilir. Bu, tədrici prosesdir, öz informasiya və məna yükü baxımından olduqca səmərəlidir. Məsələn, palma budağı ilə göyərçin təsviri sülhün simvoludur. Gerb, bayraq, himn hər bir dövlətin ümummilli xarakteristikasıdır. Simvollar ritualların, təntənəli aktların mühüm ünsürüdür.

**3. Normativ - etalon ünsürü.** Bu, insan fəaliyyətini onun normalaşdırılması baxımından səciyyələndirir. Mədəni norma davranışın, mənəvi fəallığın müəyyən standartıdır. Konkret mədəniyyəti təmsil edən adamlar öz fəaliyyətində bu normalara istinad edirlər. Normalar fəaliyyətin müəyyən mədəniyyətə xas olan çox mühüm prinsiplərini təsbit edirlər. Cəmiyyətdə mədəni normaların daimi yeniləşməsi prosesi gedir. Lakin ictimai praktikanın müxtəlif sahələrində yeniləşmənin sürəti fərqlidir. Mədəni innovasiyaların bir qismi zaman keçdikcə normaya çevrilə bilər. Bunun üçün həmin innovasiya əhalinin əsas hissəsi tərəfindən bəyənilməli, qəbul edilməli, bir neçə nəslin həyat prosesində təkrar istehsal olunmalıdır.

Mədəni praktikada mədəni nümunələrin özünəməxsus yeri vardır. Onların məzmunu dünya haqqında informasiyanı, onu qiymətləndirmə məqammı, burada insanın fəaliyyət üsulunu və s. əks etdirir. Mədəni nümunələrin təşəkkülü müxtəlif cür baş verir. Bədii yaradıcılıqda, dini praktikada onların çoxluğu daha çox hiss olunur. Geniş diapazona malik müxtəlif mədəni hadisələr (məsələn, maddi predmetlər, insanların davranış maneraları, zahiri xarakteristikaları, incəsənətin janr və üslub xüsusiyyətləri, iqtisadi münasibətlərin formaları, siyasi mədəniyyət təzahürləri və s.) mədəni nümunələr ola bilər. Etnomilli mədəniyyət nümunələri xüsusilə davamlıdır.

Konkret mədəniyyət nümayəndələrinin fəaliyyətindəki mədəni nümunələrin, normaların bütöv komplekslərini mədəni özək adlandırmaq qəbul olunmuşdur. Bu, əsrlər ərzində qorunub saxlanılan fenomendir, xalqın fərdi mahiyyəti ilə sıx bağlıdır. Mədəniyyətin özəyi onun ayrı-ayrı komponentlərinin münasibətlərini nizamlayan özünəməxsus katalizatordur; o, məlum mədəniyyətin digər mədəniyyətlərlə qarşılıqlı təsirində onun identikliyini mühafizə edib saxlamağa imkan verir.

Mədəni normalarla və nümunələrlə müqayisədə adətlər daha bütöv xarakterə malikdir. Mədəni tənzimləmənin bir forması olan adətlər adamların konkret davranışını sosial cəhətdən əhəmiyyətli vəziyyətlərdə ifadə edir. Ənənə anlayışı adətlərlə müqayisədə daha geniş məna kəsb edir. O, təkcə davranış stereotiplərini deyil, həm də nəsildən - nəslə ötürülən sosial-mədəni irsin bütün həcmini əhatə edir. Ənənələr zamanın tələblərinə uyğun olaraq, dəyişikliklərə uyğunlaşa bilər. Onlarda sabitləşdirici və dinamik ünsürlər sıx çulğalaşmışdır. Onlar yeni ünsürləri özündə birləşdirə bilər, formaca və məzmunca dəyişə, yeniləşə bilər. Ənənələrdə xalqın təcrübəsini nəsildən-nəslə ötürmək, başqa xalqların praktikasındakı faydalı ünsürləri seçmə qaydasında əks etmək xüsusiyyəti vardır.

Rituallar, mərasimlər mühüm nizamlayıcı əhəmiyyətə malikdir. Ritual-mərasim davranışı xeyli dərəcədə formallaşmışdır. Böyük simvolik mənası olan belə davranış sosial əlaqələrin möhkəmlənməsində, mədəni varisliyin qorunub saxlanılmasında müəyyən rol oynayır.

Normativ-etalon ünsürün müxtəlif vahidlərini müqayisə etsək, onların müəyyən fərqlərini görmək olar. Belə ki, konkret insanın yerinə yetirdiyi mədəni normalar və nümunələr bir çox cəhətdən avtomatik xarakter alır. Onlar insan fəaliyyətinin bütün tərəflərinə dərindən nüfuz etmişlər. Adətlər, ənənələr, rituallar, mərasimlər isə mədəni norma və nümunələr komplekslərindən ibarət olub, daha çox demonstrativ xarakterə malikdir.

**4. İnformasion ünsür.** Bu ünsür ətraf aləm haqqında məlumatları ifadə edir. Həmin məlumatlar gerçəkliyin başa düşülməsində qeyri-müəyyənliyi azaldır. Mədəni normalar, işarələr və simvollarla yanaşı biliklər, təsəvvürlər və s. mühüm informasiya imkanların

malikdir. Hər bir xalqın miflərdə, incəsənətdə, gündəlik təsəvvürlərdə və s.-də formalaşdırdığı, təsbit etdiyi dünya mənzərəsi informasion ünsürün ayrılmaz tərkib hissəsidir. O, müxtəlif amillərdən (xalqın tarixi praktikası, təbii landşaft, beynəlxalq əlaqələr və s.) ibarətdir. Elmi fikir bu mənzərənin formalaşmasına öz töhfəsini verir.

Keçmiş və indiki mədəniyyətlərin çox geniş rəngarəngliyindən danışmaq olar. XIX əsrdən başlayaraq, tədqiqatçılar müxtəlif xalqların müxtəlif tarixi dövrlərə aid olan mədəniyyətlərini müqayisəli şəkildə öyrənməyə, onlarda təkrar olunan ünsürləri, ən mürəkkəb kompleksləri ayırd etməyə cəhd göstərmişlər. Bu əsasda mədəniyyətin universal modelini yaratmaq kimi mürəkkəb vəzifəni reallaşdırmağa çalışmışlar. Lakin nəticədə mədəniyyətin fundamental xarakteristikalarını sadalamaq və nəzərdən keçirmək yolu ilə getmişlər. Belə xarakteristikalar müxtəlif müəlliflərdə müxtəlifdir (4-dən təxminən 50-yə qədər). Tədqiqatçıların universal hesab etdikləri ünsürlər və xüsusiyyətlər sırasına bunlar aiddir: dil, nitq, sosial təşkil, qohumluq sistemləri, birgə əmək və əmək bölgüsü, böyüməkdə olan nəslin təlimi və təhsili, müəyyən qadağanlar sistemi, dəfn mərasimləri, dini kultlar, adətlər və s.

Tədqiqatçılar mədəniyyət universalilərini də ayırd edirlər. Mədəniyyət universaliləri dünya mənzərəsinin hər bir xalqın mədəniyyətinə xas olan fundamental kateqoriyaları kimi nəzərdən keçirilir.

Araşdırmalar göstərir ki, istər universal modelin, istərsə də mədəni universalilərin əsası insanın davamlı antropoloji xarakteristikalarına, habelə onun mövcudluq şəraitinə söykənir. Lakin bu ümumiliklə yanaşı çoxsaylı fərqli əlamətlər də vardır. İnsan birlikləri müxtəlif təbii və sosial həyat şəraitində yaşadıqlarına və ona uyğunlaşmalı olduqlarına görə onların mədəni inkişafı bir-birindən fərqli xüsusiyyətlər kəsb etmişdir. Müxtəlif mədəniyyətlərin ümumbəşəri əsası rəngarəng etnik-milli və mədəni-sivilizasion xarakteristikalarla, xüsusiyyətlərlə tamamlanır.

Mədəniyyəti müxtəlif əsaslara görə tərkib hissələrə ayırırlar. Lakin araşdırmalar göstərir ki, təklif edilən variantlar çox zaman bütün mədəniyyətin tərkibini deyil, yalnız onun ayrı-ayrı məkanlarını və ya altsistemlərini əks etdirir.

Mədəniyyətin quruluşunun ən sadə modeli onun maddi və mənəvi mədəniyyətə ayrılmasıdır. Belə təsnifatdan həm gündəlik praktikada, həm də elmdə geniş istifadə olunur. Maddi mədəniyyət dedikdə, mədəniyyətin bütün predmetləri və maddi obyektləri, əlaqə kanalları (yollar, informasiya şəbəkələri), habelə mədəni praktikaya qoşulmuş təbii - landşaft hadisələri başa düşülür. Mənəvi mədəniyyət dedikdə isə mənəvi sərvətlərin (obrazlar, biliklər, təsəvvürlər, dəyərlər, simvollar və s.) geniş məkanı başa düşülür.

Mədəniyyətdə müxtəlif məzmun - tarixi qatları və tərkib hissələri ayırd etmək baxımından onun bölgüsü də təklif edilmişdir. Bu halda qeyd edilir ki, qədim dünyanın mədəniyyətlərindən başlayaraq, sosial diferensiasiyanın dərinləşməsi zəminində xalq mədəniyyəti fenomeni formalaşmışdır, Müasir şəraitdə bu mədəniyyətin dəqiq cızılmış hüdudları yoxdur. Bu anlayış daha çox bəzi etnik və ya ümummilli invarianta, ənənələrdə təsbit olunan və inkişaf etdirilən dəyər-normativ və məna məzmunlarının məcmusuna müncər edilir. Xalq mədəniyyətinin yaradıcıları həm aşağı təbəqələr, həm də müxtəlif təbəqələrin nümayəndələridir. İnsanın öz mədəniyyətinə mənsubluq şüuru, öz xalqına mənəvi yaxınlığı, müasir sosial kontekstdə xalq ənənələrinə adaptasiyası indiki şəraitdə xalq mədəniyyətinin mühüm xarakteristikalarıdır.

Kütləvi mədəniyyət yeni dövrün fenomenidir. Bu fenomen obyektiv surətdə industrializasiya prosesləri ilə təşəkkül tapır və hazırda postindustrial, informasion mədəniyyətə keçidin təsiri altında inkişaf edir. Kütləvi mədəniyyət son əsrlərdə Qərbi Avropa xalqlarının obyektiv inkişaf qanunauyğunluğunu əks etdirir. Bu prosesdə adi ənənəvi mədəniyyət geniş miqyaslı birliklərin, habelə konkret subyektlərin tələbatlarını ödəyə bilmədi. Ona görə də müxtəlif fəaliyyət sahələrində kütləvi mədəniyyətin rəngarəng təzahürləri meydana gəlirdi. Kütləvi ümumtəhsil məktəblərinin formalaşması, kütləvi kommunikasiya vasitələrinin inkişafı, siyasi həyatda kütləvi hərəkatların və partiyaların meydana gəlməsi, kütləvi istehlakçı tələbatlarının, standartlarının qərarlaşması və s. - bütün bunlar kütləvi mədəniyyətə ehtiyacı şərtləndirirdi. Kütləvi mədəniyyət məhsulları peşəkarlar - kütləvi tələbat, təhsil, siyasət, kütləvi incəsənət, reklam sahəsində çalışan mütəxəssislər tərəfindən yaradılır. Bu məhsullar bütün dünyaya yayılır; onların bir çoxunda etnik-milli əlamət axtarmaq mənasızdır. Həmin məhsulların hazırlanması daha çox kommersiya məqsədlərinə tabe edilmişdir.

Əksmədəniyyət özündə elə ustanovkalar cəmləşdirir ki, onlar hakim mədəniyyətə qarşı durur, inkişafın alternativ prinsiplərini, yəni mənəvi yönümləri irəli sürür. Əksmədəniyyət hadisəsi xalqların inkişafını dinamikləşdirən amillərdən biri kimi XX əsrin ikinci yarısında tədqiqatçıların diqqətini cəlb etmişdir. Əvvəlki fəaliyyət normalarının, mənəvi yönümlərin zəifləməsi və yenilərinin doğulması çox zaman ictimai təbəqələşməyə, müəyyən sosial qüvvələrin fəallaşmasına səbəb olur. Bu dəyişikliklər ideyalarda, bütöv təbəqələrin fəaliyyətində aydın ifadə olunduqda cəmiyyətdə yeniləşmə meylləri güclənir. Nəticədə əksmədəniyyətin formalaşması üçün zəmin yaranır. Yeni təsəvvürlər müəyyən dövr ərzində əsas nümunələrə münasibətdə innovativ xarakterini saxlayır, lakin zaman keçdikcə onların xeyli hissəsi hakim mədəniyyətə inteqrasiya oluna bilər.

Mədəniyyətin quruluşunu onda müxtəlif submədəniyyətlərin olması baxımından nəzərdən keçirmək olar. Submədəniyyətlər hakim mədəniyyətin tərkib hissələri olub, öz

normativ quruluşu, dəyərləri, ənənələri ilə bütövlükdə mövcud mədəniyyətdən fərqlənirlər. Onlar sosial birliklərlə - mədəniyyətin daşıyıcıları ilə sıx bağlıdır. Bu halda şəhər və kənd submədəniyyətini, habelə silklərin, təbəqə və siniflərin submədəniyyətini ayırd edirlər (məsələn, mühüm əlamətlərə görə Qərbi Avropada cəngavər mədəniyyəti, sonra zadəgan mədəniyyəti, daha sonra isə burjua mədəniyyəti ayırd edilmişdir). Keçmişdə əkinçi xalqların kəndli mədəniyyəti üçün spesifik həyat tərzi, xüsusi təsərrüfat formaları və əmək ritmi, habelə bədii praktikanın folklor növləri (miflər, nağıllar, atalar sözləri, incəsənətin tətbiqi növləri və s.) səciyyəvi olmuşdur. Hazırda Asiyanın, Cənubi Amerikanın, Afrikanın bir sıra ölkələrində həmin mədəniyyət qalmaqdadır.

Müasir şəraitdə həyat fəaliyyətinin stratifikasiya formaları əsasında submədəniyyətlərin formalaşması prosesi nəzərə çarpmır. Məsələn, orta sinfin müxtəlif təbəqələri arasında mədəni fərqlər həyat tərzinin mədəni üslub xüsusiyyətlərinin fərqliliyinə müncər edilir. Lakin müasir cəmiyyətdə sosial meyarlara görə ayırd edilən bir sıra submədəniyyətlər inkişaf etməkdədir. Məsələn, tədqiqatçılar elitar mədəniyyəti - cəmiyyətin imtiyazlı qruplarının submədəniyyətini, yoxsulluq mədəniyyətini - ən yoxsul qrupların elitar mədəniyyətə əks qütbdə inkişaf edən mədəniyyətini, gənclər submədəniyyətini - müasir şəhər mühitində formalaşan və gəncləri əhatə edən mədəniyyəti, etnik-milli submədəniyyətləri (xüsusən milli-etnik tərkibi rəngarəng olan ölkələrdə), habelə ərazi (regional) submədəniyyətlərini ayırd edirlər.

Tədqiqatçılar mədəniyyətin quruluşunun bütöv modellərini də işləyib hazırlamışlar. Bu halda həmin modellərin tərkib hissələri vahid meyarlara görə ayırd edilir. Belə olduqda ayrı-ayrı hissələr arasında qarşılıqlı surətdə əlaqəli olan münasibətləri görmək mümkündür. Mədəniyyətin morfoloji modeli bu baxımdan diqqəti cəlb edir. Həmin modeldə təsnif üçün tarixi formalaşma və funksional-məzmun müstəqilliyi kimi meyarlar götürülmüşdür.

Morfoloji modeldə mədəniyyətin iki səviyyəsi qeyd olunur: adi (gündəlik) mədəniyyət və ixtisaslaşdırılmış mədəniyyət. İnsanların təşkili üsulları, mədəni təcrübənin qorunub saxlanılması və istifadə edilməsi bu səviyyələrdə bir -birindən fərqlənir.

Adi mədəniyyət insanların gündəlik həyat dünyasını mühafizə etməklə bağlıdır. İnsan həyatının ilk günündən son gününə qədər onun hüdudlarında (ailədə, yaxın dostlarının əhatəsində, qeyri-formal qarşılıqlı təsir prosesində) inkişaf edir. Burada fəaliyyətin sərt təlimati formaları yoxdur, insanın fəallığı dəyişkən xarakter daşıyır, öz mənafe və tələbatlarının reallaşmasına yönüm əsas cəhətdir.

İxtisaslaşdırılmış mədəniyyət ictimai əmək bölgüsü ilə əlaqədardır, fəaliyyətin sistemli - təsisatlı sferalarının (əmək, idarəetmə, təhsil, xidmət, peşəkar incəsənət və s.) olmasını nəzərdə tutur. Burada fəaliyyət daha rasional xarakter daşıyır; insana hər şeydən əvvəl işçi, vəzifəli şəxs kimi yanaşılır.

Mədəniyyətin hər iki səviyyəsi şaquli bölgü üzrə funksional baxımdan müstəqil sferaların ayırd edilməsi ilə tamamlanır: təsərrüfat mədəniyyəti; siyasi mədəniyyət; hüquqi mədəniyyət; dini mədəniyyət; fəlsəfi mədəniyyət; bədii mədəniyyət (incəsənət); elmi mədəniyyət; rekreasiya sferası (sağlamlığın qorunmasına yönəlmiş mədəni fəaliyyət sahəsi).

Qeyd edilən vahidlərlə yanaşı mədəni praktikanın elə sahələri də ayırd edilir ki, onların vəzifəsi mədəniyyətin bütün səviyyə və sferaları arasında əlaqəni təmin etməkdir. Buraya təhsil sferası, kütləvi informasiya vasitələri, habelə mədəniyyət müəssisələri (arxivlər, kitabxanalar, muzeylər, konsert zalları və s.) aiddir.

Mədəni praktikanın səviyyələri və sferaları müəyyən funksiyaların həyata keçirilməsi ilə əlaqədardır. Sosial praktikada onların hamısı çoxsaylı əlaqə və münasibətlərlə bir-birini tamamlayır. Deməli, onlar arasında keçilməz hüdudlar yoxdur.

Mədəniyyət statik sistem deyildir; o, daim dəyişir, yeniləşir, müxtəlif hadisə və proseslərlə zənginləşir. Mədəniyyətin özünəməxsus dinamikası dedikdə elə dəyişikliklər başa düşülür ki, onlar nizamlı xarakter daşısın, məzmun baxımından müəyyənliyə malik olsun, əsas ictimai meyllərin istiqamətinə uyğun gəlsin.

Bəşəriyyətin mədəni təkamülünün tarixi mərhələləri belə dövrləşdirilir: ibtidai cəmiyyətin mədəniyyəti; qədim dünya mədəniyyəti; orta əsrlər mədəniyyəti; yeni dövr mədəniyyəti. Buna uyğun olaraq, müxtəlif xalqların mədəni praktikasının bir neçə mərhələsi və modifikasiyası ayırd edilir: arxaik tipli mədəniyyət (adətən yazısı olmayan mədəniyyətdir); ənənəvi tipli mədəniyyət; müasir tipli mədəniyyət.

Ənənəvi və müasir mədəniyyətlər təsərrüfat məşğuliyyətinin aparıcı formalarından və iqtisadiyyatın inkişaf dərəcəsindən asılı olaraq, aşağıdakı kimi təsnif edilə bilər: ənənəvi tipli mədəniyyət - torpaqbecərmə mədəniyyəti; köçəri (yaxud yarıköçəri) heyvandarlıq mədəniyyəti; oturaq heyvandarlıq mədəniyyəti; müasir tipli mədəniyyət - industrial cəmiyyət mədəniyyəti; postindustrial cəmiyyət mədəniyyəti. Mədəniyyətin tarixi tipləri insanın ictimai təkamülünün xüsusiyyətlərini başa düşməyə kömək edir.

Mədəni dəyişikliklərin bir sıra amilləri mövcuddur. Mədəni dəyişikliklərin amilləri dedikdə, məlum dəyişikliklərin əsasını təşkil edən, onları reallaşdıran hərəkətverici qüvvələr, mənbələr və şərait başa düşülür. Aydın məsələdir ki, bu və ya digər amilin fəaliyyəti müəyyən tarixi şəraitdə ön plana keçə bilər.

Mədəni dəyişikliklərin əsasını təşkil edən başlıca amillər aşağıdakılardır:

**a)** təbii-ehtiyat amilləri. Bu amillər mədəniyyətin bir çox sahələrinə (təsərrüfat

məşğələləri, əmək alətlərinin təkmilləşməsi, əhalinin həyat tərzi) ciddi təsir göstərir.

**b)** mədəniyyət formalarının məkan yerləşməsi. Onların tam yerləşməsi ərazinin mədəni baxımdan mənimsənilməsini sürətləndirir.

**c)** müxtəlif mədəniyyətlərin qarşılıqlı təsiri. Bu, bir mədəni birliyin digərinə nüfuz etməsinə və qarşılıqlı zənginləşməyə imkan verir.

**ç)** sosial institutlar və münasibətlər. Amillərin bu qrupu bəzi mədəni dəyişiklikləri dinamikləşdirir.

**d)** mənəvi-ideya amilləri. Bu, mədəni fəaliyyətin ideyalarını, dəyərlərini, bütöv proqramlarını əhatə edir.

**e)** rasional tədqiqatlar və idarəetmə. Müasir şəraitdə real vəziyyəti aşkara çıxarmaq və mədəni yeniləşməyə kömək etmək üçün rasional tədqiqatlar aparmağın, idarəetməni optimallaşdırmağın əhəmiyyəti getdikcə artır.

Mədəni dinamika müxtəlif formalarda həyata keçirilir. Bu formalar mədəni dəyişikliklərin istiqamətinə, məzmununa, intensivliyinə, nəticələrinə görə bir-birindən fərqlənir. Dəyişikliklərin aşağıdakı formalarını qeyd etmək olar:

**1)** tsiklik, yaxud dalğavari dəyişikliklər. Bu halda mədəni praktika öz inkişafında müxtəlif mərhələlərdən, fazalardan, tsikllərdən keçir.

**2)** mütərəqqi (proqressiv) dəyişikliklər. Bu halda dəyişikliklər yüksələn xətlə sosial baxımdan məqsədəuyğun mədəni keyfiyyətlərin toplanması şəraitində baş verir.

**3)** qeyri-mütərəqqi (reqressiv) dəyişikliklər. Bunlar mütərəqqi dəyişikliklərə əksdir; belə dəyişikliklər mədəniyyətin məqsədəuyğun keyfiyyətlərinin azalmasını, böhranlı əlamətlərin artmasını, xaosun yaranmasını sübut edir.

**4)** mədəni partlayış. Bu, durğunluğa əks olan, nəticələri çətin proqnozlaşdırılan rəngarəng və sürətli dəyişikliklərlə, qeyri-sabit sosial-mədəni proseslərlə xarakterizə olunur.

**5)** mədəni durğunluq. Bu, uzunmüddətli dəyişməzlik, süstlük vəziyyəti ilə səciyyələnir. Bəzən mədəni dinamikanın xarakterini və istiqamətini müəyyənləşdirmək çox çətin olur. Baş verən dəyişikliklərin mənasını aydınlaşdırmaq üçün müəyyən vaxt tələb olunur. Nəzərə almaq lazımdır ki, mədəniyyətin zənginləşməsi kimi ümumi proses çərçivəsində onun ayrı-ayrı hissələrinin tənəzzülü, yaxud deqradasiyası baş verə bilər. Məsələn, universal şəhər mədəniyyəti normalarının geniş yayılması əslində əyalət mədəniyyətinin tənəzzülünə səbəb olur.

**6)** mədəni böhran. Bu vəziyyət üçün xaotik meyllərin artması, ziddiyyətlərin çoxalması, sosial praktikanın bu və ya digər sahəsində ənənələrlə innovasiyalar arasında ayrılığın olması səciyyəvidir.

**7)** mədəni fəlakət. Böhran dərinləşərək, mədəni fəlakətə keçə bilər. Bu halda praktikanın bu və ya digər sahəsinin, bəzən bütün mədəniyyətin əvvəlki qaydada fəaliyyəti mümkün olmur, mədəni varislik itir. Tarixən ərazilərin hərbi işğalı nəticəsində bütöv mədəniyyətlərin yoxa çıxmasına dair faktlar məlumdur.

Mədəni dəyişikliklərin rəngarəng formaları sübut edir ki, mədəni dinamika ən müxtəlif, ziddiyyətli proseslərin, meyllərin qarşılıqlı əlaqə və təsiri şəraitində baş verir. Çox mühüm dinamik meyllərin aşkar və gizli keyfiyyətləri, təzahürləri dəqiq müəyyənləşdirilməli, əsaslı keyfiyyət təhlili aparılmalıdır.

Azərbaycan mədəniyyəti çoxəsrlik ənənələri olan, keyfiyyət spesifikliyini qoruyub saxlayan, dinamik inkişaf edən mədəniyyətdir. Müstəqillik şəraitində öz tərəqqisi üçün yeni imkanlar əldə edən bu mədəniyyət dünya mədəniyyətinin nailiyyətlərindən yaradıcılıqla istifadə etməklə daha da yeniləşir, zənginləşir.

## Mühazirə 12. İctimai rəy və hüquq sosiologiyası

1. İctimai rəyin mahiyyəti
2. İctimai rəyin ifadə olunma vasitələri
3. KİV ictimai rəyin formalaşmasının qüdrətli amilidir
4. Hüquq sosiologiyasınm predmeti
5. Şəxsiyyətin hüquqi sosiallaşması
6. Şəxsiyyətin hüquqi davranışı
7. Qanunvericilik sosiologiyasının bəzi cəhətləri

### İCTİMAİ RƏYİN

## SOSİOLOGİYASI

### 1. İctimai rəyin mahiyyəti

İctimai rəy ictimai şüurun elə təzahürüdür ki, burada böyük sosial qrupların, bütövlükdə xalqın aktual hadisələrə münasibəti (yaxud onları qiymətləndirilməsi) əks olunur. Adətən belə hadisələr ciddi ictimai maraq doğuran, ictimai mənafelərə toxunan hadisələr olur. Ətraf gerçəkliyin qiymətləndirilməsi müxtəlif qrup və təbəqələrin mövqeyini əks etdirir. Həmin qrup və təbəqələr ictimai rəyin ifadəçiləridir.

Bu bir həqiqətdir ki, istənilən sosial və ya sosial-ərazi birliyinin normal fəaliyyəti ictimai işlər haqqında kollektiv təsəvvürlər, mühakimələr işlənib hazırlanmadan mümkün deyildir. Hər hansı hadisənin ictimai cəhətdən işlənib hazırlanmış qiymətləri olmasa, davranış normaları müəyyənləşdirilməsə, ümdə problemlərin praktik yolları axtarılıb tapılmasa, cəmiyyət bütöv sosial orqanizm kimi, bütöv sosial sistem kimi fəaliyyət göstərə bilməz.

Hər bir cəmiyyətdə ictimai rəyin təşəkkül tapması və inkişafı mürəkkəb xarakterə malikdir. Ona görə də

«təşəkkül tapmış ictimai rəy ayrı-ayrı rəylərin mexaniki cəmi deyil, qarşılıqlı mübadilə olunması və zənginləşməsinin, bir-birinə nüfuz etməsinin nəticəsidir, bir növ kollektiv zəkanın təmərküzləşmiş ifadəsidir. İctimai rəy rasional, emosional və iradi ünsürlərin üzvi vəhdətindən ibarət olduğundan üç səviyyədə təzahür edə bilər: mənəvi münasibət kimi (qiymətverici mühakimələr vasitəsilə), mənəvi-praktik münasibət (emosional-iradi meyllər, səylər, niyyətlər və s. vasitəsilə) və praktik münasibət kimi (kütləvi hərəkatlar və əməllər vasitəsilə)».[1]

İctimai rəyin nüfuz gücü əksəriyyətin şüuruna əsaslanması ilə şərtlənmişdir. Burada çox əhəmiyyətli məsələ həmin əksəriyyətin düzgün nöqteyi-nəzərdə, düzgün mövqedə olub-olmamasıdır. Əgər əksəriyyət düzgün nöqteyi- nəzərdədirsə, düzgün mövqedə dayanırsa, o zaman ictimai rəy əksəriyyətin yetkin rəyi kimi çıxış edir ki, bu da onun sosial əhəmiyyətini və praktik təsirini artırır. Kütlələrin şüurunun azdırılması ictimai rəyin funksional imkanlarını azaldır.

Konkret ictimai rəyin əlamətlərinə onun intensivliyini və sabitliyini aid edirlər. İctimai rəyi kütləvi şüurun mövcudluğu və təzahürü üsullarından biri hesab edirlər. Bu şüurda, məlum olduğu kimi, xalqın, sinfin, sosial qrupun əksəriyyətinin onların tələbat və mənafelərinə toxunan gerçəkliyin fakt, hadisə və proseslərinə real münasibətləri ifadə olunur.

İctimai rəy sosial nəzarətin, geniş kütlələrin davranışını və praktik fəaliyyətini nizama salmağın səmərəli vasitəsidir, xalqın özünüidarəetmə sisteminin ayrılmaz ünsürüdür.

Kütlələrin tarixi prosesdə rolu artdıqca, cəmiyyətin həyat fəaliyyətinin bütün sferalarında fəallığı yüksəldikcə, onların təhsil, mədəniyyət, məlumatlılıq səviyyəsi genişləndikcə ictimai rəyin sosial əhəmiyyəti və

idarəetmə dəyəri də yüksəlir. Demokratiyanın inkişafı və təkmilləşməsi ictimai rəyin formalaşmasına, öyrənilməsinə və nəzərə alınmasına səmərəli təsir göstərir.

İctimai rəy cəmiyyəti idarəetmənin demokratik vasitəsi olub, əhalinin müxtəlif qruplarının mənafelərinin, əhval-ruhiyyəsinin konkret sosial-psixoloji formada ifadəsi kanalıdır. Ona görə də demokratiyanın inkişaf etdiyi ölkələrdə ən müxtəlif ictimai problemlərin həllində ictimai rəyin müntəzəm surətdə nəzərə alınması vacib prinsiplərdən biri sayılır.

İctimai rəyin mahiyyətini, formalaşmasını, təkamülünü müxtəlif cür izah edirlər, yəni bu məsələdə vahid rəy yoxdur. Araşdırmalar göstərir ki, müxtəlif bilik sahələrini təmsil edən tədqiqatçıların bu sahədə maraqlı konsepsiyaları, nəzəriyyələri, baxışları mövcuddur. Filosoflar, sosioloqlar, politoloqlar, sosial psixoloqlar və başqaları ictimai rəy problemləri ilə daha ciddi məşğul olmuşlar. Ona görə də ictimai rəy nəzəriyyələrini məhz həmin bilik sahələrini təmsil edən tədqiqatçıların işləyib hazırladıqları konsepsiyaların, irəli sürdükləri baxışların spesifik kompleksi hesab etmək olar.[2] Bu kompleksdə gerçəkliyin hadisələrinə, faktlarına, problemlərinə münasibətdə insan qruplarının qiymətləndirmə mühakimələrinin təbiətini, cəmiyyətdə rolunu və əhəmiyyətini nəzərdən keçirməyə cəhd edilir.

İctimai rəy, demək olar ki, tarixi inkişafın bütün dövrlərində mövcud olsa da, onun bir anlayış kimi ifadəsi XII əsrdə İngiltərədə özünü göstərmişdir. Sonralar bu termin tədricən başqa ölkələrə də nüfuz etmiş, XVIII əsrin sonlarından etibarən isə geniş yayılmağa başlamışdır.

İctimai rəy insanların şüur və davranışının spesifik təzahürü kimi bütün ictimai şüur formaları və səviyyələri ilə sıx surətdə bağlıdır. O, eyni zamanda reallığa həm mənəvi, həm də praktik təsir göstərə bilməsi ilə səciyyələnir.

Adətən ictimai rəyin subyektini və obyektini fərqləndirirlər. Bu ona görə zəruridir ki, ictimai rəyin əsasını təşkil edən sosial qiymətləndirmə əslində subyektin obyektə müəyyən münasibətinin ifadəsi deməkdir. İctimai rəyin subyekti dedikdə qiymət verən tərəf nəzərdə tutulur. İctimai rəyin subyekti bir növ onun daşıyıcısı deməkdir. Aydın məsələdir ki, istənilən sosial birlik forması bu rolu yerinə yetirə bilər. Bütövlükdə cəmiyyət, onun hər hansı hissəsi (sosial qrup, təbəqə), habelə müəyyən mənada ayrı-ayrı görkəmli şəxsiyyətlər də ictimai rəyin subyekti ola bilər.

İctimai rəyin obyekti rəngarəngdir, müxtəlif hadisələr, proseslər və problemlərdir. İstənilən məsələ ictimai rəyin obyekti ola bilər. İctimai rəyin subyekti ilə obyekti arasında qarşılıqlı təsir mürəkkəb prosesdir.

İctimai rəy öz daxili məzmununa görə, əhatə dairəsinə görə əhalinin müxtəlif səviyyələrini təmsil edə bilər. Bu mənada bütövlükdə xalqın ictimai rəyini, bu və ya digər sosial qrupun rəyini, müəyyən iş sahələrində çalışan kollektivlərin rəyini ayırmaq mümkündür. Belə fərqləndirmə ictimai rəyi əsasən kəmiyyət etibarilə səciyyələndirir. Aydın məsələdir ki, ictimai rəyin keyfiyyət aspekti də mövcuddur. Bu, onun ictimai inkişafın tələbatlarına nə dərəcədə uyğun gəlməsi ilə müəyyən olunur.

İctimai rəyə verilən sosial qiymət öz obyektivliyi, mötəbərliyi baxımından birmənalı olmur. Bu halda ictimai rəyin əsasında dayanan mənafelərin tipi və xarakteri həlledici əhəmiyyət kəsb edir. Bu o deməkdir ki, hər bir sosial subyekt hadisələri, prosesləri və problemləri ən əvvəl öz spesifik mənafeləri baxımından qiymətləndirir. Mənafelər müxtəlif olduğuna görə eyni bir hadisə, proses, problem müxtəlif cür qiymətləndirilə bilir.

İctimai rəy müəyyən səviyyəli kollektiv mövqeləri ifadə edir. Ona görə də onun ümumi ictimai əhəmiyyət kəsb edən hadisə, proses, problem ətrafında formalaşması təbii sayılmalıdır. Başqa sözlə, ictimai rəyin formalaşması üçün «əlverişli mühit», real şərait yaranmalıdır. Tarixi inkişaf prosesində həm obyektiv, həm də subyektiv səbəblər üzündən müəyyən problemlər qrupu insanların diqqət mərkəzinə keçir, son dərəcə aktuallıq kəsb edir.

Beləliklə, «ictimai rəyin sosial mahiyyəti bundadır ki, o, insanların fikir və hisslərini, praktik fəaliyyətini daxili vəziyyətin və beynəlxalq həyatın ən mühüm tərəflərinə yönəldir, insanları onlara qiymət verməyə sövq edir,... onları bu tərəfləri ya qoruyub saxlamaq və ya möhkəmləndirmək işinə, ya da dəyişdirməyə səfərbər edir».[1]

İctimai rəy nəzəriyyələrinə diqqət yetirdikdə aydın olur ki, ictimai rəyə sosialoji və sosial-psixoloji, habelə politoloji yanaşmalar mövcud olmuşdur. Belə yanaşmaların fəal şəkildə işlənib hazırlanması XIX əsrin II yarısından başlanır. Bu işdə görkəmli fransız sosioloqu, sosial psixologiyanın banilərindən biri, sosiologiyada psixoloji istiqamətin başlıca nümayəndələrindən biri Qabriel Tardın (1843-1904) «İctimai rəy və yığnağ» əsəri[2] mühüm rol oynamışdır. Həmin əsərdə qeyd edilir ki, ictimai rəyi «publika» formalaşdırır. Publikanın yaranması üçün əsas xalis mənəvi proseslərdir, ünsiyyətdir. Eyni zamanda ictimai rəyin tədqiqində politoloji istiqamət də meydana çıxır. Bu, başlıca olaraq hüquqşünasların səyləri sayəsində mümkün olur. Bu istiqamət həm Qərbi Avropada, həm də Şimali Amerikada inkişaf edir. A. O. Louellin «İctimai rəy və xalq hökuməti» əsəri ictimai rəyin təbiəti və onun öyrənilməsi metodları barəsində nəzəri təsəvvürlərin

formalaşmasına əhəmiyyətli təsir göstərmişdir. Louell öz nəzəri tədqiqatlarının əsasına aşağıdakı məsələləri daxil edir:

− qərarların qəbul edilməsi zamanı ictimai rəyin səriştəliliyinin hüdudları məsələsi;

− əksəriyyətin və azlığın rəylərinin nisbəti məsələsi;

− ictimai rəyin ifadə olunması formaları haqqında məsələ. Louell belə bir nəticəyə gəlmişdir ki, ictimai rəy dövlətin idarə olunması prosesində məhdud təsir sferasına malikdir; reallıqda elə problemlər mövcuddur ki, onları bilavasitə səsvermə ilə, yaxud ictimai rəyə istinad etməklə həll etmək olmaz. Bu ideyanı Lipman daha da inkişaf etdirmişdir; o, «hər şeydə aparıcı və hər şeyə qadir vətəndaş» mifini kəskin tənqid etmişdir. Lipman ictimai rəyin məhdudluğunu nədə görürdü? «Orta adam»ın öz mənafelərini dərk etməyə qadir olmamasında, onun mətbuatın materiallarından geniş istifadə etməsində - mətbuatın informasiyası isə tam deyildir, yaxud təhrif olunmuşdur. Lipman bu baxımdan stereotip anlayışından istifadə edir. O, bu anlayışı bəsit təsəffürləri, ictimai rəyin təzahür formalarını ifadə etmək üçün işlədilir.

Onun fikrincə, bu, siyasi xadimlərin, partiyaların, reklam personajların, müxtəlif sosial, peşə və etnik qrupların davranışında müşahidə edilir. Lipmana görə, stereotiplər bəşəri ünsiyyətə daxilən xasdır və buna görə də onlar «gəzən rəyin» ayrılmaz hissəsidir.

Müasir şəraitdə Qərb mütəxəssisləri ictimai rəyin vətəndaşların seçki kampaniyaları dövründəki davranışı ilə əlaqəsi məsələsinə xüsusi diqqət yetirirlər. Hakimiyyət uğrunda mübarizədə siyasi partiyalar arasında mübarizənin kəskinləşməsi bunu bilməyi zəruri edir ki, seçkilərdə namizədlərin, onların proqramlarının qiymətləndirilməsinin əsasında hansı mexanizmlər dayanır. Seçkilərdə namizədlərə münasibətdə insanların rəyini

müəyyən edən «zahiri amillərin» təhlilinə xüsusi diqqət yetirilir. Seçki kampaniyaları zamanı adamların davranışına təsir edən səbəblərin ierarxiyası öyrənilir: ölkənin daxili problemlərinə münasibət, kiçik qrup tərəfindən göstərilən təzyiq, seçicinin şəxsi xüsusiyyətləri, siyasi ənənələr və s. bu qəbildəndir. Seçicilərin seçkilərə hazırlıq gedişində münasibətlərində baş verən dəyişiklikləri izah etmək üçün seçicilərin davranışına aid müxtəlif konsepsiyalar işlənib hazırlanır. Məsələn, «Qıf» konsepsiyası. Bu konsepsiyanın mahiyyəti ondadır ki, seçkilərə yaxınlaşdıqca rəylər daha çox fərdiləşdirilmiş, konkretləşdirilmiş və siyasiləşdirilmiş xarakter kəsb edir. «Susma spiralı» adı ilə məşhur olan konsepsiya. Bu konsepsiya belə bir vəziyyəti qeydə alır: partiyalardan birinin qələbə gözləməsi daim artır, həmin partiya üçün səs vermək niyyətləri isə dəyişməz qalır.

Beləliklə, ictimai rəyə sosiaoloji, sosial-psixoloji və politoloji yanaşmalar öz mahiyyəti və məzmunu etibarilə bir-birindən müəyyən dərəcədə fərqlənir. Birincisi sosial məqamları, ikincisi sosial-psixoloji məqamları, üçüncüsü isə siyasi məqamları ön plana çəkir, qabarıqlaşdırır. Lakin bu yanaşmaların hamısı ictimai rəyin əhəmiyyətini qeyd edir, onu öyrənməyi vacib sayır və bunun üçün müxtəlif üsullar təklif edirlər.

## 2. İctimai rəyin ifadə olunma vasitələri

Sosiologiya ictimai rəyin ifadə olunması prosesinin öyrənilməsini daim diqqət mərkəzində saxlayır. Ümumiyyətlə, ictimai rəyin ifadə olunması dedikdə, həyatın aktual problemləri üzrə fərdi və qrup xarakterli rəylərin bilavasitə və nümayəndəli demokratiya formaları vasitəsilə ifadə edilməsi başa düşülür.[1]

Bu bir həqiqətdir ki, ictimai rəyin gücü təkcə onun məzmununun obyektivliyi və əhalinin daha geniş təbəqələrinin mənafelərini, tələbatlarını əks etdirməsi ilə deyil, həm də onun ifadə olunma vasitələri ilə şərtlənmişdir. Buna görə də ictimai rəyi ifadə edən siyasi və ictimai institutların işinin səmərəli təşkil edilməsi, insanların kollektiv rəyini ifadə edən formaların və kanalların genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

İctimai rəyin daşıyıcısı ilə onu ifadə edən tərəf heç də həmişə eyni olmur. Yəni ola bilər ki, böyük sosial qrupların ictimai rəyi nisbətən xırda qruplar və hətta ayrı-ayrı adamlar tərəfindən ifadə olunsun.

Deməli, cəmiyyətin hər bir üzvü ictimai rəyin ifadəçisi kimi çıxış edə bilər. Bu halda onun kütləvi elan etdiyi rəy ictimai əhəmiyyət kəsb edən bu və ya digər məsələ barəsində hər hansı böyük sosial qrupun rəyini, münasibətini əks etdirməlidir.

İctimai rəyin ifadə olunma növləri və formaları olduqca müxtəlifdir. Bu baxımdan üç növü xüsusi olaraq fərqləndirmək lazımdır.

Birincisi, kortəbii surətdə ifadə olunan ictimai rəydir. Belə rəy müəyyən fərdin və ya fərdlər qrupunun gündəlik həyat şəraitinin təsiri altında formalaşır və hadisələrə bu səviyyədə münasibətini, qiymətini ifadə edir. Məsələn, küçədə, məhəllədə, bazarda, iş yerində və s. yerlərdə daxili və beynəlxalq məsələlərin müzakirə edilməsi, onlara münasibət bildirilməsi, qiymət verilməsi məhz bu qəbildəndir. İctimai rəyin belə ifadə olunması özünün lokal xarakteri, çox zaman hadisələrin zahiri, səthi tərəflərinə əsasən fikir yürüdülməsi və əsl mahiyyətinə dərindən nüfuz edilməməsi, əksər hallar-da qeyri-dəqiq olması ilə səciyyələnir. Lakin dediklərimiz ictimai rəyin bu növünə laqeyd yanaşmaq, onu nəzərə almamaq üçün əsas olmamalıdır.

İkincisi, ictimai rəyin dövlət orqanlarının, ictimai təşkilatların, kütləvi informasiya

vasitələrinin təşəbbüsü ilə ifadə olunmasını əhatə edir. Bu növə ölkənin sosial-iqtisadi, siyasi və mədəni həyatına dair mühüm əhəmiyyətli qanun layihələrinin ümumxalq müzakirəsini, mətbuat səhifələrində, radio və televiziyada həyatımızın ən aktual və əhəmiyyətli problemlərinin vaxtaşırı müzakirəsini və s. aid etmək olar. Təbiidir ki, bu növ daha əhatəlidir, ictimai praktikamıza daha möhkəm daxil olmuşdur.

Üçüncüsü, ictimai rəyin xüsusi sosioloji tədqiqatlar vasitəsilə əldə edilmiş nəticələrinin əhaliyə çatdırılmasıdır. Bu növ əsasən əhalinin müxtəlif qrup və təbəqələri arasında aparılan sosioloji sorğular vasitəsilə ifadə olunur. Məlum olduğu kimi, bu növ dünya praktikasında geniş yayılmışdır. Respublikamızda da bu istiqamətdə müəyyən addımlar atılmışdır. Sosioloji sorğular sosial informasiya əldə etməyin mühüm kanallarıdır. Onlar cəmiyyətdəki ümumi iqlimi başa düşməkdə və qiymətləndirməkdə mühüm rol oynayır.

Elmi ədəbiyyatda ictimai rəyin təhlilində şəxsiyyətlərarası ünsiyyətə xüsusi diqqət yetirilir.

İctimai rəyin ifadə olunmasının müxtəlif üsullarını və kanallarını sıx qarşılıqlı əlaqə və təsirdə götürmək zəruridir. Bu, bir tərəfdən ictimai rəyin nə dərəcədə kütləvi xarakter daşıdığını, bu prosesin özünəməxsusluqlarını və istiqamətlərini, ayrı-ayrı fəaliyyət formalarının intensivliyini öyrənməyə imkan verir. Digər tərəfdən, hər bir ifadə növünə ayrı-ayrılıqda xas olan üstünlükləri nəzərə almaq və ümumiləşdirmək ictimai rəyin mötəbərliyinin təmin olunmasının mühüm şərtidir.

İctimai rəyə sosioloji yanaşma onun iki səviyyəsini fərqləndirməyi tələb edir. Bunlardan birincisi sözdə, danışıqda ifadə olunan səviyyədir. Buna verbal münasibət deyilir. Qeyd edilən səviyyədə bu və ya digər məsələyə

ifadə olunan münasibət, verilən qiymət zahirən müəyyən əhali kütləsinin rəyi kimi qəbul oluna bilir, lakin hələ praktik gücə qadir olmur.

İkinci səviyyə bundan fərqli xarakteristikaya malikdir. Artıq bu səviyyədə, yəni əməli işi səviyyəsində ictimai rəy real həyata öz həqiqi təsirini göstərir. Bu səviyyədə artıq sosial qruplar və sosial birlik formaları öz şüurlarında bu və ya digər məsələyə verilən qiymətə uyğun surətdə praktik fəaliyyət göstərməyə başlayırlar. Qeyd oluınmalıdır ki, ictimai rəyin birinci səviyyədən - inikasedici səviyyədən ikinci səviyyəyə keçməsi mürəkkəb prosesdir. Bu keçid əsas etibarilə ictimai rəy göstəricilərinin sosial normalarda, sosial tənzimetmə və nəzarət formalarında təcəssümü vasitəsilə baş verir. Nəticədə ictimai rəyin mövcud ictimai münasibətlərin real tərəfinə çevrilməşi, bu münasibətlərlə çulğalaşması prosesi cərəyan edir.[1]

Məlum olduğu kimi, sosial tənzimetmənin müxtəlif formaları (hüquq, əxlaqi, tərbiyəvi və s.) mövcuddur. Cəmiyyətdə gedən sosial proseslərin tənzim olunmasında mühüm yer tutan ictimai rəy bu normalarla sıx qarşılıqlı təsirdə çıxış edir. Daha dəqiq desək, onların təsirinə ictimai rəyin də əlavə olunması, bu təsirin gücünü daha da artırır. İctimai rəy vasitəsilə həyata keçirilən nəzarət özünün gündəlik xarakter daşıması, daimi fəaliyyət göstərməsi, yaranmış vəziyyətə çox tez reaksiya verməsi, öz məzmununda bir qayda olaraq çoxluğun əhval- ruhiyyəsini əks etdirməsi və digər mühüm keyfiyyətləri ilə səciyyələnir. Odur ki, ictimai rəyin nəzarətedici funksiyasının səmərəliliyini yüksəltmək yollarını və vasitələrini axtarıb tapmaq sosioloji yanaşmanın mühüm məqsədini təşkil edir. Bu cür nəzarət cəmiyyətdə bir çox proseslərin normal getməsi, burada özünü göstərən neqativ halların - əliəyriliyin, oğurluğun, vəzifədən sui-istifadə etmənin, xalqın sərvətini müxtəlif yollarla mənimsəməyin aradan qaldırılmasında əhəmiyyətli rol oynayır. Sosial münasibətlərin, cəmiyyət üzvlərinin davranışının ictimai rəyin köməyi ilə tənzim edilməsi onların şüuruna bilavasitə təsir göstərir. Bu, ictimai rəyin gücünü artırır, onun nüfuzunu yüksəldir. Nəticədə ictimai rəyin əhəmiyyəti ümumən etiraf olunur, cəmiyyətdə demokratik əsasların daha möhkəm qərarlaşması və möhkəmlənməsi üçün əlverişli zəmin yaranır.

## 3. Kütləvi informasiya vasitələri ictimai rəyin formalaşmasının qüdrətli amilidir

Məlumdur ki, ictimaiyyətin nümayəndələri öz rəylərini bildirmək üçün bir yerə toplaşa da bilər, toplaşmaya da bilər. İkinci halda ictimaiyyətin ayrı-ayrı nümayəndələri ictimaiyyətin digər nümayəndələri ilə ancaq kommunikativ əlaqələrdə ola bilərlər. «İctimaiyyət ancaq kütləvi kommunikasiya vasitələri sayəsində daxili əlaqəsini saxlayır. Bu səbəbə görə kütləvi informasiya vasitələri üzərində nəzarət çox zaman ictimai rəy üzərində hakimiyyət deməkdir».[2]

Kütləvi informasiya vasitələri öz fəaliyyətində ictimaiyyətin strukturunu və rəyini nəzərə almalıdır. Bu, mədəni fərqlərlə və heterogenliklə müəyyən olunur. Yekcins mədəniyyətli cəmiyyətdə uyğun, azfərqli maraqlara malik ictimaiyyət qərarlaşır. Adətən belə cəmiyyət submədəniyyətin az olması ilə səciyyələnir. Submədəniyyətlərin çox olması ifrat qeyri-yekcins ictimaiyyət doğurur; belə ictimaiyyətin qrupları öz mənafelərinin ifadəsində və reallaşdırılmasında rəqabət aparan tərəflər kimi çıxış edirlər. Məsələn,

ictimaiyyətin bir hissəsi belə güman edir ki, büdcənin əhəmiyyətli hissəsi ekoloji problemlərin həllinə istiqamətləndirilməlidir, ikinci hissə belə hesab edir ki, vəsait milli sənayenin inkişafına sərf olunmalıdır, üçüncü hissə isə əmindir ki, vəsait daha çox Müdafiə Nazirliyinə ünvanlanmalıdır ki, Azərbaycanın ərazi bütövlüyü qorunub saxlanılsın, onun dünya meydanında nüfuzu güclənsin. Cəmiyyətin strukturu mürəkkəb olduqca bu və ya digər məsələnin həlli ilə bağlı olaraq, ictimaiyyət nümayəndələrinin tutduqları mövqelər də çox olacaqdır.

Cəmiyyətin sadə stabil mədəniyyəti bir qayda olaraq, ümdə məsələlərin həllində ictimaiyyətə çoxlu alternativlər təklif etmir. Çünki vəziyyəti ənənələr və mənəvi normalar əsasında idarə etmək olar. Buna görə də müxtəlif sosial qruplar üçün ictimai rəydə ayrılıq əhəmiyyətli deyildir, gərgin münaqişələrlə müşayiət olunmur. Lakin mürəkkəb, ziddiyyətli mədəniyyətdə ictimaiyyət nümayəndələrinin müxtəlif qruplarının hər hansı problemin həllinə yönəlmiş nöqteyi-nəzərləri son dərəcə rəngarəng ola bilər. Başqa sözlə, yaranmış vəziyyəti müəyyən normalar toplusunun köməyi ilə idarə etmək mümkün deyildir. Çünki həmin normalar məlum cəmiyyətin yalnız ayrıca qruplarının, submədəniyyətinin hüdudlarında qəbul edilmişdir. Məsələn, hazırda ictimaiyyətin bir çox nümayəndələri müəyyən ərazidə neft və ya başqa faydalı qazıntı çıxarılması nəticəsində ekoloji balansın pozulmasından narahatlıq keçirə bilər. Eyni zamanda həmin ərazidə neft və ya başqa faydalı qazıntı çıxarılmasına, sənayenin inkişaf etdirilməsinə maraqlı olan qruplar belə hesab edə bilərlər ki, bunun üçün istənilən vasitə məqbuldur. Ənənəvi normalar bu məsələni həll etməyə imkan vermir, çünki hər iki nöqteyi-nəzəri müdafiə etmək üçün həmin normaları tətbiq etmək olar. Ekoloji tarazlığın təmin olunması da, ölkənin sənaye potensialının,

dünyada nüfuzunun artırılması da vacib məsələdir. Beləliklə, «mürəkkəb cəmiyyətdə ictimai rəyin ayrı-ayrı seqmentləri meydana çıxır ki, bunların da arxasında öz mənafeləri, ustanovkaları, bu və ya digər problemin həllinə müxtəlif təsir imkanları olan ictimaiyyət qrupları dayanır).[1] Bu ictimai rəyi öyrənməyi və nəzərə almağı zəruri edir.

Demokratik idarəçilik formaları olan müasir cəmiyyətlərdə ictimai rəyin rolu getdikcə artmaqdadır. Bu, bir neçə vəziyyətlə şərtlənmişdir:

Birincisi, idarəedici təbəqənin yeritdiyi siyasətə ictimaiyyətin təsir göstərmək imkanları kəskin surətdə artır. Burada seçkilər, referendumlar, parlamentdə və ya hökumətdə təzyiq qrupları, vətəndaş itaətsizliyi aktları xüsusi qeyd edilməlidir.

İkincisi, demokratik cəmiyyətlər kütləvi informasiya vasitələrinin çoxşaxəli sisteminə malikdir. Bunlardan bir çoxu alternativ nöqteyi-nəzərləri müdafiə edir. Bunun sayəsində ictimaiyyət cəmiyyətdə baş verən bütün hadisələr barəsində dərhal informasiya ala bilir. Bu halda cəmiyyətin əksər üzvlərində məlum hadisələrə və hakimiyyətin qəbul etdiyi qərarlara münsibətdə sabit mövqe formalaşır.

Üçüncüsü, demokratik cəmiyyətlərdə liderlərin irəli sürülməsi ictimai rəy dalğasında baş verir. Əgər lider ictimai rəyin dəyişilməsindəki ümumi meylləri qavramışdırsa, onun siyasətini ictimaiyyətin müxtəlif nümayəndələri, sonra həm də siyasi xadimlər müdafiə etməyə başlayacaqlar.

Kütləvi informasiya vasitələri ictimai rəyə ən müxtəlif formalarda təsir göstərmək imkanlarına malikdir.

Onların fəal təbliğat istiqaməti ümumən etiraf olunur. Bir neçə misala müraciət edək.

İkinci dünya müharibəsindən sonra ABŞ-da papiros çəkmək dəb halını almışdı. Otaqda və ya ofisdə papiros çəkmək adi iş sayılırdı. Lakin 1957-ci ildə həkimlər sübut etdilər ki, o, orqanizmə sarsıdıcı təsir göstərir. Amerikalıların ictimai rəyi kəskin surətdə dəyişildi: kütləvi informasiya vasitələrində sağlam həyat tərzi uğrunda geniş kampaniya fəallaşdı. Hazırda papiros çəkənlər ümumi məzəmmət obyektinə çevrilmişlər. Qeyri-sağlam meyllilik sosial statusa və nüfuza təsir göstərə bilər: papiros çəkənləri bəzi işlərə qəbul etmirlər. Bütün cəmiyyət papiros çəkməyə qarşı mübarizəyə meyllidir.

Başqa bir misala müraciət edək. Keçmiş SSRİ-də 80-ci illərin sonunda ictimai rəy (xüsusən Rusiyada yaşayan əhali tərəfindən) Şimal çaylarının axarının qismən dəyişilməsi və suya kəskin ehtiyacı olan Cənub ərazilərinə axıdılması layihəsinə qarşı çıxdı. KİV-lər bir qrup ziyalının etirazını fəal müdafiə etdi. Əksəriyyətin rəyi dəyişildi, tezliklə layihənin maliyyələşdirilməsinin dayandırılması barədə dövlət qərarı qəbul olundu.

Üçüncü bir misal: Məlum olduğu kimi vaxtilə Azərbaycanda da atom-elektrik stansiyasının inşası gündəlikdə da-anırdı. İctimai rəy atom-elektrik stansiyalarını olduqca münasib, ekoloji cəhətdən yaxşı göstəriciləri olan, perspektivli stansiyalar kimi qəbul edirdi. Lakin Çernobıl AES-də baş verən qəza və onun nəticələri nəinki SSRİ-də, həm də bütün dünyada AES-lər ətrafında formalaşan ictimai rəyə sarsıdıcı zərbə endirdi. Azərbaycanda AES tikintisi ideyası öz aktuallığını tam itirdi. Fəaliyyətdə olan AES-lərin dayandırılıb-dayandırılmaması məsələsi geniş müzakirə olunmağa başladı. Onların texniki-texnoloji göstəriciləri hərtərəfli təhlil edildi. Nüfuzlu təşkilatların inspeksiyaları həyata keçirildi. Mütəxəssislər ciddi səy göstərməli və sübut etməli oldular ki, qəza AES-in tikintisində və istismarında yol verilən əsaslı nöqsanların, qüsurların nəticəsidir, AES kompleksinin inşası və fəaliyyəti isə elmin, texnikanın mühüm nailiyyətidir. Etiraf etməliyik ki, AES-lərə neqativ münasibət məqamları ictimai rəydə indi də güclüdür.

Kütləvi informasiya vasitələrinin təbliğat işi ictimai rəyin istiqamətliliyi, intensivliyi və inteqrasiyası barədə dəqiq, elmi cəhətdən əsaslandırılmış məlumatlara istinad etməlidir. Geniş mənada təbliğatın məqsədi ictimaiyyət tərəfindən idarə edən tərəfə lazımlı nöqteyi-nəzəri qəbul etməyə istiqamətləndirməkdən, iqtisadi, siyasi və ya sosial hadisələri müdafiə və ya rədd etməyə yönələn ustanovkalar sistemi yaratmaqdan ibarətdir. Natiqlərin kütlə qarşısında çıxışları, jurnallardakı və qəzetlərdəki məqalələr, radio və televiziya verilişləri, reklam, əmtəələrin bazarda irəliləməsi və s. - bütün bunlar ictimai rəyə təbliğat xarakterli təsirin nümunələridir.

Bir çox tədqiqatçılar təhsil prosesini də təbliğata aid edirlər. Çünki təlim gedişində müəllimlər şagirdlərə, tələbələrə, dinləyicilərə onları əhatə edən gerçəklikdəki hadisələr barəsində öz xüsusi rəylərini aşılamağa çalışırlar. Yaxşı məlumdur ki, təlim prosesində fasiləsiz təbliğat təhsil alan şəxslərin şüuruna müəyyən nöqteyi-nəzərlərə uyğun gələn norma və dəyərləri daha möhkəm surətdə aşılamağa imkan verir.

Kütləvi informasiya vasitələrinin ictimai rəyə məqsədyönlü təsiri zamanı bir sıra suallar ortaya çıxır. Hansı halda təbliğat insan davranışında ən böyük dəyişikliklər yaradır: təbliğatın ictimaiyyət nümayəndələrinə təsiri əhəmiyyətli olanda, yoxsa həmin təsir zəif, ehtiyatlı olanda? İctimaiyyət nümayəndələrinin nöqteyi-nəzəri əvvəlki, artıq formalaşmış nöqteyi-nəzərdən xeyli dərəcədə kənara çıxdıqda, yaxud bu kənara çıxma əhəmiyyətsiz olduqda təbliğatın strategiyasını necə formalaşdırmaq lazımdır? Qəbul olunmuş rəydən kənara çıxmaları dərk etməyi adətən koqnitiv dissonans adlandırırlar. Burada iki nöqteyi-nəzəri fərqləndirmək olar. Bəzi alimlər belə zənn edirlər ki,

əgər ümumən qəbul edilmiş nöqteyi-nəzərdən kənara çıxmalar əhəmiyyətlidirsə, onda təsir ictimai rəydə daha böyük dəyişiklik yaradır. Lakin bəzi alimlər buna diametral əks olan nöqteyi-nəzəri müdafiə edirlər. Vittaker hər iki elmi yanaşmanı tədqiq edərək belə bir qənaətə gəlmişdir ki, təbliğatı uğurla qəbul etməyin əsası koqnitiv dissonansın əhəmiyyətində deyildir, həmin nöqteyi-nəzəri ictimaiyyət nümayəndələrinin müdafiə etmə dərəcəsindədir. Nə zaman ki, cəmiyyət əvvəlki nöqteyi-nəzəri qızğınlıqla müdafiə edir, dərin şəxsiyyət xüsusiyyətlərini ona qoşur, o zaman koqnitiv dissonansın güclənməsi ictimai rəyi əhəmiyyətsiz dərəcədə dəyişdirir. Bundan əlavə, əhəmiyyətli koqnitiv dissonans bumeranq effekti verir; bu onunla səciyyələnir ki, təbliğatın təsirinə məruz qalan cəmiyyət üzvü onu rədd etməyə başlayır və əks nöqteyi-nəzəri qəbul edir. Lakin ictimaiyyət nümayəndələri əvvəlki nöqteyi-nəzəri o qədər də qızğın müdafiə etmirsə, şəxsiyyət xüsusiyyətlərinin qoşulması o qədər də dərin deyildirsə, o halda koqnitiv dissonans təbliğatın təsiri nəticəsində ictimai rəydə dəyişiklik dərəcəsinin artmasına gətirib çıxara bilər. Cəmiyyətin hər bir üzvü üçün «optimal ayrılıq», «optimal fərqlilik» mövcuddur; bu, ictimai rəyin maksimum dəyişilməsinə səbəb olur.

Əgər təbliğatın hakimiyyəti məhdudlaşdırılmayıbsa, onda, belə təsəvvür yarana bilər ki, cəmiyyətin böyük maliyyə ehtiyatlarına malik olan, yaxud ictimaiyyətlə əlaqə agentlikləri olan təbəqələri və ya sosial qrupları öz şərtlərini həmişə başqalarına diktə etməlidirlər. Lakin təbliğatın aparılması üsulları bir sıra amillərlə şərtlənmişdir. Bunlar aşağıdakılardır:

İlk növbədə ən böyük məhdudiyyət kimi rəqabət aparan təbliğatı qeyd etmək olar. Əgər dövlət təbliğat üzərində inhisara malikdirsə (məsələn, totalitar rejimlərdə olduğu kimi), ictimaiyyətin hər bir üzvü üçün alternativ rəyə - rəsmi rəydən, nöqteyi-nəzərdən fərqli olan rəyə yiyələnmək olduqca çətindir. Bu şəraitdə rəsmi təbliğat başqa rəyləri sıxışdırır, zəruri faktları özü üçün əlverişli şəkildə təqdim edir. Demokratik siyasi sistemlərdə həmişə müxtəlif, fərqli nöqteyi-nəzərləri qəbul etmək imkanları mövcuddur. Başqa sözlə, belə sistemlərdə alternativ nöqteyi-nəzərləri müdafiə edən bir neçə təbliğat «ocaqları» fəaliyyət göstərir. Rəqabət mübarizəsində bu tərəflər hüquqi və mənəvi baxımdan bir-birinə məhdudlaşdırıcı şərtlər irəli sürürlər ki, bunlar da nəzarətsiz təbliğatı qeyri- mümkün edir. Deməli, bir-biri ilə rəqabət aparan müxtəlif tərəflərin müdafiə etdikləri mövqelər spesıfik mühit yaradır; bu mühitdə fərqli mövqelərlə tanışlıq və seçim imkanları daha genişdir. Hazırda Azərbaycan mətbuatı ilə tanışlıq dediklərimizi sübut edir. Burada nə qədər rəngarənglik olsa da, iqtidar yönümlü və müxalifət yönümlü mətbuatı ayırd etmək mümkündür («Azərbaycan», «Xalq qəzeti» və «Müsavat», «Azadlıq» qəzetlərini müqayisə etmək kifayətdir). Əlbəttə, tam əks mövqedə dayanan mətbuat orqanlarla yanaşı az və ya çox dərəcədə fərqli mövqedə dayananlar da vardır.

İkincisi, ictimaiyyət nümayəndələrinin nəzərində təbliğatçılara inam bir çox cəhətdən informasiyadan və onun verilməsi üsullarından asılıdır. İctimaiyyətə təqdim olunan faktlar əhəmiyyətli dərəcədə ümumən qəbul edilən rəydən və real gerçəklikdən kənara çıxırsa, gərginlik yaranır. Bu gərginlik təbliğatı həyata keçirənlərə qarşı çevrilə bilər. Belə məhdudiyyətlər olduğu təqdirdə təbliğat aparan tərəfin nümayəndələri sosioloji tədqiqatların köməyi ilə insanların psixologiyasını bilməyə, ictimai rəyi daim izləməyə əsaslanan incə strategiyalar tətbiq etməlidirlər.

Üçüncüsü, müxtəlif təbəqələrin təhsilindəki fərqlər onunla nəticələnə bilər ki,

təbliğatçıların səyləri ancaq yüksək təhsilli təbəqələrə, yaxud da əksinə, ancaq aşağı təhsil səviyyəli sosial qruplara çatacaqdır. Belə hallarda təbliğatçılıq kampaniyalarını həyata keçirən şəxslərin sintetik strategiyalar yaratması zəruridir; bunlar ictimaiyyətin müxtəlif təhsil səviyyəsinə malik nümayəndələri üçün nəzərdə tutulmalıdır. Başqa sözlə, təbliğat daha uğurlu nəticələr əldə etmək üçün təhsil baxımından cəmiyyətdəki diferensiasiyanı nəzərə almalıdır.

Dördüncüsü, ictimaiyyətin müxtəlif nümayəndələrində etiqadlar və dəyərlər sistemi təbliğatçılıq səylərini məhdudlaşdırır. Belə ki, adamların xeyli hissəsi, müxtəlif sosial qrupların nümayəndələri müxtəlif normalar və dəyərlər sistemlərinə malik olmaqla, təbliğatçıların fəaliyyətini tənqidi surətdə təhlil edirlər. Təbliğatçılıq kampaniyalarını həyata keçirərkən yadda saxlamaq lazımdır ki, submədəniyyəti dərhal, tezliklə dəyişdirmək mümkün deyildir. Ona görə də təbliğat sahəsindəki səylər mövcud sərvətlər sisteminə uyğunlaşmaq məcrasına yönəldilməlidir. Bu halda təbliğatçılıq məharəti qarşıya qoyulan məqsədlərə nail olmaq üçün ictimaiyyət nümayəndələrinin mövcud ustanovkalarını məharətlə şərh etməkdən ibarətdir.

Hazırda ictimai rəyə təsir göstərməyin və onu idarə etməyin ən rəngarəng vasitələri, üsulları işlənib hazırlanmışdır. Reklam xidmətləri, ictimai rəy xidmətləri, siyasi xadimləri müdafiə komandaları, dini təbliğat təşkilatları və s. ictimai rəyi əhəmiyyətli dərəcədə dəyişdirməyə qadirdirlər. Onlar kütləvi informasiya vasitələri, kütlə qarşısında çıxışlar, reklam müraciətləri, əyani təşviqat vasitələri və digər kommunikativ kanallardan istifadə edirlər.

Kütləvi informasiya vasitələri (mətbuat, kitab nəşri, mətbuat agentlikləri, radio, televiziya və s.) kütləvi miqyasda informasiyanın toplanılması, işlənilməsi və yayılmasını təmin edir. Kütləvi informasiya sayca böyük, adətən coğrafi baxımdan dağınıq auditoriya üçün nəzərdə tutulmuşdur; o, yayılmanın sürətliliyi, müntəzəmliliyi ilə, istehlakın praktik surətdə eyni zamanlılığı ilə, vasitəli, müəyyən dərəcədə stereotipləşdirilmiş xarakteri ilə fərqlənir.

«İnformasiyanın yayılması insanların kütləvi mənəvi ünsiyyətinin ayrılmaz hissəsidir; bu, bəşəriyyətin inkişafının müəyyən pilləsində meydana gəlmiş, bilavasitə şəxsiyyətlərarası ünsiyyəti tamamlamışdır.[1]

Kütləvi informasiya vasitələri öz təbiəti etibarilə bütün cəmiyyət miqyasında xəbərlərin və s. geniş və hərtərəfli mübadiləsini həyata keçirmək üçün nəzərdə tutulmuşdur.

Sosioloji baxımdan əhəmiyyətli olan bir məsələyə də toxunmağa ehtiyac vardır. Kütləvi informasiya vasitələrinə dair tədqiqatlar keçmiş Sovet İttifaqında 20-ci illərin ortalarında başlanmışdır. Bu tədqiqatların əsas problematikası qəzetlərin, jurnalların məzmun və formasının fəhlə və kəndli kütlələrinin ehtiyaclarına, tələbatlarına uyğunluğu məsələsi idi. Mətbuat auditoriyasının «sintetik» tədqiqatları (bu tədqiqatları həmin illərdə belə adlandırırdılar) inkişaf edirdi. Bu tədqiqatlarda informasiya maraqlarının öyrənilməsi qəzet və jurnal oxucularının sosial həyatının bütün amillərini nəzərə almaqla aparılırdı.

Mətbuatın sosiologiyası kütləvi informasiya vasitələri sosiologiyasının ən inkişaf etmiş sahəsidir. Auditoriya, jurnalist korpusu, materialların məzmunu və ifadə formaları, mərkəzi və yerli mətbuatın qarşılıqlı təsiri və münasibətləri və s. - bütün bunlar mətbuat sosiologiyasının öyrənmə obyektinə daxildir.

Radio verilişləri sahəsində sosioloji tədqiqatlar hələ müharibədən əvvəlki dövrdə başlanmışdır. Lakin həmin tədqiqatlar məhz müharibədən sonrakı dövrdə böyük vüsət almış və müntəzəm xarakter kəsb etmişdir. Radio auditoriyası, müxtəlif regionlarda radio proqramlarının formalaşması spesifikası, ayrı-ayrı verilişlər tsikillərinin populyarlığı və i.a. xüsusilə fəal surətdə öyrənilmişdir.

Keçmiş SSRİ-də televiziya verilişlərinin sosioloji baxımdan öyrənilməsi 60-cı illərin sonu - 70-ci illərin əvvəlindən inkişaf etməyə başlamışdır. Televiziya verilişlərinin istehlakının həcmi və istiqamətləri, televiziyanın yayılmasının digər kütləvi informasiya vasitələrinə təsiri, televiziyanın mədəniyyətin istehlakında rolu və s. kimi məsələlərin öyrənilməsi həyata keçirilmişdir.

Reklam kütləvi informasiya vasitələrinin fəaliyyəti ilə sıx bağlıdır. Nə və ya kim barəsində (bir qayda olaraq şey, şəxs, təşkilat barəsində) məlumatların yayılmasını nəzərdə tutan reklam kütləvi diqqəti cəlb etmək məqsədi güdür. Ticarət - iqtisadi və ideya-siyasi reklamları ayırd etmək olar. Reklamların sosioloji baxımdan öyrənilməsi keçmiş SSRİ-də 70-ci illərdən başlanmışdır. Reklama dair sosioloji tədqiqatlar əsasən istehlakçıya təsirin müxtəlif aspektlərini öyrənməklə bağlı olmuşdur. Etiraf etməliyik ki, son illərdə kütləvi informasiya vasitələrində reklamlar xüsusilə geniş yayılmışdır. Bazar münasibətləri və strukturları rəqabət mübarizəsinə, deməli, həm də reklama geniş meydan açır.

Oxucu, tamaşaçı, dinləyici auditoriyası öz rəngarəngliyi ilə seçilir. Bu, insanların sabit birliyi olub, onların informasiya maraqlarının və tələbatlarının, habelə həmin maraq və tələbatların ödənilməsi formaları, üsulları və kanallarının ümumiliyi əsasında təşəkkül tapır. Auditoriya informasiyanın mənbəyi və məzmunu ilə yanaşı insanların mənəvi ünsiyyətinin ən mühüm struktur ünsürlərindən biridir. Kütləvi auditoriyanın mahiyyəti ondadır ki, o, ünsiyyət prosesində insanların öz aralarında və bütövlükdə cəmiyyətlə qarşılıqlı əlaqəsini əks etdirir.

Kütləvi auditoriya bir sıra kəmiyyət və keyfiyyət xarakteristikalarına malikdir. Auditoriyanın böyüklüyü (həcmi) sosial əhəmiyyətli göstəricidir, müəyyən informasiya mənbəyinin təsir miqyaslarını ifadə edən amildir. İnformasiya mənbələri üçün daha geniş

auditoriya qazanmaq dövlətin, vətəndaşların müxtəlif ictimai təşkilatlarının və birliklərinin informasiya-təbliğatçılıq fəaliyyətinin ən mühüm praktik nəticələrindən biridir.

Kütləvi auditoriyanın keyfiyyət xarakteristikasını müəyyən edən ən mühüm amillərdən biri təhsil səviyyəsidir. Təhsil səviyyəsi bu və ya digər informasiya mənbəyinə xas olan auditoriyanın seçilməsinə birbaşa təsir göstərir; bu, təklif edilən informasiyanın məzmununu başa düşməkdə və ondan istifadə etməkdə mühüm göstəricidir. Lakin təhsilin universal, abstrakt xarakterli meyarları yoxdur. O, bu və ya digər cəmiyyətin sosial şəraitində müxtəlifcür əks olunur.

Kütləvi auditoriya münasibətlərin dinamik strukturunu təcəssüm etdirir. Bu struktur həm məzmun, həm də məkan-zaman parametrlərinə görə dəyişilir. Bununla əlaqədar olaraq, kütləvi informasiya vasitələri sosiologiyasında auditoriyanın müxtəlif tipləri ayırd edilir. Məsələn, real və potensial auditoriya, müntəzəm və qeyri-müntəzəm auditoriya, məqsədli və qeyri-məqsədli auditoriya və s.

Adətən bütün tiplər üç səviyyədə təzahür edir:

a) informasiya mənbələri sistemi;

b) ayrıca mənbə sistemi (məsələn, ancaq televiziya auditoriyası);

v) ayrıca kanal sistemi (məsələn, bu və ya digər qəzetin auditoriyası).[2]

Kütləvi informasiya vasitələri ictimai şüurun məqsədyönlü formalaşdırılması istiqamətində uğurlu addımlar atılmasını təmin etmək üçün müasir ictimai şüurun xüsusiyyətlərini nəzərə almalıdırlar. Görkəmli sosioloq T. İ. Zaslavskaya dörd başlıca xüsusiyyəti vurğulayır:

1) İctimai şüurun bir sıra köhnəlmiş təsəvvürlərdən və ehkamlardan xilas ola bilməməsi əhalinin müasir sosial reallıqları qavranmasını xeyli dərəcədə çətinləşdirir;

2) əhalinin xeyli hissəsinin bərabərləşdirici sərvətlərə yönümü aktiv və səmərəli fəaliyyət sərvətlərinin qərarlaşmasını ləngidir;

3) «sosial infantilizm» - bu, dövlətin «qeyri-məhdud» maddi və maliyyə ehtiyatlarına malik olması kimi sadəlövh inamda təzahür edir;

4) regional, idarə, qrup eqoizminin güclü ifadə olunması istənilən sahədə təmas nöqtələrinin axtarılmasına, ümummilli maraqların daha dolğun reallaşdırılmasına mane olur.[1]

Kütləvi informasiya vasitələri kütlələrin həyati maraqlarına toxunan məsələlərdə ictimai rəyə dərindən bələd olmalı, bu halda ayrı-ayrı regionlar, sahələr və qruplar üzrə konkret vəziyyətə nüfuz etməyi bacarmalı, ictimai rəyin sağlam istiqamətdə formalaşmasına, öz təsir gücünü artırmasına kömək etməlidirlər.

# HÜQUQ SOSİOLOGİYASI

## 1. Hüquq sosiologiyasının predmeti

Hüquq sosiologiyası hüquq elmləri ilə sosiologiyanın qovuşuğunda yerləşən bilik sahəsidir. O, ümumi sosiologiyanın tərkib hissəsi kimi onun mövcud vasitələrindən faydalanır (anket sorğusu, müşahidə, müqayisə, testlər, eksperiment və s.); fəlsəfə, sosial psixologiya, statistika, riyaziyyat kimi bilik sahələrindəki nailiyyətlərə arxalanaraq, hüquqi münasibətlərin öyrənilməsinə fənlərarası mövqedən yanaşır. Sosioloji yanaşma hüququn və hüquqi hadisələrin tədqiq edilməsində ehkamçı və sırf normativ baxışları aradan qaldırır. O, sistemli və funksional üsullara əsaslanaraq normayaratma, qanunvericiliyin səmərəliliyi, ədalət mühakiməsinin qeyri-formal mexanizmi, hüquq və qanunvericilik barədə əhalinin rəyi, hüquqi düşüncənin (şüurun) təşəkkül tapması, hüquqi sosiallaşma və s. kimi məsələləri geniş şəkildə öyrənir.

Sözün geniş mənasında götürdükdə hüquq sosiologiyası hüquqi aktların və ayrı-ayrı normaların real fəaliyyətini, adətlər, əxlaq, qrup dəyərləri və yönümlər, ictimai rəy və s. daxil olmaqla, bütövlükdə sosial tənzimləmə fonunda və onunla birgə təhlil edir. O, hüquqi məna kəsb edən sosial-hüquqi hadisələri və hüquqi xarakterli müxtəlif amilləri (ailə, mülkiyyət məsələləri, təsərrüfat müqavilələri, dövlətin planlı-tənzimləyici fəaliyyəti və i.a.) kompleks şəkildə götürür. Hüquq sosiologiyasında qanunların və ayrı-ayrı normaların səmərəliliyinin, hüququn əsas sosial funksiyalarının - tənzimləyici, tərbiyəvi, plan - proqnostik funksiyalarının, hüquq və ədalət məhkəməsi barəsində ictimai rəyin öyrənilməsinə, hüquqi peşələrin nüfuzuna və s. xüsusi diqqət yetirilir.

Hüquqa ictimai həyatın dinamizmini təmin edən vasitə kimi sosioloji yanaşma XIX əsrin ikinci yarısında əvvəlcə Avropada formalaşmış, sonra isə ABŞ-da daha geniş yayılmışdır. Hüququn sosioloji nəzəriyyəsinin nümayəndələri C. Lyüi, R. Paund, D. Frenk olmuşlar. Bu siyahıya həm də R. fon İcrinq (Almaniya), L. Dyüqi və F. Ceni (Fransa), E. Erlix (Avstriya - Macarıstan), S. Muromtsev (Rusiya) daxildirlər.

Sosioloji istiqamətin inkişafında uzun illər Harvard hüquq məktəbinin dekanı olmuş

Amerika hüquqşünası Rosko Paund (1870-1964) da mühüm rol oynamışdır. Onun fikrincə, hüquq hər şeydən əvvəl faktiki hüquq qaydası və məhkəmənin fəaliyyət prosesidir.

Sosioloji istiqamətin müxtəlif variantlarının səciyyəvi cəhətini hakimin mülahizəsinin azadlığı ideyası təşkil edir. Onun nümayəndələri hüquqa «anlayışların hüquqşünaslığı» adlandırdıqları formal - ehkamçı, normativ yanaşmanı tənqid edirdilər. Onlar hüquqa «hərəkətdə» və tətbiqolunma prosesi qismində yanaşırdılar.

Aralarındakı müxtəlifliyə baxmayaraq, sosioloq-hüquqşünasların baxışlarında ümumi cəhət ondan ibarətdir ki, onların hamısı normalardan asılı olmayaraq əmələ gələn və mövcud olan «hüquqi» münasibətlərin məcmusunu: həyatda formalaşmış «sosial qayda» və ya «hüquq qaydasını», nəticə etibarilə isə «hökumətin, məhkəmələrin və digər dövlət orqanlarının və onların vəzifəli şəxslərinin faktiki fəaliyyət tərzini» əsas götürürlər.

Hüquq sosiologiyasının müsbət məqamını hüquqi tənzimləmədə baş verən real proseslərin nəzərə alınmasına istiqamətlənmə, onların konkret - sosioloji üsullar əsasında öyrənilməsi təşkil edir.

Hazırda Azərbaycanın hüquq doktrinası özünün nəzəri tədqiqatlardakı bəzi fərqlərinə baxmayaraq, normativ yanaşmadan hüquq sisteminin sosioloji dərketmə üsullarına keçidlə səciyyələnir. Hüquq sosiologiyasının müxtəlif aspektləri Azərbaycan alimlərinin bir çox tədqiqatlarının mövzusu olmuşdur.

Hüquq sosiologiyası hüququn sosial funksiyalarını hüquqi aktların qəbul olunması və ictimai həyatda tətbiq edilməsi ilə bağlı məsələlərin öyrənilməsinə istiqamətləndirir. Huqüqi tənzimləmənin sosial nəticələri və sosial səmərəliliyinin aşkara çıxarılması ən ciddi və mürəkkəb problemlərdən biridir. Çünki qanunvericilik aktlarının və digər normativ aktların hazırlanması ilə yanaşı həm də müvafiq qanunverici və hüquqyaratma orqanlarının fəaliyyətinin öyrənilməsini nəzərdə tutur. O, həm də müxtəlif ölkələrdə və müxtəlif tarixi dövrlərdə bu proseslərin təbiətini, istiqamətini və fərqini göstərir.

Sosial-hüquqi tədqiqatların predmetini hüquqi aktların tərtib edilməsi zamanı, yəni sosial münasibətlərin hüquqi normalar dilinə çevrilməsinin hazırlanması prosesində, eləcə də son həddə - hüquqi göstərişlərin şəxsiyyətin sosial davranışına keçirilməsi və gerçəkləşməsi gedişində təşəkkül tapan ictimai münasibətlər təşkil edir.

Hüquq elmində konkret sosioloji tədqiqatlar sosial təsirin, hüquq və onun institutlarının səmərəliliyinin öyrənilməsinə, hüququn ictimai münasibətlərə, praktikaya təsirinin və eləcə də sosial amillərin hüquqa müqabil təsirinin aşkar olunmasına yönəlir. Sosiologiyanın bilavasitə tədqiqat predmetini isə ictimai münasibətlərin təşəkkülü və inkişafına təsir edən sosial amillərin qarşılıqlı əlaqəsinin sistemi və mexanizmi təşkil edir.

Beləliklə, sosiologiyanın predmeti ilə hüquqşünaslığın predmeti nəinki bir-biri ilə təmasdadır, bunlar həm də qismən üst-üstə düşürlər. Bununla belə, istər sosiologiyanın, istərsə də hüquqşünaslığın predmetinin hər birinin öz spesifikliyi vardır. Nəticədə sosiologiyaya və eyni zamanda (hüquqla tənzimləndiyindən) hüquq elmlərinin obyektinə daxil olan ictimai münasibətlər müxtəlifcür, fərqli aspektlər və üst-üstə düşməyən nöqteyi-nəzərlərdən öyrənilir. Hüquq elmini ilk növbədə müvafiq ictimai münasibətin hüquqi forması, onun subyektlərinin hüquq və vəzifələrinin məzmunu maraqlandırır. Sosiologiya isə bu və ya digər ictimai hadisənin sosial mənşəyini, sosial yerini və sosial funksiyalarını aydınlaşdırır. Hüquqşünas ailə-nikah münasibətlərini səciyyələndirərkən əsas diqqəti ər-arvadın hüquqi vəziyyətinə, uşaqların hüquq və vəzifələrinə yetirir. Sosioloqu isə ilk növbədə ailə üzvlərinin faktiki qarşılıqlı münasibətləri, yəni onların bir-birinə qarşı rəğbət və ya nifrəti, qarşılıqlı dəyərləndirmələri, məhəbbət və dostluq hissləri və bu hisslərin insanların davranışındakı müxtəlif təzahürləri maraqlandırır. Bu halda o, bütün bu vəziyyətləri (halları) həm onların sosial amillərlə şərtlənməsi nöqteyi- nəzərindən, həm də müasir cəmiyyətdə ailənin funksiyaları və roluna təsiri baxımından nəzərdən keçirir.

Hüquqi münasibətlər cəmiyyətin iqtisadi, siyasi, təşkilati, ailə və s. münasibətləri ilə qırılmaz surətdə bağlıdır. Hüquq sosiologiyası kimi müstəqil fənnin və elmi istiqamətin zəruriliyi hər şeydən əvvəl məhz bununla müəyyən olunur.

Real həyatda faktiki münasibətlərin, hüquq normalarının və hüquq münasibətlərinin qarşılıqlı əlaqəsi çoxşaxəlidir, lakin burada iki əsas tərəfi ayırmaq vacibdir. Birincisi, hüquq normalarının əmələ gəlməsi mexanizminə aiddir. Məlumdur ki, onlar bir tərəfdən mövcud faktiki münasibətlər əsasında təşəkkül tapır, digər tərəfdən isə bu münasibətləri qanunvericilik iradəsinə uyğun olaraq, ictimai inkişafın meyllərini, cəmiyyətin və dövlətin ehtiyaclarını və vəzifələrini nəzərə almaqla özünəməxsus şəkildə əks etdirir.

Hüquq normalarının həyatın tələblərini nə dərəcədə düzgün əks etdirməsi, onların real vəziyyətə uyğun olub-olmaması, faktiki ictimai münasibətlərin gələcək inkişafına zəmin yaradıb-yaratmaması, zəruri münasibətləri təsbit edib-etməməsi və sair məsələlər hüquq normalarının sosial baxımdan şərtləndiyini göstərir və hüquqi münasibətlərin ayrılmaz tərkib hissəsi kimi çıxış edir.

Hüquqi münasibətlərlə faktiki ictimai münasibətlər arasındakı qarşılıqlı əlaqələrin ikinci tərəfı hüququn, onun institutları və normalarının sosial təsiri və sosial səmərəliliyinin öyrənilməsi ilə bağlıdır. Burada həm də hüquq və onunla tənzimlənən ictimai münasibətlər arasında olan əks əlaqə özünü büruzə verir.

Hüququn sosial təsiri onun sosial amillərlə şərtlənməsinin öyrənilməsi ilə ayrılmaz surətdə bağlıdır. Bu iki hadisə arasında sıx qarşılıqlı əlaqə mövcuddur. Belə ki, bu və ya digər hüquq norması həyatın tələblərindən irəli gəlmirsə, onun tətbiqinin müsbət nəticə verəcəyinə inanmaq olmaz. Digər tərəfdən, yalnız hazırkı qanunvericiliyin səmərəliliyinin öyrənilməsi əsasında onun gələcək mövcudluğu ilə bağlı faydalı təkliflər irəli sürmək mümkündür.

Hüququn sosial şərtlənməsi onun normalarının yaranması yollarının kim tərəfindən təklif edilməsi ilə bağlıdır. Burada həm də hüquq normalarının qəbul olunması və dəyişdirilməsi məsələləri, habelə bu dəyişikliyin hansı faktiki şərtlərdən irəli gəlməsi, qərarlarını necə yerinə yetirilməsi (icrası və səmərəliliyi) mühüm yer tutur.

Əslində hüquqyaratma prosesi və onun hər bir mərhələsi formaca hüquqi, məzmunca sosial-siyasi fəaliyyətdir. Məhz bu fəaliyyətdə hüququn təşəkkülü qanunauyğunluqları,

onun sosial şərtlənməsi, tarixi reallığın obyektiv xüsusiyyətləri ilə qanunvericinin subyektiv təsəvvürləri arasındakı əlaqə konkret şəkildə üzə çıxır.

Aparılmış sosioloji tədqiqatlar göstərir ki, qərarların qəbulu mexanizminin fəaliyyətində bir çox çətinliklər ortaya çıxır. Belə ki, XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda hüquq yaradıcılığı bir sıra səhvlər və çatışmazlıqlarla müşayiət olunmuşdu. Bunlara misal olaraq, cinayət və mülki qanunvericiliyində qanunların işlənib hazırlanması və hüquq-mühafizə orqanlarında islahatların aparılmasının vahid konsepsiyasının olmamasını, islahatların prioritetlərinin bəzən təhrif olunmasını, onların birtərəfliliyini, humanistləşdirilmə ideyasının şişirdilməsini, qanunların ümumpreventiv əhəmiyyətinin inkar edilməsini və s. göstərmək olar. Bu, ölkədə kriminal vəziyyətin xarakterində və dinamikasında uyğunsuzluğa gətirib çıxardı. Cinayət hüququ normalarının ümumprofilaktik funksiyalarının zəif işləməsi, cəzasızlığın artması və cinayətkar aləmin sıralarının çoxalması, ictimai rəydə qanunun gücsüzlüyü, mütəşəkkil cinayətkarlığın qarşısının alınmazlığı barədə fikrin formalaşması, vətəndaşlarda onların hüquqlarının və qanuni mənafelərinin dövlət tərəfindən müdafiəsinə inamsızlığın artması, cəmiyyətin kriminallaşması prosesinin güclənməsi də bu qəbildəndir.

Hüquqyaratma prosesində həm də onun subyektlərinə böyük əhəmiyyət verilir. Qərarların hazırlanması, müzakirəsi, qəbulu və icrasında əhalinin geniş iştirakı bu aktların məzmununda onların maraqlı olmasını təmin edir. Belə ki, Azərbaycan Respublikasının 12 noyabr 1995-ci il Konstitusiya layihəsinin müzakirəsində 4 milyondan artıq insan iştirak etmişdi, 8 min məktub alınmışdı. Konstitusiya layihəsinin ayrı-ayrı maddələrinin dəqiqləşdirilməsi, təkmilləşdirilməsi və onlara əlavələr edilməsinə yönəlmiş 3 min təklif irəli sürülmüşdü (Bax:
«Azərbaycan» qəzeti, 7 noyabr 1995-ci il).

Hazırda demokratik prosedurun və qərarların qəbulu amili kimi ictimai rəyin əhəmiyyəti getdikcə artır. Söhbət rəylərin, dəyərlərin və göstərişlərin sadəcə mərkəzləşməsindən deyil, əhalinin müxtəlif sosial qruplarının mənafelərini, ehtiyaclarını ifadə edən səlahiyyətli ictimai rəydən gedir. Belə ki, müasir şəraitdə 17-27 yaşlı gənc

nəslin maraqlarının mənzərəsini dəqiqləşdirmək üçün aparılan sosioloji tədqiqatlarda belə bir sual qoyulmuşdu:
«Fikrinizcə, bu gün gənclər üçün həyatda ən vacib olan nədir?». Sorğunun nəticələri pul, təhsil və peşə, iş mənsəbi, Dağlıq Qarabağ probleminin həlli və həzz almağın başlıca yer tutduğunu göstərir. Gənclərdə praqmatik və hedonistik əhval-ruhiyyənin xeyli güclü olması açıq-aşkar görünür.

Deməli, gənclərin maraqlarının istiqamətlərini və ümidlərini öyrənərək, onların yaxın gələcəkdə iqtisadi, siyasi, sosial və mənəvi həyatının mümkün yollarını yüksək ehtimalla proqnozlaşdırmaq olar.

Empirik tədqiqatlar həm də hüquqyaratma prosesinin müxtəlif mərhələlərində sosial amillərin rolunun aşkar edilməsinə və nəzərə alınmasına yardım edir. Bu, yeni hüquqi sənədin yaradılmasının obyektiv səbəblərinin müəyyən olunması, qanun layihəsinin mətninin hazırlanması, onun müzakirəsi, qanunverici orqan tərəfindən baxılması üçün təqdim edilməsi və qanuni qüvvəyə minməsi əməliyyatlarının hər birinə aiddir.

Hüquqyaratma prosesinin sosial amillərinin öyrənilməsi metodologiyası sistemli (struktur-funksional) və sosioloji təhlil prinsipləri üzərində qurulur. Bu halda hüquqyaratmanın sosial mexanizminə aid olan hüquqi anlayış və kateqoriyalar empirik məlumatın toplanılması, işlənilməsi və keyfiyyət-kəmiyyət təhlili kimi sosioloji tədqiqat mərhələləri ilə üzvi surətdə əlaqələndirilməlidir.

Sosial - hüquqi tədqiqatların proqramlarına konkret məsələlərin daxil edilməsi hüququn tələblərinə riayət edilməsi məqsədi ilə tərbiyəvi, stimullaşdırıcı, profilaktik və məcburedici təsir tədbirlərinin səmərəliliyini yüksəldir. Bu, həm də dövlət orqanlarının həmin sahədəki işini obyektiv qiymətləndirmək imkanı verir.

Empirik tədqiqatın nəticələri onun ilkin konsepsiyasının nəzəri əsaslarının, mühakimə və fərziyyələrinin doğruluğunu təsdiq və ya təkzib edir.

## 2. Şəxsiyyətin hüquqi sosiallaşması

İnsanın mahiyyəti cəmiyyətlə birgə dəyişir və inkişaf edir. Bu, onun sosial mühitlə ayrılmaz əlaqədə
olduğunu sübut edir.

Qeyd olunan proses həm də sosiallaşma ilə sıx bağlıdır. Sosiallaşma təkcə şəxsiyyətin, insanın və sosial mühitin əlaqə formalarından ibarət deyildir. O, həm də cəmiyyətin yetkinlik dərəcəsindən asılı olan mürəkkəb prosesdir. Onun məzmununda insanı cəmiyyətdə qəbul edilmiş anlayışlar, dəyərlər, sosial normalar sisteminə və digər mədəniyyət dəyərlərinə cəlb etmək məqsədilə müxtəlif sosial institutların məqsədyönlü fəaliyyəti əsas yer tutur. Bununla yanaşı həmin proses insanın bir şəxsiyyət kimi həmin istiqamətə yönəlmiş fərdi fəaliyyətini də ehtiva edir.

Sosiallaşma gedişində fərd tərəfindən onun yaşadığı cəmiyyətin mədəniyyət sisteminin əsas nailiyyətlərinin mənimsənilməsi baş verir.

Hüquqi sosiallaşma ümumi sosiallaşmanın zəruri və mühüm istiqamətini təşkil edir, onunla hissə və tam kimi nisbətdədir. Onun mahiyyəti insanın, vətəndaşın cəmiyyətin strukturunda öz ictimai rolunu, yerini daha dərin dərk etməsi deməkdir. Hüquqi sosiallaşmanın əsas xüsusiyyətləri onun konkret olması, dəqiq müəyyənliyi, münaqişə səbəblərinin mərkəzində olması, mövcud informasiyanı şəxsiyyətin sosial statusu və

cəmiyyətdəki roluna uyğun olaraq qiymətləndirməsi hesab olunur.

Qeyd etmək lazımdır ki, məlumat mənbələri nə qədər əhəmiyyətli olsa da, onların verdiyi məlumatlar əhali tərəfindən kor-koranə deyil, ciddi tənqidi surətdə qəbul olunur. Sosioloji tədqiqatların nəticəsinə görə, oxucuların yalnız 48%-i qəzetlərdə yazılanlara inanır.

Fərdin sosiallaşması prosesinin ayrılmaz tərkib hissəsini siyasi və hüquqi tərbiyə təşkil edir. Onun məqsədi insanlarda müvafiq biliklər sistemi, inam, sosial cəhətdən fəal davranış motivlərini və vərdişlərini formalaşdırmaqdır. Hüquqi tərbiyə dedikdə dövlətin, onun orqanlarının və qulluqçularının, ictimai təşkilatların və əmək kollektivlərinin əhalidə hüquq düşüncəsi və hüquq mədəniyyətinin formalaşdırılmasına və artırılmasına yönəlmiş məqsədyönlü, sistemli fəaliyyəti başa düşülür. Bu işdə hüquqi tədris və hüquqi tərbiyə bir-biri ilə üzvi vəhdətdə çıxış edır. Tərbiyəvi xarakter daşıyan tədris prosesində vətəndaşın şəxsiyyət düşüncəsi, hüquqi görüşləri, əxlaqi idealları, dəyər yönümləri fasiləsiz surətdə zənginləşir. Bu prosesdə insan hüquqi biliklərin daim genişlənməsi və dərinləşməsinin zərurət olduğunu dərk edir. Hüquqi tədris və tərbiyə şəxsiyyətin vahid inkişafı prosesinin ayrılmaz hissələridir. Hazırda Azərbaycanda hüquqi dövlət quruculuğu ideyasının getdikcə daha dolğun gerçəkləşdiyi bir şəraitdə bunların rolu və əhəmiyyəti durmadan artır.

Hüquqi tədris və tərbiyə müxtəlif formalarda həyata keçirilir. Bu prosesdə əldə edilmiş biliklər fərdin dəyər istiqamətlərinin sosial məqsədinin formalaşmasına köməklik edir. Onlar şəxsiyyətin şüurlu (düşünülmüş) fəaliyyətinin tənzim edilməsində də mühüm rol oynayır və onun hüquqi düşüncəsinin əsası kimi çıxış edir. Sonra, insanın müxtəlif siyasi hadisələrə münasibətinin formalaşmasında, onun cəmiyyətdə davranışın müəyyənləşdirilməsində də onların rolu böyükdür. Şəxsiyyətin ümummədəni inkişafı, sosial normaların gerçəkliyə çevrilməsi, normativ tələblərin vərdişə, fəal davranışa keçməsi kimi proseslərin sürəti də hüquqi tərbiyənin səviyyəsindən və keyfiyyətindən çox asılıdır.

Sosioloqların və hüquqşünasların apardığı tədqiqatlar göstərir ki, hüquqi tərbiyənin səmərəliliyi ictimai həyatın bütün sahələrində qanunlara riayət etmək ehtiyacının reallaşması səviyyəsi ilə ölçülür. Qanuna riayət etməyi ictimai zərurət kimi dərk etmək və öz davranışında onun tələblərinə düşünülmüş şəkildə əməl etmək indi həmişəkindən daha vacibdir.

Hüquqi tərbiyədə bu və ya digər qrupun maraqlarının dərk edilməsi, onun nüfuz və şərəfinin qorunub saxlanılması çox mühüm rol oynayır. Burada əsas məsələ həmin maraqların cəmiyyətin ümumi maraqlarına nə dərəcədə uyğun gəlməsindən ibarətdir. Bu maraqların dərk edilməsi və prinsipial cəhətdən uzlaşdırılması hüquqi normalara uyğun olaraq baş verir. Həmin maraqlar üst-üstə düşmədikdə isə şəxsiyyət, eləcə də qrup cəmiyyətin hüquqi tələblərinin əleyhinə çıxa bilir ki, bu da mütləq onların münasibətlərində toqquşmalara gətirib çıxarır.

Tərbiyə nəzəriyyəsində belə bir fikir hamı tərəfindən qəbul edilmişdir ki, özünütərbiyə yaxşı təşkil olunmuş tərbiyənin nəticəsidir. Onun əsas məzmunu şəxsiyyətin dəyişməyə, özündə arzu olunan xüsusiyyətləri formalaşdırmağa yönəlmiş daxili fəallığın dərk edilməsindən ibarətdir. Hüquqi özünütərbiyə istənilən mənfi xarici təsirə davam gətirmək üçün müəyyən siyasi, hüquqi və əxlaqi prinsiplərin, dəyərlərin, sosial və hüquqi davranış normalarının qavranılmasını, inkişafını və möhkəmləndirilməsini nəzərdə tutur.

Sosiallaşma cəmiyyətin bütün həyat sahələrini, o cümlədən də siyasəti əhatə edir. Siyasi sosiallaşmaya ikitərəfli proses kimi baxılmalıdır. Onun birinci tərəfini fərdə siyasi məlumatın, biliklərin verilməsi, onun mövcud siyasi dəyərlər sisteminə cəlb edilməsi, ictimai münasibətlər sisteminə daxil olmaqla sosial təcrübəni, normaları və rolları qavraması təşkil edir. İkinci tərəf isə sosial-siyasi mühitə daxil olma prosesində fərdin aktiv fəaliyyəti sayəsində onun mövcud ictimai münasibətlər sistemini daha da inkişaf etdirməsini nəzərdə tutur.

Səxsiyyətin siyasi sosiallaşması prosesində sosioloji baxımdan cəmiyyət aşağıdakı məsələləri həll edir: **a)** fərdlərdə onların öz ictimai funksiyalarını yerinə yetirə bilməsi üçün lazım olan bacarıq və xüsusiyyətlərin formalaşdırılması; **b)** fərdin ictimai-siyasi özünügerçəkləşdirmə sisteminə daxil edilməsi; **c)** sosial-siyasi münasibətlər sistemində fərdlər tərəfindən müvafiq sosial rolların yerinə yetirilməsi; **ç)** mövcud ictimai münasibətlərin və birinci növbədə siyasi münasibətlərin inkişaf etdirilməsi və zənginləşdirilməsi.

Siyasi sahədə sosiallaşma şəxsiyyətin təşəkkülü və inkişafına böyük təsir göstərir. O, insanın siyasi münasibətlər və siyasi fəaliyyət subyekti kimi təşəkkülü prosesinin bütün tərəflərini əhatə edir. Onun son nəticəsi şəxsiyyətin sosial-siyasi fəallığı ilə onun yaradıcılığının sintezini ifadə edən yüksək siyasi mədəniyyətin formalaşmasıdır.

Beləliklə, sosiallaşma prosesi insanın məqsədyönlü fəaliyyətindən, sosial praktikanın və insanların ünsiyyətinin xarakterindən, onun tutumunun və məzmununun şüurlu şəkildə dəyişdirilməsi imkanlarından, habelə tərbiyəsinin təşkilindən asılıdır.

## 3. **Şəxsiyyətin hüquqi davranışı**

Hüquqi davranış fərdi və kollektiv subyektlərin şüurlu nəzarətində olan, hüquq normaları ilə nəzərdə tutulan və hüquqi nəticələrə səbəb olan, sosial cəhətdən əhəmiyyətli davranışdır. O, vətəndaşların məişətdə, işdə, şəxsiyyətlərarası münasibətlərdə təzahür edən

əsas davranış növünü təşkil edir. Hüquqi davranışın əlamətləri bunlardır: o, qanunvericilikdə müəyyən edilmiş normalar çərçivəsində həyata keçirilir; sosial cəhətdən faydalıdır, ictimai maraq və məqsədlərə zidd deyildir (bu onun obyektiv məzmununu ifadə edir), dərk edilmiş xarakter daşıyır (bu onun subyektiv tərəfini ifadə edir).

Sosial əhəmiyyət dərəcəsinə görə hüquqi davranışı aşağıdakı növlərə ayırmaq olar:

1) zəruri olan (orduda xidmət);
2) arzu olunan (elmi və bədii yaradıcılıq);
3) yol verilən (dini ayinlərin və ibadətlərin yerinə yetirilməsi).

Hüquqi davranışın ən geniş yayılmış təsnifatına görə, o, aşağıdakıları əhatə edir:

**1)Sosial - fəal davranış.** Bu, hüquqi davranışın ən ali formasıdır, hüquqi düşüncə və hüquqi mədəniyyətin, məsuliyyətin və könüllülüyün yüksək səviyyəsi ilə ifadə olunur. Burada subyekt cəzadan qorxduğuna görə və ya mükafatlandırma xatirinə deyil, cəmiyyətdə hüquqi davranışın zəruriliyinə və məqsədəuyğunluğuna əmin olduğuna görə hərəkət edir. Bu növ davranış ən yüksək sosial əhəmiyyətə malikdir, çünki yalnız şəxsi marağın yox, eləcə də ictimai marağın gerçəkləşməsi, həyatda hüquq, qanunçuluq, qayda prinsiplərinin real təsdiq edilməsi üçün mübarizə ilə bağlıdır.

2)**Konformist itaətkar davranış.** Bu, hüquqi göstərişlərə, onları dərin və hərtərəfli dərk etmədən, yüksək hüquqi fəallıq göstərmədən tabe olmağa əsaslanan əməldir);

3)**Marginal davranış.** Bu, hüquqi göstərişlərə uyğun olan, lakin dövlət tərəfindən məcburetmə nəticəsində, cəzadan çəkinməyə görə icra edilən əməldir.

Bir qayda olaraq, marginal davranış cəmiyyətdə öz arzularına uyğun yer tapmamış insanlara məxsusdur (taleyin ağırlığı, əlillik, əvvəlki məhkumluq, həddən artıq ambisiyalar, iddialar üzündən); onlar gerçəkliyi hamının qəbul etdiyindən fərqli şəkildə qavrayırlar.

Vətəndaşın davranışı hüquqi və sosioloji nöqteyi-nəzərdən bir çox amillərdən asılıdır: insanın yaşından, onun sosial vəziyyətindən, maraqlar dairəsindən, obyektiv imkanlarından, həyat tərzindən və s. Bəzi tədqiqatçıların qeyd etdiyi kimi, müxtəlif yaş səviyyəsinə malik vətəndaşların hüquqi davranışı ona görə fərqlənir ki, onların sosial funksiyaları üst-üstə düşmür. Belə ki, əhalinin böyük hissəsinin əmək fəaliyyəti 16-19 yaşından başlanır və pensiya yaşına qədər davam edir.

Hüquqi davranışın müxtəlif motivlərinin bütün spektrini bir cədvəl kimi təsvir etsək, orada yalnız iki - ictimai və şəxsi - motivlər qrupu yox, həm də bir çox keçid, qarışıq formalar da öz yerini tapacaqdır.

**Davranışın ictimai və şəxsi motivləri:** əməlin ictimai faydalılığına əminlik; cəmiyyət qarşısında borc, hüquqi vəzifə; peşə məsuliyyəti hissi; əməlin başqaları üçün praktik faydası; hüquqi və ya əxlaqi məsuliyyətdən qorxu hissi; əməl-dən əldə edilən şəxsi fayda; xudbin maraqlar; hüquqi vasitələrlə həyata keçirilən mənfi motivlər və s.

Sosioloji tədqiqatlar göstərir ki, sosial-hüquqi fəallıq müxtəlif yaş və peşələrə malik olan bir çox vətəndaşlar üçün səciyyəvidir və o, təhsil və iş təcrübəsinin artması ilə nəzərə-çarpacaq dərəcədə artır.

Hüquqi davranış subyektlərinin ən çoxsaylı qrupunu gənclər və orta yaşlı insanlar təşkil edir. Hüquqa zidd davranış sahəsində də oxşar hal müşahidə olunur. Hədd-buluğa çatmamışlar arasında da cinayət əməlləri ciddi düşündürücü faktdır. Kriminoloji tədqiqatlar göstərir ki, bütün cinayətlərin orta hesabla 10%-ə qədəri həddi-buluğa çatmamışlar (14 yaşından 17 yaşına qədər) tərəfindən törədilir.

Hüquq pozuntularının səbəblərinə sosioloji yanaşma daha konkret səviyyədə sosial qanunlardan kənaraçıxma hallarının öyrənilməsini nəzərdə tutur. Burada müxtəlif sosial, peşə, yaş qruplarının həyat tərzlərinin öyrənilməsi vacibdir. Sosioloji və kriminoloji tədqiqatlar göstərir ki, insanın həyat tərzindəki əyintilər onun davranışına mənfi təsir göstərə və münaqişələrin mənbəyi ola bilir; cəmiyyət üçün bütövlükdə səciyyəvi olan əxlaqi dəyərlərdən kənaraçıxma hallarına gətirib çıxarır və sosial nəzarəti zəiflədə bilir ki, bu da cəmiyyətəzidd əməllərin törədilməsini asanlaşdırır və subyektin maraqlarına cavab verən qanuni imkanların gerçəkləşdirilməsini çətinləşdirir. Bütövlükdə, bu cür hadisələr şəxsiyyətin hüquqi davranışına mənfi təsir göstərdiyi üçün onlara qarşı mübarizə istiqamətində müvafiq profilaktik işin aparılması vacibdir.

## 4. Qanunvericik sosiologiyasının bəzi cəhətləri

Azərbaycan Respublikasının Konstitusiyasına qanun-vericilik təşəbbüsü hüququna malik olan şəxslərin və orqanların dairəsi müəyyən edilmişdir. Konstitusiyanın 96-cı maddəsinin 1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Milli Məclisində qanunvericilik təşəbbüsü hüququ (qanun layihələrini və başqa məsələləri Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə təqdim etmək* hüququ) Azərbaycan Respublikası Milli Məclisinin deputatlarına, Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Azərbaycan Respublikası Prokurorluğuna

və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məxsusdur. Beləliklə, Konstitusiya ilə qanunvericilik təşəbbüsü hüququna malik 129 subyekt müəyyən edilmişdir. Müqayisə üçün qeyd etmək olar ki, ABŞ-da belə hüquqa Konqresin üzvləri, Almaniya Federativ Respublikasında federal hökumət, Bundesrat, Bundestaqın fraksiyaları və ya onun deputat korpusunun ümumi sayının 5 faizindən az olmamaqla deputat qrupu malikdir.

Qanunyaratma prosesinin intensivliyi müxtəlif ölkələrdə fərqli xüsusiyyətlərə malikdir. 12 noyabr 1995-ci il tarixdən 2006-cı il yanvarın 1-dək olan müddət ərzində Azərbaycan Respublikası Milli Məclisi tərəfindən 2040 qanun, qərar və digər normativ hüquqi akt qəbul edilmişdir. Yalnız 2002-ci ilin payız (30 sentyabr - 30 dekabr), yaz (1 mart - 31 may) və növbədənkənar (1 iyun - 27 iyul) sessiyalarında Azərbaycan Respublikası Milli Məclisinin 56 iclası keçirilmiş, burada 114 qanun, 17 qərar qəbul edilmişdir. Bu dövrdə parlamentdə 30 beynəlxalq müqavilə və konvensiya təsdiq edilmişdir. Müqayisə üçün qeyd edək ki, ABŞ-da il ərzində orta hesabla 5000, Rusiya Federasiyasında 1000-ə yaxın, AFR-də isə 160 qanun layihəsi müzakirəyə çıxarılır. Bununla əlaqədar qeyd etmək yerinə düşər ki, ABŞ-da qanunvericilik bazası iki əsrdən artıq müddət ərzində formalaşmışdır. Burada hər bir ştat artıq mükəmməl hüquq sisteminə malikdir. AFR-in, RF-in, habelə Azərbaycan Respublikasının hüquq sistemi isə nisbətən gəncdir.

Araşdırmalar göstərir ki, qanunyaratma fəaliyyətinin ağırlıq mərkəzi hökumətin üzərinə düşür. Məsələn, AFR-də qanunvericilik təşəbbüsü hüququna malik olan subyektlərin fəallıq dərəcəsi aşağıdakı kimidir: qanun layihələrinin ümumi sayının təqribən 60%-i hökumətin, 34%-i Bundestaq deputatlarının, 6%-i isə

*( Qanun layihəsini hər bir vətəndaş hazırlaya bilər, lakin onu rəsmi olaraq parlamentə təqdim etmək hüququna ancaq qanunvericilik təşəbbüsü hüququnun subyekti malikdir.)

Bundesratın payına düşür. Qanun layihələrinin çoxsaylı olması baxımından onların müzakirəsinin və qəbulunun ləngiməsini (layihələrin parlamentin bir sessiyasından növbəti sessiyalara keçirilməsi) də qeyd etməmək mümkün deyildir. Bəzi qanunların qəbuluna olan kəskin tələbat bir sıra hallarda vaxtın və maddi vəsaitlərin çatışmazlığı ilə müşayiət olunur. Bu isə bəzən onların keyfiyyətinin aşağı düşməsinə, artıq qəbul olunmuş hüquqi aktlara onların qəbulundan dərhal sonra əlavələr və ya dəyişikliklər edilməsi zərurətinə gətirib çıxarır.

Qanunyaratma fəaliyyətinin sürətinə iki amil mühüm təsir göstərir. Təəssüf ki, həmin amillər hələ də sosioloqların diqqətindən kənarda qalmışdır. Birinci siyasi amildir. Bu, müasir dövlətlərdə cəmiyyətin siyasi qüvvələri arasındakı ziddiyyətlərlə, onların mübarizəsi ilə əlaqədardır. İkinci amil xüsusən də federativ dövlətlərdə federal münasibətlərin təşəkkülü ilə bağlıdır. Federativ dövlətlərdə federasiya subyektlərinin mənafeləri bir çox hallarda üst-üstə düşmür. Bu, qanunvericilik prosesində də əks olunur. Bəzən parlamentin aşağı palatasının, xüsusilə də federal münasibətlərə aid qəbul etdiyi qanunlar onun yuxarı palatasında ləngidilir. Yuxarı palata bəzən müzakirəsinə verilən qanunlara baxmaqdan imtina edir. Göstərilən proseslərin obyektiv səciyyə daşımasına baxmayaraq, onların əksər hissəsi iradi yolla aradan qaldırıla bilməz və ümumiyyətlə, qaldırılmamalıdır. Belə hallarda başqa mövqedən yanaşma tələb olunur. Bu baxımdan mükəmməl hazırlıqlı sosioloji xidmət əhəmiyyətli rol oynaya bilər.

Məsələni xeyli geniş planda da qoymaq olar. Bunu Azərbaycan Respublikasının yaxın qonşusu RF-in qanunvericilik təcrübəsi ilə müqayisədə aydın görmək olar. Məsələn, hüquq fəlsəfəsi və qanunvericilik texnikası sahəsində tanınmış mütəxəssis, Rusiya Elmlər Akademiyasının müxbir üzvü C. A. Kərimov haqlı olaraq qeyd edirdi ki, bir çox rusiyalı qanunvericilər ən azı qanunyaratmanın həyata keçirilməsi ilə əlaqədar öz peşəkar hazırlıqlarını yüksəltməməkdən narahatdırlar. Onlar qanunlarda gerçəkliyin dəqiq əksini və onun yüksələn inkişafını axtarıb tapmaqdan daha çox siyasi mübahisə və araşdırmalarla məşğuldurlar.

Bəzi tədqiqatçıların qanunyaratma prosesində parlament üzvlərinin və parlament aparatının rolunun mütləqləşdirilməsinə dair nöqteyi-nəzərləri zənnimizcə, inandırıcı deyildir. Tam əminliklə demək olar ki, qanunyaratma prosesində parlament üzvlərinin rolu böyükdür. Lakin qanunverici bu və ya digər qanun layihəsinin zəruriliyini, onun qəbulunun məqsədəuyğunluğunu, bu aktın siyasi, iqtisadi və sair nəticələrini düzgün qiymətləndirməyə borcludur.

Hüquqi cəhətdən mükəmməl olan, ictimai münasibətlərin bu və ya digər sahəsinin hüquqi tənzimlənməsinin ictimai tələbatlarına cavab verən, hüquqi tənzimetmənin realizə olunması mexanizmini özündə ehtiva edən qanun layihəsinin işlənib hazırlanması üçün müvafiq şərtlərin, eləcə də üsul və vasitələrin yaradılması son dərəcə zəruridir. Bunu həm də cəmiyyətin intensiv inkişafı, artan tələbatların təmin olunması zərurəti tələb edir. Belə şərtlər, üsul və vasitələr içərisində elminəzəri təminat başlıca yer tutur. Ancaq ixtisaslaşmış mütəxəssislər qüvvədə olan qanunvericiliyin müqayisəli tədqiqatlarını aparmaq və qəbulu planlaşdırılan hüquqi aktların zəruriliyini və məqsədəuyğunluğunu müəyyən etmək iqtidarında ola bilər. Qanun layihələri ilə əlaqədar informasiyaları formalaşdırmağı, bunun elmi konsepsiyasını işləyib hazırlamağı, zəruri ekspertizalar aparmağı, millət vəkilləri ilə elmi məsləhətləri həyata keçirməyi yalnız yüksək ixtisaslı və peşəkar mütəxəssislər bacarar. Xüsusilə də elmi konsepsiyanın müəyyənləşdirilməsi

mərhələsində qanun layihələrinin işlənib hazırlanmasına nəinki hüquq sahəsinin tədqiqatçılarını, həm də hüququ tənzimetmə predmetinə bilavasitə aid olan sahələrin alimlərini cəlb etmək zəruridir.

Aparıcı elmi kollektivlər, elmi təşkilatlar və onların yüksək ixtisaslı nümayəndələri, hüquq elmləri ilə yanaşı digər humanitar elmlər sahəsində tanınmış nəzəriyyəçilər, praktik işçilər dövlət quruculuğu strategiyasının və ictimai inkişaf perspektivlərinin işlənib hazırlanmasında bilavasitə iştirak etməlidirlər. Bununla əlaqədar Azərbaycan Respublikasında qanunvericilik və hüquqşünaslıq fəaliyyətini özündə birləşdirən müvafiq strukturun yaradılması məqsədəuyğundur.

Azərbaycan Respublikası qanunvericiliyinin hər bir sahəsində ciddi ziddiyyətlərin aradan qaldırılması, mövcud boşluqların yerinin vaxtında doldurulması qanunyaratma fəaliyyətinin səciyyəvi əlamətlərindən biridir. Söhbətin qanun layihələrinin hazırlanması, müzakirəsi və qəbulu haqqında getdiyi bir zamanda bunun nə dərəcədə ciddi məsələ olduğu özünü daha çox büruzə verir. Qeyd etmək lazımdır ki, qanunyaratma prosesində hüququn realizəolunma mexanizminin zəifliyi yolverilməzdir. Bu, hər cür sui-istifadələr üçün real imkanlar yaradır. Hüquqi realizə mexanizminin zəifliyi qanunların işləkliyini çətinləşdirir.

Qanunvericilik sosiologiyası cəmiyyət haqqında di-gər elmlərlə yanaşı qanunvericinin həlli tələb olunan problemli situasiyaların mahiyyətini dərk etmək imkanını genişləndirir. Bunun üçün aşağıdakıların yerinə yetirilməsi zəruridir: 1) cəmiyyətin real vəziyyətini, onun qarşısında duran təxirəsalınmaz və perspektivli problemlərin, bunların səbəblərinin və həmin səbəbləri doğuran amillərin mükəmməl surətdə tədqiq edilməsi; 2) hüquqi tənzimetmə predmetinin və bu tənzimetmənin üsullarının dəqiq şəkildə müəyyənləşdirilməsi. Bununla əlaqədar olaraq ölkənin hüquq sisteminin nizamlılığına nail olmaq üçün onun maksimum dərəcədə tam, ziddiyyətsiz, anlaşıqlı və dövlətin vətəndaşları tərəfindən başa düşülməli olmasına səy göstərilməsi zəruridir. Qanunların qanunqüvvəli aktlarla əvəz edilməsi təcrübəsinə qətiyyətlə son qoyulmalıdır. Çünki bu, bir çox hallarda

tətbiq edilməli olan qanunların qüvvəsini heçə endirir. Hüquq sistemi isə birbaşa qüvvəsi olan qanunlara arxalanmalıdır.

Kimin və hansı dərəcədə hüquqi tənzimetmənin subyekti olması haqqında məsələ də özünün elmi cəhətdən əsaslandırılmasını tələb edir. Qanunvericilik problemi situasiyanı tədqiq edərkən onun qanunvericilik həllinə olan tələbatı, müvafiq hüquqi aktın qəbulunun və ya qəbul olunmamasının dövlətin vətəndaşları üçün nəticələri müəyyən edilməlidir.

Əlbəttə, real həyat müəyyən hallarda meydana çıxmış problemlərin qanunvericiliklə tənzimlənməsində qanunvericidən yüksək operativlik tələb edir. Lakin bu, heç də o demək deyildir ki, qanunyaratma prosesi özbaşına və ancaq təbii axarı ilə gedən bir prosesdir. Bu proses planlaşdırılır və məhz belə bir şəraitdə qanun layihələrinin hazırlanması zamanı qanunvericilik təşəbbüsü hüququnun bütün subyektlərinin qarşılıqlı razılaşması təmin olunur. Dünya təcrübəsində qanunyaratma prosesinin hüquqi tənzimlənməsinə aid xeyli nümunələr mövcuddur. Məsələn, Yaponiyada 1898-ci ildən «Qanunlar haqqında ümumi əsasnamə» fəaliyyət göstərir. Almaniyada federal hökumətin 21 oktyabr 1949-cu il tarixli - «Normativ - hüquqi aktların qüvvədə olan hüquqa uyğunluğu haqqında» qanunvericilik aktı qüvvədədir və s.

Qanunyaratma fəaliyyətində əlaqələndirmə mühüm əhəmiyyət kəsb edən amillərdən biridir. Bu əlaqələndirmə nəyə nail olmağa imkan verir? Birincisi, qanunvericilik təşəbbüsünün axın prosesini tənzimləyir. İkincisi, hüquqi tənzimləyicilərin yaradılmasını və təzələnməsini tələb edən ictimai münasibətlər sferasının üstünlüyünü müəyyən edir. Üçüncüsü, qanunyaratma prosesində hakimiyyətin bütün budaqlarının qarşılıqlı münasibətlərini tənzimləyir. Dördüncüsü, milli parlamentin faydalı ənənələrinin bünövrəsini qoyur.

Qanunvericiliyin dövlət səviyyəsində inkişaf etdirilməsi strategiyasında aşağıdakı iki əsas istiqaməti fərqləndirmək olar:

Birincisi, əsas qanunların yaxın və uzaq perspektivlərinin, dövlətin və onun vətəndaşlarının, cəmiyyətin iqtisadi, siyasi, sosial və mənəvi inkişaf sferasındakı tələbatları əsasında bu qanunların qəbulu ardıcıllığının müəyyən edilməsi. Burada əsas qanunlar qismində adətən Konstitusiya qanunları, habelə qəbul edilmələri birbaşa Konstitusiyada nəzərdə tutulan qanunlar çıxış edir.

İkincisi, hüququn hər bir sahəsinin inkişaf perspektivlərinin müəyyənləşdirilməsi. Burada da əvvəlcə əsas qanunlar qismində müvafiq hüquq sahəsi ilə tənzim edilən, ictimai münasibətlərin mənasını və məzmununu müəyyən edən əsas qanunlar fərqləndirilir. Bu qanunlar birinci növbədə qəbul edilməlidir. Sonra isə sahəvi əsas qanunlar əsasında müvafiq qanunlar hazırlanmalı və qəbul edilməlidir.

Qanunların qəbul edilməsi hələ dövlətin hüquq sisteminin yaradılması sahəsində bütün problemlərin həlli demək deyildir. Bundan əlavə, hüququn hər bir

sahəsində və ayrı-ayrı hüquq institutlarında boşluqların aradan qaldırılması, əsas sahəvi və sahədaxili qanunların qəbulu ilə əlaqədar cari qanunvericilikdə dəyişikliklər və ona əlavələr edilməsi üzrə qanunvericinin böyük işi tələb olunur. Qanunvericilik eksperimentinin aparılmasında qanunvericilik sosiologiyasının mövcud imkanlarından istifadə edilə bilər. Qanunvericilik eksperimenti aparılarkən nəzarətedici eksperimental amil qismində müəyyən zaman ərzində eksperiment zonasında qüvvədə olan hüquq norması çıxış edir. Adətən federativ idarəçilik formasına malik olan dövlətlərin ayrı-ayrı subyektlərində hüquqi aktların tətbiqini belə eksperimentə nümunə göstərmək olar. Lakin belə hüquqi aktların federasiyanın subyektlərində zamana görə qüvvə hədləri müvafiq federal qanunların qəbulu ilə müəyyən olunur. Belə hüquqi aktlar federasiyanın subyektlərində Konstitusiyanın ayrı-ayrı müddəalarının realizə olunmasına xidmət edir. Müəyyən sahənin tənzimi ilə əlaqədar qəbul edilmiş qanuna xidmət edən qanunvericilik eksperimenti sosioloqlar üçün geniş fəaliyyət sahəsidir. Belə fəaliyyət prosesində həmin qanunun səmərəliliyini, əhalinin ona olan münasibətini və onun realizə olunmasına nəzarət mexanizmini aydınlaşdırmaq zəruridir